

*Roman*

Viktoriya Qranetska

# XOŞBƏXT

**Viktoriya Qranetska**

# XOŞBƏXT

roman

(Real hadisələr əsasında)

**NURLAR**
BAKI–2021

Naşir:
**Hacı İsmayıl**

Redaktoru və ön sözün müəllifi:
**Vaqif Sultanlı**

Ukrayna dilindən çevirəni:
**Qumru Şəhriyar**

**Viktoriya Qranetska.**
**Xoşbəxt** (roman). Bakı: «Nurlar» nəşriyyatı, 2021, 272 s.

Romanın süjet hörüyü ukraynalı pravoslav qız və Azərbaycanın Dağlıq Qarabağ bölgəsindən olan türk-müsəlman oğlanın sevgi münasibətləri ilə bağlı real, gerçək olaylar üzərində qurulmuşdur. Bu, müəllifin Azərbaycan oxucularına təqdim olunan ilk əsəridir.

ISBN: 978-9952-528-91-6

© Viktoriya Granetska, 2021
© «Nurlar» nəşriyyatı, 2021

## SEVGİ – XOŞBƏXTLİYİN AÇARI

Azərbaycan-Ukrayna ədəbi-mədəni əlaqələri tarixi köklərə malik olsa da, son dönəmlərdə ədəbiyyatların qarşılıqlı şəkildə tanıdılması yönündə atılan addımlar o qədər də səmərəli görünmür. Məhz bu səbəbdən Azərbaycan oxucuları Ukrayna klassiklərinin əsərlərinə bələd olduğu halda, çağdaş ədəbiyyatın yaradıcıları haqqında yetərli bilgilərə malik deyildir.

Müasir Ukrayna ədəbiyyatı sovet siyasi rejiminin çöküşü ilə ənənəvi sosialist realizmi yaradıcılıq yöntəminin iflası fonunda yeni bədii-estetik çalarlar qazanmışdır. Son dönəmlərdə yaranan bir çox əsərlər ironik mahiyyəti, ədəbi faktların yenidən dəyərləndirilməsi, tarixi mövzulara qayıdış, sovet dönəmində yasaq olunmuş mövzulara müraciətin çevikliyi ilə səciyyələnir. Dünya ədəbiyyatının yeni təfəkkür işığında çözümü, repressiya illərinin ədəbiyyatına, həmçinin mühacirətin ədəbi-kulturoloji irsinə dönüş kontekstində çağdaş nəslin yaradıcılıq axtarışlarında üslub və tematik əlvanlıq xeyli genişlənmişdir.

Ədəbi nəsillər arasında əlaqələrin ideoloji yöndən zədələnməsi xronoloji bağlamda təkamül xəttinin ənənəviliyini aradan qaldırsa da, keyfiyyətcə fərqli ədəbiyyatın yaranmasına imkanlar yaratmışdır. Məhz bunun sonucu olaraq çağdaş Ukrayna bədii nəsri Yuri Andruxoviç, Oksana Zabujko, İqor Pavlyuk, Sergey Jadan, Taras Proxasko, Yuri İzdrık, Yuri Vinniçuk, Oles Ulyanenko, Stepan Protsyuk, Natalya Snyadanko, Yevgeniya Kononenko, İrena Karpa, Lyubko Dereş və başqaları kimi tanınmış sənətkarların timsalında ölkənin hüdudları dışında populyarlıq qazana bilmişdir.

Adı çəkilən yazıçılarla yanaşı, gənc bir imzanın – Viktoriya Qranetskanın bədii nəsri özünəxas yazı tərzi, forma-üslub çaları ilə seçilir. Təəssüf ki, yuxarıda bəhs olunan tanınmış imzalarla yanaşı, Viktoriya Qranetskanın adı da Azərbaycan oxucularına tanış deyildir.

Çağdaş Ukrayna ədəbi mühitində kifayət qədər tanınan Viktoriya Qranetskanın özkeçmişi Sovetlər Birliyinin dağıldığı, bağımsız Ukrayna dövlətinin yaradıldığı dönəmin mürəkkəb, gərgin siyasi çalxantıları ilə müşayiət olunur. 1981-ci ildə Vinnitsa bölgəsinin Kozyatin rayonunun Yurivka kəndində polyak və ukraynalı bir ailədə doğulmuş gələcək yazar erkən yaşlarından şeirlər, nağıllar və hekayələrlə yardıcılığa başlamış, ilk qələm təcrübələri yerli mətbuatda yayınlanmışdır.

Vinnitsa Dövlət Pedaqoji Universitetini psixoloq ixtisası ilə bitirdikdən sonra müxtəlif işlərdə çalışmış, o cümlədən Amerikadakı rusdilli mühacirlər üçün yayınlanan mətbuatda redaktor kimi fəaliyyət göstərmişdir. Yazıçı 2010-cu ildən Vinnitsada yaşayır və bədii nəsr yaradıcılığı ilə davamlı şəkildə məşğul olur. Çağdaş Ukrayna ədəbiyyatını təbliğ etmək üçün 2018-ci ildə Dom Ximer adlı yayın evini qurmuşdur.

Bədii nəsrin müxtəlif janrlarında yazılmış bir çox dəyərli örnəklərin müəllifi kimi tanınan Viktoriya Qranetskanın yayınlanmış "Xoşbəxt" adlı üçüncü romanı (2015) yalnız məzmunca deyil, forma-kompozisiya özəllikləri ilə də ilk yazılarından xeyli dərəcədə seçilir. Əsər "Böyük romanlar" nominasiyasında "Sözün taclandırılması" özəl mükafatına layiq görülmüş və Kiyevin "Nora-Druk" nəşriyyatı tərəfindən yayınlanmışdır. Romanın Ukraynanın müxtəlif şəhərlərində, o cümlədən Kiyevdəki İslam Mədəniyyət Mərkəzində, həmçinin müsəlman icması arasında təqdimatı keçirilmişdir.

Ədəbi tənqidin müəllifin yaradıcılığında yeni aşama kimi dəyərləndirdiyi bu əsər eyni tarixdə qələmə alınmış məşhur fransız yazıçısı Mişel Uelbekin "İtaət" və fransızdilli Əlcəzair nasiri Bualem Sansalın "2084: dünyanın sonu" romanları ilə müqayisə edilmişdir.

Yazıçının etirafına görə, roman "çağdaş Ukrayna ədəbiyyatında prinsipial olaraq yeni nəsr örnəyi, başqa yazılardan fərqlənəcək, gərgin, mürəkkəb və hər zamankından daha aktual görünən Ukrayna müsəlmanlarının sorunları mövzusunda bir əsər yaratmaq" istəyinin bəhrəsidir.

Qeyd edək ki, "Xoşbəxt" romanının süjet xətti Azərbaycanla bağlı məqamları ilə səciyyəvidir və müəllifin belə bir mövzuya müraciəti təsadüfi deyildir. Belə ki, əsərdə hadisələr ukraynalı pravoslav qız (Olesya) və Azərbaycanın Dağlıq Qarabağ bölgəsindən olan, köçkünlük səbəbindən ailəliklə Vinnitsaya sığınan türk-müsəlman oğlanın (Yusif) sevgi münasibətləri ilə bağlı real, gerçək olaylara söykənən süjet hörüyü üzərində qurulmuşdur. Romanda təsvir olunan hadisələrin dramatizmini ukraynalı qızın sevgisi naminə dinini dəyişərək islamı qəbul etməsi gücləndirir. Onların evliliyindən doğulan oğlana qoyulan Səid adı ukraynacaya tərcümədə "xoşbəxt" mənasını verir – romanın adı da burdan qaynaqlanır. Lakin uşaq sağalmaz xəstə kimi doğulur və onun sağlamlığı uğrunda mücadilə süjetdə əhəmiyyətli yer tutur. Əsərin qəhrəmanları qarşılaşdıqları anlaşılmazlığa və yaşadıqları çevrənin ciddi müqavimətlərinə baxmayaraq bütün çətinliklərin dəf etməyi bacarır və roman xoşbəxt sonluqla bitir.

Bədii mətnin semantik strukturunu oluşduran bu sevgi xətti təsvir olunan digər hadisə və əhvalatları, eləcə də süjetə bağlı bütün detal və cizgiləri kölgədə qoyur, fabulanın inkişafının əsasında dayanır. Həmçinin yazıçının həyat yolunun çeşidli məqamlarının bədii mətnə yansıması yazının ömür mətninə çevrilməsini şərtləndirir.

Romanda sevgi həyatın, varoluşun əsasında dayanan ilahi duyğu, xoşbəxtliyin açarı anlamında dərk olunur. Təbiətcə yenilməz olan insanın sevgiyə yenik düşməsi məğlub, təslim aktı deyil, özünə dönüş, yaşamaq, xoşbəxt olmaq, tükənməz məişət qayğılarının cılızlaşdırdığı dünyadan qədərincə zövq və həzz almaq cəhdi kimi mənalanır.

"Xoşbəxt" romanı sevgi mövzusunda yazılsa da, eyni zamanda Tanrı, ümumən din və özəlliklə islam dışı toplumlarındakı islamı qavrayış, Ukrayna müsəlmanları haqqında yanlış stereotiplərin dağıdılması kimi qlobal, dartışılması asan olmayan məsələlərdən bəhs edir.

Bəlli olduğu kimi, istər dünya, istərsə də Azərbaycan ədəbiyyatında fərqli dinlərin, inancların yaratdığı maneələri aşaraq bi-ri-birinə qovuşan, vüsalla (bəzən də faciəyə aparan vüsalla) bitən sevgilər barədə xeyli əsər yazılmışdır. Yaranan hər bir mükəmməl

mətndə sevginin tanrısallığı önə sürülmüş, toplumların qutsallaşdırdığı dəyərlərin və insanlığa xas bütün digər yanaşım və münasibətlərin ondan sonra gəldiyi qənaətinə tapınılmışdır. “Xoşbəxt” romanında isə mövzunun fərqli çalarlarına baş vurulması, burada qaldırılan problemin təməlində dini inanclardan qaynaqlanan yasaqlardan çox, mənəvi-əxlaqi fərqliliklərin sevgiyə – xoşbəxtliyə aparan ortaq məqamlarının qabardılması diqqəti çəkir.

Yazıçı öz qəhrəmanlarını sadəcə təsvir etməklə kifayətlənmir, onları sosial və mənəvi-əxlaqi qarşıdurmaların kəsişməsində canlandırır, içəri dünyasının qaranlıqlarından keçirərək işığa, aydınlığa səsləyir. Öz qəhrəmanlarına belə bir baxış bucağından yanaşması əsərin gizli, görünməz laylarının aşkarlanmasını, ideya-estetik mahiyyətin yazıçı təhkiyəsindən deyil, hadisələrin dramatizmindən doğuşunu şərtləndirir.

Mahiyyətcə bəsitliyə, mənasızlığa, həyatın adiliklərinə qarşı yönəlmiş romanda müsəlmanlığa və Şərq-islam dünyasına dərin sevgi ifadə olunmaqdadır. Bu sevgi görüntü, yapma çağırış mənası daşımadığı, real hadisələrdən doğduğu, gerçək prototipləri olduğu üçün inandırıcı səslənir və oxucunu düşüncələrə çəkir, həmçinin maarifçi məfkurəyə söykəndiyindən mətnin sosial-didaktik yükünü artırır. Dinlərarası sərhədlərin söküləcəyi düşüncəsi ilə qələmə alınmış romanda yazıçının dedikləri və demək istədikləri dini dəyərlərə münasibətdə hər zaman aşırı həssaslıq sərgiləyən oxucunun qəbul edəcəklərindən daha cəsarətli görünür. Başqa sözlə, romanda Şərq-islam dünyasının sayrışan həqiqətlərinin çözümünə, dəyərləndirilməsinə, gerçək üzüylə təqdim edilməsinə çalışılır və bu xətt fəlsəfi zolaq kimi mətnin içərisindən keçir. Eyni zamanda, yazıçı dolayısı ilə dünyada mövcud olan dinlər içərisində yalnız islamın müzakirə obyektinə çevrilməsinin doğru olmadığını vurğulayır.Əsərdə islamın təqdimində müəyyən mistik məqamlar yer alsa da, bütövlükdə mətnin alt qatında fəlsəfi mahiyyətin qabarıqlığı duyulur.

Romanın süjetində dayanan hadisələr yaxın tarixdə baş vermiş sosial-siyasi proseslər fonunda yer almaqdadır. Müəllif dövrün ye-

tişdirdiyi bu qəhrəmanları bağlı olduğu mühitin içərisində canlandırdığından, uydurmalara, xəyallar qurmağa ehtiyac qalmır. Süjeti izlədikcə oxucu bir zamanlar özünün də iştirakçısı olduğu hadisələri yazıçının təqdimi və çözümündə yenidən izləmək imkanı qazanır.

Romanda Ukrayna və Azərbaycanın bağımsızlıqlarını əldə etdikdən sonra qarşılaşdıqları çətinliklər, Rusiyanın işğalçılıq siyasətini bənzər senarilərlə davam etdirməsi, ərazi itkisi, etnik münaqişə, iqtisadi sorunlar, hər iki xalqın yaşadığı qanlı faciələr, qaçqınlıq, köçkünlük və mühacirətin ağrıları müqayisəli formada təqdim olunur. Bu təsvirlərdə kədərli motivlər duyulsa da, qələbəyə yüksək inam ifadə edilir.

Viktoriya Qranetskanın nəsr poetikasında müəllif təhkiyəsi ilə etiraf və anımların ustalıqla əlaqələndirilməsi roman janrı üçün yeni olmasa da, mətnin biri-birinin içindən doğuşunu şərtləndirən amil rolunu oynayır. Süjet boyu əvəzlənən bu keçidlər həmçinin formanın yeknəsəkliyini aradan qaldırmaqla yazı tərzinə özünəxas rəng və çalar aşılayır.

"Xoşbəxt" romanında bədii mətnin özəyində gizlənən inersiya təsvir olunan hadisələrin gizli qatlarına işıq salmaqla ideya-estetik çalar və özəlliklərin görümlülüyünü şərtləndirir. Romanın forma bənzərsizliyi, metaforik sistemi də ideyanın bədii qavranışında təkanverici stimul rolunu oynayır. Yazıçının bədii təhkiyə prosesində ənənəvi üsluba söykənməməsi romanın janr çalarlarını zənginləşdirməkdədir.

Əlbəttə, romanın tanıdılmasına yönəlik yığcam ön söz amacı daşıyan bu yazı mətnin bədii məğzini bütün yönlərilə aşkarlamaq məramından uzaqdır və oxucu zövqünə müdaxilə anlamında yozulmamalıdır.

İnanırıq ki, Viktoriya Qranetskanın "Xoşbəxt" romanı geniş oxucu kütlələrinin marağını çəkəcək, ədəbi tənqid tərəfindən dəyərləndiriləcəkdir.

**Vaqif Sultanlı**
Bakı, Azərbaycan

*Məni insana bəxş edilmiş ən mükəmməl*
*duyğu olan analıq hissi ilə bağlı həqiqi*
*həyat hekayəsini yazmağa təhrik edən*
*anam Qranetskaya Lyubov Danilovnaya həsr edilir.*

*P.S. Mən də Səni sevirəm.*

## MÜƏLLİFDƏN

Hörmətli oxucular! Yəqin əbəs yerə demirlər ki, həyat elə hekayələr yaradır ki, özün bilərəkdən onları düşünə bilməzsən. Ona görə ki, həqiqət hər hansı bir fantastik hekayədən daha inanılmazdır. 2011-ci ildə mən belə bir həqiqətlə qarşılaşdım.

Heç kimin ünsiyyət qurmağa məcbur etmədiyi, təsadüfən tanış olduğum bir nəfərlə söhbət etdikcə söz-sözü çəkdi və biz ən yaxın rəfiqələrə çevrildik. Və o mənə öz həyat hekayəsini danışdı. İndi sizin əlinizdə tutduğunuz bu roman Vinnitsa[1] şəhərində baş verən real hadisələrə əsaslanır. O ailədən onların hekayələrini öz əsərimdə istifadə etmək üçün xüsusi icazəm var.

Ona görə də "Xoşbəxt" mənim üçün xüsusi bir kitabdır. İlk dəfə idi ki, mən heç bir şey uydurmurdum, yalnız diktafonu quraşdırıb, onları dinləyib təəccüblənirdim. Sonra isə bəzi adları dəyişir, həqiqəti isə olduğu kimi saxlayaraq bütün səsyazmanı bədii mətnə çevirdim. Mən yalnız vasitəçiyəm.

Bu kitabın müəllifi qəhrəmanları öz istəyi ilə seçən, süjet yaradan və sərhədlərin böldüyü, lakin sevginin birləşdirdiyi iki ölkənin yeni qondarma şəhərində ətrafı real dekorasiyalarla bəzəyən həyatın özüdür.

Bəli, bu roman, hər şeydən əvvəl, məhəbbət hekayəsidir. Ərə, uşağa, öz şəhərinə, Tanrıya və ölkəyə sonsuz məhəbbət... Əgər bu, təxəyyülün məhsulu olsaydı, belə şeyin baş verməsinə mən özüm də inanmazdım. Kilsə xorunda oxuyan ukraynalı qız və Dağlıq Qarabağdan didərgin düşən gənc müsəlman oğlan. Onların bu çağırılmamış sevgidən nəfəsləri kəsilir, bir-biri olmadan yaşamağı bacarmırlar... Ola bilməz? Elə olar ki... Mən özüm bunun şahidi oldum. Sonra arzuolunan evlilik, uşaqlar, ətrafdakılarla ortaq dil tapmağa səy göstərmək, daxili qorxu və şübhələri dəf etmək və... daha bir

[1] Vinnitsa – Ukraynada şəhər (*tərc.*)

uşaq. Gözlənilməyən, amma sevimli. Onu ərəb dilindən Xoşbəxt kimi tərcümə olunan Səid adlandırdılar. O isə ölümcül xəstə olaraq dünyaya gəlmişdi. Sınaq ən möhkəm bağları qırmağı və ya onları əbədi olaraq bağlamağı bacarır.

Bu səhifələrdə gənc ailənin öz uşaqlarının həyatı uğrunda apardığı mübarizənin və yer üzündə yaşamaq haqqının gerçək hekayəsi əks olunub. Demək olar ki, gözlərimin önündə baş verən bu hekayə həyat və yaşamın mahiyyəti haqqında fikirlərimi dəyişdi, məni insan taleyini idarə edən sakral mexanizmləri düşünməyə təşviq etdi. Çaşqınlıq, təəccüb məni dayandırmaq istədi və nəhayət, özümdən soruşdum: bu və digərləri üçün indiki çətin zamanda belə ağır sınaqlardan keçən insanlara mən nə edə bilərəm?

Hiss edirəm ki, onu başqa insanlarla paylaşmaq məcburiyyətindəyəm. İnanıram ki, mümkünsüzü mümkün edən sadə ailənin bu hekayəsi bizi fikirlərimiz və ideallarımız uğrunda mübarizə aparmağa, həyatın ən çətin anlarında təslim olmamağa, yorulmadan irəliyə doğru hərəkət etməyə və qalib gəlməyə daha çox ruhlandıracaq. Və bizim ən böyük qələbəmiz bütöv, dinc və güclü Ukraynadır.

Bir kitab dünyada nəyisə dəyişə bilərmi? Bilmirəm. Əgər bu, heç olmasa, öz kəşfini başqasına söyləyən bir insanın dünyagörüşünü dəyişdirə biləcəksə, mən artıq bunu uğur hesab edəcəyəm. Hər şeydən əvvəl, belə bir bədbəxtliyin heç bir ailənin, heç bir uşağın başına gəlməməsini diləyirəm. Ona görə də ümid edirəm ki, bu həyat hekayəsi növbəti dəfə tibbin aktual problemlərinə və ölkəmizdəki adi vətəndaşların sosial güvənsizliyinə diqqət yönəldəcək. Axı belə hallar tək-tək deyil, hər gün hardasa xəstə uşaq dünyaya gəlir. Heç kim bu dünyaya təsadüfən gəlmir. Hər kəsin yaşamaq hüququ var. Xoşbəxt olmağa haqqı var.

*Hörmətlə,*
*Viktoriya Qranetska*

# BİRİNCİ HİSSƏ

## Doğum haqqında şəhadətnamə

O, bəlanın necə olduğundan xəbərsiz idi.

Onun gözünün rəngi və forması haqqında düşünməmişdi, dodaqları, almacıq sümüyü, burnunun forması, buxağı, yaxud dərisinin rəngi necədir?

Onun qırışlarının, çapığının yaxud başqa gözəçarpan əlamətlərinin olub-olmamasına baxmamışdı, lakin bu gün simasındakı ifadə ona dəqiq məlum idi.

Bu, etinasızlığın ifadəsi idi. O, burada onlarla belə sima gördü. Onlar onu donuq, balaca gözlərlə müşahidə edirdilər və bu gözlərdən qəribə, tükürpədici və rəngsiz xatirələr oxunurdu. Baxmayaraq ki, o, qorxmamağa söz vermişdi, amma qəflətən ona vahimə gəldi.

Məşhur tibb professorunun müşavirəsi. Burada təsadüfi insan yoxdur. Hamısı tanınmış, hörmətli, öz işlərinin mahir ustası idilər. Səhifələri sürətlə çevirir, alçaq səslə bir-biri ilə danışırdılar. O, onlar üçün maraqlı deyildi, ona hətta oturmaq üçün yer də göstərməmişdilər. Yad, anlaşılmayan və vaxtsız gələn çağırılmamış qonaq onların qarşısında dərsini öyrənməyən uşaq kimi dayanmışdı. Və o, onlara adi insanlar, insan taleyini həll edən səma ilahlarına baxan kimi baxırdı. Nəhayət, tibb kitabçası bağlandı və etinasızlıqla stolun bir küncünə atıldı. Qərar, demək olar ki, yekdilliklə qəbul olunmuşdu. Səma ilahları qadını yenidən başdan-ayağa qədər süzdülər və soyuqqanlılıqla ona dedilər:

– Çox təəssüf edirik. Ən pisinə hazır olun.

Söhbət onun yenidoğulmuş oğlundan gedirdi.

**Olesyanın xatirələrindən:**

*...Birdən araya sükut çökdü. İlk dəqiqələrdə düşündüm ki, bu qədər sükut ola bilməz. Onun arxasınca da dərk etdim ki, bu indi baş verir, başqa birisi ilə yox, məhz mənimlə, mənsə burada öz sükunətimlə baş-başa, tənha dayanmışam.*

*Mən qapının arxasına necə çıxdığımı xatırlamıram. Baxmayaraq ki, indi tibb kitabçasını əlimdə bərk-bərk tutmuşam, onu stolun üstündən necə götürdüyümü də xatırlamıram. Görünür, mən yolda bu qovluğu salmışam və tibbi müayinənin nəticələri köhnə, dağılmış parketin üzərinə səpələnib, çünki xəstəxana reseptləri və protokollar əzilmişdi. Oğlumun doğum haqqında şəhadətnaməsi də yerində deyil. Reseptlər qarışıb və əzilib... Oturub bizim kağızlarımızı hamarlayıb səliqə ilə yığmaq lazımdır.*

*Məni dəhlizdə ərim Yusif gözləyir. Mən nəyisə başa düşmürəm... O niyə belə solğundur? Nə baş verib?*

*– Sən huşunu itirmişdin, – Yusif dedi. Mən başa düşürəm ki, onun qollarında uzanmışam. Məni elə indicə oyadıblar. Yaxınlıqda ağ papaqlı və xalatlı qarışıq fiqurlar ora-bura gedib-gəlir. Doğrudan, axı biz xəstəxanadayıq.*

*Yusif mənə ayağa qalxmağa kömək edir. Görürəm ki, o, özünü güclə ələ alır. Əlbəttə ki, mən onu yenidən qorxutmuşdum. Hələ evdə söz vermişdi ki, "səma ilahları"na yaxınlaşmayacaq, onların şərəf və ləyaqətini təhqir edəcək, ən azından təsadüfən də olsa, onların bir anlıq belə özlərini pis insan hesab etmələri üçün nə bir kəlmə söz deyəcək, nə də bir hərəkət edəcək. Biz onları maraqlandırmırıq. Bizim isə əvvəldən möcüzəyə inanmağa haqqımız yox idi.*

*Ərim mənə palto geyinməyə yardım edir. Nə qədər çalışıramsa, qolumu geyinə bilmirəm, o isə körpə uşaq kimi mənə qayğı göstərir, səbrlə paltonun düymələrini bağlayır. Mənim əsəbdən əllərim titrəyir və bu, ona heç bir söz demədən başa salır ki, növbəti əhəmiyyətli və uzun zamandır gözlənilən görüş bizim üçün nəticəsiz qaldı. O, "səma ilahları"nın oturduğu otağın qapısına*

*gözlərini zilləyib baxırdı. Əgər sənin ərin yunan-Roma güləşi üzrə ustadırsa, əzələli, çılğın qafqazlıdırsa, sən sayıqlığı əldən verə bilməzsən... Yox, mən bir dəfə də olsun, onun dilindən slavyan kişiləri kimi "Nə öldürərdim?" sözünü eşitməmişəm, amma məni hər hansı bir təhlükə gözlədiyi anda (ona elə gəlirdi) bu arzu hər dəfə onun tünd qəhvəyi, antrasitə[2] oxşayan gözlərindən oxunurdu. İndi siz onun oğlunun öləcəyini ona deməyə cəhd göstərin...*

*Yusifin əlindən tutdum və biz küçəyə çıxdıq. Xəstəxananın yanındakı kiçik parkda skamyaların birində oturduq. Nəhayət, danışmalı idik. Ancaq sözlər göyün üzündədir, indi uca səslə səsləndirmək üçün onlar həddən artıq dəhşətli və ölümcül görünür. Zaman amansızcasına ötüb keçir. Bir an yer üzündəki bütün saatları saxlamaq istədim. Onlarla birlikdə də bu dəhşətli qorxunu, xüsusilə də hər dəqiqə böyüyən və artan, metastaz verən çarəsiz xərçəng xəstəliyi kimi içimdə kök salan xain ümidsizliyi... Lənətə gəlmiş saatı müvəqqəti də olsa, saxlaya bilsək, heç olmasa, bir nəfəs alaq və ondan sonra nə edəcəyimizi düşünək. Bir çıxış yolu var, onu sadəcə tapmaq lazımdır.*

*Lap yaxınlıqda uşaq meydançası vardı, ilk qar yağırdı. Uşaqlar səs-küy salaraq qarla oynayırdılar. Bizim yaxınlığımızda isə o qədər də böyük olmayan narıncı kök burnu, kiçik kömür gözlü qar adamı qürurla boylanırdı. Yenicə tikilmiş oyuncaq qala da göz oxşayırdı. Bir neçə dəqiqə biz yad uşaqları müşahidə edir, onların şən gülüşlərinə və xoşbəxt anaların ciddi tənbehlərinə qulaq asırdıq...*

*– Necə ola bilər? – nəhayət, həyəcandan özümü saxlaya bilmirəm. – Həqiqətənmi, bizim uşağımızın belə həyatı heç vaxt olmayacaq? Belə gəzintiləri, qar adamı, adi soyuqdəyməsi...*

*Yusif mənim əlimi sıxdı. Onun bu hərəkətində nə qədər sevgi varsa, bir o qədər də güc, qətiyyət və inam vardı.*

*– İnan ki, Allah onu bizə əbəs yerə verməyib. Oğlumuz yaşayacaq. Mən bunun üçün hər şey edəcəm.*

---

[2] Antrasit – kömürləşmənin ən yüksək mərhələsi olan daş kömür (*tərc.*)

*Mən inandım. Bu kişiyə ərə gəldiyim gündən inanırdım ki, o, pis nəyinsə baş verməsinə icazə verməz. Yusif deyirdi ki, heç bir varlıq qüdrətli yaradanın himayədarlığı olmadan bu dünyaya gələ bilməz. Sadəcə biz oğlumuz üçün mübarizə aparmalıyıq.*

*Risk etməyə başladığımız ilk anda anladıq ki, heç kim bizə heç nə borclu deyil. Biz heç bir dəqiqə də şübhə etmədik ki, tutduğumuz yol doğrudur. Heç uşağın doğulması da səhv ola bilərmi? Dünyanın bütün sivil ölkələrində sizə deyərlər: "İnsan həyatı hər şeydən üstündür, hər kəsin yaşamaq haqqı var". Bu gün isə bizə heç çəkinmədən dedilər: "Ən pis vəziyyətə hazırlıqlı olun!"*

*Biz isə artıq ona ad da vermişdik. Bizim kiçik oğlumuzun adı Səid idi. Ərəb dilində "xoşbəxt" deməkdir.*

*Biz evə qayıdırıq. Maşının tünd şüşələrinin arxasından qarla örtülmüş, neon işıqlarının parıltısında təmtəraqlı Vinnitsiya ötüb keçirdi. İşdən qayıdan sakinlər evə tələsirdilər. Hər kəsin işi və qayğısı var. Tezliklə Yeni ildir. Yusif səssizcə sükandan yapışıb sıxırdı. Son zamanlarda o, ümumiyyətlə, fikirli və səssiz idi. Sanki bütün sözlər deyilmiş və unudulmuşdu. Hər kəs öz düşüncələri ilə tənha qalmışdı.*

*Gözümün ucu ilə ərimi izləyirəm. O son bir ildə necə də yorulub və qocalıb, amma onun hələ heç otuz yaşı da yoxdur. Mən əl atıb onun yenicə dən düşən zil qara saçlarına toxunuram. O, artıq saçlarını kəsdirməlidir. Onlara qulluq etməyi tamamilə unudub...*

*Yusif mənə baxıb gülümsəyir. Səid anadan olandan sonra biz elə beləcə ünsiyyət qururuq – jestlərlə, toxunuşla, yarımçıq sözlərlə... Mən onu hələ də hədsiz dərəcədə sevirəm. Bilirəm ki, o da sevir. Altı illik ağır evlilik həyatımız yalnız bizim hisslərimizi möhkəmləndirmişdi. Biz o hisslərin içində sementlə möhkəm, üst-üstə hörülmüş kiçik kərpiclər kimi donub qalmışdıq. O kərpiclərdən tikilmiş enli hasarın arxasında isti və rahat bir ev var...*

*Yolda uşaq bağçasında dayanıb dörd yaşlı Leylanı və iki yaşlı Əlini tərbiyəçinin yanından götürdük. Bizim böyük uşaqlarımız həddən artıq ciddi və yaşlarından böyük görünürlər. Əlbəttə ki, axı*

*onlar artıq evin kiçiyi deyildilər. Mən oğlumu və qızımı bağrıma basdım, hər ikisi də o saat balaca qardaşlarını niyə xəstəxanadan gətirmədiyimizi soruşdular. Onlar bir dəfə də onu görməyiblər. Səid təxminən iki ay əvvəl – 28 oktyabr 2011-ci ildə dünyaya gəlmişdi. O hələ də reanimasiyada yaşamaq uğrunda mübarizə aparırdı. İndi mən nadir hallarda evdə gecələyirəm, ona görə də böyuk uşaqlarıma çox az qayğı göstərə bilirəm. Onlar isə gözümün önündə böyüyürlər... Xoşbəxtlikdən anam onlara baxmaqda mənə yardım edirdi. Yenə mənim gözlərim doldu. Yadıma düşdü ki, gənc bir həkim mənim iki uşağımın olduğunu və üçüncünü də dünyaya gətirməyə hazırlaşdığımı biləndə mənə istehza ilə dedi:*

*– Məni aldatmağa çalışma, sizin artıq evdə iki uşağınız var!?*

*Sonra məlum oldu ki, biz tək deyilik, o bütün xəstələrinə kinayəli sözlər, alçaldıcı ifadələr işlədərək onları təhqir edir... Nəticədə, hətta onu işdən qovsaydılar belə, xəstələr onun gözlərində peşmanlıq hissini görə bilməyəcəkdilər. Görünür, onun heç vaxt uşağı olmayıb, heç kim ona həyatında bir dəfə də olsun, ana deməyib. Ona görə də biz ona nifrət etmirdik. Əslində onun bəxti bizdən daha az gətirmişdi. Göz yaşlarımı gizlicə sildim. Uşaqlara söz verdim ki, biz mütləq Səidi gətirəcəyik, sadəcə bir qədər gözləmək lazımdır. Uşaqlarımız gözləməyi bacarırdılar. Biz gərək bunu onlardan öyrənək.*

…Bəzən tale bizə həyatımızın ən çətin anlarında ən yaxşı hədiyyələri bəxş edir. Olesya yenicə qabaqcıl Vinnitsiya Avtomobil Hissələri Şirkətində Logistika şöbəsinin rəhbəri vəzifəsinə təyin edilmişdi ki, üçüncü dəfə hamilə olduğunu öyrəndi. O, bu işi heç kimin köməyi olmadan əldə etmişdi. Sadəcə bu vəzifə üçün işçi axtaran firmanın elektron ünvanına özü haqqında bir xülasə göndərmiş, onlardan zəng gələndən sonra beş cəhənnəm əzabına bənzəyən müsabiqədən keçmişdir. Bu işə dəyərdi. Əməkhaqqına da həmçinin. Qəflətən isə bu hamiləlik ortaya çıxmışdı. Həmin anda o, bunu qətiyyən gözləmirdi...

Onun iyirmi yeddi yaşı, sevimli əri, iki gözəl uşağı, iqtisadiyyat üzrə fərqlənmə diplomu və çoxlu karyera ambisiyaları var idi. Əvvəlki analıq məzuniyyəti isə hələ bitməmişdi. Olesya, hər şeydən əvvəl, professional peşə ixtisasını reallaşdırmaq arzusunda idi.

Bu iş onun dünyaya açılması üçün bir pəncərə idi. O, işə quş kimi qanad çalaraq uçurdu, çətin tapşırıqları yerinə yetirirdi, ən çətin müştərilərlə əməkdaşlıq edirdi, hər şeyin öhdəsindən gəlirdi və daha çox iş görmək istəyirdi. Bu, onun fitrətində var idi. Üçüncü dəfə hamilə olduğunu öyrənəndə anladı ki, onun karyerası uçuruma doğru gedir. Elə dünən ilk əməkhaqqını almışdı ki, budur, göyün üzünü qara bulud sardı, əczaçıdan aldığı hamiləlik testinin ağ üzündə iki xətt çıxmışdı…

– Siz dəli olmusunuz! – qohumlar, dostlar, həkimlər gənc ailəyə deyirdilər – Ard-arda iki uşaq bəs deyilmiş kimi siz yenidən… İndi əvvəlki vaxtlar deyil! Təzminat haqda düşünmək lazımdır, sevgi haqda yox.

Olesya özü də ara-sıra abort haqqında düşünürdü. Bilmirdi ki, indi bu olanları onlarla ərizə verən rəqiblərinin arasından seçən rəhbərliyə necə desin, o, yenidən analıq məzuniyyətinə getməlidir. Yaxşı bilirdi ki, daha geri qayıda bilməyəcək. Əvvəlki işində məhz belə də olmuşdu – Leylaya hamilə qalanda o, Viza sektorunun aparıcı mütəxəssisi vəzifəsindən istefa verməli olmuşdu. O, ikiqat analıq məzuniyyətindən geri qayıtmaq istəyəndə iki məktəbyaşlı uşağın anası olaraq birmənalı şəkildə bildirdilər ki, onu burada nə gözləyən var, nə də vəzifəsi. Doğrudanmı, bu işində də belə olacaqdı?

İndi isə problem gənc ananın karyera ambisiyası deyildi. Üçüncü dəfə dünyaya uşaq gətirmək onun üçün təhlükəli idi. Bu təhlükənin səbəbi onun qanı idi, daha doğrusu, çox nadir mənfi rezuslu dördüncü qan qrupu. Hər bir mənfi rezuslu qan qrupu olan qadını müsbət rezus-faktoru olan kişidən uşaq dünyaya gətirmək istəyirsə, ləngtəsirli partlayıcı ilə müqayisə etmək olar.

Əlbəttə, əgər uşaq anasının “mənfi” qan qrupunu daşıyırsa, bu haqda narahat olmağa dəyməz. Yox əgər atasının “müsbət” rezusu-

nu götürərsə, imtinaedici radikal proses başlayır – ananın orqanizmi öz körpəsini yad cisim kimi qəbul edir və məqsədyönlü şəkildə onu məhv etməyə başlayır. Nəticədə, Olesya öyrənəcək ki, bu “məhvetmə” “rezus-konflikt” adlanır. O, öz təcrübəsindən biləcək ki, bu rezus-konflikt nəticəsində, ilk növbədə, yeni doğulan körpənin qaraciyəri zərər görür. Qaraciyərin vəziyyətinə görə hamiləliyin gedişi müəyyənləşdirilir. O, mütəxəssis həkimlərdən də yaxşı başa düşür ki, körpənin balaca qaraciyəri bilirubini (körpənin beyninə mənfi təsir göstərən toksik maddə) xaric edərkən potoloji şəkildə şişir, beyində qan axını kəskin şəkildə zəifləyir, döl hipoksiyadan[3] əziyyət çəkməyə başlayır, o boğulur. O, hər kəsə rezus-konflikt altında dünyaya gələn hemolitik xəstəliyi olan uşaqların dəyişilməz “yol yoldaşları” haqqında danışa bilər. Yox, yox, onun ilk doğuşları heç bir ağırlaşmalar müşahidə edilmədən həyata keçib, çünki hormonal fon hələ normal idi. Əgər ilk doğuşdan sonra yetmiş iki saat müddətində zahı qadına məcburi anti-rezus immunoqlobulin inyeksiyası vurulmasa, onun fəsadları yalnız növbəti hamiləlikdə özünü büruzə verəcək.

Olesyanın bəxti gətirmişdi – çətin və yorucu hamiləliyə baxmayaraq, onun sancıları tutan anda xəstəxanada (onun bütün hekayəsində ilk dəfə) iki saat ərzində elektriklərin kəsilməsini nəzərə almasaq, doğuş o və körpə zədələnmədən asan və sürətli keçdi. Yaxşı ki, Yusif uzun zaman gözlədiyi qızının ilk anlarını əbədiləşdirmək üçün videokameranı götürmüşdü. Heç olmazsa, işıq salacaq nəsə vardı.

Xoşbəxtlikdən hər şey yaxşı keçdi, problemsiz. Həkimlər ən vacib şeyi unutmuşdular – doğuşdan yeni çıxan qadının qan qrupu mənfi rezuslu idi, onun ərində isə müsbət. Təcrübəli həkim-akuşerə asissentlik edən tibb bacısı Olesyaya əvvəlcədən hazırlanmış immunoqlobulini verməyi unutdu. O bunu xatırlayanda isə qiymətli vaxt hədər getmişdi – yetmiş iki saat ötmüşdü...

---

[3] Hipoksiya – orqanizmin toxumalarında oksigenlə təchizatın və ya onun mənimsənilməsinin pozulması ilə müşahidə olunan hal (*tərc.*).

Gənc valideynlər o zaman hələ tibbin bu qədər incəliklərindən xəbərsiz idilər. Onlar sadəcə yeni doğulmuş qızları üçün sevinirdilər. Hələ özləri uşaq ikən Olesya və Yusif sevinirdilər ki, indi onların özləri də valideyndirlər. Onlar balaca, qaragöz qızı Leyla adlandırdılar. O, çox gözəl bir gəlinciyə bənzəyirdi. Bunu hətta bütün həkimlər və tibb bacıları da hiss etmişdilər, o ki qalsın xoşbəxt valideynlər... Sonra isə artıq Olesya şəhərə gəzintiyə çıxanda ətrafdan ötüb-keçənlər ayaq saxlayıb onun gözəl qızına baxırdılar. Əbəs yerə demirlər ki, böyük sevgidən gözəl uşaqlar dünyaya gəlir, qanların qarışması da öz sözünü deyirdi…

Olesya artıq mağazalarda, küçədə və ya uşaq klinikasında yadlardan tərif eşitməyə alışmışdı, ancaq ürəyinin dərinliyində bu cür diqqətdən bir qədər qorxurdu. Bilirdi ki, gözəllik yalnız Tanrı tərəfindən verilmiş mükafat olmaqla yanaşı, həm də ağır sınaqdır. Birdən gözəl xarici görünüşü Leylaya kiminsə uğursuz nəzərlərini cəlb edər. Bəs onda necə olacaq?

**Olesyanın xatirələrindən:**

*…O hadisə mənim yaddaşımda həmişəlik qalacaq. Adi yay günlərindən biri idi. Biz Leyla ilə şəhərdə gəzmək və atamızı işdən sonra qarşılamaq üçün evdən tələsik çıxdıq. Mən yüngül uşaq arabasını yavaş-yavaş küçə ilə sürür, yağışdan sonrakı təmiz havanı ciyərlərimə çəkir, hər şeyin yaxşı olduğuna əmin olmaq məqsədi ilə arabir ayaq saxlayıb sakit yatan qızıma baxırdım. Biz günün sonunda gəzintiyə çıxmağı və Yusifi qarşılayıb evə dönməyi sevirdik.*

*Bu dəfə isə hər şey başqa cür oldu. Yusifin təhlükəsizlik xidmətində işlədiyi ticarət mərkəzinə bir piyada keçidi qalmışdı və mən arabir saata göz ataraq işıqforun yaşıl işığının yanmasını gözləyirdim. Ərimlə görüşə bir neçə dəqiqə qalmışdı… Qəflətən biləyimdən soyuq barmaqları ilə yapışan bir əl hiss etdim.*

*– Sənin necə də gözəl qızın var, gözümü ondan çəkə bilmirəm! – yaxınlıqda boğuq bir səs eşitdim və elə o an da rəngli uzun ətək*

*geyinmiş, çirkli tünd, qıvrım saçları üçkünc yaylığının altından çıxan qara buluda bənzər qaraçı qadın beşaylıq Leylanın uşaq arabasının üzərini aldı.*

*– Əl vurmayın! – deyərək mən var gücümlə uşaq arabasını özümə tərəf çəkdim. Leyla oyandı və ağladı.*

*Qaraçı qadın cəld ətrafına baxdı, bir göz qırpımında burnumun dibində dayandı. Hətta mən onun qoxusunu (uzun müddət yuyulmayan paltarlarının, köhnə sarımsaq və boğucu tərin qarışıq qoxusunu) öz üzərimdə hiss etdim və o, pıçıltı ilə qulağıma dedi:*

*– Eşidirsən, qızını mənə ver! Mən öz evimi sənin adına keçirərəm. Köhnə şəhərdə mənim böyük evim var. Əsl saraydı, görəndə çox bəyənəcəksən! Sənin hələ uşaqların olacaq, narahat olma. İki oğlan doğacaqsan ərin üçün…*

*Elə bil onun dəhşətli sözlərindən, qara, aldadıcı gözlərindən və ürəkbulandırıcı qoxusundan donmuşdum. Addım ata, bir kəlmə də söz deyə bilmirdim. Mən yalnız Leylanın arabasının üzərinə əyilib baxışlarımla ətrafdan keçənlərdən bizi xilas etmələri üçün yardım istəyə bilirdim. Qaraçı çox yaxın dayanmışdı və mən də elə tərpənmədən dururdum ki, görünür, ətrafımızdan ötüb-keçən insanlar bizim gəzintidə təsadüfən görüşən köhnə tanışlar olduğumuzu düşünürdülər… O, mənim biləyimi möhkəm barmaqları ilə tutmuşdu. Yalnız bu barmaqları sevgili qızıma yaxınlaşdıracağını düşünəndə ürəyim çırpınırdı. Gözlərimdən narın göz yaşı durmadan axırdı. Heç bir şey edə bilmirdim. Bu qadın elə bil məni tilsimə salmışdı, hipnoz etmişdi, hərəkətsiz dayanmışdım. Bir dəqiqə də belə davam etsəydi, mən öz uşağımı ona verəcəkdim...*

*Qəflətən qaraçı əlimi buraxıb geri çəkildi. Artıq bir dəqiqə sonra onun rəngli ətəyi Leyla ilə mənim yanımdan uzaqlaşdı. Bu, qorxulu yuxuya bənzəyirdi. O saat geri döndüm. Gördüm ki, qırmızı işıqda maşınların siqnallarına və yarıya qədər enmiş pəncərədən sürücülərin qışqır-bağırına məhəl qoymadan ərim piyada keçidi ilə bizə doğru qaçır. Qaraçı qadın onu görüb qaçmışdı. Bunu heç vaxt yadımdan çıxarmaram. Uzun müddət gecə yuxudan qorxu*

*ilə oyanıb öz-özümə sual verirdim: əgər Yusif gəlməsəydi, nə olardı?Uşağımı məndən almağa o qadına icazə verərdimmi?*

*İnsan üçün dəyərli olanı itirmək necə də asandır! Bir də heç vaxt belə bir şey baş verməyəcək. Bununla belə onun "ərinə iki oğlan doğacaqsan" sözləri başımdan çıxmırdı. Əgər o dəhşətli qaraçı qadın məni hipnoz edə bilmişdisə (mənə elə gəlirdi ki, mən heç vaxt hipnoza tabe olmurdum), bəlkə, o, gələcəyi də görmüşdü?*

Yarım il keçdi. Tədricən baş vermiş bu xoşagəlməz hadisə ilə bağlı xatirələr ananın şüuraltında "uşaqdan gözünü ayırmamaq" kimi avtomatik refleksə çevrilərək keçmişdə qaldı. Leyla onların evində yaz günəşi idi. Gənc valideynlər ona baxmaqdan doymurdular. Buna baxmayaraq, zaman keçdikcə Olesya əmin olurdu ki, Yusif bütün kişilər kimi oğlan övladı istəyir. O, həmişə böyuk və mehriban bir ailəsinin olmasını istəyirdi. Həqiqətən də, əgər sevirsənsə, bütün sevgini yeni həyatın başlanğıcına sərf etmək istəyirsən. İstəyirsən ki, hər an körpənin necə böyüdüyünü müşahidə edəsən. Ümumi xüsusiyyətləriniz, vərdişləriniz və zövqlərinizin üst-üstə düşməsi ətrafdakıları da sevindirir. İlk, qərarsız addımlar atır, ilk söz deyir, anlamsız və gülməli olsa da, öz rəsmini çəkir. Hər gün yeni nailiyyətlər əldə edir. Bu isə özünü xoşbəxt hesab edən gənc valideynlər üçün həqiqətən də, böyük nailiyyətdir. Bunun qarşılığında onlara heç bir şey lazım deyil. Sadəcə qoy uşaqlar xoşbəxt olsunlar...

Həyat yoldaşı Yusifə yenidən hamilə olduğunu xəbər verəndə onun sevincinin həddi-hüdudu yox idi. Onların hər ikisi də bu dəfə oğlan olacağına şübhə etmirdilər. Ailənin ənənəsinə görə, ilk oğlan uşağını ata babasının şərəfinə Əli adlandıracaqdılar. Təəccüblü də olsa, həkimlər adəti üzrə "döl" və ya "doğmamış körpə" əvəzinə onu Əli adlandırmışdılar, yəni bu ad onların oğluna hələ doğulmamışdan əvvəl verilmişdi...

Hamiləlikdən şübhələndiyi günün səhəri Olesya ilkin yoxlanışdan keçib qeydiyyata düşmək üçün qadın məsləhətxanasına getdi. Burada məlum oldu ki, birinci doğuşdan sonra ona qoru-

yucu immunoqlobulin inyeksiyası vurulmayıb. O, oturduğu yerdə donub qaldı. Ümid yalnız oğlanın da anası kimi mənfi qanın daşıyıcısı olacağına qalmışdı. O zaman heç bir problem olmayacaqdı, Olesya da hamı kimi doğacaqdı.

Analizlərin cavabı bütün ümidləri darmadağın etdi – Əli atasının qanını daşıyırdı. Buna baxmayaraq, təəccüblü də olsa, ikinci hamiləlik asan keçdi. Bütün göstəricilər normada idi, uşaq, demək olar ki, ananı narahat etmirdi. Bu günlərdə ona tikmə həvəsi gəlmişdi. Oğlunun anadan olmasına qədər Olesya dəbdəbəli ərəb atında qafqazlı bir atlının böyük rəsmini tikmək fikrində idi. O, artıq işi bitirmişdi, hətta ürəyində arzu da tutmuşdu – əgər doğuşa qədər işi bitirə bilsə, deməli, Əlinin və onun həyatında hər şey yaxşı olacaqdı. Hər an onun doğum sancıları tuta bilərdi, doqquz ayı bu günlərdə başa vururdu. Artıq rəsm üzərində sonuncu tikiş işlərini görürdü ki, elə bu zaman telefon zəng çaldı. Olesya qadın məsləhətxanasının nömrəsini tanıyanda həyəcanından tikməni əlindən yerə saldı. O, asta-asta telefonun dəstəyini qaldıraraq öz-özünə deyirdi: bircə pis xəbər olmasın, axı o hələ tikməni bitirməyib, bircə pis xəbər olmasın...

– Analizlərinizin cavabı gəlib!.. – hətta salam belə vermədən dəstəyin o üzündən qadın məsləhətxanasının direktoru bağıraraq dedi. – Sabah təcili qanköçürmə mərkəzinə get, qanında anticisim[4] sürətlə yüksəlir. Sən məni eşidirsən, Olesya?!

Kaş ki, bu, səhv olaydı...

Təəssüf ki, bu, səhv deyildi. Anticismin səviyyəsi bir neçə gün içərisində ağlasığmaz dərəcədə yüksəlmişdi – 1:1024. Hamilə qadını yenidən müayinə etdilər. Qanköçürmə mərkəzində onun kimi xəstələri sevinclə qarşılayırdılar. Axı məhz anticisim konsentrasiyası yüksək olan qandan antirezus immunoqlobulin üçün ən yaxşı peyvəndlər hazırlanır: bu, Leyla dünyaya gələndən sonra unutduqları "sehirli çubuq"dur. Olesyanın uşağını dünyaya gətirə-

---

[4] Anticisim – orqanizmə daxil olan yad hüceyrələrə qarşı istehsal edilən zülal quruluşlu maddədir (*tərc.*).

cəyi Vinnitsa xəstəxanası üçün bu, görülməmiş bir hadisə idi. Buradakı həkimlər uzun müddətdir ki, belə göstəriciləri olan xəstə ilə qarşılaşmamışlar.

Onun qanında anticismin miqdarı sürətlə artırdı. Olesyanı təcili süni doğuşa göndərdilər. Döl artıq şişməyə başlayırdı, uşaq ölürdü…

…Doğuş çox dəhşətli keçdi. Demək olar ki, doğuluşundan on beş saniyə sonra Əli hamının gözü qarşısında saralmağa başladı. Onu yenidoğulmuşun hemolitik xəstəliyi diaqnozu ilə reanimasiyaya yerləşdirdilər. Doğum sancıları çoxdan bitmişdi. Olesya isə hələ də qışqırırdı. Oğlunu ona göstərmələrini tələb edirdi. Əlinin belə doğulmasına inanmırdı. Əlbəttə ki, o, bunu bilirdi. Ona əvvəlcədən xəbərdarlıq etmişdilər ki, doğuşdan sonra reanimasiyaya ehtiyac ola bilər, lakin... yeni doğulmuş uşağını əlindən alıb harasa aparırlar – bunu sadəcə yaşamağı bacarmaq lazımdır. Zahı qadını ərinə verib dedilər: onu buradan apar, indi o burada həkimlərə mane olmaqdan başqa heç bir iş görə bilməz.

**Olesyanın xatirələrindən:**

*... İndiki kimi xatırlayıram, Yusif məni taksiyə mindirib qapını bağladı, özü isə xəstəxanada – reanimasiyanın qabağında gözləməyə başladı. Mən hər şeyi görürdüm, nə olduğunu tam anlayırdım, lakin özümü ələ ala bilmirdim. Yolu səssiz-səmirsiz gedirdik, sürücü heç musiqi də qoşmurdu, yəgin ki, o da sərnişinin həyatında nə isə qeyri-adi hadisə baş verdiyini anlayırdı. Artıq o, maşını evin astanasında saxlamışdı, amma mən uzun müddət maşından düşə bilmirdim, göz yaşı dayanmadan yanaqlarımdan üzüaşağı axırdı. Boş mənzilə girəndə (Leyla valideynlərimin yanında qalırdı) gözümə ilk sataşan yarımçıq tikilmiş tikmə oldu.*

*Ölü kimi dayandım. Sona qədər tikə bilmədim...*

*Bəlkə, hələ də gec deyil? Qızdırmalı adam kimi cəld parçanı götürüb iynə-sapı axtarmağa başladım. Atlının rəsmi üzərində ya-*

*rımçıq qalan rəngləri bir-birinin ardınca əlavə etməyə başladım. Axırıncı ilməni vuranda əl-ayağım keyimişdi. Pəncərədən soyuq, vahiməli alatoranlıq görünürdü. Mən isə geçikmiş tikməni əlimdə bərk-bərk sıxaraq işığı belə yandırmadan oturmuşdum. Bir neçə gün əvvəl mənim böyük qarnım var idi, bu gün isə doğum evindən qayıtmışam, mənim nə qarnım var, nə də uşağım... Aman Allah, yəqin bütün qonşular mənim bu şəkildə geri döndüyüm üçün uşağımın öldüyünü düşündülər! Heç özüm də bilmirəm ki, niyə mən məhz o vaxt qonşular haqda düşünürdüm. Mənə elə gəlirdi ki, baş verənlərin mənə heç bir aidiyyatı yoxdur. Niyə mən? Niyə belə ağır cəza? Mən nəyi düz etməmişdim? Bütün ömrü boyu vicdanlı olmağa çalışmışam, bilərəkdən heç kimi təhqir etməmişəm, aldatmamışam, oğurluq etməmişəm, mənim yardımıma ehtiyacı olan hər kəsə əl tutmuşam. Niyə axı mən, ay Allah?!*

*– Bir də heç vaxt belə suallar vermə, – evə qayıdan Yusifin səsi eşidildi. – Bi, bizim cəzamız deyil, imtahanımızdır. Hər kəs həyatında özünəməxsus imtahan yaşamalıdır...*

*Bir neçə gündən sonra o, oğlumu görmək üçün məni xəstəxanaya gətirdi. Əvvəlcədən mənə söz verdirdi ki, qışqırıb ağlamayacam. Reanimasiyanın qapısının ağzına çatan kimi az qaldım huşumu itirəm. Əli balaca bir oyuncaq kimi uzanmışdı. Heç tərpənmirdi, sadəcə ağır nəfəs alırdı, demək olar ki, xırıldayırdı.*

*– Mənim mələyim! – özümü saxlaya bilmədim. – Bir bilsən, səni necə gözləyirdik?! Həqiqətənmi, Allah səni bizim əlimizdən alacaq?..*

*– Allaha pənah, – deyə Yusif çarəsizcə cavab verdi. – Allahın onu xilas edə bilməyəcəyini əsla ağlına gətirmə, – deyə həyat yoldaşım çiyinlərimi qucaqladı və məni palatadan çölə çıxartdı. Biz evə qayıtdıq. Xəyalımda mən artıq oğlumu dəfn etmişdim. Gözlərimin yaşı bir saniyə də olsun, qurumurdu. Reanimasiyada gördüklərim məni məhv etdi... Ruhumu darmadağın etdi... Son ümidimi əlimdən aldı.*

*– Mən bir dua bilirəm, – Yusif dedi. – Bu dua heç bir çıxış yolu olmayanda Allahı yardıma çağırır. Deyirlər, dua edəndə gərək ina-*

*nasan ki, Allah səni tək qoymayacaq. Bir an belə şübhələnmək olmaz ki, O, bizə yardım edəcək... Allahın köməyi ilə oğlumuz sağalacaq.*

*O gecə Yusif dizlərini yerdən qaldırmadı. Mən də onunla birlikdə dua edirdim. Səhər təxminən saat üç radələrində yuxu məni aparıb, mürgüləmişəm.*

*– Deməli belə, artıq sənin oğlun yoxdur, – yuxuda yad səs mənə dedi. Qaraçı parıldayan qara gözləri, rəngli donu, ətəyi dilik-dilik olan xallı şalı ilə qarşımda dayandı.*

*Soyuq tər içində yuxudan oyandım, səhər saat beş idi. Yusif hələ də dua edirdi. Sübh tezdən, zamanın fərqində belə olmadan dərhal telefonun dəstəyini götürüb reanimasiya şöbəsinin nömrəsini yığdım.*

*– Alo... – növbətçi həkimin boğuq səsini eşitdim.*

*– Bağışlayın, Əlinin anasıyam. Xahiş edirəm, baxın, oğlum necədir? İndicə dəhşətli yuxu gördüm! – əgər növbətçi xəstəxanada yeni işləmirdisə, yəqin ki, ananın hansı yuxunu gördüyünü anladı. Olesya dəstəyin o biri ucundan kiminsə dəhlizlə keçdiyini, qapının cırıldadığını eşitdi. Bir anlıq hər şey sükuta qərq oldu.*

*– Vəziyyəti sabit ağırdı.*

*– O yaşayır? O nəfəs alır?*

*– Bəli.*

*– Çox sağ olun!.. – yuxunun ağırlığı onun üzərindən dərhal yox oldu. Səhər yeddidə artıq xəstəxanada idim. Oradan yalnız xoş xəbərlər gözləyirdim. Məni Əli ilə birlikdə qalmaq üçün palataya köçürdülər, hətta ona ana südü verməyə də icazə verdilər. Bu, onun yer üzündəki altıncı günü idi.*

*– Xahiş edirəm, düzünü deyin, bu yaşadıqları onun üçün gələcəkdə nə ilə nəticələnə bilər? – dəhlizdə həkimlərdən biri ilə qarşılaşdım.*

*– Ola bilsin gələcəkdə bir qədər qəribə və yaxud da əsəbi ola bilər.*

*Bunu soruşmağa nə gərək vardı ki? Xoşbəxtlikdən bu sözlər o zaman məni o qədər də narahat etmirdi, axı mən yalnız oğlumu qucağıma alacağım anın xəyalı ilə yaşayırdım.*

Olesya iki həftə xəstəxanada oğlu ilə qaldı. O həkimin fərziyyələri öz təsdiqini tapmadı. Xəstəxanadan çıxdıqları gün gənc valideynlər qucaqlarında güclü və gülərüz bir oğlanla evə qayıtdılar. Yusif oğlunu göydəndüşmə bir hədiyyə kimi, dünyanın bütün bəlalarından qorumağa ehtiyacı olan bir möcüzə kimi qəbul edirdi və hər gün Allaha şükür edirdi ki, oğlu xilas oldu. Əli sürətlə yaxşılaşırdı, çəkisi getdikcə artırdı. Xoşbəxtlikdən uşaq vaxtında doğulmuşdu, ağ ciyərləri formalaşmışdı, özü nəfəs ala bilirdi. O, həyat üçün elə inadkar və əzmkarlıqla mübarizə apardı ki, həkimlər özləri də belə kiçik bədəndə müqavimət üçün bu qədər gücün hardan olduğuna təəccübləndilər. Əlinin yaşamaq uğrunda mübarizəsindəki digər bir üstünlüyü isə təmsilçiləri artıq "gələcəyin insanları" adlandırılan qarışıq irqə mənsub olması idi. Onları başqalarından fərqləndirən cəhət eqzotik gözəllikləri, xüsusi qabiliyyət və bacarıqları, eyni zamanda inanılmaz dərəcədə yaşamaq həvəsi idi. Deyilənə görə, onların təbiətində hər iki valideynlərdən yalnız ən yaxşı, müsbət keyfiyyətləri götürmək bacarığı var. Millətin degenerasiyasının qarşısını almaq üçün genetiklər belə hesab edirlər ki, zaman-zaman qanı müxtəlif irqlərlə qarışdırmaq lazımdır.

Olesya özü də bu yaxınlarda uşaqlarının həmyaşıdlarından yalnız parlaq xarici görünüşləri ilə fərqlənmədiyinin fərqinə vardı... Heç kimin kitab oxumağa məcbur etmədiyi utancaq Leyla artıq dörd yaşında oxumağı bacarırdı. İndi isə hər gün onu məktəbə aparmalarını istəyirdi. Bundan başqa, o, gimnastika və xoreoqrafiya ilə məşğul olurdu, uşaq bağçasından sonra rəqs dərslərinə gedirdi. Çevik və ağıllı Əli isə gəzməyə başlayan kimi atasının idman titulları və nailiyyətləri ilə maraqlanmağa başladı. Hətta bir dəfə onun bütün medallarını üstünə düzərək özünü gülünc şəklə salmışdı. Bu şəkil hələ də onların ailə albomlarının ən görkəmli yerində dayanır və görənlərin çöhrəsində təbəssüm yaradır.

Yusif oğlunun onun sənətini öyrənməyə həvəs göstərməsindən qürur duyur və ciddi şəkildə özünün sevimli işini Əliyə öyrədirdi. Heç şübhə etmirdi ki, onun evində gələcəyin güləş çempionu

böyüyür. Olesya isə bundan o qədər də məmnun deyildi. Ərinin aldığı idman zədələri, hər dəfə Yusifin döyüş döşəyinə çıxarkən düzəlməsi mümkün olmayan nəyinsə baş verə biləcəyi hissi onu məhv edirdi. Oğluna isə tamamilə başqa bir tale arzulayırdı. Buna baxmayaraq, o başa düşürdü ki, ilk növbədə, itaətkar və nəzakətli olmağı öyrətdiyi oğlu öz seçimini müdafiə etmək üçün kifayət qədər cəsarətli idi. O, həqiqətən, gələcəyin güləş çempionu kimi böyüyür.

Olesya Leyla ilə Əliyə baxdıqca başa düşürdü ki, uşağın sayı evdə heç bir zaman çox olmur. Bir qədər əvvəl isə o bilmirdi ki, hər iki uşağı birini digərindən fərqləndirməmək şərti ilə eyni səviyyədə necə sevmək olar. Qorxurdu ki, birinə digərindən daha çox diqqət ayırar. Ona görə də heç bir zaman uşağı olmayan görkəmli pedaqoqların məsləhətinə qulaq asır, təəssüf ki, övladları kitabın öyrətdiyi qədər yaxşı və itaətkar olmayan xarici müəlliflərin ağıllı kitablarını oxuyurdu. Sonra isə... sonra isə başa düşdü ki, o, sadəcə öz daxili instinktinə qulaq asmalıdır. Təbiət qadına uşağı tərbiyə etmək üçün lazım olan hər şeyi verib, sadəcə daxilindəki səsi dinləmək lazımdır. Bəzən o, öz işini və karyerasını unutmağa razı idi, yetər ki, hər dəqiqə uşaqlarının yanında olsun, onların ilk nailiyyətlərinin, ilk kəşflərinin şahidi olsun, hər dəfə uşaqlarının onun ana nəvazişinə ehtiyacı olanda onların yanında olsun. Qəlbinin dərinliklərində daha bir uşaq haqqında düşünürdü. Əmin idi ki, onun sevgisi hər kəsə yetəcək. İkinci doğuşdan sonra isə həkimlər ona doğmağı qadağan etmişdilər. Hər sonuncu hamiləlik əvvəlkindən daha ağır fəsadlar yaradacaqdı. Ən azından ana orqanizmin hormonal strukturunun bir qədər “sakitləşməyini” gözləməli idi.

Təəssüf ki, taleni hormonal struktur və həkimlərin ciddi tövsiyyələri qətiyyən maraqlandırmır. O, yeni bir həyatı ailəmizə qəbul edib-edə bilməyəcəyimizi soruşmur. Sadəcə onu bizə hədiyyə olaraq verir və kənara çəkilir. Olesya da məhz bunları yaşamalı oldu. Oğlunun doğumundan bir il sonra o yenidən hamilə olduğunu anladı. Ürəyi əsməyə başladı və sevincindən yerindəcə donub

qaldı – doğrudanmı, o, üçüncü dəfə ana olacaq? Başa düşürdü ki, bu uşaq yaşamaya bilər. O, Əlinin doğuşunu çox yaxşı xatırlayırdı. Onun daha bir uşağı o cür dəhşətli işgəncələrə məruz qoymağa, həyatla ölüm arasında çıxılmaz vəziyyətə salmağa ixtiyarı var idimi? Əgər vardısa, bu dəfə də həyat qalib gələ biləcəkdimi?...

Birinci qan analizi "başa vurulan yoxlama-nəzarət atəşi" oldu: onun qanında anticisim kritik həddə çatmışdı – 1:2048. Həkimlər ona doğmağın qadağan olduğunu xatırlatdılar və abort eləməyi məsləhət gördülər. İlk anlarda Olesya hətta buna sevinmişdi.

Hər şeydən imtina etmək... Abort bütün problemlərin ən sadə çıxış yolu idi. O, uşağın həyatını təhlükəyə atmadan yeni düzəldiyi ofisdəki ürəyincə olan işinə davam edəcəkdi. Yusif isə yarışlardan imtina edib üç uşağa baxmaq üçün əlavə iş axtarmaq məcburiyyətində qalmayacaqdı. Hələ doğulmamış uşaq məgər valideynlərinin ehtiyatlı olmadıqları üçün günahkardımı? Əgər onlar daha ağıllı davransaydılar, hələ doğulmamış körpə qan uyğunsuzluğu konfliktinin əmələ gətirdiyi dəhşətli fəsadlardan əziyyət çəkmək məcburiyyətində qalmazdı... Olesya axşam yeməyində ərinə məhz elə belə də deməyi planlaşdırırdı. Artıq xəyalında bu ağır söhbətdə istifadə edəcəyi uyğun sözləri tapmışdı da, amma... həmin gün bir hadisə onun bütün sözlərini və planlarını, hətta xəyalında qurduğu kiçik dünyasını alt-üst etdi.

O, adəti üzrə mətbəxdə işləyirdi. Bir saat sonra əri qızı ilə birlikdə gəlməli idilər, ona görə də tələsməli idi. Bu gün axşam yeməyinə dadlı nə hazırlamaq olar? Olesya resept kitabını açdı. Birdən otaqda oynayan Əlinin səsinin gəlmədiyini hiss etdi. Yəqin uşaq yatıb! O otağa girəndə oğlunu orada görmədi. Balkonun qapısı açıq idi, axşam yeməyi hazırlamaq üçün mətbəxə getməmişdən əvvəl qapını bağladığını yaxşı xatırlayırdı. Otaqda yel əsdiyini hiss etdi və balkondan səs eşitdi… Bir andaca özünü balkonun açıq qapısına tərəf atdı.

Onun balaca oğlu balkonda göyərçinləri görüb onları tutmaq üçün sürahinin üstünə çıxıb. Bir ehtiyatsız hərəkət və...

– Ana, orada quş var! – deyə uşaq onu qapının kandarında görüb sevinclə səsləndi.

**Olesyanın xatirələrindən:**

*...Ehtiyatla, pişik kimi Əliyə yaxınlaşmağa başladım. Cəld hərəkətlərlə onu qorxutmamaq üçün ehtiyatla və sakitcə uşağa yaxınlaşmağa çalışdım. Mənim üzümdəki qorxunu hiss etməsin deyə gülümsəyirdim, çünki əgər o da qorxsa idi, sürahidən enməyə və ya daha yuxarı çıxmağa çalışardı. Biz isə dördüncü mərtəbədə yaşayırdıq, pəncərəmizin altından beton yol keçirdi…*

*Nəhayət ki, əlim çatacaq qədər ona yaxınlaşa bildim. O andaca əl atıb onu tutdum və bərk-bərk qucaqladım. Elə o andaca anladım ki, bu, mənə göylərin xəbərdarlığıdır. O hadisə mənim bütün həyatımı, düşdüyümüz vəziyyətə münasibətimi dəyişdirdi. Düşün, bir neçə dəqiqə əvvəl əlimdə tava mətbəxin ortasında ora-bura var-gəl edib bu gün axşam yeməyinə nə hazırlamaq haqqında düşünürdüm. Bu əsnada bətnimdə olan körpə həyatdan da yaxa qurtarmaq üçün özümü inandırmağa çalışırdım. Guya o, yanlış zamanda gəlmişdi... Uzun müddət divanda oturub Əlini bərk-bərk bağrıma basmışdım. Onun “Ana, orada quş var!” sözləri mənim onunla bağlı axırıncı xatirəm ola bilərdi.*

*Bətnimdə isə doğulmamış körpə, doğulmamış xatirələr... Mən abort haqda necə düşünə bilərdim axı? Nəhayət, axı mən kiməm? Doğrudanmı, verən və geri alan Yaradanın rolunu öz üzərimə götürməyə cəsarətim çatardı? Elə indicə axmaq təsadüf mənə çox vacib bir şey haqqında xatırlatdı. Bir saniyə içərisində öz qorxaqlığım sayəsində Tanrının mənə verdiyi ən dəyərli varlığı itirə bilərdim.*

*İndi abort etdirmək mənim üçün öz əlimlə uşağımı pəncərədən atmağa bərabərdir. Bu uşağı tanımağımın və sevməyimin heç bir əhəmiyyəti yoxdur, o biri uşağı isə mən hələ gözləməliyəm… Mən ona görə ağlayıram ki, mən qadınam, yoxsa ona görə ki, mən insanam?*

Yusif içəri girən kimi o, baş verənləri bütün təfsilatı ilə ona danışdı. Yusif baxışlarını aşağı dikdi və dedi:

– Biz Leyla ilə evə qayıdanda qəfildən yolumuza Mitsubişi Pojero markalı maşın çıxdı. Mən sükanı güclə döndərdim, maşın yoldan çıxdı. Beton dirəyin yarım metrliyində maşını çətinliklə də olsa, saxladım. Biz də Leyla ilə bu gün evə gəlib çıxmaya bilərdik...

Artıq onların heç bir şübhəsi qalmadı. Bir kiçicik doğulmamış həyatı xilas etmək üçün daha nə qədər dəhşətli "əlamətlər" lazımdır?

– İkinci oğlumuzun adını Səid qoymaq istəyirəm, – qəfildən Olesya dilləndi. Həmin gecə onlar səhərə yaxın yatmağa getdilər. Səhərə qədər ancaq Səiddən (nə üçünsə əmin idilər ki, bu dəfə də oğlan doğulacaq) danışırdılar, keçmiş xatirələrini yada salır, gələcəyə ümid bəsləyir və nəhayət, sonda o qədər də asan olmayan qərar qəbul etdilər. Səid doğulmalı idi. Əks təqdirdə, o, xəyallarda, yuxularda, ən çətin anlarında onlara yaxınlaşmazdı. Hətta sanki o, bir dəfə çox yaxınlıqda olmuşdu da, sadəcə öz yerini azərbaycanlı babasının şərəfinə Əli adlandırdıqları böyük qardaşına vermək qərarına gəlmişdi. O, gəlmək üçün uzun müddət gözləmişdi.

Artıq onun vaxtı gəlib çatmışdı.

**Olesyanın xatirələrindən:**

*...Səid doğulmamışdan uzun illər əvvəl mənim yuxularıma gəlirdi. Maraqlısı odur ki, bu, hər zaman yuxu deyildi, bəzən qəribə öncəgörmələr idi. On üç yaşım olanda məni kəskin appendisit ağrısı ilə təcili yardım maşını məktəbin həyətindən götürüb apardı. Düzdür, mən sonradan bu cəhənnəm ağrısının adının appendisit olduğunu öyrəndim. O zaman məktəbdəkilərdə elə təsəvvür var idi ki, sanki kimsə mənim qarnıma ucu əyri bıçaq soxmuşdu. Çönüb arxama baxmaq istəyirdim, amma ağrıdan az qalırdım öləm. Kimsə qulaqbatırıcı səslə qışqırdı. Mən huşumu itirdim. Məni əməliyyat etdilər. Bərpa üçün bir aydan çox vaxt lazım oldu, hələ bu adi*

*appendisit idi. Anama dedilər ki, əgər təcili yardım on dəqiqə geciksəydi, bu hadisə ölümlə nəticələnə bilərdi.*

*Mən bunu xatırlamıram. Yaddaşımın labirintindən isə başqa bir şey ortaya çıxır – qısa müddətdə gözümün qapaqları bağlandı və ətrafımda hər şey qalın, parıldayan gümüşü sisə qərq oldu, oradan yavaş-yavaş qara fiqur çıxdı. Mən o ecazkar görüntüyə toxunmaq üçün əlimi uzatdım, sanki biz bütün kainatda yalnız idik. Duman qeyri-şəffaf qaranlığa çevrilir və getdikcə qatılaşırdı. Fiqur yavaş-yavaş uzaqlaşır, dumana qarışırdı. Mənsə bir addım da ata bilmirdim, sanki bu qatı və dəhşətli sis məni qandallayırdı. Qəflətən səs eşitdim:*

*– Ana!..*

*Donub qaldım. Burada yalnız biz ikimiz idik. Bir anlıq sis azaldı və mən böyük, üzünün yarısını tutan qarağat rəngli iri gözləri olan bir uşaq gördüm. Gözlərini mənə zilləmişdi. Özümdən asılı olmadan dedim:*

*– Səid?..*

*Bilmirəm, niyə mən onun Səid olduğunu düşündüm. Əvvəllər belə bir qəribə, hətta mənə yad olan bu ad haqqında heç düşünmürdüm. İndi isə hiss etdim ki, onu tanıyıram, vəssalam. O, hər zaman mənim yanımda olub, biz sadəcə bir müddət ayrı qalmalı olmuşuq. Tezliklə intuisiyam mənə dedi ki, biz yenidən birlikdə olacağıq və hər şey yaxşı olacaq.*

*O gündən etibarən mənim özüməməxsus, bir qədər qəribə, eyni zamanda xoş və həyəcanverici bir sirrim yarandı. Səid... Mən bu sirri heç kimsəylə bölüşmək istəmədim. O yalnız mənə aid idi. Onun haqqında düşünmək məni depressiyadan çıxarmağa, mənim uşaqlıq inciklikləri̇mi və küskünlüklərimi yoxa çıxarmağa, acı və quru göz yaşlarımı qurutmağa kifayət edirdi. Mənim həyatımda Səid var idi və yerdə qalan başqa heç nəyin əhəmiyyəti yox idi. Kiçik dünyamda ağrılı, əzablı və ədalətsiz sınaqlar (uşaq vaxtı mənə elə gəlirdi) olanda, bu dözülməz anları uzatmaq üçün sanki saat dayananda xəyalımda yalnız onun adını təkrarlayırdım. Onun*

*gözlərini gördüm. Mənim üçün əlçatmaz olan "Ana!" kəlməsini eşitdim. O vaxtdan bir an belə yadımdan çıxartmamışam ki, o, hardasa var, məni gözləyir, mütləq mənim həyatımda peyda olacaq. Bu, bir qədər qeyri-adi, bir qədər də yetkin hiss idi. O vaxtlar on üç yaşım hələ tamam olmamışdı və analıq haqqında heç bir təsəvvürüm yox idi. O sevginin çağrışını hiss edir, doğulmamış oğlumun ruhunun mənə doğru can atdığını başa düşür, həm mən özüm də onunla görüşə can atırdım.*

*Növbəti dəfə mən onu yayın sonunda "Keletskaya və 600 illik" küçəsində maşının altına düşərkən gördüm. On beş yaşım var idi. O zaman mən özüm günahkar idim, tramvaya çatmaq üçün yaşıl işığın yanmasını gözləmədən küçənin ortasına atıldım. Çox çətinliklə özümü kənara ata bildim. Daha doğrusu, mənə elə gəldi ki, mən kənara atıla bildim.*

*Küçə birdən gözlərimin önündə üzməyə başladı və yavaş-yavaş hər yer əvvəlki gümüşü rəngdə parıldayan sisə qərq oldu.*

*– Səid? – bu dəfə mən onu birinci çağırdım.*

*Onun varlığından süzülüb gələn hərarəti fiziki olaraq hiss etdim. Duman seyrəlib külə çevriləndə gördüm ki, Səid gülümsəyir mənə. Onun yanında oturdum. Dibi görünməyən dərin mənalı, yaş və kədərli gözlərinə baxdım. O, niyə kədərlidir? Bura necə düşüb? Mənim ona o qədər sualım var ki! Doğrudanmı, biz bu dəfə hətta söhbət də edəcəyik?..*

*Yanağıma vurulan sillə məni zərif xəyallardan ayırdı. Yavaş-yavaş özümə gəldim. Sən demə, mənim heç bir yerim nə cızılmayıb, nə də göyərməyib, amma bir qədər qorxmuşdum və bu da mənim bir anlıq huşumu itirməyimə kifayət etmişdi. Sürücünün nə hisslər keçirdiyini təsəvvür edirəm. O mənə sillə vurdu və mən ayıldım.*

*O, atama dedi ki, məni bir daha küçəyə buraxmasın. Səid haqqında mən heç kimə heç nə demədim. Heç anama da.*

*Qışda rəfiqələrimlə fala baxmaq qərarına gəldik. Bunun üçün bizim evdə toplandıq, çünki valideynlərim həftəsonu paytaxtdakı universitetlərdən birini beynəlxalq münasibətlər ixtisası üzrə ye-*

*nicə bitirmiş böyük bacım Ruslananı ziyarət etmək üçün Kiyevə getmişdilər. O, təcrübə keçmək üçün uzun müddətə xaricə gedirdi. Mən də Ruslananı görmək istəyirdim, amma aparmadılar. Məni pişiyə və akvariumda xoruz balıqlarına baxmaq üçün evdə saxladılar.*

*Balıqlar yaxşı idi, bizim sarı pişiyimiz Panko da kifayət qədər özünü idarə etməyi bacarırdı. Mənzil bir neçə günlük mənim ixtiyarımda idi. "Keletskaya və 600 illik" küçəsində baş vermiş hadisə artıq unudulmuşdu. Valideynlərim yenidən mənə etibar edirdilər. Onlar inanırdılar ki, bu dəfə mən heç bir hadisə törətməyəcəyəm.*

*Mən də nə isə törətmək fikrində deyildim. Sadəcə Valeriyanı, İranı, Anyanı və paralel sinifdən bir neçə qızı çağırdım və biz fala baxmağa başladıq. İndi artıq heç xatırlamıram da ki, seçdiyimiz "ritual" nə ilə nəticələndi, amma o yadımdadır ki, bu işin tək məqsədi var idi – hər kəs yuxusunda öz gələcək ərini görməli idi. İndi anlayıram ki, belə iş görmək olmaz, amma o axşam yatanda inanırdım ki, yuxuda gələcək ərimi görəcəm. Daha dəqiq desək, Səidin atasını görəcəyəm – onu xəyalımda belə adlandırmaq xoşuma gəlirdi. Maraqlısı odur ki, o zaman mən hətta heç aşiq də deyildim. Bütün rəfiqələrim ilk romantik sevgini duymuşdular, bəziləri hətta şəhvət də yaşamışdılar. Mən isə hələ də həqiqi öpüşlə öyünə bilmirdim. Əslində təklif edənlər var idi, amma mən nədənsə heç birinə cavab vermək istəmirdim. Sanki hansısa bir güc əlimdən tutub məni kənara çəkir və inadla pıçıldayırdı: "Bu, sənin deyil". Özümü natamam hiss edirdim. İndi ya da heç vaxt kimi maksimal yeniyetməlik düşüncəsi...*

*Gecə bir göz qırpımında keçdi. Yuxuda xəyalımdakı "yaraşıqlı şahzadə" ilə qarşılaşmadım. Hətta Səid də qaranlıqda çətinliklə addımlayaraq mənə tərəf həyəcanlı baxışlarla baxdı, çevrilib uzaqlaşdı. Müharibə. Partlayış. Qan. İki oğlu olan bir ailə öz doğma evlərindən qaçırlar. Qəflətən kiçik oğlan anasının əlindən çıxıb dizləri üstə yerə çökdü və... doğma torpağı öpdü.*

*Bir anlığa hər kəs donub qaldı, hətta atanın quru gözləri belə yaşla doldu. Deyəsən, mən də ağlayırdım. O uşaq sanki bir qədər mənim Səidimə bənzəyirdi, amma o, dəqiq Səid deyildi.*

*Bir dəqiqədən sonra mənzərə dəyişir – onlar artıq köçüblər, bir qədər böyümüş həmin uşaq ilk dəfədir ki yeni məktəbinə ayaq basır. Burada da bir qədər fərqli bir şəkildə müharibə gedir. Uşaqlar yeni gələni itələyir, onu qaçqın, yadelli, dilənçi deyərək qıcıqlandırırlar… Doğrudanmı, bu onun köhnə, yamaq gödəkçə geyindiyinə və tünd qəhvəyi gözlərində öz evini itirməyin uşaq ağrısını dondurduğuna görədir? Hiss edirəm ki, bu oğlanı bir şəkildə təsəlli etməliyəm.*

*– Hər şey yaxşı olacaq, – deyə onun çiyinlərinə toxunur və sanki yoxa çıxıram. Üçüncü dəfə onu, demək olar ki, böyümüş görürəm. Onu çox yaxşı geyimdə artıq özünün adlandıra biləcəyi şəhərin mərkəzi küçələrindən birində yanında nəfəskəsici gözəlliyə sahib gənc bir qızla gəzərkən görürəm. Onlar fontanın yanında dayanır və elə bir oğlan indicə qızı öpəcək... Daha bəsdir!*

*Mənim burda nə işim var? Bu kimdir? Niyə mən onu gördüm?..*

*Mən onu həmişə xatırlayacam.*

*Oyananda yanımda həddən artıq qorxan valideynlərimi gördüm. Mən evdə deyildim – məni tanımadığım yad boz rəngli divarlar əhatəyə almışdı. Tibbi cihazlardan çıxan uzun məftillər əllərimə taxılmışdı və mən ensiz, narahat və yad bir çarpayıda uzanmışdım. Mən yenə xəstəxanaya düşmüşəm? Elədir ki, var – valideynlərimin yanında ağ çantalı ərazi həkimimiz, ondan bir qədər aralıda isə üç nəfər ağlayan rəfiqələrim dayanırdı. Hamı dəhşət içərisində mənə baxırdı. Mən tərpənməyə, ayağa qalxmağa çalışdım, amma yırğalanaraq yenidən yatağa yıxıldım. Nə isə demək istədim, lakin ağzımdan çarəsiz bir inilti çıxdı. O zaman anam ağladı. Sən demə, mən iki sutka oyanmadan yatmışam. Xəstəxanada nə baş verdiyini aydınlaşdıra bilmədilər. Deyirdilər ki, mən nəfəs alırdım, amma nə üçünsə oyana bilmirdim. Qədimdə belə olsaydım, məni diri-diri basdırardılar.*

*Altı il keçdi. İyirmi bir yaşım oldu və mən Vinnitsa Ticarət və İqtisad Universitetini qırmızı diplomla bitirdim. Öz ixtisasım üzrə ilk işimi tapdım. Böyük bacım Ruslana təcrübə toplamaq üçün İtaliyaya getdi. Bir daha geri qayıtmadı. Orada bir nəfərlə tanış oldu, ərə getdi, İzabella və Sisilya adlı iki cazibədar qız dünyaya gətirdi. Hər ikisi də anaları kimi həddən artıq gözəl idilər.*

*Bacım hər zaman mənə xaricdən gözəl marka paltarlar və ayaqqabılar göndərirdi. Universiteti müvəffəqiyyətlə bitirdiyimə görə mənə unudulmaz bir hədiyyə verdi – bu, mənim ilk "yetkin" ətrim idi. İndiki kimi yadımdadır, ətir dəbdəbəli və nəcib qara vintaj oval qutuda kübar və təkrarolunmaz qoxulu əfsanəvi "Paloma Pikasso" idi... Ətir deyildi, əsl xəyal idi!*

*– Bu, mütləq əsl kişini sənə cəlb edəcək, – deyə Ruslana pıçıltı ilə demişdi. Hər şey nə vaxtsa ilk dəfə baş verir, arzular gerçəkləşir, o bunu bilirdi. Kaş ki, məndə də belə olaydı! Lakin... mənim, demək olar ki, bütün rəfiqələrim ərə getmişdilər, hətta bəzilərinin artıq uşaqları da var idi, mənim isə hələ də heç kimsəylə uzun müddət gözlədiyim "ciddi münasibət"im yox idi. Hamıya da deyirdim ki, mənim üçün birinci yerdə karyera durur. Bəzən mənə elə gəlirdi ki, o uşaqlıq illərində fala baxmaqla mən öz taleyimin üstündən xətt çəkmişəm. Özüm də dərk etmədən ondan imtina etmişəm. Ona görə ki, Səid bir daha mənim yanıma gəlmədi, sanki mən, həqiqətən də, nəsə dəhşətli, utancverici bir iş görmüşdüm və onun anası olmaq hüququmu itirmişdim...*

*O vaxt artıq onun yaxında olduğundan xəbərsiz idim. Axı mən bilmirdim ki, tezliklə yadelli, heyrətamiz bir kişi ilə qarşılaşacam və onun adını səhvsiz tələffüz edə bilməyəcəyimə baxmayaraq, mütləq öyrənəcəm. Uşaqlıq şəkillərində iki sutka uzun gecə boyu mənim yuxularıma gələn o gənc oğlanı tanıyacam. Bir də heç bir zaman təxminlər irəli sürməyə çalışmayacam. O isə birinci görüşdə mənə deyəcək:*

*– İstəyirsən, sənə öz şəhərini göstərim?*

*Deyəsən, o, məni elə indicə öpməyə hazırlaşır. Bunun əvəzində mən ona Səid haqqında danışıram. Biz səhərə qədər sakit Vinnitsa küçələrində gəzirik. Hələ yuxuda olan sakit, mənzərəli həyətlərdən yenicə gələn payız bizə əl edir. Biz evlənirik və mən tezliklə hamilə olduğumu öyrənirəm. Əvvəlcə Tanrı bizim ailəmizi qızımız Leyla ilə sevindirir, sonra isə bizə Əlini bəxş edir. Mən üçüncü dəfə hamilə olduğumu öyrənənə qədər hətta Səidi unuduram. Əlbəttə, həkimlər mənə doğmağı qadağan edəcəklər. Biz isə Yusiflə abort haqqında heç danışmayacağıq da.*

*Bu, Səid olsa, nə olacaq?*

Hamiləliyin birinci həftəsindən problemlər başladı.

– Mən axı demişdim ki, sizə bir daha doğmaq olmaz! – deyə onun əvvəlki hamiləliklərinə nəzarət edən təcrübəli professor Olesyaya yenidən xatırlatdı. O, Əlinin möcüzəli şəkildə xilas olmasını birmənalı şəkildə özünün nailiyyəti hesab edirdi. – İki uşaq, sizcə, azdır? Bax, əzizim, mən bu işə qol qoymuram. Çıxın, gedin burdan, bir də sizi görməyim.

O, ayağa qalxıb sakitcə otaqdan çıxdı.

Bir də o həkim onu heç vaxt görməyəcək.

Başqa bir həkim tapmaq lazım idi. Olesiya həkim müayinələrinə yazılırdı, rüşvət verməyə çalışırdı (yəni "girov" və ya "təşəkkür"), dövlət xəstəxanalarının dəhlizlərində uzun-uzadı növbələrdə dayanırdı. Hətta bir dəfə müasir özəl klinikalardan birini növbəsiz görüb oraya girməyə cəsarət etdi. Orada da əvvəlki akuşer-ginekoloqların dediklərini təsdiq etdilər (sadəcə onlar bunu demək üçün başqa sözlərdən istifadə etdilər). Heç kəs belə rezus qarşıdurması olan təhlükəli hamiləliyə nəzarət etmək istəmirdi, onun uşağı heç kimə lazım deyildi. Hər kəs öz yaxasını kənara çəkirdi.

– Siz heç təsəvvür edirsiniz, iyirminci həftədə doğmaq nə deməkdir? – Uşağı dünyaya gətirə bilməyəcəyinə əmin olanlar ondan soruşurdular.

– Yəqin dininiz sizə abort etməyə icazə vermir? – deyə onun ailəsinin islam dininə sitayiş etdiyini eşidənlər ehtiyatla ondan soruşurdular.

–Necə, bu artıq sizin üçüncü uşağınızdır? – Bu zərif qadına baxan digər biri isə təəccübləndi. – Uşaqların hamısı da eyni kişidəndir?

O, bu xoşagəlməz suallara cavab verir, hər kəs ona nə isə sübut etməyə çalışır, izah edir, bəhanələr gətirir, amma heç bir həkim onunla məşğul olmağı öz üzərinə götürmürdü. Hər ötən gün onun vəziyyəti bir az daha ağırlaşırdı. Səhər çağı ürəkbulanma və qusmaların öhdəsindən Olesya necəsə gələ bilirdi, axı bu təbii hal idi, həm də o, bunu ilk dəfə yaşamırdı. Əsasən iş yerində, xüsusilə müştərilərlə və rəhbərliklə təcili görüşlər zamanı baş verən başgicəllənmələri və ürəkgetmələri izah etmək çətin idi. Hamı ona tərs-tərs baxmağa başlamışdı. Qısa müddət ərzində firmanın direktoru yeni əməkdaşının hamilə olduğunu anladı.

O isə işdən çıxmalı oldu. Utancverici bir haldır ki, o, heç bir neçə ay da işləyə bilmədi. Ona görə ayıbdır ki, fərdi sahibkar əməkhaqqı yüksək olan bir vəzifəyə işçi təyin etdikdə ondan bu əməkhaqqının hər qəpiyinin haqqını verəcək qədər uzunmüddətli əməkdaşlıq gözləyir. Öz işinin əsl mütəxəssisi olmaq üçün illərlə çalışmaq lazımdır. Bəs o, nə qədər işləmişdi? İndi yenidən işi dayandırmalı və yeni logistika mütəxəssisi axtarmalı idi. Avtomobil hissələrinin satışını təşkil edən firmanın sahibi Aleksandr Vasilyeviç Olesya ilə sonuncu görüşündə məhz belə də dedi. Onu soyuq baxışlarla süzüb:

– İşinizə daha ciddi münasibət bəsləyəcəyinizi gözləyirdim, Olesya İvanovna, – deyə kağız-kuğuzlarının arasında eşələnməyə davam etdi. – Nə deyim, yaxşı, sağ olun. Sizə uğurlar.

O, utana-utana təşəkkür etdi, iş yoldaşları ilə vidalaşıb ordan ayrıldı.

Evə qayıtmaq istəmirdi. Olesya ətrafına baxdı. Ətrafda həyat qaynayırdı. Quşlar oxuyur, otlar səs salır, şəfəq yayan may günəşi

küçələri və evlərin qalın, sıx damlarını yandırıcı istiyə bürüyürdü. Həmin ilin may ayının əvvəlləri, demək olar ki, çox “səxavətli” idi. Şəhər istidən qovrulur, asfalt buxarlanır, avtomobil şinlərinin ərimiş rezinlərinin qoxusu ilə nəfəs alırdı. Olesya rahat nəfəs almaq üçün kölgəyə keçdi. O, bətnindəki kiçik xoşbəxtliyin ilk zərif hərəkətlərini dinləmək üçün daxilindəki səsə qulaq asmaq istədi. Özünün ürək döyüntüsünün səsini eşitdi. Yox, hələ tezdi.

Telefonu götürüb tanış nömrəni yığdı. Sonra yavaş-yavaş uşaqlıqdan yaxşı tanıdığı Kotyubinski prospektindən keçib bər-bəzəkli mərkəzi körpüyə çıxdı. Oradan da yağış sularının cilaladığı hamar və nizamlı çay daşları düzülmüş izdihamlı Soborno küçəsinə gəldi. Bir kvartal da keçdikdən sonra kremli pirojna ilə ətirli yaşıl çayın və ən yaxşı rəfiqəsinin onu gözlədiyi rahat bir qəhvəxananın yay terrasındakı bir masada oturdu.

– Beləcə, məni işdən qovdular, – hər şeyi rəfiqəsinə dedikdən sonra dərin bir nəfəs aldı. – Nə deyim, mən buna layiqəm. Görünür, onlar mənim analıq məzuniyyətinə getməyə bir yerim olsun deyə bu işə düzəldiyimi düşündülər.

– Lap elə tutaq ki, belədir! – deyə günəşin şüalarından yanaqlarına ləkə düşən və alov qırmızısı qıvrım saçları zərif çiyinlərinə dağılan yaşıl gözlü qız gülümsədi. – Hamı belə edir. Sən isə çox güman ki, bunun təsadüfən belə alındığı yeganə adamsan!

– Heç olmasa, sən mənə lağ eləmə, Valeriya! Mən… mən işə çıxanda, həqiqətən, hamilə olduğumu bilmirdim …

– Bilirəm, bilirəm, – deyə Valeriyanın uzun, əyri kirpiklərinin arasından gözlərinin içi güldü. – Səninlə ünsiyyətdə olan hər kəs bunu yaxşı bilir, amma məsələ başqa cürdür. Bundan sonra nə edəcəksən, əzizim?

Olesya bir anlıq düşündü. Doğrudan, sonra nə?

– İşləməyi, əlbəttə ki, unutmaq lazımdır. Həkimlər də ki, cüzam tutmuş adam kimi məndən qaçırlar. Həyat gözəldir! – deyə o, hətta zarafat da etdi. – Həkim-kamikadze axtarmağa çalışacam. Ola bilməz ki, Vinnitsada, heç olmazsa, belə biri tapılmasın!

– Sənin professorun nə dedi?

– O, "mən bu işə qol qoymuram" dedi və məndən imtina etdi. Əlbəttə, mən onu ittiham edə bilmərəm, onun buna bir həkim olaraq tam hüququ çatır. Sadəcə... bütün günü onun sözlərini beynimdə dolandırıram, heç cür yadıma sala bilmirəm ki, onu ən birinci kim demişdi… O, hardan gəldi? Ən birinci bu ifadəni, bu hərəkəti, bu addımı kim atdı?..

– Ponti Pilat[5], – deyə Valeriya cavab verdi.

Bir dəqiqəlik hər ikisi susdu. Sonra Olesya pıçıltı ilə dedi:

– Başqa həkimlər də bu işə qol qoymurlar. Getməyə yerim yoxdur.

Valeriya hind üslublu rəngli sumkasını götürüb içərisindəki hər şeyi stolun şüşə üstünə tökdü. Orada nə yox idi? Balıqqulağından olan qırıq boyunbağı, gümüş çərçivəli çarlaq güzgü, köhnə bloknot, ərimiş şokolad, üzərində telefon nömrəsi yazılmış boş siqaret qutusu, nömrənin kənarı cızılaraq silinmişdi – aydın idi ki, o, bu nömrəyə heç bir zaman zəng vurmayacaqdı... Valeriya Olesyaya yardım edəcəyini düşündüyü əşyanı on dəqiqə hər qadının çantasında gəzdirdiyi mütləq ehtiyac duyduğu şeylər arasında axtardı.

– Al, götür, - deyə tədirgin rəfiqəsinə bir üzündə qara hərflərlə bir neçə söz yazılmış ağ vizit kartı verdi. – Bağışla məni, çox həyasızdır, amma deyirlər ki, Allah vergisi, fitri istedadı olan bir həkimdir. Hətta rüşvət də götürmür.

– Sən bu həkimi hardan tanıyırsan? – deyə Olesya vizit kartındakı adı oxuyaraq təəccüblə soruşdu. – Axı sən heç vaxt uşaq doğmamısan…

Valeriya cavab vermədi, cəld saata baxıb dedi:

– Sən getməlisən. O, yalnız gündüz saat dördə qədər xəstə qəbul edir. Yaxşı olar ki, bu gün gedəsən.

---

[5] Ponti Pilat – yəhudi əyalətinin V prefekti. O, həyat yoldaşı Klavdiya Prokulanın təkidi ilə məhkəmədə İsa Məsihə ölüm hökmü verməkdən üç dəfə çəkinmişdir (*tərc.*).

**Olesyanın xatirələrindən:**

*Hətta bu sirli həkimin qəbulunda olanda belə mən bayaq diqqətsizlik edərək söylədiyim sözlərə görə özümü qınayırdım. Niyə axı mən Valeriyanın doğulmayan uşaqları haqqında sual verdim? Hər kəsin ən yaxın rəfiqəsinə belə söyləmədiyi sirrinin olmasına haqqı var. Niyə vizitkanı götürüb "çox sağ ol" demək bu qədər çətindir?*

*Valeriya mənim ən yaxşı rəfiqəmdir. Biz bir-birimizi uşaqlıq illərindən tanıyırıq. Əvvəlcə bir sinifdə oxuyurduq. Paralel olaraq Valeriya incəsənət məktəbinə, mən isə musiqi məktəbinə gedirdim. Sonra isə biz ayrı-ayrı institutlara daxil olduq və bir müddət əlaqəni itirdik. Yadımdadır, uşaqlıq illərində o, çox ciddi və utancaq bir qız idi: mənim səsim məktəbin dəhlizində və sinif otaqlarında hər zaman həddən artıq yüksəkdən exo verirdisə (deyirdilər ki, musiqi məktəbidir), Valeriyanın səsi heç çıxmırdı. O, heç bir zaman kollektiv idman yarışlarında və diskusiyalarında qalib gələ bilmirdi, çünki onun çox zərif və sakit səsi var idi. Ona görə də o, səs-küyə qarışaraq başqalarının üstünə qışqırmağı, xüsusilə də adi gündəlik mübahisələrlə nəticələnən intellektual müzakirələrə qoşulmurdu. Onu ancaq, həqiqətən, dinləməyi bacaranlar eşidə bilirdi. Onun gözlərini görə bilənlər... Eyni zamanda onun həm də güclü xarakteri var idi. Heç kimə, hətta rəfiqələrinə belə onu Lera və ya Lerka adlandırmağa icazə vermirdi. O, hamı üçün Valeriya idi. Onu dostu adlandırmaq istəyən hər kəs belə adlandırmalı idi.*

*Məktəb illərində biz ayrılmaz rəfiqələr idik. Hələ o zamanlarda Valeriyanın üzərində qəribə bir sirrin görünməz kölgəsi hiss olunurdu – o, heç vaxt rəfiqələrini evinə dəvət etmir, sanki evini yad adamlara göstərməyə utanırdı. Valideyn iclasında onun doğmalarını, demək olar ki, görən olmamışdı. Ya da ki, yox – atası bir neçə dəfə gəlmişdi (o zaman hamı bu arıq sarışın qızcığazın kimə bənzədiyini anlamışdılar), anasını isə bir dəfə də olsun, görən olmamışdı. Valeriya onun haqqında heç vaxt danışmırdı, amma camaat bu*

*qızcığazın anasının içki düşkünü, narkotik vasitələrdən xroniki asılılığı olduğunu, yaxud da həbsxanada yatdığını, analıqdan məhrum olduğunu deyirdilər. Dəfələrlə mən Valeriyadan anası haqda soruşmaq istəmişəm, çünki biz bir-birimizlə hər şeyimizi bölüşürdük. Elə ki, mən ehtiyatla onun anasından söz salırdım, rəfiqəm ustalıqla söhbəti dəyişirdi. Bir dəfə əmək dərsində 8 mart yaxınlaşdığı üçün analarımıza açıqca hazırlamağı tapşırdılar. Bütün sinif böyük həvəslə açıqca hazırlamağa başladı. Bu açıqcalarda sadəcə rəngli kağızlardan deyil, eyni zamanda məxməri, büzməli və rəngli folqa vərəqlərdən kəsilmiş zərlərdən də istifadə olunurdu. Yadımdadır, biz hamımız böyük həvəslə çalışırdıq, ancaq yalnız Valeriyanın açıqcası heyrətamiz idi. O zamanlar onun yaradıcılıq istedadı yeni-yeni özünü göstərməyə başlayırdı. Müəllim rəfiqəmin bu işinə "beş üstəgəl" yazdı və özünü saxlaya bilməyib dedi:*

*– Sən bu gözəlliyi evə aparanda ananın gözlərini görmək istəyərdim!*

*– Onun anası yoxdur, - deyə kimsə arxa partadan qışqırdı.*

*Sinifə sükut çökdü. Valeriya heç nə demədi. Tənəffüs zəngi vurulan kimi öz işlərini götürüb sinifi birinci tərk etdi. Həmin gün o, hətta məni gözləmədən evə getdi. Mən tində rəfiqəmə yetişdim və... gördüm ki, o, öz açıqcasını zibil vedrəsinə tullayır.*

*– Dayan, Valeriya! – deyə açıqcanı onun əlindən almağa çalışdım. – Nə edirsən?..*

*– Mənim anam var, – deyə Valeriya gözlərimin içinə dik baxaraq cümlədəki hər kəlməni tək-tək aydın şəkildə söylədi. – Sadəcə onu bu axmaq açıqcalar maraqlandırmır. O belə şeyə heç baxmaz da.*

*Mən bir daha rəfiqəmdən hər şeyin əslində necə olduğunu soruşmadım. Bilirdim ki, əgər o, özü istəsə, hər şeyi danışacaq. Valeriya isə heç nə danışmadı. Sonra biz düz on il bir-birimizi itirdik...*

*Yenidən qarşılaşanda isə mən onu çox çətinliklə tanıdım! Mənə tamamilə başqa bir Valeriya Xaletskaya baxırdı – məşhur rəssam, bu yaxınlarda isə hamının moda fotoqrafı kimi yaxşı tanıdığı, şəhərimizin bütün qabaqcıl qurumlarının himayədarı... Qadınlar ona*

*paxıllıqla baxır, kişilər isə onun ecazkar baxışlarına heyran qalırdılar. İndi o, ayrı yaşayır. Ecazkar mənzərəli Cənubi Buq çayına baxan rahat bir studiya-mənzili var. Vinnitsanın mərkəzində isə yaradıcılıq emalatxanası icarəyə götürür və qonaqları hər iki evə dəvət edir. Hətta nə vaxtsa qəzetlərin biri onun vanna otağının hər zaman çoxsaylı azarkeşləri tərəfindən göndərilən qızılgüllərlə dolu olduğunu yazırdı.*

*Əslində Valeriya heç vaxt qızılgülləri xoşlamırdı. O, göyçiçəyi*[6] *sevirdi.*

Olesya və Valeriya xarici görünüşləri ilə bir-birindən ciddi şəkildə fərqlənirlər: atəşlə buz kimi. Onlar tamamilə fərqli idilər. Olesya geyimlərində klassik üsluba üstünlük verirdi. Səliqəli fransız manikürü və sadə saç düzümü (çiyin xəttinin altında olan hamar, güzgü kimi parlaq saçlarını sıx bir düyün şəklində və ya "at quyruğu" kimi yuxarıdan yığırdı) var idi. Möhtəşəm qırmızı qıvrım saçlarına uyğun rəngarəng paltarlı Valeriya isə adətən xarici ölkələrə səyahəti zamanı aldığı ekstravaqant bilərzikli əntiq bəzək əşyaları, iri sırğaları və füsunkar şlyapalar geyinirdi. Nazik barmaqlarını həmişə uzun, al-qırmızı dırnaqları bəzəyirdi. Alovlu qırmızı pomadası Valeriyanın iri dodaqlarını daha da cazibəli göstərirdi. Hündür boyu və yüngül bədən quruluşu olduğu üçün o, ağır platforma ayaqqabılar və narahat hündürdaban ayaqqabılar geyinmirdi. Valeriya sanki yerimirdi, uçurdu. Nə vaxtsa Olesya onun yerişini seyr etməkdən xoşlanırdı…

Valeriya piyada gəzməyi çox sevirdi. Baxmayaraq ki, sükan arxasına oturub iyirmi dəqiqəyə şəhərin bir başından o biri başına getmək daha asan idi, amma Olesya da sonradan rəfiqəsinin bu vərdişini mənimsədi. Hamı təəccüblənirdi ki, Valeriyanın şəxsi maşını niyə hələ də yox idi (axı buna onun imkanı çatırdı)? Ehtiyacı olanda taksidən istifadə edirdi, bəzən trolleybus və ya tramvaya

---

[6] Göyçiçək – ədəbiyyatda bəzən bu gülə güləvər (lat. Centaurea) adı ilə də rast gəlinir. Mürəkkəbçiçəklilər fəsiləsinə aid bitki növüdür (*tərc.*).

da minirdi. Rəssamın qəti şəkildə qəbul etmədiyi yeganə nəqliyyat vasitəsi mikroavtobuslar idi. Mikroavtobuslarda o, özünü narahat hiss edirdi. Ətrafdakılar bunu rəssamın zərif yaradıcılığının kiçik möcüzəsi hesab edirdilər. Onlar hardansa eşitmişdilər ki, bütün yaradıcı adamların öz möcüzələri olur. Olesya isə onda heç bir "qəribəlik" axtarmırdı, o, sadəcə öz rəfiqəsini olduğu kimi qəbul edirdi. Onun haqqında tez-tez düşünürdü, amma onu necə tapa biləcəyini bilmirdi. Valeriya heç yerdə əlaqə nömrəsi qoymurdu və sosial şəbəkədən də istifadə etmirdi…

Onlar artıq yetkin qadın olanda görüşdülər, yenə bir-birlərindən atəş və buz kimi fərqlənirdilər. O zamanlar Valeriya hansısa sənət layihəsi çərçivəsində qadınlara fotoşəkil çəkmək üçün master-klass keçirdi. O gündən etibarən bir-birini bir daha itirmədilər. Elə həmin vaxtlarda ad günü münasibəti ilə həyat yoldaşı Olesyaya peşəkar fotokamera hədiyyə etmişdi. O isə çəkdiyi şəkilləri sata bilmək üçün qarşısına peşəkar fotoqraf olmağı məqsəd qoymuşdu. Valeriya ona saxlama, perspektiv və kadrın nə olduğunu başa salırdı, nəticədə isə belə məlum oldu ki, Olesya rəfiqəsinə ünsiyyətdə saxlama və perspektivin nə olduğunu başa sala bilər. Ona görə ki, gənc rəssam sevgi məsələlərində çox rahat davranırdı. Hər iki əlin barmaqları Valeriyanın sevgililərini saymağa yetməzdi. Hər dəfə rəfiqələr görüşəndə onun dəli kimi sevdiyi yeni sevgilisi olurdu. Növbəti görüşdə isə məlum olurdu ki, o, amansızcasına onun qəlbini qırıb. O, yenə tənha və bədbəxtdir. Bu, onun ölümcül karması[7] və ömürlük lənətidir.

– Mən saçlarımı rəngləməyə başlamışam, – deyə bir dəfə Valeriya parlaq sarı, qıvrım saçlarını yelləyərək etiraf etdi. – İnanırsan, ağ saçlarım əmələ gəlib?

---

[7] Karma – Hinduizm, buddizm, çaynizm, siqhizmdə istifadə edilən bir termindir. Karma qanunu, qısaca, hər həyatın, əvvəlki həyatlarda edilən hərəkətlərin nəticəsi kimi meydana çıxması əsasına söykənir. Yəni, insanın etdiyi heç bir hərəkət nəticəsiz qalmayacaq və onun müqəddəratının təyin olunmasında səbəb rolunu oynayacaq. Heç bir səbəb hər hansı bir nəticə yaratmadan yox olub gedə bilməz (*tərc.*).

– Bəsdir! – Olesya onu sakitləşdirməyə çalışdı. – Mən inanıram ki, bu, sənə elə gəlib.

– Kaş ki! Bunu İqor görüb. Beləcə, o öyrəndi ki, mən ondan beş yaş böyüyəm...

– Beş il nədir ki, özün bir fikirləş?

– Biz səninlə elə düşünürük! O isə universiteti yenicə bitirib. Yəqin o mənə bir daha zəng etməyəcək…

Olesya stuldan qalxıb iti addımlarla Valeriyaya tərəf gəldi. Kişilərlə potoloji olaraq uğursuzluq yaşayan rəfiqəsini köksünə sıxaraq bərk-bərk qucaqladı. Həmin anda ona elə gəldi ki, o, kişi etinasızlığının ruhunu və bədənini əzib keçdiyi bütün qadınları qucaqlayır. O istədi ki, Valeriyaya, sonra isə onların hər birinə – özünü itirmə, hər şey yaxşı olacaq, sənin həyatın hələ indi başlayır deyə. Sadəcə öz yolunu tapmalısan. Hər kəs ərə gedib uşaq doğur deyə sən də qarşına ilk çıxan insanla evlənib uşaq doğmalısan? Axı cəmiyyətimizdə elə məhz belə də qəbul olunub. Hər şeyin öz vaxtı var. Əgər bu şüurlu şəkildə səni cəlb etmirsə, bəlkə sənin indi uşaqlı bir ailəyə ehtiyacın yoxdur? Bəlkə insanlar üçün vacib və əhəmiyyətli olan başqa bir missiyan var?

**Valeriyanın etiraflarından:**

*…O, hələ də bilmir ki, o vaxt mənim həyatımı xilas edib. Mən, həqiqətən, ən son həddə idim. İstəsən də, istəməsən də görünməz və qorxunc bir hiss səni quyunun dibinə çəkib saldığı anda sadəcə o uçuruma yuvarlanmamaq üçün bir dost əlinə ehtiyacın olur. Köməyə çağırsan da, heç kəs səni eşitmir… Hər hansı başqa rəfiqəm mənə "narahat olma, daha yaxşısını tapacaqsan" deyərdi. Mənimlə birlikdə içki içərdi. Olesya isə içki içməməli olduğumu başa düşən yeganə insan idi və "ən yaxşısı" haqqında danışmağa ehtiyac olmadığını bilirdi (hətta o zaman sonrakı yorucu sevgi axtarışının düşüncəsi belə məni vahiməyə salırdı). O ümumiyyətlə, qəribə bir şəkildə insanların hiss və düşüncələrini duymağı, illər-*

*dir yığılıb qalan ağrı-acını öz üzərinə götürməyi və o acıları səninlə yarı bölməyi yaxşı bacarırdı.*

*Mənim içimdəki ağrı-acı isə bir xeyli yığılmışdı. Məktəbdə məni cılız hesab edirdilər. Mənə orada çox çətin idi – nazik, əyri ayaqlar, yanağımdakı çillər, heç bir zaman səliqəyə sala bilmədiyim hərəsi bir tərəfə əyilən sarı-narıncı saçlar... evdə isə kimsənin mənim saçlarımı daramaq ağıllarına belə gəlmirdi... Sonradan alov rəngli saçlarım mənim vizit kartım və qürur mənbəyim olacaqdı, məktəbdə isə cüzam tutmuş adam kimi sarı saçlarım hamını məndən uzaqlaşdırırdı. Bu, demək olar ki, sarı doğulan hər kəsin başına gəlmişdi. Mən o vaxt səliqəli, düz, açıq-qəhvəyi saçlarımın olmasını arzulayırdım (qızların əksəriyyətində olduğu kimi), yaxud da sarışın mələk (seçilmiş insan kimi), ya da möcüzəli şəkildə parlaq tünd-qəhvəyi rəngdə iri, mavi lentli hörüklərim olaydı, çünki bizim sinifdə ən ağıllı qızın saçları belə idi. Onun adı Olesya idi. O, mənə lağ etməyən yeganə adam idi. Görəsən, bizim rəfiqə ola biləcəyimizə ümid bəsləyə bilərdimmi?*

*Dostluğumuz onun evdən gətirdiyi taxta saç darağı və yaşıl atlas lent ilə başladı. Böyük tənəffüs zamanı Olesya sakitcə mənim dağınıq, qıvrım saçlarımı daradı və onları lentlə bağladı.*

*– Sənə yaşıl çox yaraşır, – deyə mənim saç düzümümü seyr etmək üçün bir addım arxaya çəkildi.– Gözlərinin rənginə düşür.*

*O gündən etibarən mən artıq “sarışın” olmadım, başqa uşaqlar isə yaxınlaşıb mənimlə dostluq etməyə başladılar. Olesyanın mənə doğru bir addım atması kifayət etmişdi...*

*Mənim onunla on il görüşmədiyim doğru deyil. Mən onunla xəyallarımda hər gün görüşürdüm. Çalışırdım ki, mənim hər şəklimə onun reaksiyasını təsəvvür edim (yaşıl rəng çox deyil ki?). Onun irad tuta biləcəyi ən kiçik nüansı belə əvvəlcədən düşünürdüm – bir sözlə, onun uzaq məsafədən deyə biləcəyi və rəssam üçün ilk və ən vacib rəy hesab etdiyim fikirlərini duyurdum. Sanki o, mənim yanımda idi və kömək edirdi. Düşünəndə ki, bu iş Olesyanın xoşuna gəlməyəcək mən tamamilə hazır olan işin üzərinə qara rəng*

*tökür və onu zibilə atırdım. Heç bilmirəm ki, mən niyə ondan bu qədər çarəsizcəsinə asılı idim. Bəlkə heç bir zaman bacım olmadığına görə? Valideynlərimlə tək böyümüşəm, amma deyəsən, mənim tək olmağım belə onlara çox gəlirdi.*

*Mən hər zaman güclü olmağa çalışmışam. İçimdəki qara ruhları yalnız öz emalatxanamda buraxa bilirəm. Onlar mənim rəsmlərimi çəkdiyim kətan üzərində canlanırlar. Sifarişçilər mənim gecə kabuslarımı almaq üçün külli miqdarda pul ödəyirlər. Mən isə artıq oyanmaq istəyirəm. Yenidən doğulmaq istəyirəm. Başqa birisi olmaq istəyirəm. Mən bunu ona heç vaxt deməmişəm, amma Olesya mənə nə iləsə Mona Lizanı xatırladırdı – eyni oval, yuvarlaq bədən forması, gözəl əllər, parıldayan ala gözlər, dodaqları güclə bir-birinə dəyən sakit gülümsəmə... Adama elə gəlir ki, onun gücü çatsaydı, bütün dünyanı qolları arasında alıb hər şey yaxşı olana qədər buraxmazdı.*

*Sonra mənim Mona Lizam ərə getdi. Bunu eşidən kimi o dəqiqə düşündüm – bu, yer üzündə ən layiqli adam olmalıdır, axı ona əbəs yerə belə xəzinə qismət ola bilməz! Elə belə də oldu, mən Yusiflə yaxından tanış olduqdan sonra buna əmin oldum.*

*Olesya və Yusif – möcüzəli şəkildə yolları kəsişən iki fərqli dünyanın adamları idilər. Heç kim sona qədər onların bir yerdə ola biləcəyinə inanmırdı, axı onları həddən artıq çox şey bir-birindən ayırırdı. Çox çətin ki, onlar bir-biri üçün yaradılmışdı – kilsə xorunda oxuyan ukraynalı qız və taleyi Allahın iradəsinə buraxılan azərbaycanlı oğlan. Buna baxmayaraq, bir-birinə doğru can atırdılar. Onların heç biri seçdikləri bu yoldan geri çəkilmədilər. Hər ikisi də zəmanənin, yerin, şəraitin pis olduğunu nəzərə almadan, dostların və tanışların qınağına, valideynlərinin qəzəbinə və qəlblərinin dərinliyindəki qorxu və şübhələrə əhəmiyyət vermədən öz "səhərlərinə" doğru inadla addımlayırdılar. Yəqin ki, belə bir cəhənnəm əzabından keçmək üçün yalnız sevgi kifayət deyil. Bu, daha çox şey idi. O, elə bir şey idi ki, onu Mona Liza bizə deyə bilmirdi. Nəyə görəsə mənə elə gəlirdi ki, Leonarda onun rəsmini*

*çəkəndə Mona Liza da bətnində uşaq daşıyırdı, yoxsa bu rəsm əlimizdə olandan bu günə qədər əsrlər boyu bütün bəşəriyyəti isidən baxışlarındakı hərarət hardandı?!*

Xəyallara dalan Olesya üzün müddətdir zəng çalan telefonunun səsini gec də olsa, nəhayət ki, duydu. Telefonu açanda Valeriyanın həyəcanlı səsini eşitdi:

– Sərt sözlərimə görə bağışla məni. Yadımdan çıxmışdı ki, sənə indi həyəcanlanmaq olmaz… Eşidirsən, həkimdən çıxan kimi mənə zəng vur. Hər şeyin yaxşı olduğunu bilmək istəyirəm.

Olesya gülümsəyərək telefonu söndürdü. Artıq onun növbəsi çatmışdı. Familyasını eşidən kimi stuldan qalxıb kabinetin qapısında dayandı.

Qarşı tərəfdə stolun arxasında orta yaşlı gözəl və baxımlı bir qadın əyləşmişdi: qalın qara saçları ciddi saç düzümü stilində yığılmış, boğazında nazik qızıl boyunbağı asılmış, kraxmallı ağ xalatın altından isə tünd-gavalı rəngli zərif ipəkdən bahalı paltarı görünürdü. Köynəyin rəngilə parıldayan gözlərində əvvəlcə narahatlıq dolu sorğu-sual (Olesya içəri girən kimi salamlaşmışdı), sonra diqqət (Olesyanın tibbi kartı həkimin stolunun üstündə idi), nəhayət, təəccüb, maraq və bir qədər də əsəb var idi.

Söhbətə başlamaq lazım idi.

**Həkimlə söhbətdən:**

*O, mənim yanıma hamiləliyin səkkizinci həftəsində gəlmişdi. Ağbəniz, qəhvəyi saçlı, zərif üz quruluşlu və iri qəhvəyi gözlü bir qız idi. Analizləri yaxşı heç bir şey vəd etmirdi. Çətin ki, uşaq ananın rezus-faktorunu mənimsəyə. Görünür, o, özü də tərəddüd edirdi. Mənimsə iş gününün sonunda başqalarının tərəddüdləri ilə məşğul olmağa həvəsim yox idi. Yoxsa o, elə fikirləşir ki, mən burda onun əvəzinə hər şeyi həll etmək üçün oturmuşam?*

*– Sənə abort etməyi təklif ediblər? – deyə mən ondan soruşdum.*

*O, başını yellədi. Bu, məni daha da qəzəbləndirdi:*

*– Dayan, qoy mən deyim. Həkimlər belə problemli hamiləliyə nəzarət etməkdən boyun qaçırırlar. Onlar öz statistikalarına, eyni zamanda nüfuzlarına xələl gətirmək istəmirlər... Niyə sənə elə gəlir ki, bunu mən edəcəm?*

*– Deyirlər ki, siz başqaları kimi deyilsiniz, – deyə o, yavaş səslə dilləndi. –Nüfuzunuz sizi maraqlandırmır, siz sadəcə işinizi yaxşı görürsünüz.*

*Mən gülməyə başladım. Heç qadın məsləhətxanasının aparıcı həkim-akuşerinə yaxınlaşıb belə şey demək olar?! Gülərkən, eyni zamanda adətim üzrə onu fakt qarşısında qoydum:*

*– Əgər qorxursansa, əvvəlcədən de! Abort çox zaman almır. Ertəsi gün evə qayıda bilərsən. Bir həftədən sonra orqanizmin də özünü bərpa edəcək. Yaxşı olacaqsan.*

*– Qorxmuram, – qız gözləri parıldaya-parıldaya dedi. – Yalnız sonradan düzəldə bilməyəcəyimiz məni qorxudur. Bizdən asılı olan hər şeyi etdiyimizə əmin olmalıyıq, əks təqdirdə ömrümüzün sonuna qədər o həlledici məqamı ağlımızda dolandırıb suallar qarşısında aciz qalacağıq: niyə biz səhv etdik, niyə hər şey yanlış oldu və niyə hər şeyi geri qaytarmağa gücümüz çatmadı? Sözsüz ki, biz bu suallara cavab tapacağıq, lakin çox dəyərli zamanı itirmiş olacağıq və bu, bizim cəhənnəm əzabımıza çevriləcək. Ona görə də qorxmuram, – deyərək təkrarladı və... mən də artıq qorxmadım.*

*Kaş onun gözlərini görəydiniz. O, gözlərini mənə zilləmişdi. Qışqırmırdı, günahlandırmırdı, mümkün olmayan heç nəyi tələb etmirdi. Sadəcə sakitcə gözünü mənə zilləyərək danışırdı. Onun gözlərindən alov çıxmırdı, amma o baxışlardan mən özümü narahat hiss edirdim. İsteriya durğuzsaydı, daha yaxşı olardı. O zaman mən onu çölə salardım, unudardım və iş gününün sonunda tər-təmiz vicdanla evə gedərdim. Axşam yeməyi yeyərdim. Qabları yuyardım. Heç bir zaman dəstəyi qaldırmayan artıq böyümüş qızıma*

*zəng vurardım. Yuxugətirici həbləri içib yatardım. Səhər isə bir dəfə də olsa, bu qəribə hamilə qadını xatırlamazdım.*

*O isə sadəcə baxırdı. Anladım ki, əgər o, indi qalxıb getsə, mən nə bu axşam, nə də növbəti gecə yata bilməyəcəm. O zaman mən ondan sadəcə soruşdum:*

*– Sən mənimlə birlikdə risk etməyə hazırsan?*

*O, stuldan sıçrayıb məni qucaqladı:*

*– Kristina Viktorovna, siz mələksiniz!..*

*– Mən mələk deyiləm. Qanadlarım yoxdur.*

*Əgər mənim qanadlarım olsaydı, mən çox uzaqlara uçub gedərdim. Həyat burulğanında itən bircə qızımı qucaqlayıb ona "hər şey yaxşı olacaq. Anan yanındadır" deyərdim, amma mən mələk deyiləm. Heç mənim qızım da mələklərə inanmır. Görünür, bu, mənim səhvimdir.*

*İndi mənim uşaqlarım pasiyentlərimdir. Bu sözləri isə mən onlara deyirəm: hər şey yaxşı olacaq. Deyirəm, ona görə ki, zamanında mən bu sadə həqiqəti öz doğma övladıma sübut edə bilmədim.*

Günlər keçir, həftələr ötür, onlar da, öz növbəsində, uzun və yorucu ayların günlərini ilmə-ilmə toxuyurdular. İsti yay günlərini sakit payız axşamı əvəzlədi. Olesya uzun zamandan bəri ilk dəfə idi ki, hər şeyin yaxşı olacağını düşünürdü. Kristina Viktorovna çox əminliklə onun hamiləliyinə nəzarət edirdi. Baxmayaraq ki, göstəricilər 1:2048 nisbətində idi və bu, həkimi o qədər də rahatlatmırdı, amma onlar yenə də hər həftə qandakı anticismin səviyyəsini ölçmək üçün analiz verirdilər. Olesya Əlini anticismin bu nisbətində dünyaya gətirmişdi. Ona görə də əminliklə demək olardı ki, döl heç bir fəsad və anomaliyalar olmadan stabil inkişaf edir.

– Bu, oğlandır. Düşünürəm ki, uşağın cinsiyyətini bilmək sizin üçün çox vacibdir, – deyə Kristina Viktorovna ultrasəs müayinəsinin başlığını yenicə yuvarlanmağa başlayan hamilə qadının qarnından çəkdi. Olesya və Yusif bir-birlərinə baxdılar. Deyəsən,

onlar bunu artıq bilirdilər. Hər ikisinin gözləri yaşla doldu. Əlbəttə ki, həkim artıq ultrasəs müayinəsindən sonra anaların həyəcandan göz yaşlarına boğulmasına vərdiş etmişdi, amma ilk dəfə idi ki, gələcək uşaq haqqındakı xəbəri atanın ürəyinə bu qədər yaxın buraxmasının şahidi olurdu…

Yusif çox heyrətamiz insandır, başqa kişilər kimi deyil, – deyə o fikirləşdi. Sonda isə cütlüyə maraqlı bir xəbər verdi:

– Ukraynada rəhimdaxili qan köçürməsi təcrübəsinə başlanılır – göbək damarı vasitəsilə embriona ultrasəs müayinəsi altında eritrosit kütlə vurulur. Xaricdə bu metod çox uğurla həyata keçirilir və rezus-qarşıdurmanın nəticələrini aradan qaldırır. Təəssüf ki, bizdə bu, hələ başlanğıc mərhələsindədir[8], – deyə Kristina Viktorovna güclə nəfəs ala-ala sözünə davam etdi. – Başa düşürsünüz, bu, zərgər dəqiqliyi ilə aparılan bir əməliyyatdır. Ən çətini də odur ki, bir neçə millimetr diametri olan o damara hətta iynə ilə düşməyə də bilərik. Hələ bir saat ərzində o damarda "dayanmaq" daha ağırdı. Axı göbək damarı dölətrafı suda daima hərəkətdədir… Onun yanında isə iki arteriya damarı yerləşir ki, ona qəti şəkildə əl vurmaq olmaz. Əks təqdirdə uşağın ürəyinin dayanması ilə nəticələnən güclü qanaxma baş verər… Sizin hamiləliyiniz yaxşı inkişaf edir, ona görə də mən indi sizə belə bir sınaqdan keçməyi məsləhət görmürəm, sadəcə istəyirəm biləsiniz ki, bir alternativ yol var[9].

Onun sözlərində bir inam var idi və o, bu inamı bizə də aşılaya bilirdi. Olesya özünü yaxşı hiss etməyə, hər andan zövq almağa, daha çox gülməyə və əvvəllər hiss etmədiyi xırda şeylərə ürəkdən heyran olmağa başlamışdı. İndi o, vaxtının çox hissəsini uşaqlarla keçirir, həyat yoldaşı ilə daha çox söhbət edir, daha tez-tez valideynlərini ziyarət edirdi. O, yaşamaq üçün tələsirdi, çünki

---

[8] 2011-ci ilin göstəriciləri nəzərdə tutulur (*müəllif*).

[9] Ukraynada ilk dəfə rəhimdaxili qan köçürülməsi 2012-ci ilin əvvəlində Krivoy Roq Tibbi Genetika və Perinatal Diaqnostika Mərkəzində uğurla həyata keçirilmişdir. Əməliyyatı müəssisənin baş həkimi Mikola Veropotvelyanın rəhbərliyi ilə yerli tibb mütəxəssislərindən ibarət qrup yerinə yetirmişdir (*müəllif*).

həyat bu gün əlimizdə olanımızdır, sabah isə onun üçün sadəcə təəssüflənəcəyik. Hər şeyə vaxtı çatdı – sübh tezdən oyandı, həyat yoldaşı yuxu görüb-görmədiyini anlayana qədər onu öpdü, sakitcə yataqdan qalxıb mətbəxə keçdi. Yusif də onun arxasınca qalxıb uşaqları oyatmasın deyə sakitcə otaqdan çıxdı. Olesya iki fincan isti qəhvə ilə pəncərənin ağzında onu qarşıladı və onlar günəşin çıxmasını birlikdə seyr etdilər. Səmanın rəngdən rəngə düşməsini səssizcə izlədilər. Sonra isə bir-birlərinə dəfələrlə sevgi etirafı edərək yuxularını və gün ərzində görəcəkləri işlərdən danışdılar. Bu səhər çağının ilk saatları məhz onların özlərinə məxsus idi. Ən azından uşaqlar oyanana qədər. İki cüt körpə, yalın ayaqlar (iki uşağın səsi ilə birlikdə) yerə çırpıla-çırpıla mətbəxə girəndə Yusif dərhal oğlunu və qızını qucağına aldı, Olesya isə süfrə açmağa başladı.

Səhər sona yetdi, gün başladı. O, uşaqları yedirdib yığışdırdı. Yusif isə onları bağçaya apardı. Sonra məşq etmək üçün idman zalına getdi, oradan da işə yola düşdü – o, artıq üç il idi ki, Vinnitsanın gecə klublarından birində təhlükəsizlik xidmətinin rəisi vəzifəsində çalışırdı. Bu, onun arzuladığı bir iş deyildi. Əslində o, dərs demək imkanı qazanmaq üçün dörd il ard-arda yerli pedaqoji universitetin qiyabi şöbəsinə daxil olmağa çalışırdı, sonra isə əgər imkan olsa, elmi iş yazmağı düşünürdü. Təəssüf ki, bu günə qədər bu, mümkün olmurdu. Hər il uzun müddət sənəd toplayaraq qəbul imtahanlarına hazırlaşır, amma həmişə onun qəbul olmasına bir şey mane olurdu – ya Təhsil Nazirliyinin onun bütün əvvəlki nailiyyətlərini gözardı edən növbəti yenilikləri, ya da göstərilən yüksək keçid balını toplaya bilməməsi… Yusifə açıq şəkildə tanış axtarmaq və ya kiminləsə razılığa gəlmək lazım olduğunu bildirdilər. O isə öz məqsədinə doğru inadla addımlayırdı – universitetə daxil olmaq, oxumaq və pulla deyil, öz gücü hesabına diplom almaq həvəsində idi.

– Əgər mən universitetdə özümə bir yer satın alacağamsa, sonra Leylanı və Əlini necə yaxşı oxumağa inandıracağam? – de-

yərək bu, Yusifin dəyərlər sisteminə daxil ola bilmirdi. Vətəndaşlıq alandan o, həqiqətən də, bu şəhərin, bu ölkənin bir parçası olmağa çalışırdı. Ona vətəni və övladlarının evi kimi hörmət edirdi.

Bu ölkə isə qollarını açıb onu qoynuna almağa hələ tələsmirdi…

**Olesyanın xatirələrindən:**

*Biz ailədə ukraynca danışırıq. Yusif belə qərara gəlmişdi. Məsələ burasındadır ki, biz bir-birimizin doğma dilini bilmədiyimiz üçün rus dilində ünsiyyət qururduq. Baxmayaraq ki, Ukrayna dilini öryənmək Yusif üçün o qədər də asan olmadı, amma o, inadkarlığı və ciddi səyi nəticəsində mənim dilimi öyrəndi. Mən isə bir az Azərbaycan dilini öyrənmişdim. Həyat yoldaşım kifayət qədər məndən qabaqda idi, çünki biz onun öyrənməyini daha da asanlaşdıran Ukrayna dilli bir mühitdə yaşayırdıq.*

*– Bilirsən, ukraynca rəsmi olaraq dünyada ikinci ən ahəngdar dildir? – deyə bir dəfə mən mətbəxdə günorta yeməyi hazırlayarkən Yusif məni otaqdan çağırdı.*

*Mən bilmirdim, ancaq dərhal etiraf etməməyə qərar verdim. Əllərimi yuyub otağa keçdim. Onun yanında oturub nəzakətlə soruşdum:*

*– O zaman dünyanın ilk harmonik dili hansıdır?*

*– İtalyan, – deyə Yusif mənə öz eşqini italyan dilində etiraf etdi.*

*O vaxtdan bizdə bir-birimizə dünyanın müxtəlif dillərində eşq elan etmək vərdişi yarandı. Bu, heç kimin bilmədiyi sirrimiz idi. Keçən həftə mən ona qol-qanadı qırıq fransız dilində sevgimi etiraf etdim. Cavabında isə o sözləri ivrit dilində eşitdim, ardınca ispan, portuqal və hətta yapon dilində dedi. Dəhşət, demək olar ki, Yusifin danışığında heç bir şivə hiss olunmurdu. Mən ingilis dilini yaxşı bilir, italyan dilini bir az başa düşür (axı mənim bacım İtalyadadır) və inanılmaz həyəcanla həyat yoldaşımın doğma dilini öyrənməyə başlamışdım.*

*İndi öz eşqimi ona ərəb dilində etiraf etməyə hazırlaşıram. Bu, Quranın yazıldığı dildir. Bilirəm ki, Yusifin xoşuna gələcək.*

İşdən çıxandan sonra Olesyanın boş zamanı çox olurdu. O, tək qalanda heç vaxt darıxmırdı – boş vaxtlarında kitab oxuyur, xarici dil öyrənir, musiqiyə qulaq asır, dadlı yeməklər bişirir, nahardan sonra isə fotoaparatı da götürüb şəhərə çıxırdı. Şəhərin izdihamlı meydanlarını, enli küçələrini çox sevirdi. Hər dəfə də kadıra düşən yeni, mişli görünməmiş gözəlliyə sahib olan mənzərələr onu heyran edirdi. Xüsusilə ətrafındakı tikililərin böyük əksəriyyəti ötən əsrin əvvəllərində şəhər memarı Qriqori Artınov tərəfindən inşa edilmiş qədim Su qülləsi[10] yaxınlığındakı rahat mənzərəli küçələri gəzməyi çox sevirdi.

Budur, bu küçə onun adını daşıyır (sovet hakimiyyəti illərində o, 9 yanvar küçəsi adlanırdı, daha əvvəllər isə Bulvar küçəsi adlanırdı). Olesya açıq-mavi rənglə rənglənmiş köhnə sovet fasadlı kiçik ikimərtəbəli evin qarşısında dayandı. Sakit görünüşə sahib olan ev ona kədərli göründü, sanki elə indicə musiqi səsi möhkəm bağlanmış pəncərələrdən zəfərlə yayılacaqdı. Binanın əyri fasadı arfaya bənzəyirdi və mülkün ətrafındakı qədim hasar isə heyrətamiz şəkildə bir sobaya bənzəyirdi…

General Brusilovun şərəfinə xatirə lövhəsi vurulan məşhur ev... Əslində Birinci Dünya Müharibəsi veteranı Aleksey Brusilov burada heç bir zaman yaşamamışdır. Vinnitsada həyat yoldaşı Nadejda Jelixovski ilə birlikdə olduğu müddətdə isə o, indiki Teatr adlanan küçədə qalırdı. Daxili İşlər Nazirliyinin hazırkı idarəsində o zamankı yüksək rütbəli hərbçilərin ailələri ilə birlikdə yaşadığı

[10] Su qülləsi – Vinnitsanın simvolu hesab edilir. Qüllə XX əsrin əvvəllərində memar Qriqori Artınovun layihəsi ilə şəhərin içməli və istifadəyə yararlı suyunun saxlanılması üçün inşa edilmişdir. İkinci Dünya müharibəsi illərində müşahidə məntəqəsi kimi xidmət göstərən bu tikili daha sonra şəhər rəhbərliyi tərəfindən su təchizatı işçilərinin ailələrini məskunlaşdırdığı "çoxmənzilli bina"ya çevirmişdir. Hal-hazırda burada Əfqanıstanda döyüşlər zamanı həlak olmuş əsgərlərin xatirə muzeyi yerləşir (*müəllif*).

böyük bir ev var idi. O ev, təəssüf ki, qorunub-saxlanılmayıb. Ötən əsrin ortalarında isə qəflətən Brusilovun xatirəsinə ehtiram göstərməyə ehtiyac duyulduqda (ölkəyə qəhrəmanlıq nümunələri lazım idi) bir az utancverici bir hal yaşandı – sovet idarəsinin (Daxili İşlər Xalq Komissarlığı cəhənnəmində) üzərində lövhə asmaq o qədər də münasib deyildi. Nəticədə, onun bolşeviklərlə əlbir olmasına baxmayaraq, bu binada əvvəllər bir çar ordusunun generalının yaşadığı qeyd olunmuşdu... Həmişə olduğu kimi, yalan danışmaq qərarına gəldilər – 9 yanvar küçəsindəki mavi ev haqqında bütün məlumatlar arxivdən silindi və Brusilovu orada "yerləşdir"dilər.

Sonradan bina mənzillərə bölündü, uşaqları, pişikləri və itləri olan gənc ailələr orada məskunlaşdırıldı, o isə… susurdu, onun tarixini oğurladılar, doğum və ölüm haqqındakı xatirələri belə əlindən alındı. Hələ də bu binanın kim tərəfindən inşa edildiyi məlum deyil, amma deyirlər ki, bu, sadəcə adi bir bina deyil, başqalarının kədərinə qoyulmuş abidədir. Deyilənlərə görə, bunu bir nəfər arfa çalmağı sevən mərhum gənc arvadının və qızının əziz xatirəsinə inşa etmişdir… Bu, şəhər memarı Qriqori Artınov idi? Axı onun iki qızı var idi – Sofiya və Emilya… Bəlkə başqa bir tənha dul kişi və ya əlacsız ata idi? Biz artıq bu haqda heç bir zaman heç bir şey bilməyəcəyik. Heç olmazsa, pilləkənlərdə adlar yazılmış yerlər qorunub-saxlanılmışdır, ancaq xatirə lövhəsindəki "fırıldaqdan" sonra buna kim inanar?

Olesya düşündü ki, maraqlıdır, görəsən, binadakı mənzillərə "yerləşdirilən" indiki sakinlər nə vaxtsa gecə yarısından sonra səssiz-səmirsiz, güclə eşidilən musiqi səsinin hardan gəldiyi haqda düşünüblərmi? Çox güman ki, bu əsrarəngiz səslər döşəmədən, tavandan, divarlardan və ya pəncərədən gəlir, amma heç kəs nə baş verdiyini anlamır. Əgər indi solğun şüşələrə baxsan, evdəki mərmər pəncərəaltının və parketin qırıldığını, hətta divarların da dağıldığını görəcəksən… Birinci mərtəbədəki üçotaqlı mənzilin sahibləri evi əsaslı təmir etmək qərarına gəlmələrinə baxmayaraq, özlərindən elə şeylər icad etdilər ki…

Olesya artıq fotoşəkil çəkmirdi, sadəcə baxırdı. Təəccüblü də olsa, onun enerjini hiss etmək qabiliyyəti var idi. Dostları və tanışları onunla zarafat edərək deyirdilər ki, onu pişik əvəzinə yeni evə buraxmaq lazımdır. O, evin hər küncündəki auranı səhvsiz hiss edəcək…

Onun ikinci sevimli məkanı Pervomayski[11] küçəsindəki gəmi-ev idi. İndi orada İncəsənət məktəbi yerləşir, amma nə vaxtsa Vinnitsada vəkil olan kapitan Lyubomir Dluqolenskinin əzəmətli malikanəsi idi. Onun evi, həqiqətən, gəmiyə oxşayırdı: elliptik kəsilmiş gəmi sarğısı şəklində pəncərə, rizalit[12] və nazik erker[13] gəminin burnunu, kil və xiymə isə Renesans dövründəki sarayları xatırladır. Deyirlər ki, malikanənin ətrafında döymə üsulu ilə hazırlanmış dənizin dalğalarını xatırladan bir hasar var idi, lakin indi o hasar sadəcə xatirəyə çevrilib. Görünür, Dluqolenskinin ailəsindən kimsə dənizi çox sevirdi. Olesya hardansa eşitmişdi ki, onların babası gəmi həkimi idi…

Özünü tanıdığı gündən həmişə burada belə bir möcüzənin kim tərəfindən qurulduğu haqda düşünürdü. Təəssüf ki, kitabxana arxivlərində araşdırma heç bir nəticə vermirdi: memar naməlum olaraq qalırdı. Yenə də sadəcə təxmin edərək bunun Qriqori Artınov olduğunu deyə bilərik. Axı bəzi elementlər və malikanənin ümumi üslub istiqaməti onun işinə olduqca xarakterikdir. Bolşevik partiyası hakimiyyətə gəldikdən sonra Lyubomir Dluqolenskinin

---

[11] Pervomayski – şəhərin ən çox adı dəyişdirilən qədim küçələrindən biri. XVII əsrdə bu küçə Dolqo adlandırılmışdır. Bunun ardınca Kapusin küçəsi, daha sonra isə Tarqovı, 1910-cu ildə Romanovlar sülaləsinin 300 illiyi şərəfinə Romonov küçəsi adlandırılmışdır. 1921-ci ildə sovet hakimiyyəti onu ilk dəfə Pervomayski adlandırdı. Almanlar şəhərə daxil olanda küçə üç il müddətinə Böyük Vladimirin adını daşımışdır. Artıq 1944-cü ildə o, yenidən Pervomayski adlandırıldı (*müəllif*).

[12] Rizalit – və ya rezalit. Binanın ana gövdəsində çıxıntı şəklində olan və tam hündürlüyü ilə gedən hissəsidir. Bu memarlıq elementi binanın mərkəzi hissəsi ilə simmetrik olur (*tərc.*)

[13] Erker – birinci və ya sonrakı mərtəbələrdə xaricə uzanan qəfəsli otaq bölməsi (*tərc.*).

ailəsinin hər şeylərini itirdiyini və onların evlərində Qırmızı kazakların qərargahının yerləşdiyini nəzərə alsaq, sənədlərin qorunub-saxlanılmaması o qədər də təəccüblü deyil… Zamanın dərinliklərindən ötüb gələn qədim malikanənin aurası əzəməti, zərifliyi və bir qədər də gizli qalan sirləri ilə xilas ola bilmişdi.

Olesya “Savoya” otelini[14] Vinnitsanın ən mistik və sirli yeri hesab edirdi. Deyirlər ki, bəzən turistlər qışda buraya yalnız oteldə gecələmək üçün gəlirlər. Ən qaranlıq və soyuq qış gecələrində görülə biləcək heyrətamiz yuxu kimi köhnə otelin lüks bəzəkləri qonaqları o qədər də cəlb etmir. Adətən otelin qonaqları yuxuda ölən qohumlarını və ya yaxınlarını görürlər. Belə yuxularda yatanları narahat edən ölülər ya suallara cavab verə bilir, ya da əgər bir insan hələ də öz yaxınını itirdiyi üçün əzab çəkirsə, sadəcə onun yanında olmaq üçün gəlirlər. Nəticədə, məlum oldu ki, “Savoya” qeyri-adi bir yerdə – güclü enerji elementlərinin kəsişdiyi və xristianlıqdan əvvəlki dövrdə bütpərəst məbədi Çernoboqun[15] yerləşdiyi yerdə tikilmişdir. Əcdadlarımızın qədim inanclarına görə, qışda hamı yatanda və ya kimsə öləndə tiverlər[16] burada Çernoboqun canlanması üçün ayin təşkil edirdilər, axı o zamanlar o, Volosdan[17] daha çox gücə sahib idi. Dua və qurbanvermələri qəbul edən Çernoboq əcdadlarımıza yuxuda öz ölüləri ilə görüşməyə icazə verirdi. Xristianlıq bütpərəst-

[14] Savoya oteli 1913-cü ildə neoborokko elementləri ilə müasir stildə inşa edilmişdir. Bu altımərtəbəli binada şəhərdə ilk dəfə lift, mərkəzi su sistemi, kanalizasiya, elektrik işıqlandırma, girişdə mərmər şirlər və ana fasadda kariatidlər yer alırdı. Mövcud olduğu yüz ildən çox müddətdə otel çardaqda qış bağı olan altıncı mərtəbəni, şirləri, kariatidləri, eyni zamanda adını belə itirmişdi. 1953-cü ildə “Savoya” oteli “Ukrayna” adlandırılmışdır. 1990-cı illərdə otel qeyri-rəsmi olaraq öz orijinal adını geri qaytardı və çardağı yenidən bərpa edildi (*müəllif*).

[15] Çernoboq – xristianlıqdan əvvəlki inanca görə, qaranlığın və ölülərin hamisi. Belə hesab edirdilər ki, ölənlərin ruhunu məhz o aparır (*müəllif*).

[16] Tiverlər – müasir Moldova və Ukrayna ərazisindəki Qara dənizin Budjak sahilləri də daxil olmaqla Dnestr və Prut, eləcə də Dunay arasında IX əsrdə məskunlaşan Şərqi Slavyan qəbiləsi (*tərc.*).

[17] Volos – slavyan mifologiyasının yüksək səviyyəsinə aid edilən qədim slavyan tanrılarının adı (*tərc.*)

liyi sıxışdırıb sıradan çıxaranda bu qədim ayini, demək olar ki, hamı unutdu, amma görünür, Çernoboq verilən ianələri unutmamış, hər il qışın beşinci günü o, burada gecələyən insanlara aydın və bir qədər də kədərli yuxularında ölüləri ilə görüşməyə icazə verirdi. O yuxular haqqında Olesya ilk dəfə Valeriyadan eşitmişdi. Onun rəfiqəsi həmişə qədim inanclarla maraqlanar və xristiyanlığaqədərki dövrdən saatlarla danışa bilərdi.

– Bilmirəm, – deyə fikrini yekunlaşdırırdı. – Bəlkə bu, turistlər üçün uydurulmuş maraqlı şəhər əfsanəsidir, amma insanlar buna inanır və yuxu görürdülər.

Bir müddət "Savoya"nın möhtəşəm binasını heyranlıqla seyr etdikdən və bir neçə fotoşəkil çəkdikdən sonra Olesya sovet dövründən hələ bu günə qədər Pervomayski (görəsən, ona və vaxt azad bir ölkənin azad şəhəri üçün daha uyğun başqa ad verəcəklər?)[18] adlanan və vaxtaşırı ağlasığmaz sehrə bürünən, yad insanların vaxtı çoxdan keçmiş sirlərinə şahidlik edən küçə ilə hərəkət etməyə başladı. Burada ən azından keçən əsrin əvvəllərində tikilmiş zəngin yəhudi istehsalçısı Borux Lvoviçin yenicə bərpa edilmiş malikanəsi var idi.

Sovet hakimiyyətinin bərqərar olması ilə Lvoviç də müasiri Lyubomir Dluqolenski kimi hər şeyini itirmişdi. Vinnitsa bir müddət Ukraynanın paytaxtı olduğu illərdə – 1919-cu ildə məhz Borux Lvoviçin malikanəsində Simon Petlyurun dəftərxanası – baş atamanın direktor idarəsi yerləşirdi. İndi isə bu binada yerli radio yerləşir. Deyilənə görə, bərpa işləri aparılan zaman burada qədim, qızıl pulla dolu bir dolça tapıblar... Olesya hər gün buraya işə gələn insanlara maraqla baxırdı. Günlərin bir günü o, radiodalğalar vasitəsilə eşidilə bilən ölülərin səslərindən bəhs edən "Ağ səs" adlı qorxulu mistik filmə baxmışdı… Ona görə də düşündü ki, görəsən, müasir avadanlıqlarla təchiz olunan bu radioda işləyənlər, heç

[18] 2016-cı ildə (bu kitab Ukraynada işıq üzü görəndən sonra) küçələrin adları, nəhayət ki, dekomunizasiya layihəsi çərçivəsində dəyişdirildi – indi Pervomayski Magistrat adlandırılır (*müəllif*).

olmasa, bir dəfə, təsadüfən, öz aparatları vasitəsilə… əvvəlki sakinlərin söhbətlərindən qırıq-qırıq parçalar da olsa, eşidiblərmi? Bəzən o, özü də öz təxəyyülünün irəli sürdüyü fərziyyələrə təəccüb edir, amma sonra sakitləşirdi: ona sadəcə hamiləlik belə təsir edir – yalnız görmə və eşitmə ağırlaşmır, eyni zamanda altıncı hiss və intuisiya da kəskinləşir.

Günəşin qızılı rənginə boyanmış bu qırmızı malikanənin qarşısında alaq otları basmış boz qülləli köhnə poçt tərk edilərək xarabalığa çevrilmiş qalaya bənzəyir. Olesya burada köhnə vaxtlara aid tək bir açıqca tapmaq üçün çox şey verərdi, lakin onun bu gözləntilərinin heç bir nəticəsi yox idi – sınıq pəncərələrin soyuq baxışları burada ola biləcək hər şeyin çoxdan tapılıb aparıldığını deyirdi... O isə eləcə dayanıb baxırdı. Sanki onu köhnə evlərə, xüsusilə də Vyana sesessiyası[19] üslubunda yenidən bərpa edilmiş yerlər əvəzinə tənha dağıntıları olan xarabalıqlara maqnit kimi çəkən bir qüvvə var idi. Burada belə yerlər hələ də çox idi və onların hər biri onun üçün canlı idi. Olesya onların da fotoşəkillərini çəkirdi, axı bir qədər amansız zaman ötüb-keçdikdən sonra onlar şəhərin simasından silinəcək, yerdə qalan isə sadəcə bu səssiz fotoşəkillər olacaq. Bütün bu qırılmış pəncərələri və əyri qapıları deşik-deşik olan viran qalmış evlər onun üçün həyatın ümidinə tərk edilmiş yad xatirələr idi. O, həmişə burada necə insanların yaşadığını, onların neçə uşağı olduğunu, zamanla nəvə-nəticələrinin haraya köçdüyünü və itirdikləri doğma evləri üçün çox əzab çəkib-çəkmədiklərini təsəvvür etməyə çalışırdı…

Bəzən yad "kadr"a Olesya da düşürdü. Hamı onu hər zaman gözəl hesab edirdi. İndi bir az daha da yaxşılaşıb. Bu günlərdə isə

---

[19] Vyana sesessiyası – 3 aprel 1897-ci ildə klassik sənətə daha çox önəm verən Vyana İncəsənət Məktəbindən ayrılan Qustav Klimt, Koloman Moser, Josef Hoffmann, Josef Maria Olbric və Maks Kurzveil kimi sənətkarların müasir cərəyanlara qoşulmaq niyyəti ilə inşa etdikləri Sənətkarlar Birliyinin binasıdır. Açılışı və ilk sərgisi 1898-ci ildə həyata keçirilmişdir. Bina bu gün də müxtəlif sərgilərin təşkil olunduğu salon kimi fəaliyyət göstərir (*tərc.*)

daxilindən yalnız xoşbəxt qadınlara və mələklərə xas olan əlçatmaz və qeyri-adi bir gözəllik bərq vururdu.

Kənardan kişilər ona yenidən göz qoymağa başlamışdılar. Bir dəfə o, şəhərin mərkəzində yerləşən sevimli qəhvəxanasına girib ponorama pəncərənin ağzında stol arxasına keçib yenicə oturmuşdu ki, parlaq köynəyinin yaxasında ingilis dilində ədəbsiz söz yazılan cırıq cinsli sarışın modabaz ona yaxınlaşdı. Gənc olduğuna görə, Olesya, hər halda onun yeni ofisiant (sadəcə hələ əynini dəyişməyə macal tapmamışdı) olduğunu düşündü. Elə yenicə sifariş verməyə hazırlaşırdı ki, birdən oğlan onu gözlənilməz təklifi ilə təəccübləndirdi:

– Qəşəng qız! Sizinlə tanış olmaq olar?

O, heyrətləndi. Oğlan rus dilində danışırdı. Qeyri-ixtiyari olaraq öz-özünə düşündü: indi burada rus dili necə də qəribə və vəhşi kimi səslənir…

– Sizi məyus etmək istəməzdim, amma mən evliyəm, – deyə ona ukraynaca cavab verdi və əlini yuxarı qaldırdı. Onun nişan üzüyü dalğalanan günəş şüalarının altında bərq vurdu.

Bu, öz cazibəsinə əmin olan gənci narahat etmədi. Əksinə, o, Olesyanın qarşısına keçib oturdu və dişlərini ağardaraq zarafat etməyə çalışdı:

– Nə olsun? Mən sizinlə evlənmək istəmirəm ki?! Sadəcə ünsiyyət qurmaq istəyirəm!

Görünür, bu, nişan üzüyünü maneə deyil, bir növ “keyfiyyət nişanı” hesab edən kişi tipinə aid olanlardandır. Əgər bir qadın kiməsə başını qaldırıb baxdısa, deməli, ona söz atmaq olar. Onda sənin zövqünə uyğun nə isə ola bilər.

Olesya zənnində yanılmadığı üçün gülümsədi:

– Bilirsiniz, mənim qanuni ərim yad kişilərlə “ünsiyyət qurmağa” icazə vermir. Bu, onun xoşuna gəlməz…

Oğlan qaş-gözünü oynada-oynada ətrafına baxdı:

– O ki burda deyil! Onun bundan necə xəbəri olacaq?

– Mən özüm ona deyəcəm, – deyə o, saata baxdı. – Bax elə bu dəqiqələrdə o gəlməlidir. İstəyirsiniz, sizi onunla tanış edim? O, məndən daha maraqlı müsahibdir.

– Yox, mən başa düşmürəm… – Qənimət ovçusunun gözləri yelpik kimi tüklü kirpiklərinin arasından parıldadı və o, yenidən qəhvəxanaya göz gəzdirdi. – Əriniz sizə başqaları ilə ünsiyyət qurmağa icazə vermir? Siz necə yaşayırsınız?..

– Əla, – deyə Olesya səmimi cavab verdi və əlini yuvarlaq qarnının üstünə qoydu. Oğlan yalnız indi həmsöhbətinin hamilə olduğunu gördü – hamiləliyin yeddinci ayında bunu görməmək mümkün deyildi. Elə o andaca bu qayğısız Don Juanı sanki yel apardı – o, qəhvəxanadan güllə kimi çıxdı və yolu keçərək maşınların arasında gözdən itdi.

Olesya enli ponorama pəncərədən onun qaçışını seyr edərək güldü. Əslində o, bu gün burada Valeriyanı gözləyirdi. Valeriya isə bir neçə dəqiqə idi ki, qəhvəxanaya daxil olaraq dəzgahın qarşısında hündür bir stulda rahatca oturub maraqla onun "tamaşa"sını seyr edirdi.

Rəssam qalxıb Olesyaya yaxınlaşdı. Onlar yenə də pirojna ilə yaşıl çay sifariş etdilər. Valeriya isə üstəlik bir bokal da qırmızı şərab istədi.

– Ay səni, qəlb oğrusu! – deyə stulu ona yaxınlaşdıraraq rəfiqəsini zarafatyana tənbehlədi. – Bax ha, sonra pis olar! Səni Yusifin əlindən alarlar, baxmazlar da ki, sən hamiləsən…

– Yaxşı görək sən də! – deyə Olesya cavab verdi. – Elə şey deyirsən ki!.. İndi məni tamamilə başqa şey maraqlandırır. Mən axı sənə hələ də o həkim üçün təşəkkür etməmişəm… Kristina Viktorovna sadəcə möcüzədir! Sən onu hardan tapmısan?

Valeriya birdən qaş-qabağını tökərək dedi:

– Möcüzədir, qoy elə də olsun… Mən çox şadam ki, o sənə kömək edə bildi. Özünü necə hiss edirsən, sən ondan danış? Çox əla görünürsən!

Olesya dərin bir nəfəs aldı. Əsrarəngiz Kristina Viktorovnadan söz açılanda Valeriya sıxılaraq söhbəti dəyişməyi birinci dəfə deyildi. Bəlkə başqasının qəlbinə icazəsiz girmək lazım deyil?

– Qorxuram göz dəyə, amma indi mənə hər zamankından daha yaxşıdır! – deyə o, etiraf etdi. – Sanki mən iki həyatı birdən yaşayıram – hər yeni gündən ikiqat zövq alıram, şəhvət və sevgi duyuram… Səncə, belə şey olar?

– Bunu sən mənə deməlisən! – deyə Valeriya qaş-gözünü oynatdı. – Əgər belə davam etsə, mən sənin portretini çəkməli olacam. Bu gözəlliyi əbədiyyətə qovuşdurmasaq, gələcək nəsillər bizi bağışlamaz!

– Bəsdir sən də, – deyə Olesya qızardı. – Ondansa bax, gör mən bu günlərdə necə fotoşəkillər çəkmişəm… Yusifə göstərmək istəyirəm, ona görə də sənin bu fotoşəkilləri bir mütəxəssis kimi dəyərləndirməyin mənim üçün çox vacibdir.

Valeriya həvəslə onun rəqəmsal kamerasını götürüb maraqla fotoşəkilləri vərəqləməyə başladı. Bəzilərini tərifl ədi, bir neçəsinə heç diqqət yetirmədi, bir çoxlarını isə tənqid etdi. Olesya diqqətlə qulaq asırdı. “Müəllim” rəfiqəsinin evdə çəkdiyi silsilə şəkilləri görən kimi dayandı və onun zərif əlləri ekranın üzərində donub qaldı.

– Bu, çox maraqlıdır! – Valeriyanın zümrüdü-yaşıl gözlərində tanış (peşəkar) qığılcım oyandı. – Tamamilə başqa bir səviyyədir! Mənə bu fotoşəkillərdən danış!

**Olesyanın xatirələrindən:**

*...Yaxşı fikirləşsək, görərik ki, bizim həyatımız fotoşəkillərdən ibarətdir. Mən peşəkar fotoqraf deyiləm, amma hər gün dönə-dönə qayıtmaq istədiyin xüsusi yerləri və anları o günün burulğanlı həyəcanı arasında tutmağa çalışırdım. Məni Valeriya həyata məhz bu şəkildə baxmağı öyrətmişdi. Dünyanın ən maraqlı kitabı kimi hadisələri “əvvəl” və “sonra” olaraq vərəqləmək zövqverici idi. Kövrək hissləri həkk edib saxlamaq, onlara ad vermək, başqala-*

*rı ilə bölmək, mənim üçün fotoşəkillər bu deməkdir. Mən onları uşaqlarıma göstərəcəm, sonra isə nəvə-nəticələrimə və biz birlikdə ömrümüzün bu qədər tez ötüb-keçməsinə baxmayaraq, həyatın necə də gözəl olduğuna təəccüblənəcəyik... Dünən həyat yoldaşımın həyətdə tüklü bir itlə necə oynadığını gördüm. Yusif dostları ilə küçədə oynamağa icazə verilən balaca uşaq kimi itlərlə birlikdə qaçır, tullanırdı. Heç mənim onu pəncərədən izlədiyimi də görmədi. O, itlərlə uşaq kimi oynayırdı və gözləri elə bir xoşbəxtliklə parlayırdı ki, ürəyim sıxıldı.*

*Yusif itləri çox sevir. Onları bir-birinə hansısa bir hiss cəlb edir – həyat yoldaşım həyətə çıxan kimi yerli quyruqlu evsizlər onun yanına qaçır və onların hər biri üçün hədiyyə verməyə xoş söz tapılırdı. İtlərin bu sədaqətinə bütün qonşular heyrətlənirdilər. Ürəyinin dərinliklərində onların hər biri küçə itlərindən belə hörmət və izzət görməyi çox istərdilər, amma bunun üçün onlar özləri nəsə etməyi heç düşünmürdülər də. Nəyə görəsə, insanların ağlına gəlmir ki, itlərin hamıya yetəcək qədər sevgisi var, ilk addımı sadəcə özləri atmalıdırlar. Onlar atılmış heyvanları ancaq təhlükə mənbəyi kimi görürlər. Əgər Yusifdən qorxmasaydılar, bu "təhlükə"ni çoxdan götürüb naməlum istiqamətə aparıb dərisini soyardılar.*

*Əslində, heç vaxt istəmirdi ki, ondan qorxsunlar, amma bu məsələdə etiraz etmirdi. Yusif deyir ki, belə insanları ancaq qorxu dayandıra bilir. Onlar qorxduqca ətrafındakılara da qorxu saçırlar. Küçə itlərini qəddar, aqressiv hesab edənlər bir an belə düşünmürlər ki, bəlkə hər şey əksinədir? Bəlkə elə onların özlərinin qəzəb və aqressiyaları dünyaya daha açıq gözlə baxmağa imkan vermir?*

*Əgər onlar əksini düşünə bilsəydilər, onda görərdilər ki, küçə itləri heç kimə pislik etmək istəmir. Onlar sadəcə yemək istəyirlər, evlərinin olmasını istəyirlər. Onları heç vaxt yağışlı havada küçəyə atmayan, qəzet və başmaqlarını gətirə biləcəyi xeyirxah, qayğıkeş sahiblərinin olmasını istəyirlər...*

*– Axı siz müsəlmansınız, siz itlərə nifrət etməlisiniz! – bir dəfə qonşu Nina xala yaşadığı üçüncü mərtəbənin pəncərəsindən mənim həyat yoldaşıma dedi. – Mən internetdə oxumuşam ki, siz onları "murdar" hesab edirsiniz!*

*Yusif dayanıb Nina xalaya baxdı, onunla salamlaşdı. Gözünün altı ilə həyətdə olan qonşuların işlərini yarımçıq qoyub ona baxdıqlarını gördü: görək, cavab verməyə söz tapacaqmı?*

*– Heyvanları sevməyən insanlar özlərini haqlı çıxarmaq üçün bəhanə axtarırlar, – deyə Yusif cavab verdi. – Təəssüf ki, müsəlmanlar arasında da belələri çoxdur, heç kimin tərəfini saxlamayacağam...*

*Bunun əvəzində onlara dağ vadisinin dərinliyində bir quyu tapana qədər susuzluqdan yanan səyyah barədə əfsanə danışdı:*

*"Səyyah quyuya enib təmiz, sərin sudan doyunca içdi. Yuxarı çıxanda qarşısında susuzluqdan yaş torpağı yeyən it gördü. Adam öz-özünə dedi: "Bir az əvvəl məndə olduğu kimi bu it də indi susuzluqdan yanır". O, yenidən vadinin dərinliyinə enib quyudan öz çəkmələrini su ilə doldurub dişi ilə tutdu, dağa dırmaşıb itə içirtdi. Bunun üçün Allah onun bütün günahlarını bağışladı. İnsanlar Məhəmməd peyğəmbərdən soruşdular: "Doğrudanmı, biz heyvanlara görə də mükafatlandırılacağıq?" O isə astaca cavab verdi: "Bütün heyvanlar üçün mükafat verilir".*

*– Heyvanlar da Allahın yaratdıqlarıdır, – deyə Yusif hekayəsini bitirdi və sözünə davam etdi. – Heyvanları təhqir edən hər kəs Yaradana qarşı günah işlətmiş olur...*

*Bilmirəm, ərim hiss etdi, ya yox, o, bu əfsanəni danışanda qonşular onu əhatəyə alıb maraqla dinləməyə başladılar. Görünür, qədim zamanlarda Məhəmməd peyğəmbər vəhylərini də insanlar belə dinləyirdilər... Bu sözlərdən sonra Nina xala özünü ələ aldı. Yusif susan kimi qaş-qabağını tökdü, narazı və əsəbi halda pəncərəni çırpdı, şüşələrin cingiltisi eşidildi: nə demək olar, o, hər şeyi açıq izah etdi! Ondan sonra digər sakinlər də özlərini ələ aldılar və sanki onları dinlədikləri üçün utandılar...*

*Sonralar axşamçağı evə qayıdanda biz Yusiflə Nina xalanın heç kim görməsin deyə tez-tez ətrafına boylanaraq gizlicə itləri yemlədiyini gördük. Onun da ac evsizlərə yazığı gəlmişdi…*

*– İnana bilmirəm! – ərimin əlindən tutdum. Biz bu kortəbii xeyirxahlıq nümunəsini qorxutmamaq üçün kənarda dayandıq. – O ki səni dinlədi!..*

*– Elə deyil, – Yusif gülümsədi. – O, ürəyinin səsini dinlədi. Hər birimizin anadangəlmə xeyirxahlıq hissimiz mövcuddur. Biz sadəcə özümüzü insan kimi hiss etməliyik…*

*Bir dəfə itlərdən biri xəstələnmişdi. Qonşular başlarını yelləyərək itin öləcəyini deyirdilər. Yusif heç bir söz demədən onu götürüb maşına qoydu və baytarlıq klinikasına apardı. İt sağaldı. Qonşular yenə də itə olan bu qayğısını onun növbəti qəribəliyi hesab etdilər: hər addımda Allaha ibadət edən bir müsəlman olmağı bəs deyil, hələ bir burada "zoopark" açıb, həyətdə sakit gəzmək də olmur! İnsanların qayğısına qalmaq lazımdır, heyvanların yox. Bunu adətən insanların qayğısına qalmağı bacarmayanlar deyirlər. Uzun müddət inanmırdım ki, bizim məhləmizin çoxunu məhz belə insanlar təşkil edirlər. Bir dəfə birinci mərtəbədə yaşayan yaşlı qadın əllərimdən tutub gülümsəyərək dedi:*

*– Qızım, heyvanları sevən heç vaxt qəddar adam ola bilməz.*

*Bilirəm ki, həyat yoldaşım qəlbinin dərinliyində dördayaqlı dostlarından birini evə gətirməyin xəyalını qurur – çox güman ki, sağaltdığı o qulağı qoparılmış kiçik "qulduru" gətirmək fikrindədir. Yusif deyir ki, tezliklə uşaqlar böyüyəcək və onlar da it saxlamaq istəyəcəklər. Təəssüf ki, balaca ikiotaqlı mənzilimizə insanları güclə sığdırırıq, o ki qaldı heyvanları… Yusif söz verir ki, vaxt gələcək biz şəhərin kənarında böyük evə köçəcəyik. O zaman onlar həyətdə bir ordu dördayaqlı saxlayacaq və onlar heç kimə mane olmayacaqlar!*

*Onun heyvanları niyə bu qədər çox sevdiyini anlayıram. Əslində onlar ona uşaqlığının sadiq dostu Qafqaz çoban iti Belosnejkanı xatırladır. O, ailəsi Dağlıq Qarabağda yaşadığı illərdə*

*mərmi partlaması nəticəsində gözlərinin önündə ölmüşdü. Altı yaşlı Yusif o vaxt uzun müddət Belosnejkanın yoxluğu ilə barışmamış, valideynlərindən itin yaralarını tikməsi və onu diriltməsi üçün həkimə aparmalarını xahiş etmişdi.*

*Görünür, elə həmin vaxtdan da o, şüuraltı hər yerdə özünün Belosnejkasını axtarırdı. Hələ də "Qafqaz xalqının siması" kimi onun haqqında pis düşünən bəzi ağıllı, hörmətli və savadlı insanlar ondan çəkinirdilər. Heç şübhəsiz, onlar fikirləşirlər ki, onun belə idman stilli, "təhdidedici" bədən quruluşu əbəs yerə deyil. Onlardan fərqli olaraq itlər sadiq qalaraq onu sevirdilər.*

*İnsanlar səhv etməyə meyllidirlər. Heyvanlar isə – heç vaxt.*

Olesya sözünü bitirəndə Valeriyanın gözləri dolmuşdu.

– O, səni də dəyişdirib, – rəssam gözlənilmədən dedi. – Sən özün də fərqli idin – heç bir kompromisə getməyən nümunəvi bir qız idin…

Pəncərənin önündə hava yavaş-yavaş qaralmağa başlamışdı. Rəfiqələr isə artıq qəhvəxanadan Valeriyanın şəhərin mərkəzində – Sobornodakı Rəssamlar evində yerləşən emalatxanasına gəldilər. Yumşaq divanın üstündə ayaqlarını altlarına qatlayıb rahatcasına oturaraq əvvəlki kimi yer üzündə ağla gələn hər şeydən açıq danışırdılar. İndi onları nizamsız yığılan molbertlər[20], çərçivə altlığı, fırçalar və boyalar, qarmaqarışıq ştativlər, lampa, çətir və digər fotoaksesuarlarla əhatə etmişdir. Yeni divan möcüzəli şəkildə bu təsviri incəsənət məbədində mövcud olan yeganə mebel əşyası idi.

– Sən də dəyişmisən, Valeriya, – deyə Olesya ərtafındakı məbədə göz gəzdirərək gülümsədi. – Məktəbimizdən kimsə heç ağlına gətirə bilərdimi ki, sən nə vaxtsa belə məşhur olacaqsan və incəsənət vasitəsilə pul qazanacaqsan?

[20] Molbert – və ya malbret. Rəssamlıqda işlədilən üçayaqlı, yaxud üfüqi özül üzərində bərkidilmiş şaquli dayaqlardan ibarət dəzgah. İş prosesi zamanı tablo, rəsm, və s. molbert üzərində yerləşdirilir. Adətən materialı taxtadan olur (*tərc.*)

– Yaxşı görək sən də, incəsənət! Hal-hazırda paytaxt dərgilərinin birində silsilə fotoşəkillər üzərində işləyirəm. Sırf kommersiya layihəsidir. Mövzusu isə bütün dövrlərin ölməz sevgi tarixçəsidir. Yəni müxtəlif tarixi dövrlərdən və ədəbiyyat nümunələrindən bildiyimiz kultlaşmış aşiqlər. Romeo ilə Cülyettanı və Kleopatra ilə Sezarı artıq çəkmişəm. Növbədə Roksalana və Sultan Süleymandır. Şəhərin bütün model agentliklərini gəzmişəm, heç cür fotoşəkillər üçün uyğun model tapa bilmirəm. Başa düşürsən, burada xüsusi üz cizgiləri olmalıdır. İndi, demək olar ki, beləsi yoxdur… Ya da hələ bir dayan görüm… – Valeriya qəflətən stuldan sıçrayıb fotoaparatını götürdü. – Dayan, yana çön… Roksalana olmaq istəmirsən? – O, kamerasının obyektivini Olesyaya tuşladı.

Olesya ayağa qalxıb qamətini düzəltdi, saçlarına əl gəzdirdi:

– Roksalana bir qədər hamilə olsa, heç nə olmaz ki?

– Heç nə olmaz, hamiləliyini “ampir” üslubunda[21] enli donla gizlədərik. Yadındadır, o illərdə “ampir” dəbdə idi?

– Yadıma gəlmir, mən bir qədər sonra dünyaya gəlmişəm.

– Dayan e, heç nə gizlətmək lazım deyil! – deyə Valeriya həyəcanlandı. – O, Sultan Süleymandan altı uşaq dünyaya gətirmişdir. Sənin hamiləliyin bizim bu konsepsiyamız üçün mükəmməldir!..

– Necə düşünürsən, mən də altı uşaq doğa bilərəm?

Valeriya artıq onu eşitmirdi. Başı yaradıcılıq prosesinə qarışmışdı. Rəfiqəsini əsl model kimi bəzəyir, geyindirir, aksesuarlar seçir, işığı tənzimləyir, kölgə salırdı. Hazırlıq işləri bitəndə həvəslə kənara çəkildi və fotokamerasını götürdü. Elə birinci qığılcımdan Olesyanın gözləri qamaşdı. Gülümsədi və… qeyri-ixtiyari kənara çəkilərək heyranlıqla Valeriyaya baxdı. Öz emalatxanasında elə bil

[21] “Ampir” üslubu – Fransada Napoleonun imperiya qurması ilə birlikdə geyimlərdə başlayan dəb “ampir” adlanırdı. Bel kəsiyinin yuxarıda olması ilə başlayan moda fransız rəssamı Jacques Louis Davidin əsərlərində ölümsüzləşmişdir. Paris, Florensiya və Venesiyada nəşr olunan bir çox moda jurnallarında J.L.Davidin əsərlərinə böyük yer verilmişdir (*tərc.*)

uçurdu, sanki indicə yalın ayaqlarını döşəmədən qoparıb süzərək tavana qalxmağa başlayacaqdı. Qırmızı saçları elə dağılmışdı ki, sanki indicə canlanıb tərpənəcəkdi. Zümrüdü gözlərində qədim cadugərlər kimi izaholunmaz atəş yanırdı…

İşini bitirəndə bu “cadugər” qadını yenidən yerə qaytardı.

– Vay! – deyə o, şəkillərə baxaraq təəccübləndi. – Sən model işləmək üçün yaradılmısan!

– Çətin ki, – deyə Olesya təvazökarlıqla cavab verdi və onun çiyinləri üzərindən fotolara baxdı. – Sadəcə mənim foroqrafım çox yaxşıdır…

– Sən də haqlısan, – Valeriya razılaşdı. – Mən hələ də Süleyman roluna uyğun bir adam tapa bilməmişəm... Yusif bu obraza çox uyğun gəlir. Deyərsən, sabah günorta vaxtı o da gələr.

– Onu səninlə tək qoyum?!

Valeriya gülümsəyərək ona baxdı:

– Heç nə fikirləşməsin, bu, sadəcə işdir. Həftəsonuna qədər layihəni təhvil verməliyəm. Sifarişçilər isə qonorar verəcəklər. Mən onları inandırmağa çalışmalıyam ki, heç olmazsa, normal qonorar ala bilim… Sən də gəl, bu, sınaq fotosessiyası idi. Bu layihə üçün birlikdə çəkilməlisiniz. Xahiş edirəm! Mən də Leylaya portfolio[22] hədiyyə edərəm. Axı sən onun üçün peşəkar portfolio istəmişdin? Məndən daha yaxşı fotoqraf tapmayacaqsan!

Son vaxtlar Valeriya çoxlu fotoşəkillər çəkirdi, ona görə də onun peşəkar səviyyəsi daim artırdı. Heç bir ciddi jurnal onun şəkilləri olmadan yayınlanmırdı. Bu yaxınlarda Valeriyanın fotoşəkillərindən biri şəhərin hər yerində asılmış reklam lövhələrini bəzəyirdi – elit toy salonlarından birinin reklamında zərif bir gəlin. Olesyanın fikrincə, çox gözəl və təsirli alınmışdı. Valeriya isə belə düşünmürdü. Satılan fotoşəkilin sonrakı taleyindən narazı idi:

---

[22] Portfolio – peşəkar dizayner, rəssam və fotomodelin sənətkarlığı haqqında toplanan fotoşəkillər albomu və ya iş örnəklərinin (rəsmlər, çertyojlar və s.) toplusu (*tərc.*)

– Başqa şəhərləri bilmirəm, bizim şəhərdə hər addımbaşı toy paltarlarıdır, sanki sakinlər ancaq ərə getmək və ya evlənmək haqqında düşünürlər! – deyə bir dəfə şəhərdə gəzinti zamanı Valeriya bildirdi. – Nə vaxtsa ərə getmək qərarına gəlsəm, əsla dəbdəbəli gəlinlik paltarı geyinməyəcəm!..

Olesya kədərlə dərindən nəfəs aldı. O, uşaqlıqdan ağ gəlinlik paltarında sevdiyi insanın qoluna girməyin xəyalını qururdu. Taleyin hökmü isə tamamilə başqa cür idi: gözəl gəlinlik paltarı və ağ fatası olmamışdı, əvəzində isə tale ona həqiqi sevən bir ər bəxş etmişdi. Olesya heç nə üçün təəssüflənmirdi. Bir neçə il, hətta aylar sonra yüksək və dəbdəbəli toyların eynilə yüksək və "dəbdəbəli" şəkildə də boşandıqlarının şahidi olmuşdu. Hər kəs öz bildiyi kimi düşünür. Başqalarının səhvləri gənc qızlara öz toy mərasimlərinin mükəmməl keçməsi haqdakı xəyyallarına mane ola bilməz…

Görəsən, Valeriya niyə daha xəyal qurmur?

Olesya emalatxananı nəzərdən keçirdi və orada heç bir rəsm işinin yekunlaşmadığının fərqinə vardı. Hətta yeni başlanmış iş də yox idi…

– Nə vaxtdan şəkil çəkmirsən? – deyə o, sakitcə rəfiqəsindən soruşdu.

Valeriya bir anlıq özünü itirdi, çarəsizcə fotokameranı aşağı saldı:

– Mən… mən bilmirəm… – deyə o, etiraf etdi. – Gah o baş verir, gah da bu, elə ki, molbertə yaxınlaşıram, mənim deməyə sözüm olmur. Bəlkə, mən artıq rəssam deyiləm? Bəlkə, ərə gedib sakitləşmək lazımdır? Axı mən bu halda kimə lazımam?..

– Sən rəssamsan! – Olesya onun çiyinlərindən tutub qətiyyətlə dedi. – Tanıdığım bütün rəssamların ən yaxşısısan. İlhamın isə qayıdacaq, görəcəksən. Həyat yoldaşı da qarşına çıxacaq. Biz hələ sənin toyuna da gələcəyik!

Valeriya gözlərinin yaşını silərək gülümsədi. O anda sanki o özü də Vinitsiyadakı çoxsaylı saxta atributlu və dəbdəbəli gəlinlik paltarı satan salonlara qarşı heç bir etirazı yox idi. Yalnız bir şey soruşdu:

– Dedin ki, mən sənin tanıdığın bütün rəssamlardan yaxşıyam… Mənə çox maraqlıdır – sən çox rəssam tanıyırsan?

– Bir tək səni… bu ki heç nəyi dəyişdirmir?

Ertəsi gün Yusiflə birlikdə üçü də lazım olan şəkilləri çəkdilər. Yusif “fotomodel” olmağa o qədər də asan razılaşmadı. Biləndə ki, ona həqiqi sultan rolu təklif olunur o zaman etiraz etmədi. Nəhayət, qızlar onu fikrindən döndərdilər və tezliklə şəhər jurnallarının birində “Bütün dövrlərin ölümsüz məhəbbət tarixçəsi” romantik ad altında parlaq fotomaterial yayınlandı.

Olesya və Yusif üçün “model” biznesindən qazandıqları ilk və tək əməkhaqqı idi. Valeriya isə həqiqi eyforiya hiss edirdi – keçmişin yarımifik hekayəsi onun əllərində iki insanın həqiqi və canlı məhəbbət tarixçəsinə çevrildi.

**Valeriyanın etiraflarından:**

*Uzun zamandır ki, belə bir fotolayihə etmək arzusunda idim. Bu, kəpənək tutmağa – sancaqla hamar səthə sancaraq qurudub şüşənin altında saxlamağa bənzəyir. O, bir daha heç vaxt qanad çalmayacaq, amma sənə hər dəfə də onu öldürdüyün həmin günü xatırladacaq. Bu fotoşəkillər də belədir: mən həqiqəti bilmədən hər kəsin heyranlıqla izləyəcəyi anı tuta bilmişdim. Onlar bətnindəki uşağın yolunu gözləyən gözəl və müdafiəsiz Roksalananı, imperiyanın nəhəng və güclü hökmdarı Möhtəşəm Süleymanı görəcəklər. Elə düşünəcəklər ki, sanki onlar eyni adlı kitabı yenidən oxuyur və ya serialları izləyirlər, hətta bəlkə kimsə özü də bilmədən deyəcək:*

*– Qəribə və inanılmaz bir hekayədir!*

*Mən isə yalnız bir şeydən qorxacam – təki mənim fotohekayəm real həyatda qəribə bir şəkildə əks olunmasın. Axı ona yüzlərlə, minlərlə göz baxacaq. Birdən onların arasında məkrli baxışları ilə elə bir insan ola bilər ki, ölmüş tarixi qəhrəmanların donub qalmış bəzəkli şəkillərini yaradan canlı insanlara gözləri dəyər? Bəlkə o məkrli baxış artıq var idi... mənim fotokameram? Bəlkə mən dəb*

*jurnalının parlaq və hamar üz qabığına başqasının həyatını açıb-tökküb sancaqla sancaraq hansısa gözəgörünməyən xətti keçmişəm?...*

*Kaş ki, gerçəkləşməzdi! Mən elə hey düşünürəm ki, bütün dövrlərdə ölməz məhəbbət varmı? Görəsən, Süleymanın ətrafında çoxlu gənc cariyələri olsaydı, ukraynalı arvadını yenə də sədaqətlə sevərdimi? Bəs Roksalana nə istəyirdi? Bəs o hökmdarın kiçik xəyanətlərini necə həzm edirdi? Qəlbinin dərinliklərində böyük, əzabverici və qanlı xəyanətin iztirabı yox idimi?*

*Alaqaranlıqda nazik ətirli bir siqaret yandırıram: xəyanətə uğramaq kiçik ölümə bənzəyir – içində bir şey əbədi olaraq ölür. Elə bir şey ki, başqa insanlarla münasibətdə o, bir daha geri dönmür, bərpa olunmur. Sən necə düşünürsən, Olesya?*

*– Bilmirəm... – deyə o, utanaraq etiraf etdi. – Yəqin xəyanət çox dəhşətli bir hissdir. Mən buna dözə bilməzdim ...*

*– Bağışla, – mən ayağa qalxıb siqareti söndürmək və yarımçıq qalan o jurnalı tullamaq istədim. – Hər kəs özünün yaralı yerini görür. Mənim isə qırılmış ürəyim ağrıyır. Bağışla!*

*Olesya da ayağa qalxdı. O, bu gün hər zamankından daha fərqli idi – onun daxilindəki klassik musiqi səsləri, işıq və kölgə vahid bir spektrə qarışdı və o, gözlərimin önündə əridi.*

*– Bir şeydə sən yanılırsan, Valeriya! Sənin ürəyin qırılmayıb. Orada sadəcə kiçicik bir çat var...*

*...Mən oyandım. O bunu, həqiqətən, demişdi, yoxsa mənə elə gəlirdi?*

2011-ci ilin yayının hərarətini özündə saxlayan sentyabr yerini kədərli, yağışlı və günəşli oktyabra verdi. Olesya artıq həftələri yox, günləri sayırdı. Demək olar ki, Kristina Viktorovna ilə hər saatda bir dəfə məsləhətləşirdi. Həyəcanla bətnində böyüyən uşağın hərəkətlərini izləyirdi. Noyabrın sonlarına doğru doğacağını gözləyirdi və artıq hər şeyin yaxşı olacağına inanırdı. İnanırdı ki, möcüzəli şəkildə dəhşətli rezus qarşıdurmasının yaratdığı fəsadlar onun kiçik oğlundan yan keçəcək.

Həmin bazar gününün səhəri onlar Yusiflə evi yığışdıraraq qonaq gözləyirdilər. Daha doğrusu, Yusif yığışdırırdı, Olesya isə məsləhətləri ilə təmizliyə nəzarət edirdi. Uşaqlar isə yaxınlıqda oynayırdılar. Olesyanın anasının yubileyi yaxınlaşırdı. Onlar qadına surpriz etmək qərarına gəldilər və ona görə də evdə mümkün qədər boş yer yaratmaq lazım idi. Hazırlıqlar bitəndən sonra onlar anbardan Əlinin uşaq arabasını çıxarıb gəlişini valideynlərindən çox uşaqların gözlədiyi Səidə yararlı olub-olmadığını yoxladılar. Yusif, demək olar, lap təzə olan tünd-göy rəngli uşaq arabasını dəhlizə çıxartdı və Olesya onu nəzərdən keçirdi. Hər şey yaxşı idi, birdən…

– Bu nədi?.. – deyə qorxaraq yan hissədəki böyük zəncirbənddən əlini çəkdi. O vaxtlar balaca Əlini gəzməyə apararkən, demək olar ki, heç istifadə etməmişdilər.

– Gözlə baxım! – böyük otaqdan Yusif səsləndi və tozsoranı söndürüb arvadına yaxınlaşdı. – Yəqin cibdə siçan balası gizlənib, sən də qorxdun…

Əgər orada siçan balası olsa, o, arabanın cibindən ehtiyatla onu götürüb azadlığa buraxacaq. Hətta orada hörümçək olsa belə, yenə də buraxacaq. Qoy yaşasınlar, axı onlar da necəsə yaşayıb nəsə yeməlidirlər… Olesya isə elə əsirdi, sanki ruh görmüşdü:

– Siçan balası deyil, – deyə o, ağappaq ağararaq divara söykəndi. – Yaxşı olar ki, ona toxunmayasan…

Yusif onu heç vaxt belə görməmişdi. O, tərəddüd etmədən arabanın yan cibinə baxdı və donub qaldı. Böyük cibdə yarıçürümüş sarımsaq bükülərək düyünlənmiş çirkli əski parçası, yanında isə torpaq, kiçik (quş sümüyünə bənzər) sümüklər və daşlarla qarışmış bir dəstə sarışın saç var idi. Adam gördüklərindən təəccüblənərək geri çəkildi.

– Əzizim, hər şey yaxşıdır, – deyə arvadını sakitləşdirməyə çalışdı. – Sən də əlini vurmadın, elə deyilmi? Biz bunu atırıq və yeni araba alırıq, razılaşdıq?

– Axı bu nədir, Yusif? – Olesya boğulduğunu hiss etdi. – Demək olar ki, toxunmadım, o saat əlimi çəkdim. O bura necə düşüb? Bunu… bunu hansısa pis niyyətli adam edib?.. – deyə o,

kürəyini divara söykəyərək yavaş-yavaş yerə oturdu. Yusif güclə arvadına yetişib onu qucağına aldı. Uşaqlar analarını qorxudan köhnə arabadakı xoşagəlməz nəyinsə olduğunu anlayaraq qorxaq baxışlarla valideynlərinə baxırdılar.

– Leyla, telefonu və maşının açarlarını mənə gətir, qardaşın sənə əmanət, – deyə Yusif böyük qızına tapşırdı. – Sonra nənənə zəng vurub yanınıza gəlməsini xahiş edərsən. Biz ananla xəstəxanaya gedirik.

– Biz də sizinlə gedirik! – bacısı atasının tapşırığını yerinə yetirməyə qaçanda Əli dedi. – Biz anamızı tək buraxmayacağıq!..

Yusif arvadını divana uzadıb oğlunun yanında oturdu:

– Sən artıq böyük oğlansan, Əli, həm də sən kişisən, ona görə də sənə xüsusi tapşırığım var. Əslində Leyla ilə nənən sənə baxmayacaqlar, sən həm onlara, həm də evə baxacaqsan. Onlara bu haqda heç nə demə, mübahisə də etmə! Bu, bizim səninlə sirrimiz olacaq, yaxşımı?

Kiçik Əli başını yellədi. Leyla açarları gətirdi və qapını açdı. On dəqiqədən sonra Yusif ilə Olesya xəstəxanaya yola düşdülər. Evdən çıxmamış yan cibdə nə olduğu ilə maraqlanıb baxmamaları üçün lənətə gəlmiş uşaq arabasını isə anbara qoydular. Uşaqlar qapını bağladılar. Nənələrinə zəng vurub evdə tək olduqlarını xəbər verdilər. Qarşıda isə xəstəxana və naməlum vəziyyət.

Yusif öz-özünə "evə gedən kimi bu lənətə gəlmiş uşaq arabasını zibilliyə aparıb orada yandıracağam", – deyərək tıxaclardan çıxmağa və işıqforlarda qırmızı yanana qədər son anda yaşıl işıqdan keçməyə çalışırdı. O, uşaq arabasına əldə düzəldilmiş bu lənət düyünü kimin atdığından şübhələnirdi (…isti yay günlərinin birində Yusif uşağı gəzməyə aparmışdı, yolda gülümsəyən bir sarışın qız xoş söhbətilə onlara mane olmuşdu…), amma həyat yoldaşına bu haqda heç nə demədi.

Kölgə kimi solğun Olesya güclə nəfəs alırdı. Çalışırdı ki, onun bu gözlənilməz qorxusu uşağa zərər verməsin. Yenə süni doğuş olsa, necə olacaq? Səid buna dözə bilməz…

– Hər şey yaxşı olacaq, – deyə Yusif dayanmadan təkrarlayırdı. Uzaq uşaqlıq illərində o, bu sözləri qeybdən peyda olan tanımadığı kiçik bir qızdan eşitmişdi və o vaxtdan bəri də buna qətiyyətlə inanırdı. Bu, həqiqətən də, çin olurdu, həyatın ən ağır anlarında çətinliklərin öhdəsindən gəlməyə yardım edirdi, məğlubiyyətin özündə də qələbəni görməyə vəsilə olurdu… Ona görə də o, bu sözləri indi də deyirdi. Bütün bunlarla yanaşı, Yusif, eyni zamanda onların qarşısından keçməyə çalışan gülümsəyən sarışın qızı da xatırladı.

**Yusifin xatirələrindən:**

*Mən uzun müddət o qadını Olesyaya necə deyəcəyimi düşündüm. Bilirdim ki, gün gələcək o, bu haqda ya təsadüfən ortaq tanışlarımızdan, ya da bilərəkdən bizə pislik etmək istəyənlərdən öyrənəcək. O zaman mən Olesyanı və uşaqları itirəcəyəm. Bu, o qadının qələbəsi demək idi. Düzünü deyim ki, mən o qadının həyatını məhv etmək istədiyi birinci adam deyiləm. Heç ağlıma da gətirməzdim ki, o, öz istəyinə çatmaq üçün bu qədər irəli gedib məni sındıra və ya küncə sıxışdıra bilər. Hər gün yuxudan oyananda düşünürdüm ki, bu gün, nəhayət, Olesya həqiqəti məndən öyrənəcək. Sonra nə olur, olsun. Biz çıxış yolu tapacağıq, bu problemin öhdəsindən gələcəyik, mən buna əmin idim. Bir-birinin ardınca hər ötən gün isə bizi həqiqətdən bir az daha uzaqlaşdırırdı. Həyat yoldaşıma baxır və deyirdim: indi olmaz. O, hamilə qalanda isə bu həqiqət təkcə bizim üçün deyil, eyni zamanda Səid üçün də təhlükəyə çevrildi. Mən onları riskə ata bilərdim? Olesya bətnində mənim övladımı daşıdığı halda mən onu necə incidərdim?*

*Göz yaşlarından və həyəcandan gözlərinin altında əmələ gələn qara dairələri, hər gün öpməli olduğum kiçik, yorğun əllərini, qaşlarının arasında və dodaqlarının kənarında qırışları görəndə bilirəm ki, bu, mənim günahımdır. Kişi gərək öz həyat yoldaşını bütün qayğılardan və problemlərdən qoruya bilsin. Hər zaman evə kifayət qədər pul gətirsin ki, onun heç bir şeyə ehtiyacı olmasın.*

*Sürpriz və hədiyyələrlə onun könlünü sevindirməlidir, mən isə... Olesyanın iztirab çəkməsinə və həyəcan keçirməsinə icazə vermişəm. Bundan sonra onun üzünə düşən hər qırış mənim vicdanıma yazılacaq. Qədim Şərq atalar sözlərindən birində biz kişilərə xitabən deyilir: "Qadınını göz yaşları tökməyə məcbur etmə, çünki Allah onların göz yaşlarını sayır və hər günahsız axıdılan bir damla göz yaşı üçün cəzalanacaqsan".*

*...Olesyanı ilk dəfə gördüyüm günü xatırlayıram. "O, mənim üçün həmişəlikdir", – görüşümüzün ilk anlarında mən belə düşünürdüm. Sonradan bildim ki, o da eynilə mənim kimi düşünübmüş. Biz bir-birimizi ayrı təsəvvür etmirdik, ancaq bir yerdə idik. Bunun üçün o qədər uzun yol qət etmişik ki... Adama bəzən elə gəlir ki, bu, əsrlər boyu davam edib... Hərəmiz bu yolda yüz dəfə itə bilərdik, hər kəs öz dünyasında aza bilərdi, hər kəs öz ölkəsində xoşbəxt yaşayardı... Kim bilir, bəlkə də o həyatda birlikdə yaşadığımız bu qədər ağır sınaqlardan keçməli olmazdıq. Yalnız bir şeyi bilirəm ki, əgər nəyisə dəyişmək imkanım olsaydı, hər şeyi elə olduğu kimi də saxlayardım. Əminəm ki, Olesya da hər şeyin belə qalmasını istəyərdi.*

*Mən öz həyat yoldaşımı sevirəm. Görünür, o yad qadını bu maraqlandırmır. Əminəm ki, o, dayanmayacaq. "Cadu"ya heç bir zaman inanmırdım, amma inanmaq başqa şeydir, onu evində öz gözlərinlə görmək tamamilə başqa bir şey... Olesya sadəcə qorxdu. O lənətə gəlmiş düyünü tapıb yox etməli idim... Nə etmək olar, indi başqa cür hərəkət etmək lazımdır. Allaha yalvarıram ki, mənim hər hansı axmaq bir hərəkət etməyimə yol verməsin, oğlumun dünyaya gəlməsinə izin versin və onu xəstəliyin dəhşətli nəticələrindən qorusun. Mən özümdə əsl müsəlman kimi o yad qadının mənim ailəmə etdiyi pisliyi bağışlamaq gücü tapacam.*

*Bu gün mən özümü xəyanətkar hiss edirəm. Gör, mən bizim başımıza nə oyun açdım?..*

Bazar günü olduğundan xəstəxananın qəbul şöbəsində sakitlik hökm sürürdü. Yusif növbətçi həkimi tapdı və Olesyanı müayinəyə

apardılar. On dəqiqədən sonra Kristina Viktorovna gəldi və Olesya olan otağın qapıları arxasında yoxa çıxdı. Yarım saatdan sonra isə hamı, nəhayət, rahat nəfəs aldı.

– Xoşbəxtlikdən, təhlükə aradan qalxdı, evə qayıda bilərsiniz, – deyə Kristina Viktorovna Olesyanı buraxaraq bildirdi. – Gələn həftə birinci gün anticismi yoxlamaq üçün qan analizi verin və yanıma gəlin, danışdıq?

– Çox sağ olun, mütləq gələrik, – Yusif dedi. Olesya hətta sevincindən ağladı, anasına zəng vurub narahat olmamasını söylədi.

– Mənsə düşündüm ki, anamın yubileyini mənsiz qeyd etməli olacaqsınız, – deyə ərinə baxdı. – Ümid edirəm ki, sən sevimli qayınanana surpriz etmək fikrindən daşınmamısan?

– Əzizim, hər şey planlaşdırdığımız kimi olacaq! Geyimləri sifariş vermişik, uşaqlar artıq üçüncü gündür ki, məşq edirlər. Eyni zamanda bir az həyəcanlanırlar da…

Evə sanki uça-uça gəldilər. Yubiley günü üçün təşkil edilən tədbirdə Yusif Olesyanın anasını bir qrup həmyerlisi ilə birlikdə Qafqazın milli geyimlərində "Ləzginka" rəqsi ilə təbrik etdi. Xoşbəxt qayınana qonaqlarının gözü qarşısında kürəkənini öpdü.

– Qalya, bax, afərin! Heç kürəkənin sənin üçün rəqs edər? – deyə ananın kövrələrək göz yaşlarını gizlətməyən rəfiqələrindən biri digərindən soruşdu.

– Mənim kürəkənim? Heç vaxt! – deyə Qalya xala ona cavab verdi və qonşu Kolya əminin əlindən tutub "Ləzginka"dan sonra başlayan qızğın "Polka"ya[23] dəvət etdi. Hamı bilirdi ki, Qalya xalanın kürəkəni içki düşkünüdür, qayınanasının gözlərinə baxa-baxa onu "qoca cadugər" adlandırır. Sərt xasiyyətinə görə o da ona "şeytan" deyir. Beləcə də yaşayırlar…

---

[23] Polka – sürətli, canlı, enerjili Avropa rəqsidir, eyni zamanda rəqs musiqisinin bir janrıdır. Polkanın musiqi ölçüsü 2/4-dir. XIX əsrin ortalarında Bohemiyada (müasir Çexiya) ortaya çıxmış bu rəqs o vaxtdan da xalq oyun havasına çevrilmişdir (*tərc.*)

Problemlərə baxmayaraq, çox şükür ki, ananın tədbiri baş tutdu. Olesya da bu gün bir dəqiqə bir yerdə oturmamışdı. Hamiləliyinin səkkizinci ayında anasının doğma qardaşı Pyotr dayı ilə "Polka" oynamış, bütün qonaqlara diqqət ayıra bilmişdi. Bir daha belə anası və əri olduğu üçün Yaradana şükür etmişdi. Xüsusilə, uşaqları... Uşaqlar onun ən dəyərli xəzinəsi, həyatının mənası idi. Uşaq arabasındakı düyünü bir daha xatırlamadı. Deyəsən, anasının yubileyi bütün xoşagəlməz hadisələrə kölgə salmışdı. Bəlkə də o, özü bu xoşagəlməz anları xatırlamamaq qərarına gəlmişdi. Qəlbinin dərinliklərində Yusif buna görə ona minnətdar idi.

Növbəti gün o, uğursuz arabadan canını qurtardı. Qərara gəldi ki, Olesya ilə Səidi xəstəxanadan evə buraxanda onları həyətdə yeni, əvvəlkindən daha yaxşı uşaq arabası gözləyəcək.

Köhnəsini heç xatırlayan da olmayacaq.

İki həftədən sonra onların dünyası yenidən dağıldı. Danışdıqları kimi birinci gün Olesya həkimin tapşırdığı bütün analizləri verdi. Məlum oldu ki, onun qanındakı anticisimin səviyyəsi 1:1024 dəyərinə qədər kəskin şəkildə aşağı düşüb. İlk baxışda bu, yaxşıdır, amma belə deyil. Anticismin kəskin şəkildə azalması Kristina Viktorovnanı narahat etdi və o, Olesyanı yenidən ultrasəs müayinəsinə göndərdi. Nəticələr həkimin narahatlığını doğruladı – hələ doğmamış körpənin qaraciyəri qeyri-təbii böyümüş, beynində qan axını, demək olar ki, iki dəfə azalmışdı. Çox az vaxt qalmışdı, körpəni itirməmək üçün təcili qeysəriyyə əməliyyatı olunmalı idi.

Kristina Viktorovna doğum evinə zəng vurub baş həkimlə danışmışdı. Artıq onları gözləyirdilər. Hələ hamiləliyin otuz birinci həftəsi idi (səkkiz ayın tamamına bir həftə qalmış), ona görə də heç bir həkim, hətta Kristina Viktorovna da zəmanət verə bilmirdi. Sadəcə şans var idi, vəssalam. O, Olesyaya və Yusifə elə məhz belə də dedi.

Əlavə olaraq onu da dedi ki, yarımçıq doğulan uşaqların ən zəif yeri ağ ciyərləridir. Ağ ciyərlərin inkişaf prosesi yalnız Səidin gözləyə bilmədiyi doqquzuncu ayda sona çatır. O, dünyaya gəl-

mədən ölür. Ona görə də onu anasının bətnindən təcili götürmək və süni nəfəs aparatına qoşmaq, paralel olaraq da qaraciyər və ürəyə nəzarət etmək lazımdır. Allah eləsin uşaq yaşasın…

Onların bir seçimi var idi... Olesyanı təcili əməliyyat otağına apardılar. Ətrafında gəzən həkimlər arasında, o, acıqlı baxışlarla ona baxan qəzəbli bir xala gördü. Sən demə, bu, onun anestezioloqu imiş.

– Niyə mənə tərs-tərs baxırsınız? – qadın əlindəki böyük bir şprislə onun üstünə əyiləndə Olesya ehtiyatla soruşdu.

– Sənə nə, həkimsən? – deyə o, maraqla soruşdu. – Nə lazımdırsa, onu da alacaqsan. Hələ çox sağ ol de ki, səni götürməyə razılıq verdim. Mənə on kiloqram pendir və bir vedrə də süd borclusan!

"Mən sənə yağla südü haradan alacam?" – deyə Olesya düşünməyə macal da tapdı və gözləri sanki südə bənzər ağ dumana büründü.

"Hər şey yaxşı olacaq" – deyə o, xəyalında Yusifin dediklərini təkrarladı. Birlirdi ki, o, Səidlə burada olduğu müddətcə Yusif əməliyyat otağının qarşısından bir addım da o tərəfə atmayacaq. O, bunu deməzdi, əgər …

…Yatdı – sanki dibi görünməyən dərin bir uçuruma düşdü.

**Olesyanın xatirələrindən:**

*…Ətrafda hər şey şirin pambığa bənzər ağ rəngə qərq oldu. Pambıq ətrafımı elə sarıyıb-bürümüşdü ki, onun ağuşunda mən özümü çox yaxşı və rahat hiss edirdim, oyanmaq istəmirdim. Əvvəlcə mənə elə gəldi ki, mən hansısa anlaşılmaz və qorxunc reallığın içərisinə düşmüşəm, elə bil ki, o reallıq mən özüm idim, o dünya, o boşluq məni iz buraxmadan udmuşdu. Mən burada tamamilə təkəm – öz varlığımın qəribə bir illüziyası istisna olmaqla ətrafda heç nə və heç kəs yox idi. Beynimdə isə yalnız bir sual var idi: mənim uşaqlarım və ərim hardadır?! Hamı hara getdi? Heç kim yoxdu.*

*İki məkan arasında ilişib qalmışdım. Mənim gözləməkdən və saniyələri saymaqdan başqa çarəm yox idi. Damarlarımda ağır və yapışqan bir şeyin axdığını, amma bunun qan olmadığını (belə qətiyyətli inam hardan idi?) hiss edirdim. Ən azından, bu, mənim qanım deyildi. Dərman preparatları vena və arteriyalarla süzülürdü. O, mənim dünyamı inanılmaz ölçüdə genişləndirirdi. Mən boşluğa çevrilirdim. Bütün üzüm, bədənim, düşüncələrim, qorxu və ümidlərim ətrafa səpələnir, səssizliyə qapılır, öz daxilində böyüyür. Məni ziddiyyətli hisslər bürüyür, sanki mən yoxam, eyni zamanda bütün kainatda bir tək mən varam. Və inanılmaz sürətlə uçuram, əriyirəm, yoxa çıxıram. Mən yoxam. Eyni zamanda ətrafdakı hər şey elə mən özüməm. Bu, mənim bətnimdən çıxarılan uşaqdır?..*

*...Bu səssizlik dözülməzdir. Mən hardayam? Niyə o biri dünyadan gələnlərin, demək olar ki, hamısının nəql etdiyi sonunda işıq olan uzun tuneli görmürəm? Hanı dünyasını dəyişən babam və nənəm? Onlar mənim vaxtım çatanda qarşılayacaqlarına söz vermişdilər! Yenə uşaqlar yadıma düşür, amma bu dəfə daha ağıllı bir şəkildə, mən onları burda bir daha görməyəcəm. Burada yox. Mən tamamilə tənha qalmışam. Gözləmək lazımdır. Mənə elə gəlirdi ki, mənim düşüncələrim və hisslərim məndən kənarda mövcuddurlar.*

*– Doğrudanmı, mən cəhənnəmə düşmüşəm? – ilk qorxunc düşüncə səsləndi.*

*– Doğrudanmı, sən cəhənnəmə düşəcək qədər günah işlətmisən? – deyə başqası soruşdu. – Cəhənnəm belə olur ki? – deyə hətta o sevindi.*

*– Axı biz nəfəs almırıq! – deyərək üçüncüsü həyəcanlandı. – Mən bilirəm ki, biz nəfəs almırıq!.. Əgər bura belədirsə, gör cəhənnəm necədir? Biz hələ nə qədər gözləməliyik? Tamamilə tək qalmışıq... Gözləyək?*

*Birdən mənim dünyam dağıldı – düşüncələr müxtəlif istiqamətlərə səpələndi və görünməz əllər sanki məni sıxır, çəkisiz hala gətirərək şəkilləndirir, öz yolundan azdırır və mən sap kimi uzanan incə bir dərəyə çevrilirəm. Qəflətən mənim dünyama qeyri-təbii*

*sarı şüa (görünür, gözümün qapaqlarını qaldırdılar və lampanın güclü işığından bəbəklərim genişləndi) yayılır və işıqla birlikdə beynimə aydın bir düşüncə gəldi: mən yaşayıram. Yavaş-yavaş öz bədənimi hiss edirəm. Mən yüngülcə sancmalar, sonra isə iynə ilə sapın xışıltısını (yəqin məni tikirlər) hiss edirəm. Üzərimə sanki baş verənləri işıqlandıran qırmızı parlaq şüaların dəlib keçdiyi bir metr uzunluğunda ağ örtülmüşdü. Döşəkağı tərpənməyə başlayır. Elə bil onun üzərinə səliqə ilə mənim daxili orqanlarım yığılmışdı. Mən tərpənən orqanlarımı, qanı və tibb alətlərini titrəyən nazik döşəkağının altından görürəm. Niyə döşəkağının altından? Axı adətən hamı danışır ki, özlərini bədənlərinin üstünə qalxaraq yuxarıdan seyr ediblər. Mən ki aşağıdayam.*

*Tədricən bu görüntülər də yoxa çıxdı. Mən sözləri anlamasam da, insanların səsini eşitməyə başladım. Başa düşdüm ki, əməliyyat otağındakı stolda uzanmışam. Sanki uzaqda küt bir ağrı hiss edirdim. Mən sağam, mən yaşayıram, mən burdayam, mən ağrıyıram demək üçün ayağa qalxmaq, əlimi qaldırmaq istədim, amma tərpənə bilmədim. Bütün bədənimi sanki qandallamışdılar. Zəncirlənməsinə baxmayaraq, getdikcə yanan və dözülməz bir ağrı duyulurdu. Ayaqlarım sözümə baxmır, boğazımda ağ ciyərlərə qədər salınan endotraxeal intubasiya*[24] *borusu, əllərim masanın tutacaqlarına bağlı, göz qapaqlarım çuğun kimi elə ağır idi ki, gözlərimi aça bilmirdim. Dəlicəsinə bağırmaq istəyirsən, amma heç nəfəs də ala bilmirsən. Sonra mənə elə gəlir ki, mən çox az da olsa, qımıldana bilirəm. Orada olan cərrahlardan biri dedi:*

*– Xəstə özünə gəlir.*

*Bu, yadımda qalan tək ifadə idi. Təəccüblüdür, mən onların danışıqlarını eşidirdim, amma hətta sonradan da heç bir şey xatır-*

[24] Endotraxeal intubasiya və ya traxeyanın intubasiyası – nəfəs yoluna borunun daxil edilməsi. Tənəffüsü və tənəffüs yolunun keçiriciliyini təmin etmək məqsədi ilə icra edilən anestezioloji və reanimatoloji əməliyyat. Tənəffüs yolunun keçiriciliyini təmin etmək baxımından endotraxeal intubasiya ən etibarlı metoddur (*tərc.*)

*laya bilmədim. Elə o anda məndən endotraxeal intubasiya borusunu çıxardıqlarını hiss etdim. Bu çox böyük bir rahatlıqdır. O, özü ilə birlikdə çoxlu tüpürcək axınını da çıxartdı, sanki iç-içalatım da çölə çıxdı. Oduna dönmüş dilimi tərpətmək istəyirəm, lakin bacarmıram – bədənimə hələ də hakimlik edə bilmirəm.*

*Gözümü açanda nə qədər vaxt keçdiyini bilmirəm. Gözlərimin önündə hər şey axırdı, ətrafdakıları iki-iki görürdüm və hər şey elə bil rəqs edirdi, göz qapaqlarım iki açıq yara kimi yanırdı, sanki kimsə gözümə isti qum səpmişdi. Nəhayət, qollarımı açdılar, keyimiş barmaqlarımın üstünə telefon qoydular (yadımdadır ki, nə üçünsə əməliyyatdan qabaq tibb bacısına oyanan kimi mənə telefonu verməsini israr etmişdim. Təəccüblüdür ki, o, mənim bu istəyimi yerinə yetirmişdi). Mən onu saxlaya bilmirdim, hətta kimə zəng vurub nə deməli olduğumu belə bilmirdim.*

*İki saatdır ki, əməliyyat otağında uzanmışam. Kəsilmiş və tikilmiş yaramı hələ də təmizləyirdilər. Yavaş-yavaş yadıma salmağa çalışıram ki, mən kiməm və burda nə işim var? Mənim apendisitimi yenicə kəsiblər? Yoxsa bu, on beş il əvvəl olub? Nə olub mənə? Yalvarıram, qoy mənim həyatımda hər şey olduğu kimi qalsın! Mən boşluqda qalmaq istəmirəm! Ay Allah, mənim bu günümü özümə qaytar!..*

*Ətrafımdakı əşyalar və insanlar yavaş-yavaş aydınlaşmağa başladı. Şüuraltında hiss edirəm ki, elə indicə nəsə çox vacib bir şey xatırlayacağam… Və qəflətən ağlıma bir sual gəlir:*

*– Mənim uşağım hanı?!*

*Sonra yenidən sakitlik hökm sürür. Həddən artıq düşündürücü sükut...*

# İKİNCİ HİSSƏ

## Qanadsız mələklər

O, oğlunu ilk dəfə gördüyü anı bütün ömrü boyu hafizəsinə həkk etmişdi.

Səid Olesya yatandan bir neçə dəqiqə sonra əməliyyat otağından gətirilən balaca bükülü idi. Bükülü susurdu.

Yusif iri cüssəli sanitarı[25] kənara itələyərək reanimasiya otağının qapılarının ardında gözdən itən həkimlərin arxasınca qaçdı.

– Burda nə işiniz var? Təcili reanimasiyanı tərk edin! Bura girmək olmaz!.. – deyə kök tibb bacısı onun yolunu kəsərək bağırdı.

Yusif qadını itələyə bilmədi. Onun qarşısında donub qaldı.

– Yalvarıram sizə, mənim oğlum ordadı! – ancaq bu sözləri deyə bildi. – Mən onu görməliyəm. Səidimin necə olduğunu bilməliyəm. Xahiş edirəm, bir dəqiqə!..

Təəccüblü də olsa, onda həkimlərin icazəsi ilə Yusifi buraxdılar və o bir neçə saniyə Səidin yanında oldu. O, bu anları bütün ömrü boyu xatırlayacaq.

Nə olursa, olsun. Hər zaman.

**Yusifin xatirələrindən:**

*Yadımdadır, Səid anadan olan kimi onu reanimasiyaya aparanda Olesya, ilk növbədə, məndən oğlumuzun şəklini istədi. Axı o hələ də onu görməmişdi. Mən elə hey düşünürdüm ki, görəsən, bu balaca, zəif Səidin şəklini ona göstərməyə dəyər, ya yox? Mənim telefonumda onun şəkli çoxdan var idi, boş vaxtlarımda açıb ona baxırdım. Nəhayət, həyat yoldaşımın istəyinə qarşı qoya bilmədim və gizli faylı ona göstərdim.*

---

[25] Sanitar – müalicə müəssisələrində xəstələrə və yaralılara xidmət edən, həmçinin binanın təmizliyinə baxan kiçik tibb xidmətçisi (*tərc.*)

*O anda onu görəydiniz! İri qəhvəyi gözləri yaşla doldu. Sonradan Olesya bildirdi ki, ilk baxışda o, heç bir şey hiss etmədiyi üçün gözləri dolmuşdu. Hətta ona elə gəlmişdi ki, ona yad adamın uşağını göstərirlər. Səid çox balaca, cılız idi, sanki onun oğlu deyildi... Onu görəndə ilk sözləri bu oldu:*

*– Ay Allah, o niyə belədir? Niyə onun başı bu qədər böyükdür?.. O necəsə, yəni… sanki eybəcərdir… yəni o birisi uşaqlarımız kimi yaraşıqlı deyil…*

*– Yox bir, eybəcər! – Telefonu əlindən alıb cibimə qoydum. – Sən sadəcə yaxşı baxmadın, bizim oğlumuz çox yaraşıqlıdır! Gələcək döyüşçü...*

*– Yaxşı, bir də göstər, diqqətlə baxmaq istəyirəm! – Olesya dedi.*

*– Göstərməyəcəm! Şəkil nədir ki, özün bir düşün? O, heç bir zaman həqiqi gözəlliyi əks etdirə bilməz… Əsas odur ki, Səid sağdır. Həkimlər əvvəlcədən xəbərdarlıq etmişdilər ki, o, şişkin doğulacaq…*

*– Göstər!.. – deyə həyat yoldaşım inad edirdi.*

*Allaha çox şükür ki, bir dəqiqə sonra reanimasiyanın şöbə müdiri içəri girdi. O, bizi hələ Əli doğulandan yaxşı tanıyırdı. Mən ona dedim:*

*– Ona deyin ki, Səid yaraşıqlıdır, – ayağa qalxıb gözləri ilə Olesyanı göstərdi.*

*– Hələ bir soruşursunuz da!? – deyə həkim gülümsədi. – Ən yaraşıqlısıdır! Mən təxminən iyirmi ildir ki, burada işləyirəm, onun gözləri kimisini heç vaxt görməmişəm. Dibi görünməyən dərin və yetişmiş qarağat rəngli gözləri olan çox yaraşıqlı bir oğlandır, inanın tam səmimiyyətimlə deyirəm!*

*– Görürsən? – mən özümə tərəfkeş tapdığım üçün sevindim. – Sən isə tərəddüd edirsən…*

*– Doğrudan onun gözləri elədir?... – deyə həyat yoldaşı heyrətləndi. – O zaman mən də onu mütləq görməliyəm! Kömək et, yataqdan qalxım!..*

*– Yox-yox, Olesya, bu haqda heç düşünmə də, – mən onu yenidən başını yastığa qoymağa məcbur etdim. – Sənə olmaz! İstəyirsən tikişlərin açılsın? Biz onda neyləyərik?*

*– Sizə qəti şəkildə ayağa qalxmaq olmaz, – reanimasiyanın baş həkimi yenidən söhbətə qarışdı. – Bu gün də siz hələ uzanmalısınız, sabah isə mən özüm sizi qaldıracam. Onda siz tikişlərdə spaykanın[26] əmələ gəlməməsi üçün bir qədər hərəkət etməlisiniz…*

*Bilmirəm, Olesya eşitdi, ya yox, indi onun üçün yalnız oğlunun həyatı və sağlamlığı vacib idi. O, özü haqqında düşünməyi bacarmır və heç istəmirdi də. Çox çətinliklə həyat yoldaşımı sakitləşdirməyi bacardılar, həkim ona sakitləşdirici iynə vurmuşdu.*

*Mən elə belə də bilirdim, indi Səidi ona göstərmək olmaz. O yatana qədər mən onun əlindən tutdum. Olesya dayanmadan uşaqlardan danışırdı, sanki bir daha onları görməyəcəyinə əmin idi. Səidin yanından bir addım da o yana getməməyimi tapşırırdı. Mən isə onu inandırmağa çalışırdım ki, hər şey yaxşıdır, bundan daha yaxşı ola bilməzdi. Bizim bəxtimiz gətirib ki, biz burdayıq və Səid özünü yaxşı hiss edir… Deyəsən, o inandı.*

*Həyat yoldaşım yatanda mən yenidən reanimasiyaya tələsirdim. Əslində hər şey mənim ona dediyim qədər də yaxşı deyildi. Bizim yeni doğulan oğlumuz ölümlə həyat arasında çırpınırdı. Əli kimi o da anadangəlmə hemolitik xəstəliklə[27] doğulmuşdu, amma bundan daha ağır bir hadisə də var idi. Səid vaxtından əvvəl doğulmuşdu (həkimlər səkkiz aylıq körpənin nadir hallarda yaşadığını elə ilk gündən bizə bildirmişdilər), onun çəkisi cəmi 1380 qram (mən sonradan öyrəndim ki, bu, hətta yeddi aylıq uşaq üçün belə çox azdır), ona görə də indi ən əsası onun problemləridir – zəif ürəyi və tam*

---

[26] Spayka – əməliyyatdan sonra tikişlərdə və ətrafında yaranan bitişmələr (*tərc.*)

[27] Hemolitik xəstəlik – müəyyən antigenlər üzrə ana və dölün qan uyğunsuzluğu nəticəsində yaranan bətndaxili immunoloji münaqişədir. Bu zaman plasentar baryerdən keçən ananın anticisimlərinin təsirindən uşağın eritrositləri hemolizə uğrayır. Dölün hemolitik xəstəliyi ödemli, sarılıqlı, anemik formada gedərək, ağır hallarda hətta dölün bətndaxili ölümünə səbəb ola bilər (*tərc.*)

*inkişaf etməmiş ağ ciyərləri. Hələ sonradan məlum olacaq ki, bu, sadəcə başlanğıcdır.*

*Onun arxasınca reanimasiyanın qapıları bağlanan kimi "ağır artilleriya" işə düşdü. Körpəmiz ilk nəfəsini özü aldı, mən sonradan öyrəndim ki, bu, çox vacib imiş. Risk etməmək üçün həkimlər dərhal onu intubasiya etdilər – nəfəs borusuna boru salıb süni ağ ciyər ventilyasiyası*[28] *aparatına qoşdular.*

*Bütün "koloriti" ilə bizim anamnezimizdə*[29] *hemoqlobinin ən aşağı həddi bir litr qanda 50 qram təşkil edir*[30]*. Bu, həkimlərin sözünə görə, həyat üçün təhlükəlidir. Həkimlərin anafilaktik şok*[31] *və körpənin ölümü ilə nəticələnə bilən qanı qəbul etməməsi qorxularına baxmayaraq, təcili qan köçürülməsi tələb olunurdu. Səid isə donor qanı*[32] *çox yaxşı qəbul etdi. Bir müddət onun qanındakı hemoqlobin, demək olar ki, lazım olan səviyyəyə qalxmışdı və bu da onun gün çıxana qədər yaşamasına kifayət edirdi. Sonrakı günlərdə bu səviyyə yenidən düşəcək, körpəyə hələ dəfələrlə qan köçürəcək və hemoqlobini qaldırmaq üçün eritrosit*[33] *damızdıracaqdılar…*

---

[28] Süni ağ ciyər ventilyasiyası və ya mexaniki ventilyasiya – nəfəs almağı dayandırmış bir insanda ağ ciyərlər vasitəsilə hava dövranını qorumağa yönəlmiş tədbirlər məcmusu (*tərc.*)

[29] Anamnez – xəstənin həyat şəraiti, yaşayış tərzi, xəstəliyinin inkişaf tarixi və s. haqqında özündən və ya onun yaxın adamlarından toplanan məlumat; diaqnozun, proqnozun və müalicə taktikasının düzgün müəyyənləşdirilməsində mühüm əhəmiyyət kəsb edir (*tərc.*)

[30] Yenicə doğulmuş körpənin ilk üç gün ərzində qanında hemoqlabinin norması 145-225 q/l-dir (*müəllif*).

[31] Anafilaktik şok – həyat üçün təhlükə yaradan kəskin böhranlı vəziyyətdir, sürətlə inkişaf edərək ağır hemodinamik pozğunluqlar törədir, orqanizmdə dərin hipoksiya yaradır, həyati vacib orqanların zədələnməsi ilə müşayiət edilir (*tərc.*)

[32] Qanvermə və ya qan donorluğu – donorların qan və ya qanın komponentlərinin könüllü donorluğu, həmçinin qan tədarükünün və onun komponentlərinin təhlükəsizliyinin təşkili və təmin edilməsinə yönəlmiş tədbirlərdir. Donordan alınmış qan (donor qanı) tədqiqat məqsədləri, qan komponentləri, dərman və tibbi cihazların istehsalı üçün istifadə olunur (*tərc.*)

[33] Eritrosit – qırmızı qan hüceyrələri (*tərc.*)

*Geriyə baxanda, inanın ki, bilmirəm biz bu ilk gecəni necə yaşaya bilmişik. Həkimlər və tibb bacıları artıq ayaq üstə dura bilmirdilər. Mənim də gözlərimin önündə solğun rəngli dairələr uçuşurdu. Olesyanın oyananda Səidi heç nəyə baxmayaraq, qoruya bildiyimizi görəcəyini düşünəndə mənə sanki hardansa qeyri-adi güc gəlirdi. Həyat yoldaşımın oyandığı ana, o andakı bircə təbəssümün xatirinə dağları devirə bilərdim. O və uşaqlar. O zamanlar mən ancaq onlar üçün yaşayırdım.*

*Mən sanki bir dəqiqəlik xəstəxana dəhlizinin skamyasında yuxuya dalmışam. Oyandım ki, ətrafdakı hər şey bərq vuran günəşin çılğın, qızılı şüalarına qərq olub. Yerimdən sıçrayaraq qalxdım. Saata baxdım. Səkkizə on beş dəqiqə işləyir! Mən düz üç saat yatmışam… Səid mənim yatdığım bu üç saatda həyatını itirsəydi, nə olacaqdı? Reanimasiyaya qaçdım. Yolda əməliyyat otağındakı həmin o kök tibb bacısına rast gəldim, indi o, dərman paylayırdı.*

*– Oyandın, ata? – o, sanki yuxusuz, yorğun bir gecə keçirməmişdi. – Biz də düşünürdük ki, sən oyanacaqsan, ya yox… Sənin balacan yaxşıdır, dayanır! Arvadın da yaxşıdır, tezliklə həkim onu müayinə edəcək… – O, təntənəli şəkildə uzun siyahı olan vərəqi mənə təqdim etdi. – İndi isə cəld aptekə... Tində gecə-gündüz işləyən aptek var. Burada bu gün səninkilərə lazım olanlar yazılıb. Hər gün səhər bir az bundan daha çox siyahı alacaqsan. Vərdiş elə…*

*Həkimlərin kiçik, qarmaqarışıq xətlə yazdığı siyahını onun əlindən alaraq sevinə-sevinə aptekə qaçdım. Siyahını az qala yarım saata torbaya yığdılar. Yolda isə yaxınlıqdakı supermarketlərin birinə girib doğuşdan sonra Olesyanın istəyə biləcəyi hər şeyi aldım – meyvə, yoqurt, mineral, ağ şokolad… Təəssüf ki, supermarketdə gül dükanı yox idi – yəqin həyat yoldaşım sübh çağı çox sevdiyi qırmızı qızılgülləri görüb sevinərdi… Mən necə də axmağam, güllər haqqında əvvəlcədən düşünmək lazım idi! Axı kim oğlu doğulandan sonra doğum evinə qucaq-qucaq qızılgül gətirmədən gələr? Qadınlar kişilərin dalğınlığından və unutqanlığından əbəs*

*yerə şikayətlənmirlər... Ona görə də mən maşına oturub açıq gül dükanı axtarmağa getdim.*

*Çox nahaq yerə. Təcili xəstəxanaya geri dönmək lazım idi.*

Olesya qəflətən yuxudan oyandı, sanki onu kimsə çağırırdı. Ağır, sanki beton tökülmüş başını yavaş-yavaş qaldırdı, şüursuz şəkildə əlindəki damla ilə dərman yeridilən iynəni çıxartdı və təəccüblə ətrafına baxdı. O, əməliyyatdan sonra köçürülən altı çarpayılı bir otaqda uzanmışdı. Çarpayılardan beşi boş idi. Enli pəncərələrdən boz pərdələr asılmışdı, ona görə də səhər, yoxsa axşam olduğunu müəyyən etmək çətin idi. Soruşmağa heç kimsə də yox idi. Görünür, Yusifi onun yanına buraxmayıblar. Gecə onun yanında qalan tibb bacısı da yuxulamırdı…

Bəs onu kim çağırıb? O, həqiqətən də yuxuda səs eşidib – sakit, uzaqdan bir səs, amma doğma və tanış bir səs. Doğrudanmı, Səid yenidən onun gözünə görünmüşdü? Axı o artıq dünyaya gəlib, belə şey ola bilməz, gərək… Deməli, oğlunun onun köməyinə ehtiyacı var. Ana ürəyi uzaqdan da olsa, öz uşağının ağrılarını duya bilir. Olesya təcili onun yanına getməli idi. Axı anadan başqa kim getməli idi ki? Uşağın doğulduğu andan etibarən biz qadınlar yeni bir həyatı xilas etmək və qorumaq üçün bütün ehtimallara qarşı proqramlaşdırılmış güclü, mükəmməl tənzimlənmiş bir mexanizmə çevririlik. Təbiət belə yaradıb. O isə çox nadir hallarda yanılır. Heç bir qadın özünün həqiqi gücünü uşaq doğmayana qədər dərk edə bilmir. Olesya səsin arxasınca getməli idi.

Çox çətinliklə nazik adyalın altından çıxa bildi, çılpaq ayağını xlor iyi verən soyuq döşəməyə qoydu və uzun gecə köynəyinin ətəyinə dolaşa-dolaşa nazik işıq gələn qapıya doğru bir neçə addım atdı. Birdən o hiss etdi ki, nəfəsi çatmır, qarnının altı şiddətli kəsici ağrıdan keyiməyə başladı, sonra isə qaynar, ağrılı hərarət bürüdü. Olesya nəfəsini dərmək üçün qapının dəstəyindən yapışdı. Heç nə olmaz. O, nəfəsini dərib uşağını axtarmağa gedəcək. Hündür qapını var gücü ilə itələdi, ayağını kandara qoyub bir addım daha

irəli getdi. Qəflətən dünya onun gözləri önündə fırlanmağa başladı. Xəstəxananın çılpaq, boz divarları bir anlıq göy qurşağının bütün rənglərini ehtiva edən nağıllar aləminə çevrildi.

Yerimək daha da ağırlaşırdı. Olesya dayandı, gözlərini aşağı dikdi və… donub qaldı. Köynəyinin ətəyi qandan işlanmış və ağırlaşmışdı. Otaqdan dəhliz boyu onun arxasınca qanlı izlər var idi. Bu qədər qan hardandı? Tikişlər açılıb? Daha xlorun da iyi gəlmirdi. Təzə qanın metala bənzər şirin qoxusu onu tutmuşdu.

Və sonra hər şey birdən-birə yoxa çıxdı, sanki köhnə filmin kadrı kəsildi və gözlənilməyən sənət evi gerçək həyata çevrildi.

Yusif qucağında böyük zərif qızılgüllərlə (hər şey onun sevdiyi kimi idi – nazik, uzun budaqlı, üzərində şehəbənzər su damlaları olan yarıaçılmış qönçələr, ən vacibi isə güllər cığaraya bükülü buketdə deyildi) dəhlizin tinindən dönəndə onu qana bulaşmış, köməksiz vəziyyətdə döşəməyə sərilmiş halda gördü. Qızılgüllər bir-birinin ardınca döşəməyə səpildi. Qönçələr döşəmənin solğun mavi plitəsinə səpildi, bəziləri qırıldı və oynaq toplar kimi ətrafa sıçradı, bütün çiçəklərin sanki vücudu titrəyirdi. Elə bil yarpaqlar öz parlaq tünd zümrüd rəngini itirdi, şehəbənzər su damlaları ərtafa püskürdü. Nəhayət, xəstəxana dəhlizinin bir hissəsini hüznlü bir xalça kimi bürüyərək dondular. Heç kim onları toplamağa tələsmirdi.

Yusif qorxulu yuxu kimi canlı xalçanın üstündən keçərək həyat yoldaşının cansız bədəninin üzərinə əyildi. Axı o, arvadını bir dəqiqə də tək buraxmamalı olduğunu hiss etmişdi. Niyə maşına oturub gül axtarmaq üçün şəhərin o biri başına qədər getmişdi? Onları elə bil sonuncu dəfə seçirdi, az qala hər ləçəyi, hər yarpağı tək-tək yoxlayırdı, çünki ən yaxşılarını gətirmək istəyirdi. Bir dəqiqə əvvəl çox vacib və əvəzolunmaz idilər, indi isə qızılgüllər cansız və unudulmuş bir şəkildə ətrafa səpələnmişdilər, sanki onlar təhqir olunmuşdu. İyirmi doqquzunun hamısı (bu gün 29 oktyabr idi). Hamısı bir yerdə və hər biri ayrı-ayrılıqda. Qrotesk. Axı onlar onun nəyinə lazım idi? Ona görə ki, günahkar idi? Axı bundan sonra o, kim idi?

Sonra hər şey tünd-qırmızı bezə bürünmüş bir ilğım kimi baş verdi. O, Olesyanın huşunu özünə qaytarmaq üçün nə etdiyini, həkimləri və tibb bacılarını axtardığını, onları necə köməyə çağırmağını bilmirdi. O, qana bulaşmış əlləri ilə qarşısına çıxan hər kəsdən tutur, hər kəsin üstündə iz qoyur, yarıölü halı ilə insanları qorxudurdu… Yalnız bir şeyi başa düşürdü: Olesya o murdar uşaq arabasına toxunduğu andan etibarən hansısa dəhşətli və anlaşılmaz bir qüvvə onu qəbrə aparmağa, onun qanını axıtmağa, demək olar ki, axmaq, ölümcül bir addım atmağa – qeysəriyyə əməliyyatından bir neçə saat sonra yataqdan qalxmağa və oğlunu axtarmağa sövq edirdi… Onun isə beynini mağazada satılan qızılgüllərin süni ətri elə dumanlandırmışdı ki, əslində bu güllər düşünüləcək ən son iş idi… Nəhayət ki, həkimlər gəlib onu qaldıraraq katalkaya[34] qoydular və harasa apardılar. Tünd-qırmızı ilğım da onun arxasınca getdi.

**Yusifin xatirələrindən:**

*…Katalkanın arxasınca reanimasiyanın qapısı çırpıldı, mən dəhlizdə qalıb gözləməyə başladım. Məhz elə bu səs məni oyatdı, mən dik atılıb saata baxdım. Yenə də saat səkkizə on beş dəqiqə işləyirdi. Ətrafdakı hər şey eynilə bərq vuran günəşin çılğın qızılı şüalarına qərq olmuşdu, dəhlizdə isə əməliyyat otağındakı həmin tibb bacısı gəzişirdi, o yenə də dərman paylayırdı. O, qapını çırpdı və mən dik atıldım.*

*– Oyandın, ata? – o, sanki yuxusuz, yorğun bir gecə keçirməmişdi. – Biz də düşünürdük ki, sən oyanacaqsan, ya yox… Sənin balacan yaxşıdır, dayanır! Arvadın da yaxşıdır, tezliklə həkim onu müayinə edəcək… – O, təntənəli şəkildə uzun siyahı olan vərəqi mənə təqdim etdi. – İndi isə cəld aptekə... Tində gecə-gündüz işləyən aptek var. Burada bu gün səninkilərə lazım olanlar yazılıb. Hər gün səhər bir az bundan daha çox siyahı alacaqsan. Vərdiş elə…*

---

[34] Katalka – çoxfunksiyalı, təkərli xəstəxana çarpayısı (*tərc.*)

*Mən gözlərimi ovuşdurdum. Bu sözləri mən bu gün artıq eşitmişəm... Deməli, bu yuxudur? Mən yatdım və belə bir dəhşətli yuxu gördüm? Günah hissi gör məni nə hala salır? Təcili Olesyaya baş çəkib hər şeyin yaxşı olduğuna əmin olmaq lazımdır. Mənə heyran-heyran baxan tibb bacısının əlindən siyahını alıb arvadıma baş çəkməyə tələsdim. Az qala qapının kandarına ilişib yıxılacaqdım.*

*Olesya gülümsəyərək əməliyyatdan sonra köçürüldüyü altı çarpayılı bir otaqda uzanmışdı. Çarpayılardan beşi boş idi. Mənim tanımadığım bir tibb bacısı isə onun yanında dayanıb damla ilə yeridilən dərmanı yoxlayırdı.*

*– Sən ayağa qalxmısan? – deyə hələ qapının ağzından onun üstünə qışqırdım. – Gecə ayağa qalxıb Səidin yanına getmisən?..*

*– Nə danışırsan, Yusif? – arvadı təəccübləndi. – Bu ki axmaqlıqdır, mənim belə edəcəyimi sən necə düşünə bilərsən?..*

*Sanki mənim qızdırmam var idi, o yuxu hələ də gözlərimin önündən getmirdi.*

*– O ayağa qalxıb?! – deyə növbətçi tibb bacısının üstünə qışqırdım.*

*– Ona nə olub? – deyə o, Olesyaya baxdı və sonra əsəbi baxışlarını mənə zillədi. – Cavan oğlan, nədir arvadının üstünə düşmüsən? O, heç yerə getməyib, icazə verin dincəlsin! – dedi və nümayişkaranə şəkildə qapıya tərəf yönəldi.*

*– Bağışla! – deyə mən arvadımın çarpayısının yanında diz çökdüm. – Əzizim, bağışla məni, mən bir az yuxulamışdım və dəhşətli bir yuxu görmüşəm...*

*– Mən artıq elə də təxmin etdim, – deyə Olesya yenidən gülümsədi, nazik, yarışəffaf barmaqları ilə əlimi yüngülcə sıxdı. – Nə gördüyünü soruşmayacam, təcili o yuxunu unut... Bilirsən, gecə yuxuda Səidi görmüşəm. O, həqiqətən də, çox yaraşıqlıdır... bir də gördüm ki, sən mağazaya gedib mənə ağ şokolad almısan. Alarsan?*

*– Nə istəsən alaram! – deyə mən ayağa qalxdım və qapıya tərəf getmək istəyəndə elə bil hansısa bir qüvvə məni arxaya baxmağa vadar etdi. – De görüm, yuxunda sənə gül də almışdım?*

*– Yox, – deyə arvadı köks ötürdü. – Çatdıra bilmədin. Xəstəxanaya qayıtmalı oldun.*

O yuxu yoxa çıxmışdı, lakin xoşagəlməz bir hiss hələ də qalırdı – Olesyanın sonuna çıxmayana qədər o (artıq yandırılmış uşaq arabasına çökən şey) sakitləşməyəcəkdi. Nəyin bahasına olursa-olsun, onu dayandırmalı idi. Alış-verişdən dönən Yusif anasının ona verdiyi amuletini – ərəb dilində əl ilə yazılmış Qurani-Kərimin son iki surəsinin yazıldığı kağızın saxlanıldığı ağzı məftillə bağlanan kiçik dəri çantanı çıxardı. Anası ona bu amuleti uzaq səfərə çıxanda vermişdi. O zaman o geri dönəcəyinə belə əmin deyildi. Əsl müsəlman kimi, onun anası bu surələrin möcüzəsinə inanırdı, axı onlar bir zamanlar Məhəmməd peyğəmbərin həyatını qurtarmışdılar.

Onun Quranın sonuncu iki surəsinə olan inamı qədim bir əfsanədən doğur: Hicrətin, yəni peyğəmbərin Məkkədən Mədinəyə köç etməsinin beşinci ilində Məhəmməd üzün müddət səbəbini heç kimin tapa bilmədiyi yorucu xəstəlikdən əziyyət çəkirdi. Bir dəfə arxangel Cəbrayıl[35] yuxuda Məhəmmədə onun xəstəliyi ilə bağlı bir sirr açır. Məlum olur ki, hansısa pis bir insan və onun cadugər qızları peyğəmbərə ağır xəstəlik göndəriblər. Bunun üçün onlar mumdan balaca fiqur düzəldib onu saçla sarıdılar və on bir yerdən iynə batırdılar. Sonra yay ipi ilə on bir düyün vurulub dəhşətli əfsun oxumuşlar. Ondan sonra cadugərlər qalan yay ipini mum fiqurun ətrafına dolayaraq onu quyuya atdılar. Baş verənləri arxangel Cəbrayıldan öyrənən peyğəmbər öz köməkçisini mum fiquru ona gətirməsi üçün quyuya göndərdi. Bundan sonra o, Quranın son iki surəsini ayə-ayə oxudu. Hər ayənin sonunda fiqurdan bir iynə düşür, yay ipinin bir

[35] Arxangel Cəbrayıl – iudaist, xristian və müsəlman ənənələrinə görə, Allaha ən yaxın olan mələklərdən biri. Xristianlıqda o, arxmələkdir və əvvəlcə Vəftizçi Yəhyanın, sonra isə Məryəm anaya İsanın doğulacağını qabaqcadan xəbər vermişdir. İslam ənənəsinə görə, o, Allahın iradəsini Qurana köçürmüş və ayrı-ayrı vəhylər şəklində Məhəmməd peyğəmbərə çatdırmışdır (*müəllif*).

düyünü açılırdı. Sonuncu ayə oxunanda sonuncu iynə düşdü, sonuncu düyün isə açıldı. Beləliklə, peyğəmbər sağaldı.

Əlbəttə ki, bu qədim əfsanəyə hamı inanmır. Hətta bəzi şərqşünas alimlər isə ümumiyyətlə, belə hesab edirlər ki, bu iki surənin sehrli on bir ayəsinin islamaqədərki şaman sehrləri təşkil edir. Adi insanlar isə onu əl-Muavizatan, yəni "iki qoruyucu" hesab edirlər. O, bir zamanlar Məhəmməd peyğəmbəri vaxtsız ölümdən xilas etdiyi kimi inanclı insanları da xəbislərdən, qəzəbli cinlərdən qoruyur. Ona görə də Yusif inanırdı ki, əl-Muavizat surələri Olesyaya da kömək edəcək. İndi o, buna inanmaya bilməzdi.

Olesya ərindən amuleti minnətdarlıq hissi ilə aldı. Başa düşürdü ki, əri ona anasından qalan yeganə əşyasını bağışlayırdı. Təəccüblü də olsa, o, özünü daha yaxşı hiss etməyə başladı. Vaxt gələcək qədim güclərin – Quranın əl-Fəlak, yəni "Günəşin şəfəqi" adlanan yüz on üçüncü surəsindən beş ayəni və ən-Nas, yəni "İnsanlar" adlanan yüz on dördüncü surəsindən altı ayə ilə birlikdə bu amuleti – əl-Muavizat surələrini də onu qoruması üçün Səidə verəcək:

*Günəşin şəfəqində Tanrıya sığınıram,*
*O`nun zülmündən,*
*Və gəldiyi zaman qaranlığın şərindən,*
*Və düyün vuran cadugərlərdən,*
*Və həsəd aparanın paxıllığından.*

*İnsanların Rəbbinə sığınıram,*
*İnsanların sahibinə,*
*İnsanların Tanrısına,*
*Özü yoxa çıxan fırıldaqçının zülmündən,*
*İnsanların qəlbini azdırandan,*
*Cinlərin və insanların şərindən*[36].

[36] Burada və bundan sonra şərqşünas Mixail Yakupoviçin ukraynacaya çevirdiyi, şərhlər və izahlar yazdığı Qurani-Kərimdən sitatlar gətirilir (*müəllif*).

Onların hər ikisi duaya bütün qəlbləri ilə inanırdılar. Həkimlərin hər gün onları daha ağır vəziyyətlə qarşılaşma ehtimalının olmasına hazırlamalarına baxmayaraq, deyəsən, bu dualar onların yeni doğulmuş oğullarının həyatda qalmasına kömək edirdi. Buna baxmayaraq, qan köçürüldükdən sonra Səidin bədənindəki hemoqlobinin səviyyəsi sabitləşdi, bilirubin düşməyə başladı və nəhayət, normaya düşdü. Körpə isə hələ də süni ağ ciyər ventilyasiyası aparatına qoşulu idi. Olesya hər zaman ona can atırdı.

Artıq dördüncü gün o, ayağa qalxıb ərinin yardımı ilə yavaş-yavaş oğlunun yanına getdi. Qətiyyətlə arabadan imtina etdi. Oğluna aparan yolu özü keçmək istəyirdi. Hətta ürəyində niyyət də tutdu – əgər öz ayağı ilə oğluna çatarsa, onun Səidində hər şey yaxşı olacaq.

O, yavaş-yavaş, ehtiyatla, dözülməz ağrıları dəf edərək xəyalında daim oğlunu düşünərək yeriyirdi. Onu görəndə, demək olar ki, əsəbləri tab gətirmədi; növbəti gecə isə gözlərini belə yummadı. Səid elə yorğun görünürdü ki, adamın bağrı yarılır, ürəyi qan ağlayırdı…

**Olesyanın xatirələrindən:**

*…O qədər balaca idi ki, ən kiçik ölçülərdə olmağına baxmayaraq, o, papağın və corabların içində itib-batmışdı. Adama elə gəlirdi ki, oğlumuz ovcumuzun içinə belə sığa bilərdi. O, yeni doğulan uşaqlar üçün küvəzdə uzanmışdı. Onun balaca sifətinə isə şəffaf, plastik, nəfəs almaq üçün boru sistemi uzanırdı…*

*Həkimlər deyirlər ki, hələ də bizim ən böyük problemimiz ağ ciyərlərdir. Əlbəttə, doğulan kimi ona kurosurf*[37] *vurulmuşdu,*

---

[37] Kurosurf – yeni doğulmuş (vaxtından əvvəl) uşaqlarda (ən az 700 qram ağırlığında) səthi aktivant çatışmazlığı ilə əlaqəli tənəffüs çətinliyi sindromu üçün istifadə olunur. Dərmanın istifadəsi nəfəs almanı yaxşılaşdırmaq üçün nəzərdə tutulmuşdur və yalnız bir klinik şəraitdə(mexaniki havalandırma və izləmə ehtiyacı nəzərə alınmaqla) icazə verilir (*tərc.*)

*amma Səid inadkarlıq edərək özü nəfəs almaq istəmirdi. Bəlkə də istəyirdi? Reanimasiyada növbə çəkən tibb işçisi dedi ki, balaca Səid üç dəfə endotraxeal intubasiya borusunu dartıb çıxararaq özünün müstəqil olaraq nəfəs ala bildiyinə işarə edirdi…*

*Kaş ki, biz zamanı geri qaytara biləydik! Ona görə ki, hər şeyin düzəldilə biləcəyi əvəzsiz, qiymətli dəqiqələr, saatlar, günlər ötüb keçdi. Bu vaxt həkimlər mövcud olan müxtəlif antibiotiklərlə onun üzərində sınaq keçirirdilər. On səkkiz yaşdan aşağı uşaqlara qəbul edilməsi tövsiyə olunmayan ağır dərmanlar vurulurdu. Hər gün bizi yeni antibiotik kurs müalicəsinin dərmanlarını, endotraxeal intubasiya üçün kateter[38] (bu, ağ ciyərlərdən suyun sorulması üçün idi), mədə kateterləri (zond, yemək yeridilən boru), uşaq bezləri, fizioloji məhlul, bələk, şpris, hətta məişətdə işlədilən kimyəvi maddələr və personal üçün rezin əlcəklər almaq üçün göndərirdilər. Hər dəfə də bu məhsullar alınması vacib olan dərmanlar siyahısına daxil edilirdi. Bu isə demək olar ki, hər həkimə, hər tibb bacısına və hər sanitara fərdi "təşəkkür" sayılmır… Onların hamısının nə isə qoymaq üçün ayrıca cibi var idi. Yalnız Kristina Viktorovna belə "təşəkkürü" qəbul etmirdi. Onun kimiləri isə tibb müəssisələrində, həqiqətən, tək-tük qalmışdı…*

*Artıq neçənci dəfədir ki, mən səhiyyəmizin özünün sağalmaz xəstəliyə düçar olduğuna əmin oluram. Bürokratik ənənələrin mühafizə olunduğu kabinet otaqlarının astanasından keçəndə heç kim gözümüzə baxmır, amma demək olar ki, bütün tibb personalı iti baxışları ilə gözlərini əllərimizə dikir, nə gətirdiyimizə, necə razılaşacağımıza baxırlar. Bizim əlimiz də çox az hallarda boş olurdu. Biz sistemin kölələriyik. Eynilə həkimlər və tibb bacıları da çoxdan bu dairənin girovuna çevrilmişlər. Onların da yemək, geyinmək, təhsil almaq istəyən uşaqları var. Dövlət məmurunun əməkhaqqı-*

[38] Kateter – boşluqlu üzv və orqanlara: sidiklik, mədə, vena, arteriya, ürək, peridural boşluq, sinir kələfləri və s. diaqnostik müayinə və müalicə məqsədi ilə yeridilmək üçün plastik, rezin və ya silikon, şüşədən hazırlanmış müxtəlif ölçülü boru (*tərc.*)

*sı isə bunlardan yalnız birinə yetir. Dövlət başqalarının həyatını xilas edən insanlara lazımi qaydada qayğı göstərmir. Onların başqa seçimi varmı? Bizim seçimimiz varmı? Hamımız vahid sistemdə onlara tapşırılan funksiyanı düzgün yerinə yetirməli olan kiçik fiqurlarıq. Doğmalarımızdan kimsə xəstələnəndə evdən ən son əşyamızı belə çıxarmağa hazırıq. Biz həyəcanla pul axtarırıq. Çarəsizcəsinə dəhşətli borcların altına giririk, təki taleyin əlindən (yaxud da sistemin əlindən) doğma adamımızı ala bilək. Və onu "ala biləcəyimizin" də heç bir zəmanəti yoxdur. Axı bütün müalicə prosesi sovet vaxtı təsdiqlənmiş "protokol" əsasında həyata keçirilir. Hər kəs bu "protokol"dan sonra yaşaya bilmir. Görəsən, buna görə xəstələnməkdən və ölkəmizdəki bürokratik ənənələrin mühafizə olunduğu kabinet otaqlarının astanasından keçməkdən belə qorxuruq?*

*...Bir tək Allah bilir ki, bizi bir böcək kimi əzən bu "maşın"a qarşı çıxmaq nə deməkdir. Qarşısına çıxan hər kəsi amansız "protokol müalicəsi"nə qurban verirdi.*

Onların pulları getdikcə tükənirdi. Tezliklə kommersiya bankının filiallarından birinə müraciət edib insanları soyan dəhşətli faiz dərəcəsi ilə kredit götürdülər. Yusif əlavə növbələrdə qalmaqla işdə daha çox vaxt keçirirdi. Olesya isə anası ilə uşaqlara baxır və hər gün Səidin yanında növbə çəkirdi. O, hər şeydən çox ölü kimi yatmaqdan qorxurdu. Birdən o oyananda oğlu artıq olmaz? O, şirin yuxuda ikən oğlunun nəfəsi dayanarsa, nə olacaq? Bu, onun ən qorxulu yuxusu idi.

O günlərdə o, artıq yatmağı unutmuşdu. Ayağa qalxıb reanimasiyaya getdi. Uzun müddət oğlunun yanında oturdu. Onun çəhrayı yarpağabənzər dırnaqları olan balaca əllərinə, dünyanın ən mülayim və balaca simasına baxaraq öz-özünə təkrarlayırdı: "Dayan, oğlum. Anan burda, sənin yanındadır…"

O, özü də hiss etmədən iyirmi doqquz yaşını xəstəxanada keçirdi. Yalnız Yusif böyük meyvəli tort ilə iyirmi doqquz rəngli

şardan ibarət bir "buket" (təəccüblü də olsa, son zamanlarda güllərdən uzaq dururdu) gətirəndə Olesya xatırladı ki, doğrudan da, bu gün onun ad günüdür.

Yusifin arxasınca bir-bir otağa onların dostları daxil oldular. Bir qədər sonra isə onlara Valeriya da qoşuldu. Hamı onu təbrik edir, xoşbəxtlik arzulayır, ən əsası da gələn il ananın yubileyidir, xəstəxananın artıq geridə qalmasını və oğlu Səidin tez sağalmasını arzulayırlar. Bu, onun ən böyük arzusu idi…

Uzun zamandan sonra bu gün ilk dəfə Olesya ağladı.

**Olesyanın xatirələrindən:**

*Əməliyyatdan sonra məni ümumi doğum şöbəsinə köçürdülər. Bizim bəxtimiz gətirdi ki, mən hər şəraiti olan geniş, işıqlı otağa yerləşdirildim. Sonradan öyrəndim ki, doğum evinin Avropa stilli təmirini bir neçə il əvvəl burada uşaq dünyaya gətirən zəngin xarici vətəndaş etdirib. O, Vinnitsada qonaq olarkən hamilə idi və doğuş vaxtından əvvəl başlamış, onu isə buraya gətirmişdilər.*

*Təəssüf ki, o qadının uşağı tələf olub. Tibb bacıları deyirlər ki, o, öz kədərinə çox qapanmadı, ölmüş oğlunun xatirəsinə özü kimi qadınlar üçün xəstəxanaya belə bir hədiyyə bağışladı. Onlar xatırlayırlar ki, hamı doğuşdan sonra şikayət edir: təsəvvür edirsiniz, özümə yer tapa bilmirəm, hər dəqiqə reanimasiyada mənim uşağıma nə olacaq deyə gözləyirəm, üstəlik burada da ətrafımda çılpaq, boz divarları görürəm – bu, daha dözülməzdir və belə hallar psixikaya mənfi təsir edir…*

*O zamanlar hamı onun sözlərini ərköyün gənc bir xanımın şıltaqlığı kimi qəbul edirdi. Buna bir bax! Hara qoyublar orda da uzan, bura sənin üçün istirahət mərkəzi deyil. Sonra isə başqa cür danışdılar. Xəstəxanadan çıxandan sonra köhnə pasient çılpaq, uçuq-sökük divarları unutmadı, geri döndü və otaqlarda əsl ev rahatlığını təmin etdi. Orada hər otağa məxsus ayrıca vanna otağı düzəltdirdi, plastik pəncərə qoydurdu, ortopedik matraslı rahat çarpayı yerləşdirdi və*

*divarları gözəl, günəşli qızılı rəngə boyadı. Ondan sonra gələnlər üçün. Ümid edirəm ki, tale bu böyük ürəkli qəribin üzünə güldü və ona çox arzuladığı körpəni bəxş etdi. Qız və ya oğlan – nə olur-olsun, bu o qədər vacib deyil, əsas sağlam olsun. Mən Allaha dua edəcəm ki, bu, belə də olsun. Mən inanıram ki, bizim doğum evində olan digər qadınlar da onun üçün dua ediblər.*

*Mən iki ay həmin üçnəfərlik palatada qaldım. Mənim qaldığım müddət ərzində burda on beş nəfər hamilə qadın yatdı – bəziləri iki-üç gün qaldı, bəziləri bir həftə yubandılar, digərləri isə bir az daha çox. Adətən hər şey tez baş verir – körpələr özlərini yaxşı hiss edir və onları "vaxtından əvvəl doğulanlar" və ya "yenidoğulanların patologiyası" şöbəsinə köçürürlər, amma bütün uşaqlar sağala bilmir. Beləllatri haqda burda deyirlər ki, əzab çəkdilər, amma bu həyatdan günahsız getdilər.*

*Bunu xatırlamaq mənim üçün çətindir. O qeyri-müəyyən aylar ərzində mən hər şey gördüm. Burada həyat ilə ölüm yanaşı gəzirdi və sən heç bir zaman onlardan hansının bu səhər səni ziyarət edəcəyini bilmirsən. Heç vaxt o addım səslərinin gətirdiyi vahiməni unuda bilmərəm, sanki Hollivudun qorxulu filmlərində hansısa bir Samanta[39] küncdə çarəsizcəsinə oturaraq balta ilə onun arxasınca gələn Freddi Krügeri[40] gözləyir. Biz də onun kimi oturub yerli "Freddi Krüger"i gözləyirdik. Yalnız o, balta əvəzinə insanların həyatını "əvvəl" və "sonra" olaraq iki hissəyə bölən qorxulu bir xəbərlə gələcək. Bizim palatamız dəhlizin sonunda yerləşirdi. Ətraf dənizin dibindəki kimi dərin bir sükuta qərq olmuşdu. Biz addım səsləri eşidən kimi başa düşürdük ki, o, bizim üçün gəlir və hər kəs gizlicə Allaha yalvarırdı ki, onun yanına gəlməsin.*

*Addım səslərindən biz artıq gələnin hansı xəbərlə gəldiyini müəyyən edə bilirdik…*

---

[39] Samanta – "Qarağac küçəsində qarabasma" (1984) filmində obrazlardan biri (*tərc.*)

[40] Freddi Krüger – "Qarağac küçəsində qarabasma" (1984) filmi üçün uydurulmuş obraz. (*tərc.*)

*Xəstəxanadakı qonşularımdan ən çox yadımda qalanı söhbətcil və qayğısız Yaroslava idi. Sonra məlum oldu ki, onun belə görünüşü yalnız gözdən pərdə asmaq üçün idi. Gözəl, baxımlı, özünə inamlı Yaroslava otuz altı yaşında əkiz uşaqlar dünyaya gətirmişdi. Bir oğlan, bir qız. Bu, onun ilk övladları idi. O, əri ilə birlikdə uşaq məsələsini gecikdirmişdilər, əvvəlcə öz şəxsi bizneslərini qurmaq üçün işləmiş, maşın almış, şəhər kənarında bir ev tikmişdilər... Onların ailəsində hər şey öz yerini tutanda və çoxdan gözlədikləri körpəni qəbul etməyə hazır olduqda o, artıq hamilə qala bilmirdi. Uzun müddət əri ilə birlikdə bir çox xəstəxanaları gəzmiş, xaricdən gələn mütəxəssislərə müraciət etmiş, hətta Çernobıl yaxınlığındakı ucqar bir kənddəki falçı nənəyə də müraciət etmişdilər...*

*Nəhayət ki, Yaroslava ana olacağını öyrənmişdi. Özü də bir yox, iki uşaq. Onların sevinci çox uzun çəkmədi. Geç hamiləlik uşaqlara pis təsir etmişdi. Uşaqlar patoloji inkişafla dünyaya gəlmişdilər.*

*Yaroslava ilə eyni palatada təxminən yarım ay bir yerdə qaldıq. Bu müddət ərzində biz əməlli-başlı rəfiqəyə çevrildik. Əkizlər özlərini yaxşı hiss edəndə onları rayon xəstəxanasına köçürdülər. Biz əlaqəni kəsmədik. O, Səid üçün massaj həkimi və xaricdən gətirilən bahalı dərmanları tapmaqda yardım edirdi. İndiki kimi yadımdadır, o, hər zaman deyirdi ki, mən başqalarına nə qədər çox kömək eləsəm, o qədər də tale mənim övladlarıma xoşbəxtlik bəxş edəcək.*

*Palatamda heç vaxt unuda bilməyəcəyim digər bir qonşumun isə həyat hekayəsi tamamilə fərqlidir. Tələbə Nastya on yeddi yaşında hamilə qalmışdı. Sevdiyi oğlan onu tərk etmiş, o, uşağını nigahdankənar dünyaya gətirmişdi. Vinnitsa ətrafındakı balaca kəndlərdən birində yaşayan valideynləri isə yolunu azmış qızlarından üz çevirmiş, ona uşaqla evə qayıdaraq camaat arasında onları rüsvay etməməsini söyləmişdilər... Buna baxmayaraq, Nastya uşağı dünyaya gətirmək qərarına gəlmişdi. Təhsilini davam etdirə bilmək üçün universitetin qiyabi şöbəsinə keçmiş, işə düzəlmiş,*

*yeni doğulmuş körpə ilə ilk dövrlərdə rahat yaşaya bilmək üçün ən xırda şeylərə belə qənaət edirdi. Deyirdi ki, bir müddət sonra yenidən işə çıxacaq və hər şeyi çatdırmağa çalışacaq. Başqa cür necə ola bilərdi ki?*

*Nastya inanırdı ki, Tanrı övlad verirsə, onun ruzisini də verir. O, hələ harda yaşayacağını da bilmirdi (kirayə ev tutmağa hazırlaşırdı), amma kiçik qızını qollarına alacagı günün xəyalını qururdu. Hətta hələ anadan olmamışdan adını da düşünmüşdü – Veronika. İnanırdı ki, belə gözəl adla onun taleyi anasınınkından daha yaxşı olacaq. Hamilə qaldığı oğlanı heç yadına da salmırdı, o, yalnız öz gücünə arxalanırdı...*

*Sonra qəflətən nə isə baş verdi – yolun ortasında Nastya özünü pis hiss etdi və kimsə onun üçün təcili yardım çağırdı. O, Veronikanı yeddiaylıq dünyaya gətirdi. Doğuşdan sonra gənc ana özünü pis hiss etdi, uzun müddət özünə gələ bilmirdi. O, gözlənilmədən böyüklərin qəddar dünyasına daxil olan və özünün nağıl dünyasına necə qayıdacağını bilməyən kiçik, qorxmuş bir heyvana bənzəyirdi. Biz Yaroslava ilə var gücümüzlə Nastyaya dəstək olmağa çalışırdıq. Yeməyimizi, dərmanımızı onunla bölüşür, ona pul verir, uşağına lazımi diqqət ayırmaq üçün gizlicə tibb bacılarının cibinə "şirinlik" basırdıq... Bir həftədən sonra düzəldilməsi mümkün olmayan bir hadisə baş verdi – bir gün balaca Veroniçka oyanmadı.*

*Nastya, sanki dəli olmuşdu. O, heç kimi eşitmir, heç kimi görmür, heç kimi tanımırdı. Zəif, qaralmış bir kölgə kimi xəstəxana dəhlizlərini gəzərək hər kəsdən uşağının necə olduğunu soruşurdu.*

*Növbəti gün Nastyanı xəstəxanadan evə buraxdılar, ancaq o, Veronikasız buranı tərk etmək istəmirdi. Bölmənin astanasında qozbel, kədərli bir kölgə kimi oturub, gəlib-keçən ağ paltarlı laqeyd insanların əllərindən tutub solğun dodaqları ilə yalvardı: "Uşağımı verin!"...*

*Bütün xəstəxana təəccüblənirdi ki, belə gənc bir qızda bu qədər güclü analıq hissi hardandı? Bəlkə, uşaqlıqda onun kuklası olmayıb? Bəlkə, bu yeni doğulmuş qız uşağından başqa kimsəsi*

*yoxdu? Təcrübəli tibb bacıları deyirdilər ki, bu, ötüb-keçəcək. O, gəncdir, hələ qarşısına layiqli kişi çıxacaq, ərə gedib uşaq doğacaq. Onlar yenə də yanılmışdılar, Nastya xəstəxananı tərk etmək, özünə ər axtarmaq və uşaq doğmaq fikrində deyildi. O, ancaq indi doğduğu uşağını istəyirdi. Kənddən valideynləri "yolunu azmış" qızlarını xəstəxanadan aparmaq üçün gəlmişdilər, lakin artıq o, onları tanımaq, evə qayıtmaq, insanların üzünə çıxmaq istəmirdi. Güclə onu köhnə "Jiquli"yə oturdub doğma kəndinə apardılar.*

*Yaroslava və mən Nastyadan sonra bütün gecə ağladıq. Onsuz da nəyi isə dəyişdirməyə gücümüz çatmırdı. Ən yaxşısı Veronikanın taleyini yaşamamaları üçün hələ də reanimasiyada olan öz uşaqlarımız haqqında düşünmək idi. Burada "ölüm" sözünü heç kəs dilinə gətirmir. Ona görə ki, körpələr ölmür, onları Tanrı öz yanına – kiçik, gülərüz mələyə çevrildikləri səmaya aparır ki, bizim dünyamıza yuxarıdan baxıb onun necə ecazkar olduğuna heyrətlənsinlər…*

*...Deyirlər ki, insan çəkə bildiyi qədər yük daşıyır. Deyirlər ki, bizim dünyamızda heç bir şey təsadüfən olmur, hər kəs layiq olduğunu yaşayır. Deyirlər ki, insanlar axtarır, tapır, əgər qapını döyürsə, o qapı onun üzünə açılır, əgər inanırsa, gözəgörünməz qüvvələr ona yardım edir...*

*Bizim də taleyimiz belə yazılmışdı. Səidi dünyaya gətirməkdə mənə yardım edən Kristina Viktorovna ilə bizi tale birləşdirmişdi. Sonra isə Kristina Viktorovna məni şəhərin ən yaxşı pediatrı ilə tanış etmişdi. O, deyirdi ki, Natalya Fyodorovna Tanrıdan vergisi olan bir həkimdir, bir zamanlar o da bizim doğum evində işləyirdi, rəhbərlik dəyişən kimi onu məcburi-könüllü təqaüdə göndərdilər. Elə o vaxtdan da onu tibb müəssisəsinin kandarına belə buraxmırlar, qorxurlar ki, bir kəlmə sözü ilə onların "protokol"larında daşı daş üstündə qoymayacaq. Onun yerinə asan yolla tez pul qazanmağı və onları belə yüksək vəzifəyə təyin edənlərlə o pulu bölməyi bacaran gənc həkimlər təyin olundu…*

*Natalya Fyodorovna xeyirxah gözləri, sakit səsi, yumşaq və səmimi ana təbəssümü ilə sadə geyimli, yaşlı bir qadın idi. Gö-*

*rünür, hansısa məşhur ailədən idi. O, hətta indi belə qədim miniatür farfor gəlinciyi xatırladırdı. Sovet hökuməti onu siyasi olaraq "etibarsız" hesab edərək doğulub ömrünün yarısını yaşadığı Sankt-Peterburqdan (o zamankı Leninqrad) götürüb Vinnitsada tərk etdiyi üçün o, rus ədəbi dilində mükəmməl daşırdı.*

*Vinnitsa onun evi olmuşdu. O, burada ərə getmiş, iki uşaq doğub böyütmüş və həkimlik sənətinin ən yaxşı mütəxəssisi olmuşdur. Natalya Fyodorovna hələ də tibbin yeni nailiyyətləri ilə maraqlanır, beynəlxalq simpozyumlara dəvət alaraq tez-tez xaricə gedirdi. Belə həkimi təqaüdə göndərmək olar?!*

*O, Səid üçün daha bir qoruyucu mələyə çevrilmişdi. Sonralar mən bu yaşlı həkimlə məsləhətləşmədən bir addım da atmırdım. Onun dözümlülüyünə heyran idim, çünki illər keçdikcə hər yeni doğulmuş uşaq onun üçün əhəmiyyətini itirməmişdi. O, balaca pasiyentləri sonsuz konveyer kimi qəbul etmirdi, valideynləri pullarına və imkanlarına görə dəyərləndirmirdi, sadəcə hər dəfə xəstəliyin üzərində qalib gəldiyi üçün sevinirdi.*

*– Sonradan qazanılan bütün xəstəlikləri müalicə etmək olar, Olesinka. Uşaq orqanizminin isə bunun üçün sonsuz potensial sərhəddi var. Əgər onun ağ ciyərinin yalnız iyirmi faizi sağlam işləyirsə, deməli, səkkiz ilə qədər ağ ciyər toxumalarının böyüməsi və konpensasiya olunması ümidi yüksəkdir, – deyə Natalya Fyodorovna mənə başa saldı.*

*Niyə mən bu sözləri əvvəlki məmur-həkimlərdən eşitməmişdim? Ona görə ki, onlar bunu bilmirdilər, yoxsa bilmək istəmirdilər? Mən başa düşürəm, insanı təqaüdə göndərmək olar. Bəs onun biliyini və hələ çox balaca həyat xilas edə biləcək çoxillik təcrübəsini nə edək? Onları da lazımsız əşya kimi bir tərəfə tullamaq lazımdır?*

Zaman ötürdü, reanimasiyada isə heç bir şey, demək olar ki, dəyişmirdi. Səid süni ağ ciyər ventilyasiyası aparatında, valideynləri isə fasiləsiz stress vəziyyətində otuz yeddi gün qaldı.

Bu qeyri-müəyyənlikdənsə, onlar artıq hər hansı bir xəbərə hazır idilər. Və xəbər gəldi. Natalya Fyodorovna bizə bildirdi ki, süni oksigenin uzun müddət istifadəsi ağ ciyər hüceyrələrinə, həmçinin görmə qabiliyyətinə mənfi təsir göstərir. Əgər yeni doğulmuş uşaq iyirmi səkkiz sutkadan çox süni ağ ciyər ventilyasiyası aparatı ilə nəfəs alırsa, bronxopulmoner displazi[41] təhlükəsi yarana bilər. Ertəsi gün Səidin tibb kitabçasında elə həmin bu diaqnoz peyda oldu. Bu xəstəlik necə irəliləyir? Ağır bronxopulmoner displaziyada ağ ciyər hüceyrələri aktiv olaraq birləşdirici toxuma ilə əvəz olunur, yəni bu, bir daha düzəlməyəcək və oraya oksigen daxil ola bilməyəcək.

– Nə etmək olar, sizə bildirməliyəm ki, vəziyyət o qədər də qənaətbəxş deyil, – yerli professor neonatoloq[42] heç bir ürək-dirək vermədən birbaşa Olesyaya dedi. – Sizin iki yolunuz var: ya hər şeyə elə buradaca – xəstəxana divarları arasında son qoymaq və ya bütün ömrü boyu bir bitkiyə qulluq etmək… Əlbəttə ki, üçüncü yol da var – öz Allahınıza dua edin və möcüzə gözləyin. Necə deyirsiniz, Tanrı? Ola bilsin ki, Tanrı yarımçıq doğulmuş uşağı necə müalicə etmək lazım olduğunu daha yaxşı bilir.

Olesya donub qaldı. Hamının hörmət etdiyi həkimdən belə bir hörmətsiz münasibət gözləmədiyindən o, qeyri-ixtiyari özünü daha da ağır hiss etdi. Xeyr, o, islamı qəbul etdiyini biləndə ətrafındakıların özünəməxsus reaksiyasına alışmışdı, məsələn, xadimə

---

[41] Bronchopulmoner displazi – erkən doğulmuş körpələrdə ağ ciyərin mexaniki ventilyasiyasından və yüksək oksigen konsentrasiyalarından yaranan xroniki ağ ciyər xəstəliyidir (*tərc.*)

[42] Neonatologiya – pediatriyanın yeni doğulmuş uşağa düzgün qulluq və onun vəziyyətinin qiymətləndirilməsi üçün bir çox hallarda postnatal uyğunlaşmanın gedişini və onun sağlamlığının gələcək vəziyyətini müəyyənləşdirən sahəsidir. Uşağın somatik və nevroloji yetişkənliyinin qiymətləndirilməsi, hestasiya yaşının təyini, ola biləcək anadangəlmə qüsurların və ya bətnxarici uyğunlaşmanın problemlərinin aşkarlanması, infeksiyaların və hemorragik xəstəliyin və s. qarşısını almaq üçün profilaktik tədbirlərin yerinə yetirilməsi neonatoloqun işinin vacib hissəsidir (*tərc.*)

xala onunla hər dəfə dəhlizdə qarşılaşanda xaç çəkirdi, otuz ildir palatalarda yemək “paylayan” Zina nənə bir dəfə Olesyanın Quran oxuduğunu gördü və həyəcanla öz-özünə dedi: “Dünya hara gedir? Bu, bizim günahımızdır!”

Zina nənə Moskva Patriarxlığının kilsələrindən birində çalışan könüllülərdən idi. Ona görə də xəstəxana palatalarına ləzzətli yeməklərlə birlikdə “əsl mənəviyyat”ı da gətirməyi müqəddəs vəzifə sayırdı. Hamıya uşaqlarını yalnız Moskva Patriarxlıqlarında vəftiz etməyi tövsiyə edirdi. Əgər başqa bir yerdə xaç suyuna salınaraq xristian olsaydılar, mütləq Moskva Patriarxlığında vəftiz olunmalı idilər, əks halda uşaq Allah qarşısında vəftiz olunmuş hesab edilməyəcəkdir!

…Bəzən başqalarının bizə bənzəməmələri ilə razılaşa bilmirik. Bizə birbaşa aidiyyatı olması o qədər də əhəmiyyətli deyildi, yanımızda olması kifayət idi. Zamanında Olesya ərinin müsəlman olduğuna görə çox əziyyətlərə qatlaşmalı olmuşdu.

– Gündə beş dəfə namaz qılmaq – bu necə uydurmadır? – deyə müsəlmanların sübh çağı, günorta vaxtı, axşam, qürub çağı və alatoranlıqda namaz qıldıqlarını eşidən insanlar çiyinlərini çəkirdilər.

– Niyə o, bizim sağlığımıza içmir? – deyə hər görüşdə bir qədəh içki içməyi sevənlər soruşurdular. Yusif isə spirtli içkilərdən hər zaman imtina edirdi. Görünür, onlar asiyalıların alkoqollu içkilərin qəbul edilməsinə cavab verən genlərinin olmadığını bilmirdilər. Onların orqanizmləri alkoqolu qəbul etmir, nəticədə, dəhşətli reaksiya ola bilər. Ona görə də islam öz tərəfdaşlarını sərxoşluqdan qoruyur.

– Gör bir necə qürurludur? Bizim salomuz[43] onun xoşuna gəlmir! – deyə bir başqası Yusifin nəzakətlə tərkibində donuz əti olan qidalardan imtina etməsindən incikliyini bildirirdi.

Eyni zamanda, deyirdilər ki, müsəlman kişilər slavyan qadınlara hörmət etmir. Onlarla əylənir, sonra onları atıb evlərinə

[43] Salo – heyvan mənşəli bərk piydir, heyvanların güclü qidalandığı dövrdə onların orqanizmində toplanıb yığılan yağ qatıdır (*tərc.*)

geri dönür, özününkülərlə evlənir, hətta arvadlardan özlərinə hərəmxana yaradırlar. Görürsünüz, onlara biri azlıq edir! Əlbəttə, hər şey ola bilər – bəzən “şərq şahzadələri” şahzadə yox, bizim qızların sadəlövhlüyündən istifadə edən fırıldaqçı olurlar. Hərəmxanalar isə hələ də mövcuddur. Müsəlmanın ikinci arvadı alması üçün mütləq birinci arvadın razılığı lazımdır, həm də gərək kişinin pulu hamıya eyni dərəcədə çata.

Yusif ömründə bir dəfə sevən kişilərdən idi, amma insanlar ona inanmırdılar. Olesyanı qorumaq üçün onun uzun müddət belə davam etməyəcəyini deyirdilər. Əvvəlcə ona deyirdilər ki, “O, səninlə evlənməyəcək! Gəzib-dolanacaq və çıxıb-gedəcək, görəcəksən”. Elə ki, Yusif ona evlənmə təklif etdi, onlar heyrətlə əllərini boyunlarının arxasına sürtərək deyirdilər: “Səni təzəcə görüb, elə o saat da evlənmə təklif edir? Ona inanma! Yəqin nə isə planlaşdırır”… Azərbaycanlılar haqqında dəhşətli əfsanələr uydururdular – onlar burada kimisə döyüblər, o biri tərəfdə oğurluq ediblər, bu yaxınlarda Köhnə şəhərdə üç nəfər birlikdə bir qıza təcavüz ediblər. İndi o yazıq qız bütün qafqazlılardan çəkinir. Olesya sakitcə bütün bu dəhşətli hekayələrə qulaq asır və ürəyində onlardan soruşmaq istəyir: əgər o qıza təcavüz edənlər sizin həmvətənləriniz olsaydı, o, yenə də bütün ukraynalılardan çəkinməli idi? Bu müqayisə heç ağlasığandır?

O isə susurdu, heç kimə heç nə sübut etmək istəmirdi. Yusiflə onun münasibətlərinin ətrafında yaranan vəziyyət artıq Andrey Malaxovun “Qoy danışsınlar” şou proqramını xatırladırdı. Televiziyada bu proqrama baxanda o, hər dəfə də insan səmimiyyətinin hansı dəhşətli formalar yarada biləcəyi və şounun studiyadakı “ekspertləri”nin bir çalağan kimi sadəlövh “etirafçılara” şığıması onu təəccübləndirirdi. Elə ona görə də o, susmağı üstün tuturdu.

Buna baxmayaraq, insanlar Olesyanın bir müsəlmana ərə getdiyini və islamı qəbul etdiyini öyrənəndə bir çoxları ondan üz çevirdilər, hətta salamlaşmırdılar belə. Onların ona yazığı gəlirdi. Əslində qızları evlənmədən əvvəl müsəlman kişilərinin qadınlar-

la kobud rəftarı qorxudurdu. Şəriətə görə, hicab geyinməyə məhkum olan, ərlərini hər şəkildə razı salan, təhqirlərə, təcavüzə, döyülməyə, dözməyə məcbur olan və heç bir hüququ olmayan varlıqlar idilər. Bundan başqa, istənilən vaxt bu kişilər onları boşaya bilər, evdən qova bilər, hətta öldürə də bilərlər. Biz belə düşünməyə vərdiş etmişik, ona görə ki, tez-tez mütəmadi olaraq mətbuatda bədbəxt gənc qadınların edam edildiyini, şikəst edildiyini, camaatın gözü qarşısında açıq şəkildə daşqalaq edildiyini göstərən şəkillər yayılırdı...

– Mübahisə eləmirəm, Şərq ölkələrində belə hallar hələ də mövcuddur – deyirdi Yusif, axı bütün sualların cavablarını artıq ondan tələb edirdilər. – Bu, hər halda bu və ya digər xalqların mental xüsusiyyətləridir və bunların dinin müasir baxışları ilə heç bir əlaqəsi yoxdur. Şərq ölkələrinə bu dəhşətlər bir qızın doğulmasını lənət və ayıb hesab edən islamaqədərki dövrlərdən miras qalmışdır. Səhralarda gəzib-dolaşan bədəvi qəbilələri ac qaldıqları illərdə yeni doğulmuş qızları torpağa diri-diri basdırırdılar. İslam qadına, anaya, qıza hörmət və qayğı ilə yanaşaraq bu vəhşi adəti qadağan etdi... Kişilər kimi onların da özünün hüquq və vəzifələri, qadağaları var. Məsələn, kişilərə ipək paltar geyinməyə icazə verilmir, bu, onları qadına bənzədir. Eyni səbəbdən müsəlman kişilər qızıl boyunbağı, üzük və bilərzik geyinə bilməz. Qadınlar isə… Müasir müsəlman qadınların heç də hamısı hicaba bürünərək evdə otururlar. Onlar oxuyur, ictimai həyatda fəal iştirak edir, kişilərlə bərabər karyera qururlar. Əlbəttə ki, inancları onlara sadə geyinməyi və insanlar arasında özlərini ciddi aparmağı tövsiyə edir. Evdə isə onlar bizim qadınlarımız kimi saçlarında iri biqudi, əyinlərində köhnə solğun xalatla gəzmək əvəzinə öz ərləri üçün əsl kraliça kimi görünürlər...

Hər şeydən əvvəl Olesyanın bu xoşuna gəlmişdi – küçədəki yad kişilərdənsə, evdə öz sevimli ərinə gözəl görünmək. O, uzun, qara paltarı ilə ətrafındakıları qorxutmurdu, islam haqqındakı təsəvvürlərini filmlərdən və bədii ədəbiyyatdan öyrənənlərin gözlə-

diyi kimi heç üzünü də bağlamırdı. İşə gedəndə adi klassik üslubda paltarlarını, gəzməyə gedəndə isə cins geyinirdi.

– Hicab geymək haqqını hələ qazanmaq lazımdır, – deyə hər dəfə müsəlman aləminin dünyanın bütün qadınlarını hicab altında gizlətməyə çalışdığına özünü inandıranlara cavab verirdi. Onun xarici görünüşündən müsəlman olduğu anlaşılmırdı. Onun ürəyi müsəlman idi. Bəzən belə şeylər olur – insan bir mənəvi-mədəni mühitdə doğulur və tamamilə fərqli bir yönə doğru yol alır...

Olesyanın evləndikdən sonra islamda qarşılaşdığı daha maraqlı bir fakt var idi. Bizim adətlərimizdən fərqli olaraq, müsəlman qadınlar ailə qurduqdan sonra ərinin familyasını götürmək məcburiyyətində deyillər. Familyanı atadan alaraq qoruyub-saxlamalısan, uşaqlar isə müqəddəs nigahda atalarının soyadlarını daşıyırlar. Yusiflə onun da həyatı belə alındı, baxmayaraq ki, ərinin familyasını götürməyə etiraz etmirdi (bütün ukraynalı qadınlardan fərqli olaraq), Olesya qız familyasını özündə saxladı.

Müsəlmanlar arasında boşanma halları da çox az olur, bu, günah hesab olunur və onlar Allahın qəzəbindən qorxurlar. Eyni zamanda Allah müsəlmana qadınlara əl qaldırmağa icazə vermir, əksinə hər bir inanclı şəxs öz arvadını sevib hörmət etməli, onu lazım olan hər şeylə təmin etməli, zərgərlik və bahalı əşyalar verməlidir. Deyirlər ki, ölümündən əvvəl Məhəmməd peyğəmbər öz müridlərinə demişdir: "Sizlərdən ən yaxşısı öz arvadına çox hörmət edən biridir. Kimsə arvadında hörmətə layiq keyfiyyətləri görmürsə, deməli, o, yaxşı baxmır".

Əgər müsəlman öz arvadını boşamaq qərarına gəlirsə, şəriətə görə, o, ömrünün sonuna və ya qadın özünə yeni ər tapana qədər onu saxlamalıdır. Qadınlar da, eyni zamanda boşanmaq haqqına malikdirlər. Deyirlər ki, bir dəfə peyğəmbərin yanına bir qadın gəlir və valideynlərinin onu istəmədiyi bir nəfərə zorla ərə verdiyini deyir. "Boşanmaq istəyirsən? – deyə peyğəmbər ondan soruşur. – Əgər belədirsə, mən səni boşayım". "Yox, yox, mən boşanmaq

istəmirəm! – o dedi. – Mən sadəcə bilmək istəyirdim ki, mənim buna haqqım çatır, ya yox?"

İslamda qadını özündən, zərərli vərdişlərindən, qoruyub-mühafizə etmək üçün hər şey nəzərdə tutulur. Həddini aşan hər kəs (oğurluq edən, adam öldürən yaxud nigaha xəyanət edən) ciddi cəzalanır – kişi və ya qadın, fərqi yoxdu.

Hər yerdə istisna hallar mövcuddur. Bir dəfə Olesya qəzetlərin birində İranda öz həmyaşıdını öldürən gənc oğlanın insanların gözlərinin önündə edam edildiyini ehtiva edən bir fotoreportaj gördü. Oraya bir xeyli adam yığışmışdı, hətta ölənin anası və qatilin anası da orda idi. Oğlan bərk qorxmuşdu. Son ana qədər öləcəyinə inanmırdı. Anası oğlu ölən ananın ayaqları altına yıxılaraq ağlayırdı. Camaat isə "Qatilə ölüm!" deyə bağırırdılar. Onun boğazına ip keçirdikləri ən son anda ölənin anası onu bağışladı.

Edamı dayandırdılar. Qadının bir kəlmə sözü qatili ölümdən xilas etdi. İki qadının bir-birini qucaqlayıb ağlamaqlarını sadəcə görmək lazım idi. Həmin gün İranda həyat qalib gəldi.

…Bir anlıq hər şey onun gözləri önündə canlandı. Olesya hələ də oturub özündənrazı və yüksək pafosla danışan neonatoloq-professora baxırdı. Elə indicə həkim bütün çərçivələri qırdı. Axı söhbət yenidoğulmuş körpə uşaqdan gedirdi.

– Cavab vermədin, – deyə həkim dilləndi. – Görünür, Allah yarımçıq doğulmuş uşağın necə müalicə olunmasını daha yaxşı bilir.

– Allah bütün çarəsizlərə yardım edir, – deyə o, yavaş-yavaş ayağa qalxıb qapıya tərəf getdi. – Mən sizin yanınıza bir həkim kimi gəlmişdim. Görünür, çox nahaq yerə sizin həkim olduğunuzu düşünmüşəm… Bu ölkədə kimin yaşayıb kimin öləcəyinə kim qərar verir? Doğru yerdə və doğru zamanda dünyaya gəlməmələri onların günahıdır?! Mənə kim cavab verəcək? Kim məni eşidəcək?..

– Nə istəyirsiniz, deyin, amma mən hər gün onlarla sizin kimilərini qəbul edirəm. Hamı da möcüzə tələb edir! Və hələ də sənin o dediyin möcüzə ixtira edilməyib… – deyə həkim ayağa qalxıb özünə bir çay süzdü, peçenye yeyə-yeyə heç bir kom-

promisə getmədən sözünü yekunlaşdırdı. – Mənim başımı xarab eləməyin. Belə uşaqlar yaşamırlar. Heç kim sizə müsbət proqnoz verməyəcək…

Olesya artıq onu eşitmirdi. Göz yaşlarını udaraq həkimə "məsləhəti" üçün təşəkkür etmədən otaqdan güllə kimi çıxdı.

– Natalya Fyodorovna, nə edək? – deyə həyəcanla yaşlı həkimə zəng vurdu. – Mənə dedilər ki, bizim heç bir şansımız yoxdur! Dedilər ki, bu həddən artıq ağır vəziyyətdir və bu diaqnozla hələ heç kim sağ qalmayıb! Altı ay "boru"da qaldıqdan sonra uşaqların körpə ürəkləri buna dözmür…

– Olesinka, sakitləşin, çalışın rentgeni mənə gətirin, dinamikasına baxmaq istəyirəm, – deyə Natalya Fyodorovna bildirdi. – Və özünüzü də ələ alın. Yadda saxlayın ki, sizin hiss etdiyiniz hər şeyi uşağınız da hiss edir. Onu narahat etməyin. Şans həmişə var!

Həkim bacardığı qədər Olesyanı sakitləşdirməyə calışdı. Həkim durmadan yenidən doğulmuş uşağın ağ ciyər toxumasının səkkiz ilə qədər inkişaf etdiyini təkrarlayırdı. Əgər yeni doğulmuş körpənin sağlam ağ ciyər hüceyrələrinin ən az iyirmi faizi fəaliyyət göstərirsə, bu, sağlam toxumaların fəaliyyətini itirmiş toxumaların funksiyasını öz üzərinə götürəcəyinə və tam şəkildə nəfəs alaraq bərpa olacağına bir şans var deməkdir.

Baxmayaraq ki, onlara "möcüzə"yə inanmaq qadağan olunmuşdu, amma Yusiflə Olesya buna inanırdı… Bir qərara gəlmək lazım idi. Xəstəxananın professor heyəti yenidən toplanaraq iclas təşkil etdilər. Qərara gəldilər ki, vəziyyət çox ağırdır və bütün dünyada elm hələ bu problemdən çıxış yolunu tapa bilməyib. Təbabət burada gücsüzdür, ona görə də ən ağır vəziyyətə hazır olmaq lazım idi. Bizim mütəxəssis həkimlərimiz əllərindən gələni edirlər, Səidə antibiotiklər içirirdilər (o, on altı antibiotik kursu qəbul etmişdi), sonrasını isə zaman göstərəcək…

Zaman isə Səidə mərhəmətlə davrandı. Süni ağ ciyər ventilyasiyası aparatına qoşulduğunun otuz yeddinci günü onların palatasına reanimasiyanın şöbə müdiri gəlib dörd sehrli söz dedi: "Bu

gün çıxartmağa çalışacam". Nəhayət, körpəni məhvedici süni ağ ciyər ventilyasiyası aparatından "sipap" adlanan nəfəs aparatına keçirdilər – bu cihaz buruna taxılaraq təzyiq altında oksigen verir. Körpə "sipap"da yenə də müstəqil olaraq nəfəs ala bilmir, amma özü nəfəs verir. Bu, bir az kömək etdi. Sonra isə onları daha bir yaxşı xəbər gözləyirdi – uşağın başına "çadırabənzər" yarımkürə şüşə top keçirdilər. Boru vasitəsilə oraya hava daxil olurdu. Uşaq daima yüksək konsentrasiyalı oksigen altında idi və ən əsası özü nəfəs alırdı.

Əlbəttə ki, bu, Səid üçün həddən artıq çətin idi. O, bir dəqiqədə səksən altı dəfə nəfəs verirdi, bu da ağ ciyərlərin inkişaf etməsinə səbəb olurdu. Bunun isə bəzi yan təsirləri də var idi – bu qədər intensiv nəfəs almaq ay yarımlıq körpənin ürəyinin sürətlə inkişaf etməsinə səbəb oldu. Onun ürəyində hər iki mədəciyin və qulaqcıqların divarları qalınlaşmışdı. "Necə olur ki, körpə bu qədər mürəkkəb manipulyasiyalardan və güclü antibiotiklərdən sonra sağ qala bilir?" – deyə həkimlər təəccüblənirdilər…

Olesya Natalya Fyodorovnanın yazdığı xilasedici preparatı heç kimin xəbəri olmadan ana südünə qatırdı. Bu, antibiotiklərin zəhərli dağıdıcı təsirini azaldan antaqonistlər idi.

Səid inadla yaşayırdı. Və onun yaşaması qeyri-ixtiyari başqalarına ümid verirdi – yeni doğulmuş uşağı belə ciddi xəstəliklə üzləşən və bütün gücü ilə nəfəs almaq uğrunda mübarizə aparan hər kəsə...

**Olesyanın xatirələrindən:**

*...Mən o qadınla aptekdə növbədə durarkən qarşılaşdım. O, divarın dibində dayanmış, köhnə, cızıqlı çantasını sinəsinə sıxıb, sanki kor gözlərlə irəliyə baxırdı. Heç nə istəmirdi. Sadəcə dayanıb dünyaya baxırdı.*

*Bu baxışları görəndə niyəsə insanın varlığını hiss etmirsən – onun nə yaşı, nə boyu, nə paltarı, nə də fiziki quruluşu, hətta gözlə-*

*rinin rəngi də sənə anlaşılmaz xəyal kimi görünür, çünki sonradan sən yalnız ağrı-acıları xatırlaya bilərsən.*

*Saf konsentrat şəklində ağrı-acının qatı fizioloji məhlulu – çöküntüsüz ümid, yaxud qarışığı olmayan rahatlıq və sadəcə acı.*

*O ağrı-acı mənim də köhnə tanışım idi. Mən aptekdə növbədə durarkən Səid üçün dərman almağa pulumun çatıb-çatmayacağını bilmirdim. Reanimasiyanın qapısında oturub gözləyəndə bir gecə daha uşağımın yaşayıb-yaşamayacağından xəbərim yox idi – mən oradakı qadında bu gözləri gördüm. Həmin qorxu və ümidlə. Hətta bəzən baxışlarımda ümidsizlik də var idi. Mən uzun müddət ölümün yaxınlıqda olduğuna inanmırdım. Bu, yenicə donu açılmış torpaqda yavaş-yavaş cücərən yaşıllıqlar üzərinə qəfil yağan dözülməz, amansız və qəddar mart qarı kimidir.*

*– Mən burda olduğum təqdirdə o yaşayacaq, – deyərək mən onun yanından keçəndə qadın qəfildən mənim əlimdən tutdu. – Bir neçə dəqiqəliyə, yuxu dərmanı almaq üçün bura gəlmişdim. Mən burdan çıxan kimi mənə zəng vurub deyəcəklər ki, o, artıq yoxdur... Amma mən burda olduğum təqdirdə o yaşayacaq.*

*Baqmaqları çarəsizcə boşaldı və o, əlimi buraxdı, mən isə öz işlərimin arxasınca getdim. Yəqin ki, dayanıb orada ona nəsə demək, onu necəsə sakitləşdirmək lazım idi. O, qəfil etirafını söyləmək üçün məni seçmişdisə, mənim ona deməyə sözüm yox idi. Mən sadəcə bir anlıq onun yanında ayaq saxladım və bizim baxışlarımız toqquşdu. Onun solğun, büllur kimi şəffaf gözlərində yalnız bir uşağın ölümündən sonra ananın ürəyində yarana biləcək dəhşətli bir uçurum gördüm. O uşağın neçə yaşı var idi, necə və nə vaxt ölmüşdü, bunun heç bir əhəmiyyəti yoxdur. Ən vacibi odur ki, uşaq artıq yoxdur. Ana isə yaşayır. Və o, bu boşluq, bu tənhalıqla yaşamağa məhkumdur.*

*İlk dəfə idi ki, mən cənnətə uçan körpə mələklər haqqında yox, indi onların geri dönməyəcəyini bilərək yaşamaq məcburiyyətində qalan acınacaqlı, gözü yaşlı analar haqqında düşündüm. Onlar geri dönməyəcəklər. Heç vaxt. Uçurumlar məhz belə yaranır.*

*Mən xəstəxananın kandarına çatanda bir anlıq ayaq saxladım. Heç vaxt belə qorxmamışdım. Bunu heç bir anaya arzu etmirəm – uşağının yanında olmağına baxmayaraq, ona necə kömək edəcəyini bilməmək dəhşətli bir hissdir. Həkimlərin məyusedici proqnozlarına qulaq asmaq, onların laqeyd baxışlarını görmək, çarəsiz qalmaq. Dəhşətli bir zəng gözləmək və sizin üçün oğlunuzun hələ də sağ olduğu yeri xatırlamaq...*

*Dəli olmamaq üçün mən başımı nə iləsə qatmaq istədim. İstirahət otağına keçib televizoru yandırdım. Saatlarla onun qarşısında oturub ard-arda bütün verilişlərə baxdım. Təsəvvür edirəm, bu, kənardan necə görünür – onun oğlu reanimasiyada həyatla ölüm arasında çarpışır. O isə gecə-gündüz başını divarlara vurmaq, reanimasiyanın kandarında gecələmək, hər saniyə həkimləri və tibb bacılarını sorğu-sualları ilə dəli etmək əvəzinə burada bir-birinin ardınca adi sitkomlara*[44] *və romantik komediyaya, axmaq realiti-şouya və pafoslu rəqs layihələrinə baxır...*

*Mən əvvəllər məhz elə belə də edirdim, amma bir dəfə özümə dedim: "Bəsdi!" Mənim isteriyalarım oğlumu xilas etməyəcək. Yorğun, əsəbi ananın, onun bütün şöbəni titrədən qışqırıqlarının və göz yaşlarının faydası nədir? Mən özümü televiziya aləminin ağuşuna buraxdım. Deyəsən, elə məhz o televiziya aləminin sayəsində mənim ağlım başımda qalmışdı. Bu, mənim dəli olmamaq üçün şəxsi metodum idi.*

*Bir də durmadan kitab oxuyurdum. Steril xəstəxana divarları üçün o, xeyrin şər üzərində qətiyyətlə qələbə çaldığı məhəbbət dolu və təsirli sevgi romanları, macəra dolu nağıllar və fantastik hekayələr seçirdim. Və o əsərlərdə körpə uşaqlar heç bir zaman ölmürdü. Mən bilmək istəyirdim ki, bu dünyada hələ də sevinc qalıbdır. Mən onun dadına baxmalı idim. Onu görməli və hiss etməli idim. Onu yaddaşıma həkk etmək istəyirdim. Əks təqdirdə yaşaya bilməzdim. Fikrimi baş verə biləcək ən pis hadisəni düşünməkdən*

[44] Sitkom və ya situasiya komediyası – komediya, radio və televiziya proqramlarının növü (*tərc.*)

*yayındırmalı idim ki, bu, əvvəlcə başımda, daha sonra isə reanimasiya otağında yeni doğulmuş oğlumun yaşamaq uğrunda vuruşduğu real həyatda baş verməsin. Ona görə ki, mən onun yanına yaxınlaşan kimi, ona baxan kimi, nazik, balaca barmaqlarına toxunan kimi o, möcüzəli şəkildə mənim vəziyyətimi hiss edirdi. Mənim o zamankı emosiyalarımın ən kiçik impulsları belə hansı anlaşılmaz intuitiv səviyyədə Səidə ötürülürdü, anlamıram. Amma o, həmin anda ağlamağa, narahat olmağa, boğulmağa başlayırdı. Əgər mən onun yanına narahat əhval-ruhiyyədə gəlirdimsə, həmin anda ona da qorxu hissi ötürmüş olurdum. O isə mənə sevgi ilə baxıb gülümsəməyə çalışanda mənim ürəyim sakit olurdu.*

*Natalya Fyodorovna deyirdi ki, yarımçıq doğulan uşaqlar radar kimidir. Onlar bizim emosiyalarımızı hiss edir, duyur və içinə çəkir.*

*– Yeni doğulan uşaqların yaxınlarının və doğmalarının onların yanında olması, onlarla söhbət etməsi, onlara toxunması çox vacibdir. Bu zaman o körpələrin yaşamaq şansı çoxalır, – yaşlı həkim dedi. – Doğmaların ünsiyyətindən daha təsiredici dərman yoxdur. Bu, körpənin özünü yaxşı hiss etməsi üçün müsbət təsir edir…*

*Onun məsləhəti ilə Yusif körpəni ehtiyatla küvezdən götürüb sinəsinə söykədi – bu, yarımçıq doğulmuş uşaqların müalicəsi zamanı mütəxəssislərin məsləhət gördüyü bir metoddur. Atanın sinir sistemi ananınkından daha güclü hecab edilir. O, sanki uşaq orqanizmi üçün güclü “batareya dolduran” aparatdır. Əgər müsbət emosiyalar əvəzinə körpə valideynlərinin qorxu hissini duyarsa, o, sağala bilməz…*

*Mənim ağlımı itirməyə, ümidsizliyə qapılmağa heç bir ixtiyarım yox idi. Ən birinci bu boşluğu Səid hiss edərdi. Kim bilir, bundan sonra onun mübarizə aparmağa gücü çatardımı?! Həkimlər deyirdilər ki, “biz heç vaxt belə balaca bir varlığın ümidsizcəsinə həyatdan yapışdığını görməmişdik”. Onun bu qədər gücü və cəsarəti hardandı? Niyə o güc və cəsarət məndə yoxdur? Ona görə ki, mən böyüyəm? Ona görə ki, həqiqəti bilirəm? Ona*

*görə ki, qorxuram? Mən ümidimi itirməməli idim. Bu, bizim yeganə şansımız idi.*

Sağalmaq şansı isə həqiqətən, var idi. Bütün məsuliyyəti ilə dünya elminin Səidin xəstəliklərinə qarşı bir vasitə tapmadığını bildirəndə görkəmli tibb professorlarından ibarət heyət kifayət qədər dürüst davranmamışdılar. Bu vasitə mövcud idi. Axşam Olesya öz mənzilində Natalya Fyodorovnanın rəhbərliyi ilə "ev" müşavirəsi qurdu. Onlar birlikdə belə qərara gəldilər ki, Səidin ciyərlərinin sağlam hissəsinə və immunitetinin də ona dəstək verəcəyinə etibar etmək lazımdır.

Növbəti gün gənc ana qorxu və həyəcan içərisində həkimlərə antibiotik kompleksi ilə birlikdə Natalya Fyodorovnadan, ondan daha əvvəl isə əkiz uşaqları ilə xəstəxanadan ayrılan rəfiqəsi Yaroslavadan eşitdiyi alman pereparatı olan pentaqlobindən də istifadə etməyi təklif etdi. Yerli təbabət korifeyləri Olesyaya dəli kimi baxırdılar.

Pentaqlobin nədir? Rəsmi müalicə protokolunda bu pereparat, əlbəttə ki, yoxdur. Axı o hələ də Ukraynada qeydiyyatdan keçməyib, deməli, onu heç bir halda istifadə etmək olmaz, bu, qanunsuzdur! Hansı həkim öz üzərinə belə məsuliyyəti götürə bilər? Əgər uşaq heç nəyə baxmayaraq, ölsə? Bunu etmək üçün sən gərək əsl macəraçı olasan! Elə həmin an vəzifənizlə də vidalaşa bilərsiniz…

Əlbəttə ki, onlar qorxurdular. Olesya isə qorxmurdu, o, artıq uzun müddətdir ki, qorxunun nə olduğunu bilmirdi. Baxmayaraq ki, ətrafında hər kəs bir ağızla abort etdirməyi məsləhət görəndə Kristina Viktorovna ondan "Mənimlə birlikdə risk etməyə hazırsan?" – deyə soruşmuş və bu gənc qadın risk edib körpəni dünyaya gətirmək qərarına gəlmişdi. O, indi də geri çəkilmək fikrində deyildi.

– Bütün inkişaf etmiş ölkələrdə bu dərmandan istifadə edirlər! Xahiş edirəm, bizə də icazə verin, heç olmasa, mane olmayın, – deyə Olesya müalicə həkiminə yalvardı.

– Əzizim, siz dövlət tibb müəssisəsindəsiniz, bu isə o deməkdir ki, müalicəni biz təyin edirik, – deyə artıq ona tanış olan neonatoloq-professor kəskin şəkildə xatırlatdı. – Əgər siz uşağı daha yaxşı müalicə edə bilirsinizsə, o zaman niyə burdasınız? Bəlkə, siz həkimsiniz?

– Yox, həkim deyiləm, sadəcə uşağının sağalmasını istəyən bir anayam…

Bu, kiçik bir şans idi və onlar bu şansdan istifadə etməli idilər. Axı, pentaqlobin mindən çox seçilmiş donor tərəfindən plazma içərisində istehsal olunan konsentratlaşdırılmış immunoqlobulinlərdən immunomodulyasiya edən bir dərmandır və o, sağlam insan populyasiyasına xas olan bir anticisim spektrini ehtiva edir. Əlbəttə ki, o, bronxopulmoner displaziyanın ağır bir formasını müalicə etmir. Doğrudan da, belə bir dərman hələ icad edilməmişdir, lakin pentaqlobin çoxsaylı antibiotik kurslarından zərər görən xəstənin zəifləmiş immunitetini bərpa etməyə kömək edir. Bu da orqanizmə həkimlərin qarşısında aciz qaldıqları xəstəliklə mübarizə aparmağa güc verir. Buna baxmayaraq, bu preparat Ukraynada qeydiyyatdan keçən dərmanların siyahısına düşməyib. Adama elə gəlir ki, yerli təbabətin prioriteti bir insanın həyatını xilas etmək deyil, illər ərzində qurulmuş bir müalicə protokoluna riayət etmək idi. Paradoksa baxın – dünyada bir çox xəstəlikləri aradan qaldırmağa kömək edən bir dərman artıq çoxdan mövcuddur, amma biz ciddi xəstəliklərlə mübarizə aparmaq istəmirik, övladlarımızın o xəstəliklərdən ölməsinə icazə veririk!

Natalya Fyodorovna elə bundan da başladı: əgər xəstəliyi müalicə etmək mümkün olmursa, o zaman immuniteti artırmaq lazımdır. Daha sonra uşaq orqanizmi özü mübarizəyə qoşulacaq. Axı o hər şeyə qadirdir, onun imkanları sərhədsizdir, sadəcə ona bir azca kömək etmək lazımdır. O özü xaricdən ilk pentaqlobin ampulasını sifariş etdi və ertəsi gün beynəlxalq qatarla göndərilən preparatı təhvil aldı. Bu, çox bahalı idi – bir ampula immunomodulyator

dərman hələ o vaxt iki yüz dollara idi. Qısa müddət ərzində Səidin altı belə ampulaya ehtiyacı var idi.

Bir saatdan sonra Yusif pul gətirdi, Olesya isə yenidən pentaqlobin sifariş verdi. O artıq ərindən hər dəfə lazım olan məbləği hardan tapdığını soruşmurdu (onların birgə topladıqları əmanətləri çoxdan bitmişdi), elə hey düşünürdü ki, sonra danışarıq, indi körpəni xilas etmək lazımdır.

Buzlar əridi, nəhayət, pentaqlobinin sınağına icazə verildi. Məlum oldu ki, sən demə, bəzi reanimasiya həkimləri bu cür dərmanların istifadəsinə olduqca müsbət yanaşırlar (onlar bu preparatı artıq digər xəstələrə də inyeksiya etmişlər), çünki hər gün bir uşağın ölümünü görür və həyatının ilk günlərində uşağı xilas edə bilmədiklərini başa düşürdülər.

Elə həmin gün də Səidə pentaqlobin vurdular. Əlbəttə, elə o andaca möcüzə baş vermədi, uşaq hələ də mübarizə aparırdı, həkimlərin və tibb bacılarının isə xəstəxananın hər yerindən gəlib onu izləməsi inanılmaz möcüzə idi. Bir həftə əvvəl kiçik bir oğlan uşağı xəstəxananın bir küncündə bronxopulmoner displaziyadan ölürdü (xəyallarında hamı onunla vidalaşırdı) və bu gün o, yenidən həyata qayıdır. Bir neçə həftədən sonra onun solğun yanaqları çəhrayı rəngə boyandı, gözləri parıldadı, artıq özü nəfəs alırdı, hərəkət edir, gülümsəyirdi və çəkisi isə hər gün bir az artırdı.

Olesya, demək olar ki, ilk dəfə oğlunun necə yaraşıqlı olduğunun fərqinə vardı! Atasına oxşayırdı. Saçlarının rəngi isə onunkuna – Olesyaya bənzəyirdi, şabalıdı. İllər keçəcək və onun bu balaca oğlundan enlikürək, tünd rəngdə gözləri olan yaraşıqlı bir adam böyüyəcək. İki göz istəyəcək ona baxsın! Onun da Yusif kimi xeyirxah bir ürəyi olsun, – deyə o, düşündü. Ən əsası odur ki, qoy oğlu sağlam olsun. Buna isə vaxt lazım idi. Bir də, əlbəttə ki, pul. “Pulla sağlamlıq alınmaz” sözü doğru deyil. Bu məhsul apteklərdə açıq-aşkar satılır. Siz sadəcə pul kisənizi çıxartmalısınız.

**Olesyanın xatirələrindən:**

*Biz dəhşətli dərəcədə çox borca girmişdik. Uzun bir müalicə kursu və bir-birinin ardınca ortaya çıxan fəsadlar zamanı topladığımız bütün əmanətləri xərcləmişdik. Yenidən insanlardan borc almış, daha bir kredit götürmüşdük. Ödəyə bilmədiyimiz borclarımız isə işıq sürəti ilə artırdı. Bu da bizim həyatımızı cəhənnəmə çevirmisdi. Yusif, demək olar ki, evdə tapılmırdı, gecə-gündüz işləyirdi. Həddindən artıq işləmək və yuxusuz qalmaq onun beş kiloqram arıqlamasına səbəb olmuşdu. Bu, onun səviyyəsindəki bir idmançı üçün çoxdur. İndi o, özünün zəifləmiş kölgəsinə bənzəyirdi. Buna baxmayaraq, pul yenə də çatışmırdı.*

*Mən sifarişlə şirniyyat bişirməyə başladım. Bazara gedib alış-veriş edir, unun, şəkərin və ya xamanın hər qramı üçün sövdələşmə edir, mətbəxdən saatlarla çıxmırdım – xəmir yoğurur, krem hazırlayır, qatı şokolad bişirir və maraqlı qablaşdırmalar düşünürdüm... Sonra hazırladıqlarımı sifarişçiyə aparır və xəstəxanaya – Səidin yanına gedirdim. Üstündə bəylə gəlinin kiçik heykəlcikləri olan çoxmərtəbəli ənənəvi toy tortlarından tutmuş zəngin şəhər əhalisinin uşaqlarının ad günləri üçün sifariş etdiyi idman maşını, futbol topu və ya bəzəkli Barbi gəlinciyinə kimi həqiqi kulinariya sənətkarlıq nümunələrinə qədər hər şeyi hazırlamağı öyrənmişdim.*

*Bir dəfə ən kiçik detallarına qədər müştərinin yaşadığı lüks evin çardağını, pəncərələrinin çərçivələrini və terası olduğu kimi təkrarlayan altı kiloluq bir tort hazırladım. Bu, evlilik ildönümündə bir qadından ona yaşatdığı şirin həyatı üçün təşəkkür əlaməti olaraq ərinə hədiyyə idi. Mənə belə demişdilər. Sonradan öyrəndim ki, heç bir ildönümü yox idi. Heç o qadının da həyatı zalım bir ər ilə o qədər də şirin deyildi, sadəcə bizim düşdüyümüz çətin vəziyyətimizi dostlarımızdan eşidib yardım etmək üçün sifariş vermişdi...*

*Yusif bir neçə işdə işləyirdi. İndi o, pul ödənən hər işdə çalışmağa can atırdı – gecə növbəsində gözətçi işləyirdi, gündüz idman zalında gənc döyüşçüləri məşq etdirirdi, sonra isə ən yüksək kateqoriyalı yarışlarda mükafat qazanmaq ümidini itirməyərək özü məşq edirdi. Bəzən isə qanunsuz sparrinqlərdə*[45] *pulla döyüşürdü (təkbətək döyüşlərdə daha çox pul verdikləri üçün, adətən, o, uduzurdu). Şəhərdə onun kürəyini yerə vurmaq arzusunda olanlar çox idi. Əlbəttə ki, belə olacaqdı, axı o, əsl idman ustası, çempion döyüşçü idi.*

*Hər dəfə sevimli ərimin onu döymələrinə icazə verdiyini görəndə ürəyim sıxılırdı. Ona dəyən hər zərbəni sanki öz üzərimdə hiss edirdim. Bir dəfə onun burnunu və bir neçə qabırğasını sındırmış, körpücük sümüyünü zədələmişdilər. Biz artıq beyin silkələnməsini, toxumaların əzilməsini, diz və çiyinlərin zədələnməsini heç hesaba qatmırıq. Yusif bütün bunlara baxmayaraq, döyüşə davam edir və pul qazanırdı. Bu, dözülməz idi, ona görə də mən artıq onun arxasınca zala getmədim. Ərimi evdə qarşılayıb səssizcə onun bədəninin göyərən və qan axan yerlərinə buz məlhəmi qoyurdum.*

*Səid anadan olandan sonra o, çox dəyişmiş, ehtiyatlı və səssiz olmuşdu. Hər şeydən çox ərimin Səidə pul tapmaq üçün hansısa qaranlıq işlərə qoşulmasından qorxurdum. O, hər gün evə pul gətirirdi, çoxlu pul... Mənsə onun bu qədər pulu hardan aldığını soruşmağa belə qorxurdum. Bilirdim ki, vaxt gələcək Yusif özü hər şeyi danışacaq. Bir də inanırdım ki, o, heç bir zaman mənim ona olan hörmətimi itirəcək heç nə etməz. Özünün də özünə olan hörmətini itirəcək heç bir şey... Şərəfi onun üçün hər şeydən üstündür.*

*Yalnız bir sual mənə rahatlıq vermirdi, için-için ürəyimi yeyirdi. Əgər ölümün astanasında dayanan sənin öz övladındırsa, onun xilas olması üçün sən nə qədər irəli gedə bilərsən? Nə qədər? Və ordan geri dönmək mümkündürmü?*

---

[45] Sparrinq – idman yarışlarından fərqli təlim döyüşləri (*tərc.*)

Bu suallarla Olesya bütün günü özünə əzab verirdi. Xüsusilə də o, xəstəxanada Səidin yanında olanda bu suallar ona rahatlıq vermirdi. Körpə gözlərini yuman kimi o, notbukunu dizləri üstünə alaraq pəncərənin qabağında oturub xəstə uşaqlara yardım edən xeyriyyə fondları axtarır, hər gün ərizə yazır, anket doldurur, sorğu göndərir, qəbula yazılır, növbələrdə dayanırdı.

Hətta bir dəfə qatarla Kiyevə – məşhur vinnitsalı sahibkarın ofisinə getmişdi. Çağırılmamış qonağı müdirin yanına buraxmadılar. Olesya göz yaşları içərisində gözətçiyə yalvarırdı ki, müdirə Vinnitsadan bir nəfərin gəldiyini, bu, onun uşağının ölüm-dirim məsələsi olduğunu desin, lakin… o özü şəxsən onu qəbul etmədi. Onu hansısa bir xeyriyyə cəmiyyətinə göndərib dedilər ki, xəstə uşaqla oraya getmək lazımdır, burada başqa məsələlər həll olunur. Fondda da öz növbəsində, ona dedilər ki, "hesabda pul var və əgər siz uşağınızla Oxmadetdə[46] qalsaydınız və yaxud paytaxtda qeydiyyatda olsaydınız, biz sizin üçün pul ayıra bilərdik. Fondumuz yalnız Kiyev və onun ətrafında fəaliyyət göstərir". O, yerli bürokratiyanın keçilməz bir divarına rast gəldi. Bəlkə də "xeyirxahlar" üçün belə bir divarın arxasında gizlənmək rahatdır?

Olesya evə əliboş qayıtdı. Yaxşı ki, Yusif arvadının hara və nə üçün getdiyini bilmirdi, bu, onun xoşuna gəlməzdi. O isə ümidini itirmirdi. Növbəti gün hər addımbaşı reklam şitlərindəki şüarları ilə insanlara dünyanı bəxş etməyi vəd edən hansısa siyasi partiyanın ofisinə zəng vurdu. Onu qəbula yazmamış elə telefondaca imtina etdilər. Dedilər ki, rəsmi sənəd təqdim edin, biz bu məsələyə baxıb sizə cavab verərik, amma çox güman ki, siz rədd cavabı alacaqsınız. Sizin kimilər çoxdur və hamıya da yardım edə bilmərik. Bu, onu daha da heyrətləndirdi. Onlar hətta uşağa nə olduğunu belə soruşmadılar. İki aylıq uşağın ölüm ayağında olması onları heç maraqlandırmadı da. Ona tək bir şans belə vermədilər…

---

[46] Oxmadet – Ukrayna Xüsusi Uşaq Xəstəxanası (*tərc.*)

O, Ukraynada məşhur olan başqa bir iş adamının xeyriyyə fonduna müraciət etdi, ancaq orada ona deyildi ki, "yeni bir gimnastika kompleksi tikirik, bütün pulu ora xərcləmişik. Ona görə də təəssüf ki, hesabımızda vəsait yoxdur". Təəssüf ki... Bu söz artıq onun üçün ilkin mənasını itirmişdi. "Təəssüf ki" nə deməkdir? Bunun arxasında, həqiqətən, səmimi təəssüf dayanır, yoxsa bu, qəbul edilmiş adi bir imtina formasıdır? Gərək nə qədər təmiz və sadəlövh olasan ki, hələ də məmurların "təəssüf ki" sözünə inanasan...

Günlər keçirdi. Bir dəfə Olesya Ukraynada məşhur oliqarx tərəfindən təsis edilmiş xeyriyyə fonduna məktub göndərmişdi. Bir həftədən sonra ona ərizənin baxılmaq üçün qəbul edildiyi bildirildi. Yana adlı gözəl bir qız Səidin işinə özü baxacağını dedi və daha hansısa bir arayışı göndərməyi xahiş etdi. Olesya onun istəyini yerinə yetirdi. Bu gün o evə uçaraq gəldi. Yusifə onların daha bir şansının yarandığını söyləməyə tələsirdi.

**Olesyanın xatirələrindən:**

*Təəssüf ki, Yusif bu sevinci mənimlə bölüşmədi. Xüsusilə də xeyriyyəçi adını eşidəndə bərk qəzəbləndi. Qəflətən stoldan sıçradı və dedi:*

*– Söz ver ki, bu, birinci və axırıncı dəfə idi. Sən mənim arvadımsan, mənim arvadım isə heç vaxt heç kimdən pul istəyə bilməz. Özünü alçaltma, eşidirsən? Pul tapmaq mənim işimdir.*

*– Bu, birinci dəfə deyildi. Heç söz vermirəm də ki, axırıncı dəfə olacaq, – deyə mən sakitcə etiraf etdim.*

*Sonra qəflətən bağırmağa başladım, özümü ələ ala bilmirdim, ona həddən artıq ağır sözlər dedim. Söhbət bizim oğlumuzun həyatından gedir, ona görə də biz inanclarımızı və prinsiplərimizi kənara qoymalıyıq! Yoxsa o pul üçün döşəyin üstündə başqalarının onu döyməsinə icazə verəndə onları xatırlayır?*

*Yusif sakitcə otaqdan çıxdı. Mən ondan suallarıma cavab istəyəndə o, hər zaman belə edir. Bəzən mənə elə gəlir ki, onun bu*

*vərdişinə görə ona nifrət edirəm. Mən arxasınca gedib dəhlizin ortasında onu yaxaladım. Həmin gecə biz bərk dava etdik. Hissləriniz isti tavaya bənzəyirsə, o zaman ailənizdəki mübahisələrin hərarəti çərçivədən kənara çıxacaq. Sevgimizin sakitcə barışmağa yetəcək qədər çox olduğunu dərk etməyimizə baxmayaraq, görünür, biz ona görə də ən xırda şeyin üstündə belə dəli kimi dava edirdik. Ancaq o kiçik şeylər Səid anadan olanda həyatımızdan yoxa çıxdılar, biz onları çoxdan unutmuşuq.*

*– Bu, özünü alçaltmaq deyil! – deyə mən ərimi inandırmağa çalışırdım. – Bu, xeyriyyə fondudur. O elə bunun üçün yaradılıb, o belə işləyir!..*

*– Onların, həqiqətən, necə işlədiyini bilmirsən, – Yusif yorğun halda dedi və yatmağa getdi. Mən onun arxasınca getmədim. Mətbəxə qayıdıb yenidən noutbuku açdım. Saytlara daxil olub ərimin sözlərinə baxmayaraq, yeni fondlar axtarmağa başladım. İnanın Allaha, həmin axşam mənə böyrəyimin birini və ya qaraciyərimin bir hissəsini satmağı təklif etsəydilər, düşünmədən qəbul edərdim.*

*Mənim geri çəkilmək fikrim yox idi. Əgər az da olsa, körpəmizi xilas etməyə şans var idisə, biz ondan istifadə etməli idik. Yoxsa biz bütün olanlardan sonra necə yaşayardıq? Onlarla səhifələri diqqətlə incələdikdən sonra yenidən həmin xeyriyyə fondunun saytına daxil oldum və artıq neçənci dəfə Yananın məktubunu oxuyub xəyalımda ona bizə şans verdiyi üçün minnətdarlığımı bildirdim. Bizə belə tez cavab verdiyinə və bizim işimizlə məşğul olacağına söz verdiyinə görə, görünür, o, xeyirxah bir insandır. Allah onu qorusun!*

*Gecə yarısından xeyli keçmiş mən yataq otağına keçib işığı yandırmadan sakitcə adyalın altına girdim. Yusif heç qımıldanmadı da. Yəqin o, artıq onuncu yuxunu görür. Yazıq! O mənə necə dözür? Mən ona sarıldım, çiynindən öpdüm, ürəyimdə ondan üzr istədim. Yusif çönüb məni ayı kimi qolları arasına aldı:*

*– Bağışla məni, – yuxulu-yuxulu dedi. – Əsəbləşmişdim. O fondla danışıqlarına davam edə bilərsən, amma mütləq olanları mənə də bildir.*

*– Necə istəyirsən, – deyə mən gülümsədim. – Onlar bizə mütləq kömək edəcək!*

*Tezliklə "köməyi" unutmaq məcburiyyətində qaldıq. Yana peyda olduğu kimi gözlənilmədən də yoxa çıxdı. O, mənim telefon zənglərimə cavab vermirdi. Yazdığım məktublar cavabsız qalırdı. Bir neçə həftədən sonra mən ondan ölümcül və geri dönüşü olmayan rədd cavablı qısa elektron məktub aldım: "Təəssüf ki, fondun sizi dəstəkləmək imkanı yoxdur. Təcili müalicə etməli olduğumuz bir çox ciddi xəstə uşaqlar var. Məsələn, xərçəng xəstələri".*

*Mən yenidən onun nömrəsini yığdım. Bu dəfə o, dəstəyi qaldırdı:*

*– Təkcə xərçəng xəstəliyindən ölmürlər, – telefonun o biri ucunda onun qarışıq səslə "Alo!" sözünü eşidən kimi dedim. – Əgər bizim fərqli bir xəstəliyimiz varsa, bu, xərçəngdən daha az ölümcül olduğu demək deyil. Siz onun haqqında heç vaxt eşitməmisinizsə və onun adı xərçəng qədər dəhşətli olmasa da, o xəstəlikdən də ölürlər. Hətta bir neçə gün içərisində ölürlər.*

*– Təəssüf edirəm, – deyə Yana adlı xoşrəftar qız cavab verdi və elektron poçt ilə yazdıqlarını olduğu kimi təkrarladı. – Bağışlayın ki, sizin zənglərinizə cavab verə bilmirdim. Xəstəlik məzuniyyəti götürmək məcburiyyətində qaldım. Xəstələnmişdim. Soyuqlamışdım.*

*Bir anlıq özümü itirdim. Tez də fikrimi toplayıb dedim:*

*– Sizə soyuq dəymişdi? Təəssüf edirəm. Bax mənim oğluma heç bir zaman soyuq dəyməyəcək? Ona görə ki, sizin kimilər soyuqdəymələrini müalicə edənə qədər o, ya bronxopulmoner displaziyadan, ya da antibiotik qəbulunun yaratdığı immunosupressiyadan öləcək!*

*Sözümü bitirən kimi dəstəyi asdım. Divara söykənib ağır-ağır aşağı çökdüm, az qala döşəməyə dəyirdim. Boğazımda düyünlənən göz yaşlarımı zorla saxladım. Yusif haqlı idi. Mən isə sadəlövh və axmaq idim. Əlbəttə, mən başa düşürdüm ki, bu qızdan asılı olan bir iş deyil. O, böyük bir xeyriyyə fondunun kimin həyatını xilas edəcəyinə qərar vermir, amma özümdən qeyri-ixtiyari olaraq ona qışqırırdım. Öz hisslərimi cilovlaya bilmirdim. Bununla mənim*

*içim rahatlamadı, o qız isə belə əsəbi analarla ünsiyyətdə olmamaq üçün çox güman ki, artıq işdən çıxmağa ərizə yazırdı...*

*Bir saatdan sonra Yana mənə zəng vurdu:*

*– Siz başa düşmürsünüz, – deyə o, sözə başladı. – Bu fondun yalnız adı xeyriyyəçidir. O, yalnız yüksək rezonans yarada biləcək mövzularla maraqlanır. Sizin oğlunuzun isə adı Səiddir… Siz müsəlmansınız, elə deyilmi? Bağışlayın!…*

*Bir saat sonra isə mən ona yenidən zəng vurub dediklərimə görə üzr istədim. Bilmirəm, bəlkə, o məni bağışlamışdı. Ona görə ki, onlara verdiyim ərizənin üzərində tələb olunduğu üçün bank rekvizitlərimiz yazılmışdı və bank hesabımıza anonim şəxs tərəfindən gözlənilmədən iki min qriven[47] yatırılmışdı. Görünür, bu, onun bir aylıq əməkhaqqı idi, çünki böyük fondların təsisçiləri adi işçilərə çox az məvacib verirlər. Bu isə Səid üçün daha bir pentaqlobin ampulası və yaşamaq üçün daha bir şans demək idi.*

*Yana mənim üçün telefon dəstəyindən gələn bir səs və elektron poçta yazılmış bir neçə sətirdən ibarət olaraq qaldı, amma dəqiq bilirəm ki, o, xeyirxah və qayğıkeş bir insandır. Nədənsə, bu, həmişə belə olur – təmtəraqlı xeyriyyə fondlarının yardım etməkdən nəzakətlə imtina etdikləri bir zamanda sadə insanlar tərəddüt etmədən əllərində olan ən sonuncunu belə verməkdən çəkinmirlər…*

Bir dəfə Olesya dostlarına zəng etmək istəyərkən nömrələri səhv salıb yanlışlıqla əvvəlki müdiri, avtomobil hissələri firmasının sahibi Aleksandr Vasilyeviçi yığır. O, bunu yalnız onun sərt tonla dediyi: "Salam, Olesya İvanovna. Eşidirəm sizi" sözlərini eşidərkən dərk etdi.

O, özünü narahat hiss etdi.

– Bağışlayın, Aleksandr Vasilyeviç, – deyə o, rəvan danışmağa çalışdı, amma titrəyən səsi onu ələ verdi. – Mən səhv etmişəm. Sizi narahat etmək istəmirdim, sizin nömrənizi təsadüfən yığmışam…

[47] Qriven – Ukrayna pul vahidi (*tərc.*)

– Nə olub, Olesya? – deyərək səsinin titrəməsindən nəsə baş verdiyini anladı. O, özünü saxlaya bilmədi, başına gələn hər şeyi olduğu kimi danışdı. Planlaşdırılmamış, lakin arzu olunan bir hamiləlikdən tutmuş hazırkı acınacaqlı vəziyyətinə və Səidin həyatının bir ipdən asılı qaldığı vəziyyətə qədər hər şeyi…

– Sizin nə hisslər keçirdiyinizi anlayıram, Olesya, – onu səbrlə dinləyən Aleksandr Vasilyeviç gözlənilmədən dedi. – Mən də üç uşaq atasıyam, əgər onlara nəsə olsa, necə yaşayacağımı heç təsəvvür belə eləmirəm… Yaxşı eləyib zəng vurmusunuz. Nəyə gücüm çatırsa, yardım edəcəm. Elə günü bu gün mənim ofisimə gəlin… Çox güman ki, siz indi xəstəxanadasınız, uşağı tək qoymaq olmaz. Mən sürücünü göndərərəm, Sergeyi. Yəqin siz onu xatırlayırsınız.

Yarım saat sonra Sergey gəldi və səliqə ilə bükülmüş bir paketdə pul gətirdi. Olesya uzun müddət durub onun arxasınca baxdı və göstərmək istəmədiyi göz yaşlarını sıxıb içində saxladı. O, hələ də başa düşmür ki, niyə hər zaman ən birinci dəstək gözlədiyin insanlar lazım olanda yoxa çıxırlar, amma heç bir zaman dəstək görməyəcəyinizə inandıqlarınız isə ilk telefon zəngində sizə yardım etməyə çalışırlar?

**Olesyanın xatirələrindən:**

*O an mənim içimə bir inam doğdu – bütün bunlar boş yerə deyil. Əgər hər şey əbəs yerə olsaydı, bizdə heç nə alınmazdı. Əgər ilahi qüvvələr Səidi mühafizə etməsəydilər, adi insanların simasında olan yerdəki mələklər də qarşımıza çıxmazdı.*

*Tanrı insana çəkə bilmədiyi qədər dərd göndərirmi? Bilmirəm. Ancaq bir ona əmin oldum ki, bu sınaqlar zamanı əhəmiyyətsiz olan hər şey yoxa çıxır, saxta dostluqlar itirilir, kiçik ambisiyalar arxa plana keçir və bu gün gülməli görünən incikliklər unudulur. Bunun əvəzində isə pulla ala bilməyəcəyiniz həqiqət üzə çıxır. Bizdə də belə oldu. Biz hələ dünən uşağa lazım olan şeyləri almağa pulu haradan tapacağımızı bilmirdik, indi isə insanlar özləri bizə*

*pul gətirirdilər. Başımıza gələn bəladan xəbər tutan, demək olar ki, hər kəs kömək etməyə çalışırdı – kimsə yüz qriven, bəzisi əlli, bəzisi min qriven, beş, hətta on min qriven verirdi. Bütün dostlarım yardım edirdi, hətta xaricdə yaşayanlar da. Bacım da çox kömək etdi. Valeriya hər gün xəstəxanaya lazım olan hər şeyi gətirirdi. Mənimlə bir palatada yatan Yaroslava mənimlə hər gün əlaqə saxlayırdı. Sinif yoldaşım və dostum Rəşad da bizə kömək edirdi. O da azərbaycanlı idi. Arvadı və uşaqları ilə Vinnitsada yaşayırdı. Biz onlarla ailəvi dost idik. Şəhərimizdəki Azərbaycan diasporu Səid üçün çox narahat idi. Yusifin burada yaşayan və işləyən həmyerliləri oğlumuz üçün ümumi bir "Yardım fondu" təşkil etmişdilər.*

*Beliklə, mən Yusifin hər gün hardan pul aldığını öyrəndim. Onun dostları hər gün öz aralarında pul yığırdılar ki, o, xəstə uşağının yanına əliboş getməsin. Nə deyə bilərəm ki... Hətta şəxsən tanımadığımız insanlar da problemimizi bilən kimi anam və ərimin vasitəsi ilə Səid üçün pul göndərirdilər. Vinnitsanın o vaxtkı bələdiyyə başçısı və onun atası da bizə yardım etdi. Onlar Səid kimi uşaqlar üçün xəstəxanaya yeni tənəffüs avadanlıqları aldılar və rəsmi olaraq şəhər büdcəsi hesabına ailəmizə maddi yardım ayırdılar. Sonra yadıma düşdü ki, bir neçə həftə əvvəl şəhər meriyasında keçiriləcək hansısa tədbir üçün mənə tort sifariş vermişdilər. Deyilənə görə, mənim bişirdiklərim rəhbərliyin xoşuna gəlirdi.*

*Mən bu haqda unutmuşdum, o isə hələ də xatırlayırdı.*

*Günlərin bir günü universitet illərindən dostluq etdiyim rəfiqəm Anya zəng vurdu. Gec də olsa ad günümü təbrik etmək (başı iş-gücünə qarışıb və məni unutmuşdu, bu, hamının başına gələ bilər) və kef-əhvalımı soruşmaq istəyirdi (uzun müddət idi ki, əlaqəmiz yox idi). Anya əri ilə Kanadada yaşayır, ona görə də biz çox nadir hallarda – bayramlarda və ya o, Ukraynaya – doğmalarının yanına gələndə görüşürük. Rəfiqəm onun yoxluğunda üçüncü dəfə hamilə qalıb uşaq dünyaya gətirdiyimi eşidəndə çox təəccübləndi. O, uşaqla maraqlanmağa başladı və mən... mən özümü ələ alacağıma söz verdiyimə baxmayaraq, ağlamağa başladım.*

*Anya, demək olar ki, mənə hər gün zəng etməyə başladı. Hər gün Səidi soruşur, uşaq üçün narahat olurdu. Rəfiqəm o vaxt müalicə kursunu davam etdirmək üçün çatışmayan məbləği bank kartımıza köçürdü. Sonra isə Səidin müalicəsi üçün nəzərdə tutulan hesaba daha böyük bir məbləğ yatırıldı. Anya əri Edvarda bizim haqqımızda danışandan sonra bu pulu o köçürmüşdü. O, bizi həyatda bir dəfə də olsun, görməmişdi, amma xəstə uşaq haqqında eşidən kimi buna laqeyd qala bilməmişdi.*

*Bir dəfə biz Yusiflə şəhərdə olarkən təsadüfən sinif yoldaşım Slaviklə qarşılaşdıq. Əslində, Slavik məktəbdə yuxarı sinif şagirdlərinin hər zaman incitdikləri kiçik və müdafiəsiz bir uşaq idi. İndi isə o qarşımda iş yerində hamının onu "Vyaçeslav Mixayloviç" adlandırdığı özünə güvənən, yaraşıqlı bir adam idi.*

*Məktəbdə onunla yaxın dost deyildik, amma Slavik məni tanıyıb salamlaşdı. Mən onu ərimlə tanış etdim. Deyəsən, onlar ortaq dil tapa bildilər. Biz qarşılaşdığımız alış-veriş mərkəzindəki kafelərdən birində oturduq. Hərəmiz bir fincan qəhvə sifariş verib söhbət etməyə başladıq. Söhbət əsnasında mən Səiddən bəhs etdim. Sinif yoldaşım dərhal cibindən bahalı markalı dəri pul kisəsini çıxarıb üzərində olan bütün nəğd pullarını mənə tərəf uzatdı. Mən qorxdum və puldan imtina etməyə başladım, heç belə də şey olar... Slavik isə dedi ki, o da yarımçıq doğulub və ona görə də bizi çox yaxşı başa düşür. Əgər biz ona Səidə kömək etməyə icazə verməsək, o inciyəcək. Hətta Yusif belə bu dəfə etiraz etmədi.*

*Evdə köhnə şəkillərin arasında Slaviki tapdım, amma o, uşaqlıq illərində necə idi, xatırlaya bilmədim. Məktəb illərində biz onunla, demək olar ki, sıx ünsiyyətdə olmamışıq. Hətta mən onu öz dostlarımın sırasında da hesab etmirdim. İllər ötdü, Slavik böyüdü, özünün şəxsi hüquq firmasını açdı, amma o, qəddar və özündən razı olmadı, insan olaraq qaldı.*

Növbəti gün səhər Olesya evdən çıxanda birinci mərtəbədəki yaşlı qadın onu çağırdı. O, bir zamanlar Yusif haqqında: "Hey-

vanları sevən qəddar adam ola bilməz" demişdi. Olesya aptekə gedirdi. Düşündü ki, yəqin nənəyə dərman almaq lazımdır, niyə də ona yardım etməsin. Gülümsəyərək onun yanına getdi.

– Bura gəl, Olesya, – qonşu onu quş caynağına bənzər əyilmiş barmağı ilə çağırdı. – Mən təqaüdümü almısam… Bunu uşaq üçün götür, – gənc anaya əlli qriven pul verdi.

Olesya onun qarşısında necə dayanmışdısa, eləcə də donub qaldı:

– Alevtina Moyiseyevna, nə edirsiniz? – deyə bir neçə dəqiqədən sonra sanki özünə gəldi. – Mən… mən götürə bilmərəm. Yaşlı adamlardan son qəpiyini də almaq harda görülüb? Yoxsa sizə bu təqaüd bəs edir?

– Mənim kimi qocaya nə lazımdır? – arıq çiyinlərini çəkdi. – Ərim ölüb, uşaqlarımın da hərəsi dünyanın bir tərəfindədir. Tək yaşayıram, bir tək pişiyim evdə arxamca gəzir. O da mənim kimi qoca və dişsizdir… Siz cavanlar isə yaşamalısınız, uşağınızı müalicə etməlisiniz. Guya mən bunları bilmirəm? Qoca qadının xətrinə dəyməzlər, götür… – deyə axır ki, pulu onun ovcuna sıxdı.

Olesya "çox sağ ol" demək istədi, amma boğazında nəsə bir şey düyünlənib qaldı. Baxışlarını aşağı dikdi və hiss etdi ki, isti göz yaşları çay kimi yanağından aşağıya doğru axır.

– Yaxşı, ağlama, ağlama, Olesya, – nənə hələ bir onu sakitləşdirməyə də çalışdı. – Sizdə hər şey yaxşı olacaq, inan. Sənin ərin çox xeyirxah insandır… Bəzən olur ki, alış-verişdən əlimdə ağır çantalarla dönürəm. Güclə yeriyirəm. Heç kim bu qoca qarını vecinə almır. O isə dayanıb mənə yardım edir, çantalarımı daşıyır. Kefimi soruşur, mənimlə söhbət edir… Bəzən düşünürəm ki, bu, belə gənc adamın nəyinə lazımdır? Allah sizin ailəyə xoşbəxtlik və balaca Səidə can sağlığı versin! Hər şey yaxşı olacaq, qızım…

Olesya buna inanırdı. Elə bil onun oğlu, həqiqətən, xoşbəxt anadan olmuşdu. Axı insanlar üçün (o nənənin simasında) artıq onun yarı azərbaycanlı – müsəlman olmasının və daha başqa şeylərin heç bir əhəmiyyəti yox idi… İndi o, tanış-yad, doğma-dost,

iş yoldaşı-qonşu və s. fərq etməz, həyatı bu insanların əlində olan yardıma möhtac bir uşaq idi. Əvvəllər Olesya və Yusif tez-tez xurafatla qarşılaşırdılar, çünki (istəsək də, istəməsək də) dünya "özününkülər" və "qəriblər", xristianlar və müsəlmanlar, yaxınlar və uzaqlara bölünür. Səid isə bunu dəyişdirmişdi. Sanki o, bir-birinə qarşı dayanan iki dünyanı birləşdirmişdi, onları bir araya gətirmişdi, hər ikisi də yalnız bir həyatı xilas etmək üçün çalışırdılar. Müalicə üçün pullar, sanki göydən düşürdü. Əlbəttə ki, xəstəlik mütəmadi olaraq bütün vəsaiti götürürdü, amma Olesya bir gün həyat və ölüm tərəzisinə qoyduğu bu insanların laqeyd olmamalarının qarşısında geri çəkilməli olacağına şübhə etmirdi.

Həmin gün o, xoşbəxtcəsinə, sanki quşun qanadlarında xəstəxanaya gəldi. Elə qapının kandarındaca bir daha yenidən sevindi. Onun qonağı var idi – Kristina Viktorovna köhnə xəstəsini görməyə gəlmişdi.

**Həkimlə söhbətdən:**

*Səidin yaşayacağına bir an belə ümidimi itirməmişdim. Təbiətin özü də bu uşağın yaşaması üçün səy göstərirdi. Sanki o, yaşamağa məhkum edilmişdi. İmmunomodulyator[48], heç şübhəsiz, yardımını göstərirdi, lakin belə intensiv terapiyadan sonra antibiotiklərdən əziyyət çəkən bir uşaq tez sağalmır. Nə böyüklərin orqanizmi, nə də bir qədər böyük uşaqlar bu qədər tibbi manipulyasiyaya tab gətirə bilməzdi. Ən azından bizim təcrübəmizdə belə şey baş verməyib. Səid isə bunların hamısına dözə bildi. Bəlkə, ona görə ki, onun qanı qarışıqdır?*

*Alimlər belə uşaqların doğuşdan etibarən daha güclü bir immunitet sisteminə sahib olduğunu bilirlər. Bu, fərqli irqlərin genlərinin qarışdırılması ilə əlaqədardır. Pentaqlobin yalnız onun*

---

[48] İmmunomodulyator – immunitet sisteminə tənzimləyici təsir göstərə bilən maddələr qrupu. İmmunitet sisteminə təsirinə görə, o, immunostimulyasiya və immunosupressiv olaraq iki qrupa bölünür (*tərc.*)

*sürətlə bərpa olunmasına zəmin yaratdı, daxilindəki inanılmaz imkanların oyanmasında bir katalizator oldu.*

*Səid ağır formalı bronxopulmoner displaziya ilə sağ qalan yeganə uşaqdır. Bundan başqa, bizdə daha belə bir hadisə baş vermişdi. Düzdür, orada da "qarışıq" qan var idi, lakin bu dəfə tatar qanının qarışığı idi. Kamila adlı balaca qız rezus-konfliktin əmələ gətirdiyi xəstəliyə qalib gələ bilmişdi. O da çox gözəl bir qız idi, gəlinciyə bənzəyirdi, yazıq kişilər... Əbəs yerə demirlər ki, qan qarışığı olmadan heç bir millət üzün müddət mövcud ola bilməz. Bununla sonrakı nəsillərin genetik kodu güclənir.*

*Bir tədqiqatçı olaraq uzun müddət rezus qarşıdurmasının təbiətini öyrənmişəm. Bizə onun yaranma səbəbləri, gətirdiyi nəticələr, onlarla mübarizə metodları məlumdur. Bir tək insan təbiətində bu halın niyə və nə vaxt yaranması hələ də məlum deyil. Statistikaya görə, Avropa əhalisinin 15%-i mənfi rezus-faktor daşıyıcısıdır. Beləliklə, hər on hamiləlik riskli hesab olunur, axı qadının qan qrupu mənfi, uşağınkı isə müsbət rezuslu olur. Afrika və Asiya əhalisində, eləcə də Şimali Amerikalı hindular arasında mənfi rezus-faktor əhalinin 1%-dən azında mövcuddur. Ona görə də rezus qarşıdurması onlar arasında çox nadir hallarda rast gəlinir. Övladları isə demək olar ki, bu xəstəlikdən ölmürlər. Sanki təbiətin özü onları mühafizə edir. Bir sual mənə rahatlıq vermir. Təkamülün hansı nöqtəsində ana təbiət öz övladlarına belə cəza vermək qərarına gəldi? Nə üçün biz buna layiq görüldük? Deyəsən, cavab elə gözümüzün qabağındadır.*

*Görünür, bəyaz irqin nümayəndələri özlərini yüksək və hamıdan fərqli hesab etməsə idilər, bu heç vaxt baş verməzdi. Bəlkə də "ağ" insanlar əsrlər boyu başqa irqləri məhv etməsəydilər, təbiət başqalarını qorumaq üçün doğuş zamanı bəzi övladlarını öldürməli olmazdı. Fərqli irqlərdən olan insanların dünyaya gətirdikləri uşaqlar ikiqat güclü olur.*

*Bəlkə, bu, doğrudan da, təsadüfi deyil və təbiət bu şəkildə bizi barışdırmağa çalışır? Əlbəttə ki, bu, yalnız mənim fərziyyəmdir.*

*Mən səhv edə bilərəm – hətta səhv etmək istəyirəm! Təəssüf ki, mən də şüursuz şəkildə doğma uşağını dünyaya gətirə biləcəyi halda ən qiymətlisini məhv edən o 15% qadınların qrupuna aidəm. Mənim də qanım mənfi dörddür. Uşağımın atasının qanı isə müsbət bir idi. Mən onu ilk dəfə görəndə və ona aşiq olanda bu haqda düşünə bilirdimmi? Bəs ona ərə gedəndə? Əlbəttə ki, yox. Mən özümü qorumalı idim. Axı bir zamanlar tibb məktəbini fərqlənmə diplomu ilə bitirmişdim. Ardınca tibbi biliklərimi dərinləşdirmək məqsədilə universitetə daxil olmuşdum. Mənə də doğuşdan sonra yetmiş iki saat ərzində immunoqlobulin vurmağı "unutmuşdular". Bunda müəyyən qədər mənim də günahım var idi – axı həkim idim, mənim başıma belə şeylər gəlməsin deyə nəzarət etməli idim...*

*Mən yalnız bir uşaq dünyaya gətirdim, daha sonra risk etməyə qorxdum. Qızım atasının qan rezusunu daşıyır, xoşbəxtlikdən o, öz uşaqlarının olması haqda düşünəndə rezus-konfliktin nə olduğunu bilməyəcək. Mən də ki, bir daha dünyaya uşaq gətirmədim. İndi bunu etiraf edə bilərəm, mən sadəcə qorxdum. Bütün həyatımı işimə həsr etdim. Hətta başım o qədər qarışmışdı ki, işimin ərimi, qızımı və doğma evimi necə əvəz etdiyini duya bilmədim. Ailəmi necə itirdiyimi hiss etmədim.*

*Görəsən, ona görə belə ağır bir problemi ilə yanıma gələndə Olesya adlı bu sevimli hamilə qıza sarıldım? Əslində mən bu qıza heyranam, axı o... qorxmadı. O, qadının ən başlanğıcdakı əsl təyinatı olan doğmaq və sevməkdən boyun qaçırmamışdır. Olesya mənə qızımı xatırladır, deyəsən, onlar həmyaşıddırlar...*

*İndi mənim qızımla əlaqəm yoxdur. Onun məndən zəhləsi getməyə haqqı var. Mən yaxşı ana ola bilməmişəm. O, heç vaxt dəstəyi qaldırmır, amma buna baxmayaraq, mən hər axşam ona zəng vururam. Görəsən, o nə vaxtsa məni bağışlaya biləcəkmi?*

Olesya hələ Kristina Viktorovna ilə danışmağa başlamamış qapı açıldı və içəri yanaqları şaxtadan qızarmış Valeriya əlində qucaq dolusu qızılgüllər və yeyib-içməklə dolu paketlə içəri girdi.

Rəfiqəsi onu tez-tez xəstəxanada ziyarət edirdi. İndi də qapını döymədən güllə kimi içəri girdi:

– Salam, Olesya! Mən sənin yanına gəlmişəm…

Həkimi otaqda görəndə özünü itirdi və bir addım geri çəkilib yerində donub qaldı. Kristina Viktorovna da sıçrayaraq yerindən qalxdı. Bir müddət hər an bir-birinin üstünə atılaraq parçalamağa hazır olan qəzəbli pişiklər kimi qarşıya-qarşıya dayandılar.

– Sən burda nə edirsən, Valeriya? – deyə, nəhayət, Kristina Viktorovna dilləndi.

– Mən Olesyanı ziyarət etməyə gəlmişəm, o, mənim rəfiqəmdir. Sənin burda olduğunu bilsəydim, sonra gələrdim.

– Yaxşı, sizə mane olmayım, – həkim sakitcə qapıya tərəf yönəldi. – Hələlik, Olesya. Qoy Səid tez sağalsın. Köməyə ehtiyacınız olsa, mütləq mənə xəbər elə.

O, arxasınca qapını örtən kimi Valeriya yavaş-yavaş palatanın bir küncünə çəkilib paketləri və gülləri stolun üstünə qoydu, çaşqınlıq içərisində stula çökdü. Olesya artıq işin nə yerdə olduğunu anladı. Hər iki qadının saçlarının və gözlərinin rənginin bir-birindən fərqli olmasına baxmayaraq, onların eyni boyları, qürurlu duruşları, bənzər tərzlə başını çevirmələri, ədaları və… əlbəttə ki, ətirləri. Onların hər ikisi eyni ətirdən istifadə edirdilər!

– Sənin məni göndərdiyin həkim – Kristina Viktorovna... sənin anandır? – deyə bu dəfə o, rəfiqəsindən birbaşa soruşdu.

Valeriya gözlərini bərəldib elə baxırdı ki, sanki onu görmürdü və... qəflətən hönkür-hönkür ağlamağa başladı. Olesya onu bağrına basdı:

– Danış.

– Yox, danışa bilmərəm…

– Valeriya, susma! – deyə Olesya onu çiyinlərindən tutub silkələdi. – Görürəm axı, sənin artıq bunu içində saxlamağa gücün çatmır. Bəsdi susdun, danışmağa çalış! Mən axı sənin rəfiqənəm. O saat özünü yaxşı hiss edəcəksən, bax görəcəksən…

**Valeriyanın etiraflarından:**

*...Heç bilmirəm necə deyim. Yaxşı olar ki, elə öz valideynlərimdən başlayım. Onlar tanış olanda atam çox yaraşıqlı trolleybus sürücüsü, anam isə tibb texnikumunu bitirən kimi Köhnə şəhər xəstəxanasında işləyən gənc tibb bacısı idi. O, hər gün Kiyev küçəsi ilə gedirdi, ona görə də iki dəfə nəqliyyat dəyişdirmək məcburiyyətində qalırdı – əvvəlcə altı nömrəli trolleybusla Qələbə meydanına, oradan da 1№-li avtobusla Köhnə şəhərdə yerləşən Mayakovski küçəsinə gedirdi. Bax beləcə onlar rastlaşıblar. Yəqin ki, bir-birlərinə ilk baxışda aşıq olublar. Ona görə ki, o dövrün fotoşəkillərində hər ikisi o qədər xoşbəxtdir ki, onları izləmək belə insanın içini sızladır. Beləliklə, mən böyük bir sevginin nəticəsində dünyaya gəlmişəm.*

*Sonradan isə hər şey dəyişdi – anam tibb universitetinə daxil oldu. Oranı müvəffəqiyyətlə bitirib həmkarları və xəstələri arasında hörmət, nüfuz və getdikcə daha çox pul qazandı, günlərini xəstəxanada keçirərək karyerasında sürətlə qalxmağa başladı.*

*Onun üçün ancaq işi var idi, xəstələri ona ailəsini əvəz edirdi, xəstəxana dəhlizləri və palatalar isə evini. Atam isə necə vardısa, elə də qaldı – adi marşrut sürücüsü. Onun ayağının altındakı torpağı cırmaqlamağa, nəyin bahasına olursa-olsun, uğur qazanmağa, öz boyundan daha artıq işlər görməyə vadar edən xasiyyəti yox idi...*

*Tez-tez anamın həyatda heç bir yer tuta bilmədiyi üçün onu təhqir etdiyini eşidirdim: "Başqa kişilərin hamısı biznes qurur, ailələri üçün dəbdəbəli evlər tikir, arvadına və qızına bahalı maşınlar, qızıllar, xəzlər və brilyantlar hədiyyə edirlər!" O isə... Susurdu. Ona görə də anam ondan daha çox utanırdı, üstəlik də qocalmış və uğursuz əri ilə camaatın gözünə görünməməyə çalışırdı. Kolleqaları nə deyər? Bəs xəstələri? O, ərinin adi trolleybus şoferi olduğunu etiraf etməkdənsə, ölər! O, yaşı artdıqca daha da gözəl-*

*ləşən, iş yerində qazandığı uğurlarından, təşəkkürlərdən və iltifatlardan hər gün bir az daha çiçəklənən qadın tipinə aid idi. Bilmirəm, bəlkə, o vaxt onun artıq sevgilisi var idi? Xatırladığım qədər kişilər hər zaman ehtiraslı baxışlarla onu müşayət edirdilər...*

*Mənim on yaşım olanda atam bizi tərk etdi. Onu olduğu kimi qəbul edən bir qadınla qarşılaşmışdı. O qadın atamdan utanmırdı və ondan əlçatmaz yüksəklikləri fəth etməsini istəmirdi. Atam Baqdançik və Katinka adlandırdığı iki körpə uşağı olan dul qadınla evlənmişdi. Uşaqlar ona ata deyirdilər. Mən bunu öz qulaqlarımla eşitmişdim. Bir dəfə atam məni yeni ailəsi ilə tanış etmək üçün öz evinə qonaq çağırdı. Məni həmin evə aparanda onun yeni ailəsi günorta yeməyi yeməyə hazırlaşırdı. O qadın məni görən kimi dəbdəbəli ağ süfrə sərilmiş stola daha bir boşqab qoydu. O, mənim anam kimi gözəl qadın deyildi. Kök, manikürsüz, işləməkdən kobudlaşan əlləri, uzun boz rəngli qəhvəyi saçlarını ilk ağaran tüklər görünən başının arxasında düyünləyən bir qadın idi... Ancaq yenə də, yorğun qəhvəyi gözlərində anamda hər zaman əskik olan anlaşılmaz isti bir mənzərəni gördüm.*

*Mən bu qadına daha diqqətlə baxmaq qərarına gəldim. Onlarla bir stola əyləşdim. Nahar süfrəsində onun uşaqları mənim atamı "ata" deyə çağırdılar. Çörək boğazımda qaldı. Mən boşqabı kənara itələyib (ağzımdakı qıpqırmızı borşu onun ağappaq süfrəsinə tüpürdüm) stoldan qalxdım və qışqırdım:*

*– Bu, mənim atamdır!..*

*Onun uşaqları donub qaldı. Onlar qorxmadılar, sadəcə təəccübdən bərələn gözləri ilə mənə baxırdılar və nə baş verdiyini anlamırdılar. Niyə onların analarının sevdiyi bu cür mehriban, qayğıkeş bir insan hər kəs üçün ata ola bilməz? Onları sakitləşdirmək üçün atam uşaqları qucağına alıb oyuncaqlar olan başqa bir otağa apardı. Mən isə onların arxasınca baxaraq təkrarlayırdım: "Bu, mənim atamdır, mənim atamdır, mənim atamdır"...*

*– Sənindir, əzizim, – onun yeni arvadı mənim əlimdən tutaraq dedi. – Və hər zaman da sənin atan olaraq qalacaq. Bağışla məni.*

*O qadın məni qucaqlayıb dizində oturtdu. O qədər isti, mehriban və evdar idi ki, hətta o, süd və vanil qoxurdu. Mən onunla, ümumiyyətlə, mübahisə etmək istəmirdim. Bir neçə dəqiqədən sonra sakitləşdim, yarım saat sonra isə uşaqların yanına gedib onlarla birlikdə şəkil çəkməyə başladım.*

*Axşam atam məni evə apardı, biz sağollaşdıq və mən otağa girdim. Ev boş və qaranlıq idi, anam isə əlbəttə ki, hələ də işdə idi. Mən otaqların hamısının işığını yandırdım və... anladım ki, mən daha burada tək yaşamaq istəmirəm. Anladım ki, atamın, onun yeni ailəsinin yanına köçmək istəyirəm. Sanki onların evində hər zaman sevgi hökm sürürdü, bizimkində isə hər divarda tənhalıq.... Həmin gecə anam, nəhayət ki, işdən qayıdanda ona elə məhz belə də dedim. Bir anlıq anam donub qaldı. Sonra o, yanıma gəlib mənə bir sillə vurdu... və ağladı.*

*– Gör bir bu nə danışır! – deyə o, soyuq, qəddar baxışları ilə göz yaşlarına boğula-boğula qışqırdı. Mən də küncə sıxılaraq hıçqıra-hıçqıra ağladım. – Sevgi istəyir! Evdə nədir, sevgi yoxdu? Gecə-gündüz mən kim üçün işləyirəm?! Atan sevgi axtarmağa gedəndən bəri səni kim yedirdir, geyindirir? Elə bilirsən mənə belə yaşamaq xoşdur? Heç olmasa bir azca vicdanın olsun!.. Mən ölərəm, basdırarlar, sonra sevgi üçün onun yanına gedərsən!..*

*Ona nə cavab verəcəyimi bilmədim. Özümü dünyanın ən dəhşətli adamı hesab edirdim. Ürəyimdə belə dəhşətli ağrı duymamaq və başqalarına da əzab verməmək üçün birdəfəlik yoxa çıxmaq istəyirdim. Nəhayət, anam susdu. Qəflətən evə sükut çökdü, yalnız saatın tıqqıltısı və kiminsə möhkəm bağlamağı unutduğu krandan daman su damcılarının səsi eşidilirdi. Mən sakitcə küncdən çıxıb mətbəxə getdim və kranı bərk sıxdım. Anam vanna otağından çıxdı.*

*– Mənim valideynlərim də mənim nazımla oynamayıblar, – deyə etiraf etdi. Görünür, orada sakitləşdirici içmişdi. – Görürsən, böyüyüb adam olmuşam. Nə vaxtsa, sən mənə "sağ ol" deyəcəksən!*

*Mən ona "sağ ol" demədim. Sadəcə bel çantasına bir neçə əşyamı toplayıb o, mətbəxdə telefonla danışdığı zaman (yenə hansısa xəstəsi zəng vurmuşdu) sakitcə evdən çıxdım. Evdən qaçdım. Bir saatdan sonra atamın yeni evinin qapısının zəngini çaldım. Qapını onun yeni arvadı açdı. Heç bir söz demədən məni evə buraxdı. Atam özünü ələ almağa çalışarkən o qadın mənə yataq hazırladı. Deyəsən, o, məzəmmət etməyi və qınamağı bacarmırdı, yalnız düzgün hesab etdiyi işi görürdü. Səhər atam mənimlə ciddi söhbət etdi.*

*– Əslində mən istəyirəm ki, sən bizimlə yaşayasan, – o dedi. – Görürsən, Lyudmila da burada yaşamağına etiraz etmir, hamıya yer çatar… Amma xahiş edirəm, anan haqqında düşün. O indi tamamilə tək qalacaq. Onu tərk etmə, yaxşı? Mən bunu eləmişəm, heç olmazsa, sən eləmə. Sən evə qayıdıb anana dəstək olacaqsan. Mənsə heç yerə getmirəm. Eşidirsən, Valeriya?*

*Mən eşitdiklərimə inanmırdım. Hamı hər kəs üçün narahat olur, həyəcan keçirir… Bəs mənim haqqımda kim düşünəcək? Mənim istəklərimin heç bir əhəmiyyəti yoxdur? Yoxsa mən hara göndərirlərsə, ora getməliyəm?! Mən durub bel çantamı yığmağa başladım. Həmin səhər məni anamın yanına qaytardılar. O, məni içəri salıb qapını çırpdı və işlərinin arxasınca getdi. Bu dəfə göz yaşları, isterika və dava-dalaş olmadı. Yalnız soyuq laqeydlik var idi. Biz, demək olar ki, danışmırdıq. Keçən il olduğu kimi bu il də o, mənim valideynlər iclasıma gəlmədi, işdə onun daha vacib işləri var idi. Axı insan həyatını xilas etməyin yanında valideynlər iclasının nə əhəmiyyəti var idi?*

*Onun bu "prioritetindən" istifadə edərək məktəbdən yayınmağa başladım, oğlanlarla tanış oldum, spirtli içkilərin dadına baxdım, siqaret çəkməyi öyrəndim. Sonra isə otağıma çəkilib gecə gec saatlara qədər tünd rənglərlə dəhşətli şəkillər çəkdim. Başqa qızlar gündəlik tuturdular, mən isə onu çəkirdim.*

*Atama zəng vurmadım və onunla bir daha görüşə getmədim. Məni geri – anamın yanına göndərdiyi üçün ondan hələ də inci-*

*mişdim. Anam heç kimə heç nəyi bağışlamadığı kimi mən də onu bağışlamadım... Əgər mən sonradan nə baş verəcəyini bilsəydim, elə o an qaçıb atamın boynunu bərk-bərk qucaqlayardım. O vaxt o artıq trolleybus sürücüsü işləmirdi. Marşrut sürürdü, orada daha çox pul qazanmaq imkanı var idi. Bir dəfə iş gününün sonunda sərnişinləri düşürüb evə gələndə Tyajilov[49] tərəflərdə onun sürdüyü marşrut yük maşını ilə toqquºub. Deyirdilər ki, çox dəhşətli qəza olub. Atamı üzü bağlı tabutda dəfn ediblər.*

*O öləndə həmin qadın ikinci dəfə dul qaldı, anam isə heç ah da çəkmədi. Onun gözləri "yaxşı olub, başqasının bədbəxtliyi üzərində xoşbəxtlik qurmaq olmaz" deyirdi. Nəyə görəsə, bu sözü yalnız xoşbəxtliyin hansı mənanı kəsb etdiyini bilməyənlər tez-tez təkrar edirlər. Ümumiyyətlə, heç o xoşbəxt olmuşdumu? Anam öz əlləri ilə onu dağıtmışdı, sonra isə o qadını ərini onun əlindən aldığına görə günahlandırırdı. O, özündə belə təsəvvür yaratmışdı. Onlar isə sadəcə sakit yaşamağın, bir-birini sevməyin və uşaqları birlikdə böyütməyin arzusunda idilər. Hər zaman getməyə can atacağı bir evinin olmasını diləyirdilər. Onun üçünsə yenə də yalnız iş var idi. Bax, xoşbəxtlik belə idi...*

*Onun ölümündən sonra anamla bir-birimizə çox çətinliklə dözürdük. O vaxt heç mənim ağlıma gəlmirdi ki, bizim də evimizdə sevgi hökm sürə bilər, çünki bizdə həvəslə qucaqlaşıb öpüşmək, etiraf etmək yox idi, ya da mən onu görə bilmədim. On yeddi yaşım olanda paytaxtdakı universitetlərdən birinə daxil oldum və yataqxanaya köçdüm. Altı ildən sonra Vinnitsaya qayıtdım, lakin anamın yanına getmədim. Əvvəlcə bir ev kirayələdim, sonra isə mənim rəsm əsərlərim və fotoşəkillərim mənə yaxşı gəlir gətirəndə özümə ev alıb oraya köçdüm. Təkcə maşın arzusunda olmadım. Ona görə ki, maşın ölümdür – mənim atam sükan arxasında dünyasını dəyişmişdi. Marşruta minməyi özümə məcbur edə bilmirəm, elə bilirəm, sürücünün yerində onu görəcəm...*

---

[49] Tyajilov – Vinnitsa ərazisində yerləşən mikrorayon (*tərc.*)

*Mən hələ də ara-sıra o qadınla və onun uşaqları ilə görüşürəm. Boqdançik və Katenka artıq böyüyüblər, məktəbi bitirib yerli universitetlərdən birinə daxil olmağı düşünürlər. Qadın isə atamın ölümündən sonra ərə getməmişdi. Məni hər zaman gülərüzlə qarşılayırdı. O, istiqanlı, evdar idi və hələ də süd, vanil qoxurdu. Anam isə həmişə dərman, siqaret, kofe, bəzən bayramlarda və iş yoldaşlarının ad günlərində konyak qoxusu verirdi. O, hər zaman bu qoxuları gizlətmək üçün fransız ətri Şaneldən istifadə edirdi. Bəlkə də "Şanel № 5" ətrini vurma bacarığı ondan mənə miras qalan yeganə şeydir... O, mənə anamı xatırladır və mən onu hər dəfə yenidən alıram... Alıram ki, onunla əlaqəmi itirməyim. Əgər eyni ətirdən istifadə ediriksə, deməli, biz hələ hər şeyi itirməmişik, başa düşürsən?..*

– Sən ona zəng eləməlisən, – Valeriya sözünü bitirən kimi Olesya ona dedi. – Ya da o sənə zəng vuranda dəstəyi qaldır!

Valeriya sadəcə gülümsədi. Əgər bu, real həyatda deyil, bütün teleməkanı titrədən sabun köpüyünə bənzər (romantik Olesyanın, demək olar ki, ardıcıl olaraq hamısına baxdığı) seriallarda baş versəydi, qəhrəmanlara xas tərzdə o, anası ilə qucaqlaşardı. Bu zaman kövrəlmiş Olesyanın gözləri önündə uzunmüddətli düşmənlikdən və ayrılıqdan sonra bir ailənin möhtəşəm birləşməsi baş verərdi…

Təəssüf ki, həyatımız çox nadir hallarda kinoya bənzəyir. Ola bilsin ki, ana ilə qız zamanla ortaq bir dil tapa biləcək və bayramları bir yerdə qeyd edəcəklər, amma bu, bir anın içində baş verməyəcək. Bir-birini tanımaq və sevmək üçün onlara çox vaxt lazımdır və o gün gələcək... Bəlkə də gəlməyəcək, nə bilmək olar, bu, həyatdır.

Əsas odur ki, onların hər ikisi də o günün gəlməsini ürəkdən istəyirlər, elə deyilmi?

…O vaxta qədər Valeriyanın artıq yeni qayğıları meydana çıxmışdı. Bir neçə həftə əvvəl o, Olesyaya zəng vurub hansısa bir sənətşünas tənqidçinin onun ən yaxşı (və ən bahalı) işinə mənfi rəy

verdiyini dedi. Əlbəttə ki, hər bir rəssam peşəkar tənqidə ehtiyac duyur, amma bu dəfə, deyəsən, bu tənqidçi sərhəddi çox keçmişdi. Valeriyanın şəkilləri yenə də yaxşı satılırdı. Qalmaqal ona heç zərrə qədər də zərər vermədi, ancaq onun daxilində nəsə bir şey qırılmışdı. O, artıq özünü molbertə yaxınlaşmağa məcbur edə bilmirdi.

Qəlbinin dərinliklərində Valeriya öz işini sevmirdi. Ona görə də bu sevgisizliyin tərəfdaşı ortaya çıxanda hətta o, sevinmişdi də. Sanki hər zaman onu, nəhayət, ifşa edəcəklərini, birmənalı şəkildə yerini göstərəcəklərini gözləyirdi. Valeriya da artıq öz yaradıcılığı ilə başqalarını heyran etməyəcək, hər kəs kimi adi bir insan olub yaşayacaqdı… O zaman Olesya rəssam rəfiqəsinin niyə artıq şəkil çəkmədiyini başa düşdü.

– Kefini pozma, – deyə hər zamankı kimi o, Valeriyaya dəstək olmağa çalışdı. – İndi bir mənfi rəy var deyə, nə edək?

– Kaş ki, bir dənə ola! Artıq üç dənədir. O mənim sonuncu rəsmlərindən heç birini diqqətdən kənarda qoymayıb. Hələ bir qulaq as, gör nə yazıb: “Çağdaş rəssam Valeriya Xaletskayanın yaradıcılığı həddən artıq yüksək qiymətləndirilir. Əlbəttə ki, onun yaradıcılığını ötən əsrin Fransız impressionistlərinin[50] mükəmməl təqlidi adlandırmaq olar. Onun monoton və darıxdırıcı rəsmləri qara rəngin içərisində itib-batmışdır. Deyəsən, bizim rəssamımız baza rəngləri hələ də qarışdırmağı öyrənməmişdir, ondan rəng çalarlarının canlı oyununu necə gözləmək olar?” və sonda imza – Qordey Staneviç, müstəqil sənətşünas-tənqidçi.

– Müstəqil sənətşünas-tənqidçi? – deyə Olesya sanki bu qeyri-adi və gözəl səslənən söz birləşməsindəki hər hərfi aydın duymaq istədi.

– Oy, yaxşı sən Allah! – deyə Valeriya narazılıqla cavab verdi. – Əgər o, nə vaxtsa müstəqil tənqidçi olubsa, mən əlimi kəsərəm.

---

[50] İmpressionizm – XIX əsrin 60-70-ci illərində Fransada yaranmış incəsənət cərəyanı. Dəqiq düşünülmüş formanın olmaması, ani təəssüratların ötəri, lakin daxili vəhdət və əlaqədə verilməsi impressionist üslubun səciyyəvi cəhətləridir (*tərc.*)

Sadəcə olaraq indi ona pul verilməyib. Sənətdə də özünü tapa bilməyib. Beləcə, o, snoba[51] və "müstəqil sənətşünas-tənqidçi"yə çevrilib. Özü heç nə yarada bilmir, ancaq ətrafında nə varsa, qara rəngə bürüyür.

– Adı qəşəngdir – Qordey Staneviç…

– Hə, bir tək adı, – deyə Valeriya çarəsizcə razılaşdı.

Bu məqamda rəfiqələr ortaq razılığa gələ bildilər, ancaq əsrarəngiz Qordey Staneviç Olesyanın ağlından çıxmadı. O, əmin idi ki, bu insanın rəfiqəsinin həyatında peyda olması təsadüfi deyil. Üç gündən sonra Valeriya yenidən xəstəxanaya onun yanına gəldi və Olesyaya bu dəfə həmin hekayənin daha dramatik davamını danışdı:

– Bilirsən, mən nə iş görmüşəm? – elə qapının kandarındaca rəssam xəbər verdi. – Onun harada yaşadığını öyrəndim və evinə getdim. Dava eləməyə. Təsəvvür edirsən mən orda nə gördüm?… Rəsmləri! Elə hey düşünürdüm ki, görəsən, niyə son zamanlarda mənim işlərim yaxşı satılır? O alırmış. Onun evinin hər yerində mənim rəsmlərim asılmışdı!

– İlk baxışdan sevgi? – Olesya o saat dikəldi.

– Necə ola bilər ki! – deyə Valeriya yerində vurnuxdu. – Əksinə bu daha çox asılılıqdır! O, mənim gördüyüm hər işə nifrət edir!.. Mənə məhz belə də dedi – nif-rət edir!

– Yazıq! Yəqin "nifrətin" asıldığı divarlar arasında yaşamaq onun üçün çox çətindir? Dayan… Bəlkə bu onun xoşuna gəlir?

– Heç bilmirəm! Bilirsən, heç yaxşı alınmadı. Mən axı onun evinə dəvətsiz getmişdim. Qapını mənə əlil arabasında olan gənc bir oğlan açdı. Qərara gəldim ki, bu, onun dostu və ya kiçik qardaşıdır. Yeri gəlmişkən, onun da mənim Staneviç haqqındakı fikirlərimi bilməsi pis olmazdı. Qışqırdım ki, o, alçaq, pozğun, fetişistdir… və daha ağlıma gələn nə vardısa dedim. Sonra oğlan asta səslə dedi: "Qordey Staneviç mənəm"…

---

[51] Snob – yüksək cəmiyyətə heyran olan, onların davranışlarını və zövqlərini diqqətlə təqlid edən bir insan (*tərc.*)

– Vay… – deyə Olesya da özünü itirdi. – Sən üzr istədin?

– Yox, – deyə Valeriya dodağının altında mızıldadı. – Mən sadəcə ordan qaçdım.

Olesya rahat bir nəfəs alaraq dedi:

– Bu daha düzdür! Onunla kofe içməyə qala bilməzdin ki…

Tezliklə rəfiqələr bu söhbətə yenidən qayıtdılar.

– Sənin sənətşünas-tənqidçin necədir? – deyə Olesya soruşdu. – O hələ də sənə əvvəlki kimi dəlicəsinə nifrət edir?

– Bilmirəm, – deyə Valeriya dərindən nəfəs alaraq köks ötürdü. – O, daha mənim haqqımda yazmır. Nəhayət ki, məndən əl çəkdi…

– Hə, təbrik edirəm! Sən qələbə çaldın.

– Hə, bəlkə də elədir, amma mən özümü qalib kimi hiss etmirəm. İnan ki, onsuz darıxıram. Elə bilirdim o, qoca və eybəcər biridir, o isə… onun gözləri mavidir, təsəvvür edirsən?..

Deyəsən, Valeriya Xaletskaya aşiq olub. Əslində o, çox tez-tez aşiq olur, əzablı, dağıdıcı və qısa ömürlü olsa da, duyğularsız yaşaya bilmir. Ona görə də onun bu yeni həvəsində təəccüblü heç nə yox idi. Bu dəfə, deyəsən, hər şey bir qədər mürəkkəb idi. Olesya onu heç bir zaman bu qədər fikirli, həyəcanlı və gülməli görməmişdi. Valeriya hər yerdə onun haqqında məlumat axtarırdı. Öyrəndi ki, bu gənc oğlan çox zəngin bir ailənin övladıdır və bir zamanlar gələcəyinə böyük ümidlər bəslənilən rəssam imiş. Yeddi il əvvəl avtomobil qəzasına düşüb. Valideynləri dünyasını dəyişib, o isə əlil arabasına məhkum olub. Ondan sonra gənc oğlan fırçanı bir daha əlinə ala bilməyib, sanki valideynlərinin dünyasını dəyişməsi ilə istedadı da yoxa çıxmışdı.

Görəsən, nəyə görə Valeriya onun diqqətini çəkib? Axı onlar yaradıcılıqda bir-birinə bənzəyirdilər. İncəsənətə aid internet resurslarının birində yazmışdılar ki, Staneviç çəkəcəyi rəsmləri Valeriya Xaletskayanın hansı formadasa ondan əvvəl çəkdiyini iddia edərək fəryad qoparır. Ondan sonra sanki Valeriyanın içində bir şey qırılmışdı, o artıq əvvəlki kimi deyildi. Eynilə onun kimi molbertə yaxınlaşa bilmirdi, bacarmırdı. Sanki nəyi isə gözləyirdi.

– Sənin ilham pərini kim səndən alıbsa, geri qaytarmalıdır, – deyə bir dəfə Olesya ona dedi. – Bu, yenidən başlamaq, təmizlənmək, yenidən düşünmək kimidir. Hər şey "nifrətdən" başlayıbsa da, eybi yoxdur! Axı sevginin minlərlə fərqli üzləri var və onların hamısı hər zaman gülmür…

Olesya hələ o zaman daxili intuisiyası ilə dərk edirdi ki, bu, onlarda həqiqidir. Kaş ki, onları bir-birinə bağlayan aralarındakı o nazik, görünməz bağı itirməyəydilər, öz əlləri ilə qırmayaydılar. Ona görə ki, bu, həyatda yalnız bir dəfə baş verir.

Başqasının qəribə sevgisi o dövlərdə onun həyatında yeganə xoş xəbər idi, axı onun şəxsi həyatından qara xətt kimi keçən qeyri-müəyyənlik hələ də hökm sürürdü. Əlbəttə ki, Səid çox az da olsa, yaxşıya doğru gedirdi. Onu artıq reanimasiyadan südəmər körpələrin olduğu şöbəyə keçirmişdilər, amma onların ailəsini qarşıda yeni və daha ağır sınaq gözləyirdi.

**Olesyanın xatirələrindən:**

*Ərimlə məni 29 dekabr – Yeni il qabağı çağırdılar. Çaşqınlıq içərisində dərindən bir ah çəkib Səidin daimi oksigen asılılığı fonunda yeni bir diaqnozu əmələ gəldiyini bildirdilər – retinopatiya*[52]*. Üçüncü mərhələ. Hələ dünən onun dünyaya gəlişinin ikinci ayı tamam olmuşdu.*

*Hamının uzun müddət gözlədiyi Yeni il bayramına hazırlıqların həyəcanını yaşadığı bir zamanda biz növbəti dəfə qeyri-müəyyənliyin qarşısında donub qalmışdıq. Bizə səbrlə izah etdilər ki, retinopatiya yeni doğulmuş uşaqlarda gözün selikli qişasının və vitreus*[53]

[52] Retinopatiya – bu xəstəliyə 32 həftədən tez və 1500 qr-dan az çəkisi olan yeni doğulmuşlarda rast gəlinir. Beş mərhələdə inkişaf edən retinopatiya son mərhələdə geridönməz korluqla nəticələnir (*tərc.*)

[53] Vitreus – göz kürəsinin daxili hissəsini dolduran gel konsistensiyasında şəffaf bir toxuma. Göz həcminin təxminən üçdə ikisini tutur və gözün anatomik şəklinin yaranmasına kömək edir. Gözün arxa seqmentinin xəstəliklərində vitrektomiya əməliyyatı aparılır, yəni vitreus geli cərrahi yolla boşaldılır (*tərc.*)

*göz qapağının zədələnməsidir. Dedilər ki, bu xəstəliyin əsas səbəbi göz almacığının şəbəkə qatında qan dövranının yaxşı işləməməsidir. Məsələ burasındadır ki, gözün almacığının özülü ananın bətnində formalaşmalıdır. Əgər uşaq müəyyən olunmuş vaxtdan əvvəl dünyaya gəlirsə, inkişafın bəzi mərhələləri artıq süni şərtlər altında həyata keçirilir. İşıq və oksigen retinal damarların meydana gəlməsinə zərər verir, xəstəliyin inkişaf etməsinə səbəb olur…*

*Retinopatiya "leykokoriya"*[54] *simptomu şəklində inkişaf edir. Hansısa formada bizim həkimlərimiz retinanın*[55] *damarlarında və vitreusda patoloji dəyişikliklər baş verdiyi anda xəstəliyin birinci və ikinci mərhələsini nəzərdən qaçırıblar. Adətən bu, bir il ərzində olur, bizdə isə iki aya baş verdi. Retinada çapığabənzər yaralar görünməyə başlayanda həkimlər həyəcan təbili çaldılar. Bu, mənfi təsirdir: əgər retinadakı çatlar qabıq kimi soyularsa, uşaq bütün ömrü boyu kor qalar, görmə qabiliyyətini bərpa etməyə heç bir şey kömək etməz. Sanki bir çırtma vurursan və obyektivdəki lent yanır...*

*Mən dik atıldım. Mənim oğlum kor olacaq?! Yox-yox, bu qorxulu bir yuxudur, belə şey olmaz. Axı bu ola bilməz, hər şey onun sağaldığını göstərirdi. O, hətta gülümsəməyə, məni tanımağa başlayırdı və... hər şey əbəs imiş? Səid məni görüb, mən bunu bilirəm! Qəflətən nə baş verdi? Biz harda səhv etmişik? Sanki yenidən isterika keçirirdim. Ən azından mən sakitləşəndə Yusif belə dedi. Guya ki, sakitləşmişdim.*

*Mən isə sadəcə öz suallarıma cavab axtarırdım. Yoxsa mənim heç buna da haqqım yoxdur? Ay Allah, mən hətta Səidin anası olmaq sevincini yaşaya da bilmədim! İki ay ərzində hər dəfə həkimlərdən onun gözünü soruşurdum, çünki Natalya Fyodorovna bizə əvvəldən xəbərdarlıq etmişdi ki, süni oksigen yarımçıq doğulmuş*

---

[54] Leykokotiya – gözün billur qişasında ağlı-sarılı refleksin olması, "pişik gözü refleksi" (*tərc.*)

[55] Retina – göz kürəsinin arxa divarını örtən, görmə hüceyrələrindən ibarət ağ təbəqə-torlu qişa (*tərc.*)

*uşaqların gözlərinə həddən artıq mənfi təsir göstərir. Uşaq süni ağ ciyər ventilyasiyası aparatında dörd həftədən çox qala bilməz, Səid isə bu aparatda otuz yeddi gün qalmışdı. Əslində, həqiqətən, onun gözləri ilə bağlı problemə hazır idik, amma bizi az qala hər gün inandırmağa çalışırdılar ki, heç bir fəsad müşahidə olunmur. Həqiqətən, hiss olunmurdu, amma hiss olunanda Səidin xəstəliyi artıq üçüncü mərhələdə idi, aktiv renital soyulma başlayırdı.*

*– Birinci və ikinci mərhələlər necə oldu? – deyə mən həkimdən soruşdum.*

*– Mən axı sizə dedim ki, avadanlıqlarımız işlək vəziyyətdə deyil, nəzarət edə bilməmişik…*

*– Hər dəfə mən onun gözlərini soruşanda siz hər şeyin yaxşı olduğunu deyirdiniz, – içimdə əsl vulkanın baş qaldırdığını və qaynadığını hiss edirdim. – Burada uzun müddət yatan bütün uşaqların problemləri var, Səiddə isə hər şey qaydasındadır. Mən də düşünürəm ki, afərin mənim oğluma! Siz isə… sadəcə nəzarət edə bilməmisiniz! Bilirdiniz ki, onun vəziyyəti həddən artıq ağırdır və siz nəzarət edə bilməmisiniz! Sizin avadanlıqlarınızın hamısı cəhənnəm olsun! Niyə daha əvvəl ərazi xəstəxanasından mütəxəssisləri çağırmamısınız? Axı mən sizdən xahiş etmişdim, sizə yalvarmışdım, siz isə üçüncü mərhələni gözləyirdiniz!..*

*Mən utanmadan ağzıma gələni deyərək qışqırırdım. Hətta Yusif də məni saxlaya bilmirdi. Ətrafa verdiyim bütün narahatlığı və oradakı vəziyyəti unutmuşdum; başa düşürdüm ki, bu insanlar hər gün mənim uşağımın yanında növbə çəkiblər və əllərindən gələni ediblər, lakin bütün günü ağlımda bir söz fırlanırdı: "nəzarət edə bilməyiblər".*

*Əlbəttə, bizim oğlumuz yaşayacaq, lakin heç vaxt qardaş-bacısının, ata-anasının, dostlarının və əzizlərinin üzlərini görə bilməyəcək. Yaxınları onun üçün yalnız səsdən və toxunuşlardan ibarət olacaq. O, bizi bir-birimizdən məhz belə ayıra biləcək. O, rəngin nə olduğunu bilməyəcək. Başa düşməyəcək ki, niyə başqaları güzgü adlanan əşyasız bir gün də yaşaya bilmirlər. Baş-*

*qalarının ona kədərlənməsinə qəzəblənəcək, baxmayaraq ki, hər şey başqa cür olmalıdır, axı o, güzgüsüz də yaşaya bilir! Başqa bir çox şey olmadan da o yaşayacaq. Brayl şrifti ilə çap olunmasa, o, kitab da oxuya bilməyəcək. Kinoya baxa bilməyəcək (təbii ki, televizor bizim evimizdə tabuya çevriləcək). O heç bir zaman yayda yağan leysandan bir an əvvəl qupquru görünən mavi səma və heç bir şey düşünmədən heyran qaldığımız günəşin tünd-narıncı qürubu qarşısında donub qalmayacaq. Çiçəklər onun üçün yalnız qoxudan ibarət olacaq – şirin, zərif və sehrli qoxu. Və o, həmin çiçəklərin ləçəklərində səhər şehinin damlalarının parıldamasını heç bir zaman görməyəcək. İlk qarın ağappaq parıltısı haqqında yalnız bizim sözlərimizdən biləcək, amma heç bir söz onu görməyi əvəz edə bilməz. Əslində o, görməyin nə olduğunu heç vaxt bilməyəcək, amma başqalarının gördüyünü biləcək.*

…O, sanki başqa bir dünyada idi. Allaha çox şükür ki, bu, bir ilğım idi. Olesya bir neçə dəqiqə huşunu itirdi, onu özünə gətirəndə isə o başa düşdü ki, gələcək sadəcə onun gözünə görünüb. Kor olmuş Səidlə birlikdə. Nə olursa-olsun, buna icazə vermək olmaz… O, ərinə dedi:

– Əgər biz indi mümkün olanı və olmayanı etməsək, sonra günahkar həkimlər yox, biz olacağıq.

Nəhayət, rayon xəstəxanasından oftalmoloq-həkim gəldi. Dedi ki, yarımçıq doğulmuş uşaqların retinopatiyasının sınaqdan keçirilmiş bir metod ilə müalicəsi var. Siz retinanın koaqulyasiyasının[56] yapışqanlığını yoxlatmalısınız. “Yapışdırılma” maye azot və ya lazer vasitəsilə həyata keçirilə bilər. Əlbəttə ki, müasir oftalmoloqlar lazer koaqulyasiyasına üstünlük verirlər, çünki bu prosedur kriokoaqulyasiyadan[57] fərqli olaraq, demək olar ki, fəsadlara

---

[56] Koaqulyasiya və ya qanın laxtalanması – qan plazmasında həll olmuş fibrinogen zülalının həll olmayan fibrin zülalına çevrilməsi (*tərc.*)

[57] Kriokoaqulyasiya – dondurmaqla xəstə toxumaların məhv edilməsi üsulu (*tərc.*)

yol açmır. Çapıq toxumasının meydana gəlməsi dayanır və retinopatiyanın inkişafının patoloji prosesi kəsilir. Səidin mərhələsində həkimin onlara ən optimal seçim olaraq tövsiyə etdiyi lazer idi. Bir az daha gecikmiş olsaydılar, uşağın gözünü vitrektomiya[58], yəni vitreus gelini cərrahi yolla götürməli olardılar. Skleroplastika[59] texnikasının olmasına baxmayaraq, o, retinanın cüzi aralanması ilə görmə qabiliyyətini xeyli yaxşılaşdırmasına imkan verir… Ancaq təəssüf ki, bu, sizin vəziyyətiniz üçün deyil. Sizin artıq övladınızı xilas etmək üçün saatlarınız qalıb. Təcili olaraq lazer koaqulyasiya etdirməlisiniz. Bu əməliyyatı yalnız paytaxtda – Oxmadetdə həyata keçirirlər. Uşağı oraya aparın!

– Nə paytaxt? Nə Oxmadet? – deyə doğum evinin baş həkimi əsəbiləşdi. – Siz bu uşağı görmüsünüz? O, nəql edilə biləcək bir vəziyyətdə deyil. Biz onu hətta yerli rayon xəstəxanasına belə transfer edə bilmirik. Burada isə belə bir cərrahi müdaxilə üçün nə şərait, nə də əməliyyat otağı yoxdur.

Olesya yenidən yerin ayaqlarının altından qaçdığını hiss etdi. Oturdu. Dərindən nəfəs aldı. Həqiqətən də, bir neçə gün əvvəl uşaq rayon xəstəxanasından mütəxəssislər gəlib Səidi müayinə etdilər və dedilər ki, o, başqa yerə köçürülməyə dözməyəcək. Doğum evinin Oftalmologiya şöbəsinin əməliyyat otağı yox idi. Səid isə hazırki vəziyyətdə hər hansı bir virusa qarşı heç bir zaman olmadığı kimi həssas idi… Onlar özlərini hər küncdə gözlərini onlara zilləyən məhkumluq və ümidsizlik içərisində sonu görünməyən bir labirintdə tələyə düşmüş kimi hiss edirdilər. Körpəni necə xilas etsinlər?

– Şəhərdəki mütəxəssislər öz avadanlıqları ilə Vinnitsaya gələ bilməzlər? – deyə Olesya cəsarətlə soruşdu.

---

[58] Vitrektomiya və ya Pars Plana Vitrektomi (PPV) – 0.5-1 mm-dən daha kiçik diametrli kəsici və əmici bir alətlə gözün içərisinə girilərək arxa hissəsində geniş sahədəki boşluğu dolduran şəffaf geli, yəni vitreusun olduğu yerdən ayırıb qismən və ya tamamilə boşaldılması əməliyyatı (*tərc.*)

[59] Skleroplastika – göz qapağının sklerasını (gözün xarici qövsünü) gücləndirmək üçün aparılan əməliyyat (*tərc.*)

Ona yenə dəli kimi baxdılar.

– Siz heç bilirsiniz lazer avadanlığı necə görünür və neçə kilodur? – deyə həkim-oftalmoloq maraqla soruşdu. – Bu, sizin üçün alətlərlə dolu balaca çamadan deyil! Belə bir cihaz bütün Ukraynada yalnız iki dənədir və hələ heç kim onu başqa bir yerə apararaq əməliyyat keçirməyib..

– Bəs nə edək? – deyə gənc ana sakitcə soruşdu.

– Heç olmazsa, üç yanvara qədər gözləyək. Onsuz da ondan əvvəl heç nə olmayacaq…

– Axı siz dediniz ki, hətta sabaha qədər gözləmək də riskdir! – deyə Olesya yerindən sıçradı. – Saatlarla geri sayım artıq başlayıb, yoxsa bu sizin sözləriniz deyil?!

Bir dəqiqə əvvəl ümidsizlik sonsuz labirint tələsindən ona necə baxırdısa, həkimlər də ona məhkum olunmuş kimi elə baxırdılar.

– Biz artıq sizə heç bir şey edə bilmərik, – deyə nəhayət, doğum evinin baş həkimi dilləndi. – Allah şahiddir ki, xəstəxananın bazası əsasında gücümüz nəyə çatırdısa, biz hamısını etmişik.

– Nə edək, ana? – deyə Olesya telefonun dəstəyində doğma insanın səsini eşidəndə ümidsizlik içərisində soruşdu. – Onlar dedilər ki, saatlarla geri sayım artıq başlayıb, amma onlar heç nə edə bilmirlər. Nə edək, hara gedək?..

Olesyanın anası adi məmur idi. Bütün ömrü boyu o, eyni yerdə və vəzifədə çalışıb. Karyerasında ən yüksək nailiyyətləri əldə etməsə də, ciddi əlaqələri olmasa da, onun heç bir məbləğdə pulla ala bilinməyəcək bir keyfiyyəti var idi – həmkarları arasında və rəhbərliyin yanında hörməti, izzəti. O, bir dəfə də olsun, heç kimə məsləhət verməkdən və ya yardım etməkdən boyun qaçırmamışdır. Hər zaman hamıya qarşı xoşrəftar idi.… O, ilk dəfə rəhbərliyin qapısına özü üçün nəsə istəməyə gəlmişdi.

– Nə olub, Olqa Stepanovna? – deyə direktor soruşdu. O artıq başqalarından eşitmişdi ki, onun tabeliyində olan işçisinin qızı yeni doğulmuş körpəsi ilə xəstəxanadadır. – Səidə nəsə olub?..

– Vəziyyət indi daha da gərgindir… – deyərək Olesyanın anası güclə göz yaşlarına hakim oldu. – Uşaqlar düşünürdülər ki, özləri öhdəsindən gələcəklər. Heç kimi öz qayğıları ilə yormaq istəmirdilər. İndi isə vəziyyət elə gətirib ki, bizim köməyə ehtiyacımız var. Oğlan həmişəlik kor qala bilər…

Masa arxasında onunla üzbəüz oturan qadın “həmişəlik” sözünün nə demək olduğunu çox yaxşı bilirdi. Ona əziz olan insanı huşsuz vəziyyətdə, demək olar ki, ölüm ayağında helikopterlə təcili əməliyyat üçün İsrailə apardıqları həmin gün onun yaddaşına ömürlük həkk olunmuşdu. O zaman da saatlarla geri sayım gedirdi. Onlar havada olanda isə ölümcül “həmişəlik” sözü səslənmişdi. O vaxt həmkarları onu taleyin ümidinə buraxmadılar. Hamı bir nəfər kimi bahalı əməliyyatı həyata keçirmək üçün pul topladı. Əməlləri ilə və sözləri ilə ona dəstək oldular. Hər kəs öz ibadətgahında onun üçün dua etdi…

Görəsən, ona görə o vaxt onun həyatında baş verə biləcək ölümcül və geri dönüşü olmayan “həmişəlik” ondan yan keçdi?

Təxminən bir saat sonra Olesyanın əlində telefon zəng çaldı. Tanımadığı nömrədən zəng gəlirdi. O, həmin dəqiqə telefonun dəstəyini qaldırdı. Rayon Şurasının deputatı ona zəng vurmuşdu.

– Olesya İvanovna, sizə yardım lazımdır? – deyə özünü təqdim edəndən sonra o soruşdu. Bir anlıq Olesya donub qaldı. Bilirdi ki, anası onun üçün hər şey edəcək, amma indi məşhur məmurun səsini eşitməyi heç gözləmirdi. Əlbəttə ki, Olesya onu televizorda görmüşdü, haqqında qəzetlərdə oxumuşdu, amma heç vaxt ağlına belə gətirməzdi ki, Yeni il ərəfəsində…

– Hə, bizim yardıma çox ehtiyacımız var, – deyə güclə özünü ələ alaraq cavab verdi. – Amma… siz bizim haqqımızda hardan bildiniz?..

– Mənə məlumat verildi. Oğlunuzu rayon xəstəxanasına aparmağa kömək edəcəm və Kiyevdə Oxmadetlə avadanlıqları götürməyə icazə verməleri üçün əlaqə saxlayacam. Qələm-kağızınız var? Cərrah-oftalmoloqun nömrəsini yazın. Avadanlıq barədə

razılığa gəldik, ancaq qalan hissəsini siz təmin etməlisiniz, başa düşürsünüz? Nəqliyyat tapmalısınız, həkimi Yeni il qabağı evdən çıxmağa razı salmalısınız… Yeri gəlmişkən, Yeni iliniz mübarək! Səid yaxşılaşsın…

Ona elə indicə yardım edən tanımadığı insana təşəkkür edərkən Olesyanın gözləri dolmuşdu. Baş verənlər artıq ona Zoluşkanın nağılını xatırladırdı. Qəflətən xeyirxah pəri gəlir, sehirli çubuğunu fırladır və… inanılmaz hadisə baş verir. Məgər bu möcüzə deyil? Olesya telefonu çantasına atıb Yusifi axtarmağa getdi.

Buna baxmayaraq, yenə də bir çətinlik vardı. O, çətinlik rayon xəstəxanasının rəhbərliyinin əlində idi. "Yuxarıdan" gələn zəngdən sonra könülsüz olaraq onlara Səidi rayon xəstəxanasına gətirməyə icazə verdilər. Rayon xəstəxanasının rəhbərliyinin göstərişinə əsasən "nəql edilə biləcək vəziyyətdə" olmadığı ortaya çıxana qədər oğlunun dözüb-dözməyəcəyini düşünərək Olesya çox həyəcanlanırdı. İlin sonu idi. Uşaq ölümü "planı" dolmuşdu və hətta həddən artıq yerinə yetirilmişdir. Tibb işçiləri üçün daha bir potensial "cəsəd" lazım deyildi. Statistika. Konveyer. Onların oğlu da məhz bu göstəriciyə uyğun gəlirdi.

Onlar artıq heç nəyə təəccüblənmirdilər.

**Olesyanın xatirələrindən:**

*… Mən Kiyevdən olan həkimin telefon nömrəsi yazılan vərəqi ovcumun içində bərk-bərk sıxmışdım. Yekaterina Alimova – mənə dedilər ki, onun adı belədir. Nəhayət ki, ona zəng etmək qərarına gəldim. Kəskin, sərt və narazı bir qadın səsi mənə cavab verdi. Bir anlıq içimdə hər şey donub qaldı. Bu səslə dəmiri kəsmək olardı. Mən artıq telefonu söndürüb uzağa atmaq istədim. Tanımadığım, çox güman ki, xoşagəlməz və dil tapmaq mümkün olmayan bu insanla danışmaq istəmədim, lakin yenə də qəflətən təsəvvürümdə gözləri görməyən Səid canlandı.*

*İndi artıq heç xatırlaya bilmirəm ki, ona nəyi necə dedim, yalvardım, tələb etdim, yoxsa xahiş etdim. Mən sözümü bitirib dəstəyi yerə qoyanda artıq həmin həkim lazer avadanlıqları ilə birlikdə gəlib Səidi əməliyyat etməyə razılıq vermişdi. Bir tək onu xatırlayıram ki, ağlamırdım. Bütün gücümü bir yumruğumda toplayıb əzələlərimə qədər gərginləşdim, daşa çevrildim. Sonra isə bir saat oturub əlimdə tutduğu telefona baxdım. Dəstəyin o biri ucundan "hə" kəlməsini eşitdiyimə inanmırdım.*

*İndi artıq nəqliyyat vasitəsi tapılmalıydı. Bu isə böyük problem idi, çünki həmin qış yollar qarla elə örtülmüşdü ki, bizə böyük bir qar avtomobili lazım idi. Bizim kiçik maşınımız bunun öhdəsindən gəlməzdi. Kim Yeni il ərəfəsində buna razı olardı? Hələ üstəlik belə bir havada kim isti evindən çıxardı? İndi adama elə gəlirdi ki, biz zalım analığının köməksiz qızcığazı qış vaxtı meşəyə göndərən Nərgizgülü haqqında nağıla düşmüşük... Biz kimə müraciət edəcəyimizi çoxlu düşündük. Bütün dost və tanışlarımızı xəyalımızdan keçirdik. Necə oldu ki, mən bunu dərhal xatırlamadım – İqor və İrina. Onlar mənim uşaq bağçasından dostlarım idilər. On il olardı ki, Kiyevə köçmüşdülər. Yenicə özlərinə bir "cip" almışdılar. Mən heç onları narahat edib-etməyəcəyim, lazım olan sözləri necə deyəcəyim haqda düşünmədim. Sadəcə zəng vurub onlardan yardım istədim. Bilirdim ki, onlar həmişə etibar edə biləcəyimiz insanlardır, heç kimsəni çətinlikdə qoymazlar... Belə də oldu – səhər saat altıda İqor sükan arxasında oturub həkimləri avadanlıqları ilə birlikdə götürüb Vinnitsaya yola düşdü. Yusif onları rayon xəstəxanasında qarşılamalı idi.*

*Mən oturub son iki ayda evim hesab etdiyim xəstəxana otağının pəncərəsindən çölə baxırdım. Həyətdə güclü çovğun var idi. Bir zamanlar mən saatlarla pəncərədən qar dənələrinin havada fırlanmasını seyr edər, xəyalımda qış nağılı qurardım. Bu gün isə qar yağışı məni qorxudurdu.*

*30 dekabr idi, Yeni ilə bir gün qalırdı. Havadan konfet və mandarin iyi gəlirdi. Bütün şəhər 2012 yazılmış çələnglərlə bə-*

*zədilmişdi. Bayram endirimləri, hədiyyələr hələ də davam edirdi. Məni isə nəyin gözlədiyini hələ də bilmirdim. Kaş ki, oğlum bu bəladan qurtulaydı. Yeni il ərəfəsində möcüzə baş verəydi.*

Olesya onu oğlu ilə birlikdə rayon uşaq xəstəxanasına çatdıracaq təcili yardım karetasının yolunu gözləyirdi. Yola düşmək üçün hər şeyi yığıb hazır oturmuşdu. Qəflətən əkiz uşaqları ilə birlikdə bu günlərdə rayon xəstəxanasından evə buraxılmalı olan Yaroslavanı xatırladı, o isə Səidlə birlikdə hələ indi ora yola düşürdü… birdən onun telefonu yenidən zəng çaldı. Bu, Yaroslava idi.

– Əzizim, eşitdim ki, nəhayət, sizi sifarişlə rayon xəstəxanasına köçürürlər, – deyə Olesya dəstəyin o biri ucunda rəfiqəsinin səsini eşitdi. – Hər şey yaxşı olacaq. Görəcəksən!

Onlar bir müddət söhbətləşərək xəstəxananın və yerli Asklepilərin[60] "adətlərini" müzakirə etdilər, uşaqlarından danışdılar və tezliklə görüşmək üçün vədələşdilər. Söhbəti bitirəndən sonra Olesya yenidən gülümsədi. O, elə indicə yaxşı insanlar haqqında düşündü... və onu xatırladı. Əvvəllər də bəzən belə şeylər baş verirdi. Yalnız bu gün o başa düşdü ki, bəzən tək bir kəlmə xoş söz yenidən ümidin oyanmasına səbəb ola bilər. Nəhayət ki, "təcili yardım" gəlib çıxdı.

Səid, təəccüblü də olsa, rayon xəstəxanasına köçürülməni yüngül keçirdi, sanki onu sadəcə başqa bir otağa keçirmişdilər. Demək ki, o, nəql edilirmiş! Körpəni yeni yerinə yerləşdirən kimi qarla örtülmüş böyük bir "cip" xəstəxananın həyətinə daxil oldu – bu, İqor idi, cərrahı və lazer avadanlıqlarını gətirmişdi.

Şəhərdən gələn həkim maşından düşəndə Olesya onu daha bir sürprizin gözlədiyini gördü. "Kəskin, narazı və dəmiri kəsə bilən sərt səsin" sahibi gənc, zərif bir qadın – cins şalvar və idman gödəkçədə bir qız olduğu ortaya çıxdı. Onun çiyinlərinə düşən qəhvəyi

---

[60] Asklepi – qədim yunan mifologiyasında təbabət tanrısı. Adətən əsaya dolanmış ilanla təsvir edilir. İnsan kimi dünyaya gəlmiş, sonradan yüksək təbabət bilicisi olduğu üçün ölməzliyə, tanrı rütbəsinə layiq görülmüşdür (*tərc.*)

saçları, zərif üz cizgiləri və isti bir yay yağışından sonra görülə bilən buludsuz bir səmanın cazibəli rənginə boyanmış gözləri var idi.

– Yekaterina Alimova sizsiniz?.. – deyə Olesya çəkinə-çəkinə soruşdu.

Oğlanın anasını görən kimi qız gülümsəyərək onun əlini sıxdı:

– Məni sadəcə adımla çağırın. Axı mən atamın adı ilə çağırılacaq qədər yaşlı deyiləm… Gəlin, uşağın yanına gedək. Mənə hələ yolda ikən vəziyyəti izah ediblər. Yubanmayaq, yaxşımı? Səid yaxşı olacaq, mənim sözlərimi yadınızda saxlayın!

Yekaterina uşağı hələ də görməsinə baxmayaraq, onun oğlunu adı ilə çağırdı. Bu dəfə o, yumşaq, həzin və bir qədər də səmimi səslə danışırdı. Onun sözləri, həqiqətən də, ürəyi isidirdi, ümid toxumları səpirdi. Olesya da gülümsədi. İlk təəssürat necə də aldadıcı ola bilərmiş! Bu qadın telefondakı səsinə qətiyyən uyğun gəlmir, daha doğrusu, o səs bu qadına uyğun deyil. Adı isə həddən artıq ona uyğun idi. Bu adın sahiblərinin inanılmaz dərəcədə müsbət aurası var. Onlar yalnız varlıqları ilə ətraflarına hərarət yayırlar…

Əməliyyat uğurlu keçdi. Yekaterina Səidin hər gözünə 1500 nöqtə qoydu, körpənin görmə qabiliyyəti bərpa olundu. O, əmək haqqı götürmədi, Olesya və Yusif yalnız lazer koaqulyasiyası üçün lazım olan tibbi ləvazimatların pulunu ödədilər. Həkim onlara əvvəlcədən bildirdi ki, hətta retinopatiyadan müalicə alaraq sağalan yenidoğulmuş körpələr gələcəkdə miyopiya[61], astiqmatizm[62], qlaukoma[63] və katarakta[64] kimi ciddi problemlərlə qarşılaşa bilər. Ona

---

[61] Miyopiya – yaxından görmə xəstəliyidir. Bu cür xəstələr uzağı yaxşı görə bilmirlər, yaxını isə çox yaxşı görürlər (*tərc.*)

[62] Astiqmatizm – gözün optik sisteminin defekti: gözün şüasındırma qüvvəsinin əsas meridianlarda eyni olmaması (*tərc.*)

[63] Qlaukoma – gözdaxili mayenin rahat xaric ola bilməməsi nəticəsində göz təzyiqinin artması ilə müşahidə olunan xəstəlik. Xalq arasında göz təzyiqi və ya qarasu adlanır. Müalicə edilmədikdə korluqla nəticələnir (*tərc.*)

[64] Katarakta və ya Mirvari suyu – göz büllurcuğunun görmə qabiliyyətinin zəifləşməsinə və korluğa səbəb olan donuqlaşması ilə nəticələnən göz xəstəliyidir (*tərc.*)

görə də iki yaşına qədər oğlanın davranışlarına və ümumi vəziyyətinə nəzarət etmək vacibdir və təbii ki, mütəmadi olaraq oftalmoloqa baş çəkmək lazımdır. O, uşağının gözlərinə düzgün qulluq üçün valideynlərinə ətraflı tövsiyələrini verdi və dedi:

– Hər şey yaxşı olacaq, zamanla Səidin görmə qabiliyyəti düzələcək.

Ayrılanda Olesya həkimdən soruşdu:

– Siz bunu əvvəlcədən bilə bilməzdiniz. Niyə razılaşdınız?

– Siz məni mələk adlandırdınız, – deyə Yekaterina gülümsədi. – İyirmi illik iş stajımda məni heç kim belə adlandırmamışdı. Məndən mələk olar? Amma mən buna inandım.

Əslində onun otuz dörd yaşı var idi (sadəcə çox gənc görünürdü). O, ömrünün son on ilini uşaqların həyatını xilas etməyə həsr etmişdi. Həmişə balaca pasiyentlər sağalmırdılar, lakin həkim hər zaman öz uşağı kimi onların sağalması üçün əlindən gələni edirdi. Məhz o, uşaqlara özününkü kimi baxırdı.

Yenə Olesyanın gözləri doldu. Nə vaxtsa o, başqa bir həkimə də demişdi: “Siz mələksiniz, Kristina Viktorovna!”. O isə kədərli səslə cavab vermişdi: “Mən mələk deyiləm. Qanadlarım yoxdur”. Yekaterina da bu gün möcüzə yaratdı və ətrafdakı hər kəs Yeni ilin sehrinə inandı. Görünür, dekabrın son günü elə məhz belə də olmalı idi. İqor onlardan gəlib-getmək üçün bir qəpik də olsun yol haqqı götürməmişdi. Hələ üstəlik getməmişdən əvvəl Olesyanı bir dəqiqəlik dəhlizə çağırıb gödəkçəsinin cibinə yumru bükülmüş pul qoydu.

– Lazım deyil, İqor, indi sizin üçün də asan deyil, evdə üç kiçik uşağınız var, – deyə Olesya etiraz etdi. – Onsuz da siz bizə çox kömək etdiniz…

– Elə öz uşaqlarımız olduğuna görə biz bunu edirik. İrina göndərib. Dedi ki, əgər götürməsən, bir daha sənə zəng vurmayacaq! – deyə İqor onu zarafatyana təhdid etdi.

– Çox sağ olun, mənim əzizlərim! Allah sizə daha artığını versin…

Qanadsız mələklər. Adi insanların arasında da həqiqi mələklərə rast gəlmək olar. Sadəcə onların yer üzündən havaya qalxıb bütün kainatı ağrı və əzablardan qurtara biləcək qanadları yoxdur…

**Olesyanın xatirələrindən:**

*Bu, qələbə idi. Səid yenidən görürdü. Ancaq bildiyiniz kimi, heç bir böyük qələbə itki olmadan qazanılmır. Gözlənildiyi kimi, əməliyyat zamanı körpə yenidən süni tənəffüsə keçirildi. Görmə qabiliyyəti bərpa olunmuşdu, amma biz yenidən reanimasiyaya qayıtmalı idik. O zamandan etibarən mən qətiyyətlə qərara gəldim ki, bundan sonra bizim həyatımızda hər şey yaxşı olacaq, çünki ola bilməz ki, Yeni il ərəfəsində bir möcüzə baş verməsin. Hər zaman qəlbimin dərinliklərində mən bir möcüzə gözləyirdim. Bütün ailəmlə birlikdə zamanımızı Səidin yanında keçirmək mənim Yeni il ərəfəsindəki yeganə istəyim idi. İstəyirdim ki, bu bayramı birlikdə qeyd edək. Uşaqlar çox xoşbəxt idilər. Deyirdilər ki, hər ikisi eyni arzu diləyiblər: Şaxta Baba Qar qızla birlikdə onlar üçün Şam ağacının altına Səidi qoysunlar. Biz də dedik ki, onlar bunu etmək istəyirdilər, amma çatdırmadılar. Söz verdilər ki, gələn Yeni ildə Səid mütləq evdə olacaq.*

*Xəstəxanadakı iki ay ərzində xəstəliyimizlə bağlı hər şeyi araşdırdığıma baxmayaraq, nikbinliyimi itirməməyə çalışdım, ona görə ki, şanslarımızın az olduğunu çox yaxşı başa düşürdüm. Adətən, süni ağ ciyər ventilyasiyası aparatına yenidən qaytarılan uşaqlar, demək olar ki, heç vaxt bu sistemdən ayrıla bilmir, əzələlərin atrofiyası baş verir və o, öz-özünə nəfəs almağı dayandırır. Süni ağ ciyər ventilyasiyası aparatına qoşulandan təxminən altı ay sonra uşağın orqanizmi zəifləyir və ürəyin gücü çatmır. Görəsən, doğrudanmı, bizi belə bir aqibət gözləyir? Ailələrin bir dilemma ilə qarşılaşdıqlarını filmlərdə və teleseriallarda dəfələrlə görmüşəm: sənə əziz olan bir insanı həyat dəstək sistemindən ayırmaq, yoxsa bir bitki kimi varlığını sürdürməsinə izn vermək. Heç vaxt belə səh-*

*nələri ürəyimə yaxın buraxmırdım. Hər zaman öz-özümə deyirdim ki, bütün bunlar sadəcə film üçündür. İndi film bitəcək, aktyorlar qalxıb evlərinə gedəcəklər, əslində heç kim ölməyəcək.*

*İndi isə hər şey dəyişib. Yaxşı bəs əgər tezliklə belə bir dilemma bizim də qarşımıza çıxarsa, onda nə olacaq? Axı o zaman hər şey gerçək olacaq.*

Yanvarın biri Yeni il gecəsində Olesya sonu görünməyən bir ümidsizliyə qapandı. Yarım gün dayanmadan ağladı. Az qala ev titrəyirdi. Uşaqlar qorxurdular. Onlar analarına nə baş verdiyini başa düşmürdülər.

Yusif ona nə isə izah edir, onu sakitləşdirmək üçün uyğun sözlər axtarır, o isə heç nə eşitmək istəmirdi.

– Bəsdir! – deyə nəhayət, o, arvadı ilə mətbəxə keçib qapını bağladı və bağırdı. – Bir bax, gör nə edirsən! Uşaqlar artıq səndən qorxurlar. Mən səni tanımıram! Əgər sakitləşməsən, illərlə keçirdiyim məşqlərin nəticəsini sənə göstərərəm!

Olesya başa düşdü ki, o, indi onu vuracaq. Onun həyatında bir ağcaqanadı belə incitməyən Yusifi bir çox kişinin etdiklərini edəcək. Sanki zaman da dondu. Sadəcə dayanıb bir-birlərinə baxdılar – Yusif şiddətli qəzəbi ilə, Olesya isə gücsüz ümidsizliyi ilə. Onlar nə vaxt bu hala gəldiklərini başa düşə bilmirdilər…

– Bilirsən, Səid öləcək? – təəccüblü şəkildə ərinə dedi. – Nəfəs almağını dayandırması onun sonudur. Uşaqlar “boruya” təkrar köçürüldükdən sonra yenidən həyata qayıtmırlar!..

O, dərindən nəfəs alıb bir addım qabağa gəldi və arvadını qucaqladı:

– Bağışla məni. Hər şeyi düşündüyündən daha yaxşı anlayıram, sadəcə Allah xatirinə, artıq göz yaşı tökmə. Əgər mən də indi başımı divara vurmağa başlasam, bu, bizə kömək edəcəkmi?

Olesya gözünün yaşını sildi:

– Mən elə hey düşünürəm, niyə belə oldu? – deyə o, ərinin gözlərinin içinə baxdı. – Bu mənim imanımın, yoxsa ailəmizin möh-

kəmliyinin sınağıdır? Bəlkə, bu, sənin valideynlərinin xeyir-duasını almadan evləndiyimiz üçün bizə bir cəzadır? Səidin çəkdiyi əziyyətlər bizim günahlarımıza görə deyilmi?..

– Bəsdir! – Yusif onu bərk-bərk köksünə sıxdı və gözlərini ondan gizlətdi. – Mən sənə bunun haqqında düşünməyi belə qadağan edirəm. Yadında saxla, Allah izn verərsə, oğlumuz yaşayacaq…

– Gedək, – birdən Olesya dedi.

– Hara? – deyə Yusif təəccübləndi.

– Məscidə.

– Bəlkə, orda indi heç kəs yoxdu?

– Gedək, görərik! Xahiş edirəm, mənim çox ehtiyacım var…

Onlar məscidin astanasından içəri girəndə orada namazlarını yenicə bitirən bir neçə tələbə oğlanı gördülər. Yusif yaxınlaşıb oğlunun sağlamlığı üçün onlarla birlikdə dua etmələrini xahiş etdi. Onlar heç tərəddüd etmədən razılaşdılar. Molla hamını bir dairəyə toplayaraq onlara izah etdi ki, kollektiv duanın gücü orada olanların sayında deyil. Ola bilsin ki, dua edənlərin arasında həqiqi əməlisaleh bir insan var və Allah da məhz onun sözlərini eşidəcək.

Onlar dua etməyə başladılar. Bir neçə saat dizlərini yerdən qaldırmadılar. Getdikcə məscidə daha çox adam toplaşırdı. Molladan eşidəndə ki, hər kəs yeni doğulmuş körpənin həyatı üçün dua edir, hamı bir nəfər kimi onlara qoşulurdu. Həmin gün Allahın evinə gələn hər kəsin bir dərdi, bir qayğısı var idi, amma heç kim onlara yardım etməkdən imtina etmədi, hər kəs özünün vacib işini təxirə saldı. Vinnitsalı müsəlmanlar birləşdi, qohumlarını, dostlarını və tanışlarını məscidə topladılar. Beləcə, qısa müddət ərzində kiçik məscid insanlarla dolu oldu.

Olesya dua edərkən gözlərindən dayanmadan yuvarlanan göz yaşlarını gizlətmək üçün başını aşağı əymişdi. Belə olacağını gözləmirdi. Onun üçün bu insanların hamısı əməlisaleh insanlar idi.

Evə qayıdarkən Pravoslav kilsəsinin qarşısına keçdilər və Olesya birdən ərindən maşını dayandırmasını istədi.

– Əminsən? – deyə Yusif maşını yolun kənarında saxladı.

– Bilmirəm. Mən uzun müddətdir bura gəlmirəm, amma cəhd etməliyəm…

Onlar şamlarla işıqlandırılmış əzəmətli məbədin salonuna daxil oldular. İndi burada insanlar yox idi. Girişdə isə bir o qədər də gözə çarpmayan solğun qara şallı bir qadın oturub şam satırdı. Olesya ona yaxınlaşıb salamlaşdı və soruşdu:

– Siz məni xatırlayırsınız? Bir zamanlar mən kilsə xorunda oxuyurdum…

Yaşlı qadın soyuq baxışlarla gənci başdan ayağa qədər süzüb nəzərlərini onun yanında dayanan möhkəm cüssəli, qara saçlı kişinin üzərində dayandırdı. Yadelli idi, o saat başa düşdü.

– Nə isə istəyirsiniz? – deyə adi qaydada, amma bir qədər ehtiyatla soruşdu.

– Bilirsiniz, bizim yeni doğulan uşağımız xəstəxanada yaşamaq üçün ölüm-dirim mübarizəsi aparır… Biz oğlumuzun sağalması üçün Sarokoust[65] vermək istərdik. Deyirlər, bu duanın çox köməyi var…

– Verin, amma tez edin! Mən artıq evə getməyə hazırlaşıram. Bilirsiniz, mənim üçün də Yeni ildir! – deyə yaşlı qadın əsəbiləşərək yenidən Yusifə baxdı. – Uşağın adı nədir?

– Səid, – deyə Olesya yavaş səslə cavab verdi.

– Xaç suyuna salınıb? – qadın dərhal soruşdu.

– Yox, – deyə o, daha yavaş səslə cavab verdi.

– O zaman olmaz.

Olesya dayanıb ona baxırdı. Satıcı xala isə nümayişkaranə bir şəkildə əşyalarını toplayıb getməyə hazırlaşırdı.

– Axı niyə olmaz? Bu canlı insandır, balaca oğlandır, yenicə anadan olub!..

– Yeni doğulmuş uşağı xaç suyuna salın, o zaman olar, – deyə o, qəti şəkildə bildirdi.

---

[65] Sorokoust – Rus Pravoslav kilsəsində qırx gün ərzində gündəlik oxunan dua (*tərc.*).

– Siz necə adamsınız?! – Olesya ümidsizcəsinə bağırdı. Onun səsi kilsəni bürüdü, boş qalan məbədin içərisində əks-səda verdi. – Bizim uşağımız ölür, siz isə xaç suyuna salmaqdan danışırsınız.

– Lazım deyil, Olesya, – Yusif onun əlindən tutub qadının soyuq baxışlarından uzaqlaşdırmaq üçün qapıya doğru apardı. – Biz getməliyik. Gedək burdan, bizə imtina etdilər…

Kilsədən çıxarkən qapının kandarında məbədə girməkdən çəkinən dilənçi bir babayla üz-üzə gəldilər. Deyəsən, onu oraya heç buraxmırdılar da. Buna baxmayaraq, baba hər şeyi görür və eşidirdi.

– Sizə imtina edən Allah deyil, – onlar üz-üzə gələndə baba dedi. – İnsanlar sizə imtina etdilər. Onlara kin bəsləməyin!

Yusif bir anlıq ayaq saxlayıb qocanın iltihablı gözlərinə baxdı. Sonra isə qış üçün yararsız olan köhnəlmiş paltarlarına, soyuqdan tir-tir əsən və barmaqlarının ucuna qədər göyərmiş əlcəksiz əllərinə, köhnə və cırıq çəkmələrinə göz gəzdirdi… cəld pul kisəsini çıxarıb heç tərəddüd etmədən pul verdi:

– Xahiş edirəm, bizim oğlumuz üçün dua edin. Bilirəm ki, Allah sizin dualarınızı eşidir.

**Olesyanın xatirələrindən:**

*Dostlarımızın arasında müxtəlif dinin və məzhəblərin nümayəndələri var – pravoslav, katolik, yəhudi. Həmin axşam biz onların hər birinə zəng vurub Səidin sağalması üçün öz məbədlərində və ya tənhalıqda öz düşüncələri ilə baş-başa qalıb dua etmələrini xahiş etdik. Biz inanırdıq ki, insanın hansı dinə etiqad etməsi, hansı məzhəbə qulluq etməsi, hansı Allaha ibadət etməsi o qədər də vacib deyil, əsas odur ki, o, ürəkdən dua etsin və həqiqətən, hamıya xeyir diləsin. Belə insanların duaları möcüzələr yaradır.*

*…Ertəsi gün səhər oyananda, sanki yenidən doğulmuşdum. Mənə elə gəlirdi ki, bir gecədə dünyada möcüzə baş verib. Heç vaxt qəlbimdə bu qədər dinc olmamışdım, uzun müddət idi ki, belə*

*rahatlıq və sakitlik hiss etmirdim. Hələ xəstəxanada oğlumun necə olduğunu bilmirdim, amma hiss edirdim ki, o, yaxşıdır. Dualar öz təsirini göstərib.*

*Ərimi və uşaqlarımı oyandırmadım. Sakitcə yığışıb evdən çıxdım. Yarım saat sonra artıq xəstəxanada idim. Səid üçün ana südü gətirmişdim.*

*– O, bu gün necədir? – deyə növbətçi həkimdən soruşdum.*

*– Bilirsiniz, bir xeyli yaxşılaşıb, – deyə həkim bildirdi. – Hələ ki özü nəfəs ala bilmir, amma oksigen konsentrasiyası iki dəfə azalıb. Ona görə də ümidimizi itirmirik…*

*O zaman mən onun gözlərindəki yorğunluğu hiss etdim. Görünür, bütün gecə yatmayıb, mənim uşağımın keşiyini çəkib. Ətrafıma baxdım. Ərtafda başqa həkimlər, tibb bacıları da var idi. Onlar özgələrinin uşaqlarından gözlərini bir an da olsun, ayırmırdılar. Onların sağalması üçün var-gücləri ilə çalışırdılar. Gör biz öz qayğılarımızla nə qədər yüklənmişik ki, onların səylərini görmürük. Biz onları yalnız insanları qoruya bilməyəndə, bunu bacarmayanda görə bilirik. Hər şey yaxşı olanda isə təşəkkür etməyi unuduruq.*

*Həkimlər arasında əbəs yerə demirlər ki: “Xəstəni cərrah xilas edir, amma onu xilas etdiyinə görə Allaha təşəkkür edir”. Unuduruq ki, bu insanları bizə Allah göndərir. Onlar təşəkkürümüzə layiqdirlər. O anda mənim yoxluğumda Səiddən gözünü ayırmayan bir insan üçün nə isə kiçik bir yaxşılıq etmək istədim.*

*– Birlikdə qəhvə içə bilərik? – deyə soruşdum.*

*– Mənimlə? – deyə o, təəccübləndi.*

*– Əlbəttə ki, siz əgər qəhvə istəyirsinizsə, yoxsa siz artıq içmisiniz?*

*– Yox, elə indicə içməyə hazırlaşırdım…*

*Biz avtomat qəhvə aparatının olduğu birinci mərtəbəyə endik (qəhvəxanaya getməyə həkimin vaxtı yox idi). Mən iki pors iki ekpresso qəhvə sifariş verdim. Biz qəhvə içəndə mən öyrəndim ki, onun adı Vladimirdir. O, yenidoğulmuş uşaqların reanimasiyasında ar-*

*tıq altı ildir ki, işləyir. Bir qoca anası və Svetlana adlı iki yaşlı qızı (o, mənim oğlum Əli ilə yaşıd idi) var. Arvadı isə doğuş zamanı dünyasını dəyişib. Svetanın ən böyük arzusu bir gün onun yenidən anasının olması və o, bütün ailəsi ilə birlikdə Disneyləndə getməsidir.*

*Bir neçə dəqiqə içərisində mənim gözlərimin önündən bir insan ömrü axıb keçdi. Həkimlərin də öz dramatik hekayələri olur, onların da yaxınları ölür, onların da uşaqları yetim qalır. Mən bunu necə unuda bilərdim axı?*

*Evə gəldim. Qəlbimdə əvvəlki kimi sakitlik hökm sürürdü, mən yalnız uşaqlarım haqqında düşünürdüm. Yadıma düşdü ki, bu gün biz Yusiflə birlikdə uşaqlara söz vermişik ki, onları xizək sürməyə aparacağıq. Bəlkə, hələ bir qar adamı da düzəltdik, uşaqlar çoxdan qar adamı düzəltmək istəyirdilər… Mən isə yenidən qar havasını sevməli idim. O axı sadəcə qar idi, daha Səidin həyatı üçün təhlükə yaradan soyuq çovğun deyildi.*

*Həmin gün biz uşaqlarını qış gəzintisinə aparan adi xoşbəxt ailə idik. Leyla ilə Əlini xizəkdə sürüşdürdük, qartopu oynadıq, həyətimizdə kökdən burnu olan, bir qədər uzunsov gözlü hiyləgər, başında isə qurumuş ağac budaqlarından saç düzümü olan ən böyük qar adamı düzəltdik. Kaş ki, qar uzun müddət ərimənsəydi!..*

*– Belə kiçik xoşbəxtlikləri biz necə də tez unuduruq, – biz evə qayıdıb, paltarımızı dəyişib nahar süfrəsi arxasında oturanda Yusif dedi. – Gəl bu günü yadda saxlayaq…*

*Uzun zaman idi ki, biz istirahət etmirdik. Mən onun bu sözlərindən sonra gülümsədim və onun boynunu qucaqladım:*

*– Gəl tez-tez belə gün keçirək.*

*Növbəti gün biz Yusiflə yenidən xəstəxanaya getdik. O, öz həyəcanını göstərməməyə çalışırdı, amma mən yaxşı bilirdim ki, ərim hər şeydən çox oğlunu görmək istəyir. Bizi reanimasiyaya buraxanda qorxudan az qaldı ürəyim getsin.*

*Səid orada yox idi. Mən Səidi heç yerdə görmədim.*

*– Oğlumuz hardadır?!*

*Yusif cəld ətrafına boylandı. O saat Yeni ildə bizə hədiyyə edilən al-qırmızı kombinzon geyinmiş körpəmizi tanıdı.*

*– Bizim Səidimiz burdadır, artıq "sipap"a qoşulub! – deyə məni oğlumuzun yanına tərəf çəkdi.*

*Mən belə bir xoşbəxtliyə inana bilmirdim. Bu necə baş vermişdi?! Səhərə yaxın Səidi süni ağ ciyər ventilyasiyası aparatından ayırmışdılar, o artıq özü nəfəs alırdı...*

*– Heç ondan bunu gözləmirdik, afərin, yaşamağı çox istəyir, – deyə Vladimir dilləndi. – İnanmazsınız, amma Yeni il girəndən burada daima möcüzələr baş verir.*

*Sonrakı bir neçə günü Səid "sipap"da keçirdi. Sonra onu yenidən küvəzə qoydular. Tezliklə bizi təntənəli şəkildə reanimasiyadan südəmər körpələr şöbəsinə köçürdülər. Burada bizi Tamara Nikolayevna adlı çox yaxşı bir həkim müalicə edirdi (son zamanlarda yaxşı həkimlərlə bəxtimiz gətirirdi). Səid yenidən nəfəs alırdı və bu, çox böyük xoşbəxtlik idi.*

*Tamara Nikolayevna bizim ikinci anamız idi. O, əlli yaşını keçmişdi. Dörd uşaq dünyaya gətirib, tərbiyə edib və ayağa qaldırmışdı. İndi isə nəvələri ilə xoşbəxt idi. Təqaüdə çıxmağa tələsmirdi. Otuz ildən artıq rayon xəstəxanasında işləmişdi. Deyirdi ki, bu illər ərzində kifayət qədər çox uşaq ölümünün şahidi olmuşdu. Ona görə də bu yeni həkim Natalya Fyodorovna ilə məsləhətləşməyə və pentaqlobini antibiotiklərlə birlikdə qəbul etməyimizə icazə verdi. O, Səidin ürəyini müalicə etməyə başladı. Onun ürəyi həddən artıq qan pompaladığı üçün çox yorğun düşmüşdü, artıq dayana bilmirdi. Ağ ciyərlərdəki problem də olduğu kimi qalırdı. Biz hələ də xəstəxanada idik. Mən isə artıq bir an belə hər şeyin yaxşı olacağından şübhələnmirdim. Sadəcə zamana ehtiyacımız var idi. Bu da mənə irəli getməyə, gələcəyə ümidlə baxmağa güc verirdi. Mənə elə gəlirdi ki, bundan sonra bizim həyatımızda hər şey yaxşı olacaq. Mən yenə növbəti dəfə yanılmışdım.*

…Təxminən gecə yarısından keçmiş Yusif arvadına zəng elədi. İşdən zəng vurmuşdu. Bilirdi ki, Olesya yatmayacaq, onu gözləyəcək…

– Əzizim, mən bir qədər gecikəcəm, – o dəstəyi qaldıranda Yusif dedi. – Hansısa vicdansız bizim maşınımızı dəyənəklə əzişdirib. Həll edib gəlirəm… Uşaqlar məni gətirəcək. İnan mənə orada qorxulu heç bir şey yoxdur. Sabah maşını Texniki Xidmət Mərkəzinə aparacam. Bir həftədən sonra yepyeni bir maşın olacaq, amma… Mən evə gələndə biz danışmalıyıq, Olesya. Mən sənə bir söz demək istəyirəm... Çoxdan demək istəyirəm, amma heç fürsət düşmür. Narahat olma, yaxşımı? Biz danışmalıyıq. Ola bilsin ki, mən yenə fikrimdən daşınım, bu söhbətdən qaçım, ya da onu qeyri-müəyyən bir vaxta təxirə salım… Sən mənə icazə vermə. Eşidirsən? Mən gələn kimi biz danışarıq. Bu dəfə də söhbətdən yayınmağa mənə icazə vermə, yaxşımı, əzizim?

– Yaxşı, – deyə dəyişik səslə Olesya cavab verdi. – Gözləyəcəm.

Yusif daha artıq bir söz demədən, o telefonu söndürdü. O başqa cür də edə bilməzdi. Əslində o onun səsini dinləmək istəyirdi – musiqi kimi sonsuza qədər dinləmək, amma ona bir kəlmə də deməyə icazə vermədi. Onu telefonda eşitmək istəmirdi. Uzanıb yatmadı, uşaqlara baxdı, mətbəxdə oturub onu gözlədi. Elə indicə Yusif geri dönə biləcəyi bütün yolları darmadağın etdi, amma ən əsas məsələni ona etiraf etmədi. Beləcə, onlar danışmadılar. Yusif o qadın haqqında ona necə deyəcəyini uzun müddət düşündü.

**Olesyanın xatirələrindən:**

*Mən hər şeyi bilirəm. O qadının adı Alinadır. Özündənrazı və model görünüşlü, saçlarını parlaq rəngə boyamış sarışın... Kriminal aləmdəki fəaliyyəti ilə tanınan məşhur qalmaqallı Vinnitsa iş adamının yeganə qızı... Yusifin məşq etdiyi idman klubu onun*

*atasının idi. Alina ilk dəfə mənim ərimi "qızıl gənclik"[66] arasında getdikcə populyarlaşan yarışlar zamanı görmüşdü. Axı döyüşçülərin əzələli bədən quruluşu və kobud gücləri özündənrazı balaca "şahzadələri" cəlb edir. Deyirdilər ki, o, Yusifə "razılaşdırılmış" döyüşlərin birində küncə qısılmış vəhşi heyvan kimi qan axıdanda göz qoymuşdu.*

*Bilmirəm, onu nə cəlb eləmişdi. O gecə o, yenidən təkbətək döyüşdə "məğlub oldu". Yerli feldşer yaraya bir neçə tikiş qoymaqla qanaxmanı çox çətinliklə dayandırdı. Təcili yardım haqqında, əlbəttə ki, heç söhbət də gedə bilməzdi. O feldşer özü hər şeyi etmişdi. Mən hardasa eşitmişdim ki, qadınlar və həkimlər hər zaman məğlub olanların tərəfində olurlar. Bilmirəm. O vaxt mən onun yanında yox idim. O isə orda idi. Onun evli və uşaqlarının olması da onu dayandırmamışdı. O hər kəsə deyirdi ki, onun xətrinə Yusif ailəsini, hətta xəstə uşağını belə tərk etməyə hazırdı. Yusifin seçimi idi. Gec-tez bu baş verəcəkdi. Elə baş verdi də...*

*Mən onun haqqında bilirdim. Bu günlərdə onun köhnə gödəkcəsini yumaq istədim – birdən ərim işdən qayıdandan sonra həyətə düşərkən o gödəkcəni geyinmək istəyər, o isə mazuta bulaşıb. Paltaryuyan maşının qarşısında bütün ciblərini çölə çıxarıb təmizləmək istəyəndə gödəkcənin daxili cibindən "bu gün görəcəyi işlərin siyahısı"nı yazdığı vərəqi tapdım. Yusif işləri gördükcə üstündən xətt çəkirdi (mən daima evin hər tərəfindən onun gördüyü işlərin üzərindən xətt çəkilən bu əzilmiş vərəqləri toplayırdım). Bu da elə həmin qeyd dəftərçəsindən qoparılmış bir vərəq idi. Vərəqdə yazılmış siyahıda təxminən dörd-beş bənd var idi: "Leylanı idman məktəbindən götürmək", "süd almaq", "xəstəxanaya getmək". Lakin bu dəfə sonuncu iş başqalarından fərqlənirdi və onun üzərindən xətt çəkilməmişdi. Demək ki, yerinə yetirilməyib. Mən bu sətiri oxuyanda gödəkcə əlimdən düşdü. Orada "Olesyaya o qadın haqqında demək" sözləri yazılmışdı.*

---

[66] Qızıl gənclik – nüfuzlu və varlı valideynlərinin maddi və digər dəstəyinə görə həyatlarını boş və əyləncələrdə keçirən gənclərə verilən məcazi ad (*tərc.*)

*Yusifi qabaqlamışdılar. Mən hər şeyi bilirdim. "Xeyirxah" insanlar mənə Alina haqqında hər şeyi ən xırda ayrıntılarına qədər demişdilər.*

Yusif səhərə yaxın gəldi. Yorğun, üst-başı çirkli, üz-gözü tük içərisində idi. Olesya qapını açdı, onun yorğun gözlərinə baxdı və sakitcə çönüb səhər yeməyi hazılamaq üçün mətbəxə keçdi. Diskdən yarım saatlıq cizgi filmi qoyaraq uşaqları televizorun qarşısında oturtdu və onlar olan otağın qapısını örtdü. Anasına isə demişdi ki, bu gün ev işləri ilə özü məşğul olacaq, ona görə də bu gün o burada deyildi. Adama elə gəlir ki, hər şey bitdi.

– Sən kimsən? – deyə o, Yusifin ona sakitcə yaxınlaşıb arxasında dayandığını hiss edərək qeyri-ixtiyari dedi. Onun gözlərini görməmək üçün geri çönmədi. Salat doğramaq üçün götürdüyü bıçağı ovcunun içində bərk-bərk sıxdı. Qorxusu yox idi, amma sonradan əllərinin çox az titrədiyini xatırlayırdı.

Yusif arvadının əlindən bıçağı alıb masanın çəkməcəsinə qoydu.

– Sən çox yaxşı bilirsən mən kiməm, – ürək ağrısı ilə dedi. – Bilirsən ki, mən bunu eləməmişəm. Mən ona heç bir zaman toxunmamışam da. Onu tanımaq belə istəmirəm. Sən bunu çox yaxşı bilirsən, məni bəhanələr gətirməyə məcbur eləmə! Əgər mən günahkaramsa, qoy Allah mənim cəzamı versin!

– Niyə sən bunları məndən gizlətmisən? Niyə mən hər şeyi belə bilməli idim?! – deyə Olesya əlində tutduğu "gündəlik işlərin siyahı"sı olan vərəqi onun üstünə atdı. – Allah xatirinə, bizim uşağımız xəstədir və sən başımıza belə oyun açırsan! İndi mən nə edim?!

– İnan, – deyə Yusif boğuq səslə dilləndi və başını əlləri arasına alıb oturdu. – Sən mənə inanmalısan, Olesya. Yoxsa biz bir yerdə ola bilmərik.

O, bir anlıq donub qaldı və yavaş-yavaş ərinə tərəf döndü:

– Bilirəm, – başqa bir səslə dedi. – Mənim sadəcə zamana ehtiyacım var... O qadını sənin yanında təsəvvür etməmək üçün zamana...

– Necə istəyirsən, – deyə o ayağa qalxdı. – Biz hər ikimiz yaxşı başa düşürük ki, bu, belə davam edə bilməz. Mən bir neçə aylıq gedirəm. Dünən dostumla danışmışam, gedib Polşada işləmək imkanı var. Kotec tikirlər. Çərşənbə günü yola düşürəm.

– Nə vaxt bu qərara gəlmisən? – deyə Olesya sakit səslə soruşdu.

– Nə fərqi var? – deyə Yusif kədərlə gülümsədi. – Səidin müalicəsi üçün pul qazanaram, biz də bir-birimizdən bir müddət uzaq qalarıq. Bu, bizim hər ikimizin xeyrinə olacaq.

Çərşənbə günü sübh tezdən o, evdən çıxdı. Uşaqlar hələ yatmışdı. Hər zamankı kimi Olesya ərini qapının ağzına qədər yola saldı. O isə vidalaşanda onu öpdü. Olesya onun arxasınca qapını bağladı və yalnız onda nə elədiyini anladı. Sanki hər şey qaydasındadır, sadəcə onlar bir yerdə deyillər. O, pul qazanmağa gedib. Yusif, sadəcə bir müddət onun yanında olmaycaq.

Xeyir, bu o qədər də sadə bir iş deyil. Olesya bir anlıq ərinin arxasınca qaçıb onu evə gətirmək, ona inanmaq istədi, amma hansısa bir qüvvə ona yerindən tərpənməyə icazə vermirdi. O, ətrafına göz gəzdirdi. Birdən mənzil ona boş göründü. Onu vahimə bürüdü. Dəqiqələr, saatlar, günlər ötüb keçirdi, bu boşluq isə yoxa çıxmırdı, od vurub yandırırdı.

"Yusif var idi?" – deyə o, tənhalığının ən dözülməz anlarında özündən soruşurdu. Bəzən Olesyaya elə gəlirdi ki, o, sadəcə onun xəyallarının məhsuludur, onu özü yaratmışdır.

Yalnız uşaqlar gerçək idi.

## ÜÇÜNCÜ FƏSİL

### Yaddeli

O, sanki dibi görünməyən dərin bir quyuya baxırdı. Gözləri artıq qaranlığa öyrəşməli idi, amma Olesya bir an olsun belə, vərdiş elədiyi dünyasının uçduğunu və üç uşaqla ərsiz – tək qaldığını etiraf etmirdi… Yusif ölər, amma belə bir şeyin baş verməsinə icazə verməz. Yox, o qayıdacaq. Bütün bunlar başlamamış bitən pis yuxudur. Yusif indi qapını döyəcək, o açacaq və hər şey əvvəlki kimi olacaq. Qapının zəngi isə susurdu. Heç kim qapını döymürdü və heç kim üçün də qapı açmaq lazım deyildi. Özün haqqında ən dəhşətli şeyləri fikirləşmək və onları özündən uzaqlaşdırıb hər şeyi yenidən təsəvvür etmək adamı dəli edə bilər. Birdən o həmişəlik gedər? Doğrudanmı, onun uşaqları atasız böyüyəcək?! Onun özü isə uzun illər səssiz-səmirsiz gözlənti içərisində donub qalacaq. Qapının arxasındakı ən xırda səs-küy belə onun ürəyini riqqətə gətirəcək. Hər telefon zənginə diksinəcək. Hər gün küçələrə axışan izdiham arasında günlərin bir günü sadəcə evə qayıtmayan qara gözlü bir kişini axtaracaq.

**Olesyanın xatirələrindən:**

*…Soyuq qış səhəri idi. Saat səkkizə on beş dəqiqə işləyirdi. Sanki mənim üçün zaman və məkan dayanmışdı. Mən əbədi olaraq Yusifin getdiyi həmin sübh çağında ilişib qalmışdım. Qeyri-ixtiyari ev işləri ilə məşğul olurdum, (adətim üzrə bütün ailə üçün) səhər yeməyi hazırlayırdım, Leyla və Əlini bağçaya aparırdım, özüm isə Səidin yanına xəstəxanaya gedirdim. Uşaqlar özlərini uşaq kimi aparırdılar – səs-küy salır, şıltaqlıq edir, çörək və yulaf əzməsindən at fiqurları düzəldir, tullanıb-düşür, südü ətrafa sıçradırdılar. Elə bu da məni ərim haqqındakı düşüncələrdən uzaqlaşdırırdı. Mən*

*Allaha min dəfə şükür edirəm. Nə yaxşı ki, elə indicə və buradaca dəli olmamaq üçün başımı qatacaq kifayət qədər qayğılarım var. Uşaqlar mənim xilaskarım idi. Onların heç bir şeydən xəbərləri yox idi. Heç mən də onların aydın səhərlərinə qara buludlar endirmək istəmirdim. Əlbəttə ki, bu, sonsuza qədər davam edə bilməzdi...*

*– Maşın ilə atam hardadır? – deyə mən onları ictimai nəqliyyat dayanacağına gətirərkən Əli çox qayğılı bir şəkildə soruşdu. – Atamı istəyirəm!..*

*Leyla elə həmin dəqiqə qardaşının sözlərinə dəstək oldu. Onların hər ikisi də nə isə baş verdiyini hiss edirdi. Mənə dayanacaqdaca öz tələbləri ilə "konsert" durğuzdular: "Biz atamızı istəyirik!" Ətrafdakı insanlar çönüb bizə baxırdıları. Sübh tezdən yoldan ötən insanlar üçün mən öz uşaqlarının şıltaqlıqlarının öhdəsindən gələ bilməyən analardan biri idi.*

*Mən heyrət içərisində donub qalmışdım. Axşam onlara dondurma alacağıma söz verərək uşaqları sakitləşdirdim. Elə onda da mən ataları haqqında danışıb hər şeyi onlara izah edəcəm. Avtomobilimiz Texniki Xidmət Mərkəzində idi. Təmir edən Yusifin dostu mənə avtomobilin tezliklə hazır olacağını bildirdi. Yusif haqqında bir kəlmə də danışmadı, sadəcə uşaqların yanına qayıtmağımı tövsiyə edib avtomobilin boyası quruyan kimi onu gətirib həyətə qoyacağını dedi. Bir qəpik də pul götürmədi. Buradakı azərbaycanlıların hamısı belə idi, bir-birinin arxasında dağ kimi dururdular.*

*Uşaqlara dedim ki, ataları Səidə pul qazanmaq üçün bir aylıq ezamiyyətə gedib. Ola bilsin ki, bu, bir neçə ay davam edə, hələ məlum deyil. Məlum olan kimi o, mütləq zəng vuracaq. Bir müddət sonra özümü məşğul göstərərək gözlərimi yayındıra-yayındıra uşaqlara danışdığım hekayənin arasına Yusifin qəfil getməsi ilə bağlı bir qədər həqiqət payı olan xırda detallar əlavə edərək anama da danışdım. Son zamanlar anamın ürəyi xəstə idi və mənim onu narahat etməyə ixtiyarım yox idi. Bütün olub-bitənləri yalnız Valeriyaya etiraf edə bildim. Rəfiqəm təxminən iyirmi dəqiqə sonra*

*mənim yanıma qaçıb gəldi və biz ikimiz mətbəxə çəkilib uzun-uzadı danışdıq.*

*– Sən onu necə buraxa bildin? – deyə Valeriyanın ilk sualı bu oldu.*

*– Bilmirəm, – deyərək mən ağır-ağır nəfəs aldım. – Bizə pul lazımdır… həm də biz bir-birimizdən bir müddət ayrı qalmalıyıq. Onsuz mənə çox çətindir, mən onsuz özümə yer tapa bilmirəm, amma başqa cür də mümkün deyildi, başa düşürsən?*

*– Sən elə bilirdin ki, vəhşi bir heyvanı əhilləşdirmisən, o da əsl daxili mahiyyətini göstərmək üçün bir fürsət gözləyirdi? – deyə rəfiqəm kinayə ilə soruşdu. – Olesya, əzizim, özünə gəl! Sən özün inana bilirsən ki, o sənə xəyanət edə bilər? Lənət şeytana, sən nə eləmisən?*

*– Mən özümü itirmişdim. İndi bizim hər ikimiz üçün çox çətindir. Nə isə dəyişkənlik baş verib… Bir insanı həyatından çox sevməməlisən, yoxsa qəlbinin ağrısından dəli ola bilərsən.*

*– Bu sözləri səndən eşitdiyimə inanmıram. Mənim xoşbəxt və həyat dolu Olesyam necə olub? Bu, sən deyilsən!*

*– Mən deyiləm? Deyəsən, indi tərk olunmağın – az qala xəyanətin nə demək olduğunu anlayıram, – bu gün mən də özümü tanımıram…*

*Valeriyanın rəngi qaçdı, donub qaldı:*

*– Biz nə vaxtsa bu haqda danışmışıq?*

*İndi təəccüblənmək mənim növbəm idi:*

*– Sən də bunu xatırlayırsan? Axşamçağı sənin emalatxananda... "Bütün dövrlərin ölməz məhəbbəti" fotolayihəsində... hələ o zaman sən qorxmuşdun da…*

*– …Göz dəyər deyə? – deyərək Valeriya sözünə davam etdi. – Elə bilirdim, mən bunu yuxuda görmüşəm. Doğrudanmı, bu, həqiqətən baş verib?*

*– Bilmirəm, mənə elə gəlirdi ki, mən bunu yuxuda görmuşəm…*

*Valeriya eyvana çıxıb siqaret yandırdı. O layihə üçün sonradan o, hansısa bir incəsənət mükafatı almışdı. Deyəsən, bu, onu*

*o qədər də çox sevindirməmişdi. Bir neçə dəqiqə sonra nikotinin acı qoxusu ilə otağa qayıdıb masanın üzərindən telefonu götürdü:*

*– Bilirsən nə var? – deyə o, qəfildən dedi. – Əgər sən edə bilmirsənsə, mən özüm ona zəng vuraram.*

*Mən telefonu götürdüyü əlindən yapışıb onu dayandırdım – heç bilmirəm niyə.*

*– Lazım deyil, Valeriya. Yusif istəsə, qayıdacaq.*

*– Belə olmaz, Olesya! – deyə rəfiqəm qəzəblə bağırdı. – Biz nəsə eləməliyik. Əgər Yusif... qayıda bilməsə?*

*– Yox, – deyə mən ayağa qalxıb bir neçə addım ataraq pəncərənin ağzında dayandım. – Mən bilirəm ki, o, bunu etməyi istəyəcək və bacaracaq. Sadəcə onun da zamana ehtiyacı var. Yusif qayıdacaq. O, söz verib.*

*Bütün baş verənlərə baxmayaraq, mən inanmaq istəyirəm. Hardasa qəlbimin dərinliklərində mən ümidsizcəsinə Yusifə inanmaq istəyirəm.*

Zaman keçirdi, amma onun itkilərinin ağrısı keçmirdi. Bu ağrı yerini hətta gündəlik qayğılara da vermirdi. Olesya sanki keyimişdi. Gündüz uşaqlarla məşğul olurdu, xəstəxana ilə evin arasında parçalanırdı, bir dəqiqə oturmurdu. Axşam isə bütün işləri bitəndən sonra ayağını uzadıb yatanda səhərə qədər kabus görürdü. Hər həftə Yusif karta Səidin müalicəsi və ailənin gündəlik qayğıları üçün pul göndərirdi. Bu isə onu qorxudurdu. Ona elə gəlirdi ki, o, əri ilə olan həyatını bu pullara dəyişib. Yusifin elə indicə onun və uşaqlarının yanına qayıtmasını hər şeydən çox istəyirdi, amma bunu onun özünə deyə bilmirdi.

Əri hər gün zəng vururdu, onlar danışırdılar, lakin onların söhbətləri daha əvvəlki kimi deyildi. O uşaqları soruşurdu, bu isə Səid haqqında ona danışırdı, sonra dəstəyi Leylaya və Əliyə verib onların atalarından nə vaxt evə gələcəyini soruşmaqlarını eşitməmək üçün otaqdan çıxırdı. Doğrudan da, nə vaxt? Olesya özünü inandırırdı ki, o, səbrlə gözləməlidir. Gərək ağrı ötüb-keçə. Və o göz-

ləyirdi. Əvvəllər o, Yusiflə eyni yuxunu görürdü. İndi isə onların ortaq yuxusunu o, təkcə görürdü. Xatirələrlə yaşayırdı. O, yalnız həyətdə cənazəni görəndə özünə gəldi.

Birinci mərtəbədəki yaşlı qadın dünyasını dəyişmişdi. Səssiz və sakitcə. O, hələ dünən həyətə çıxmışdı, mart günəşindən zövq alırdı, radikulitindən şikayətlənirdi, havanın dəyişməsindən danışırdı, bu gün isə oyanmayıb, Tanrının dərgahına doğru yol alıb. Onun qoca, sarı pişiyi otağın içərisində gəzişirdi, çoxsaylı qonaqların ayağına dolaşırdı. Sanki öz sahibəsini oyatmaq üçün boğuq səslə fəryad edirmiş kimi miyoldayırdı, sonra isə cənazənin qoyulduğu masanın altında uzandı və bir daha oyanmadı, onsuz – sahibəsi olmadan burada qalmaq istəmədi…

Uşaqları və nəvələri gəlmişdi. Cənazəni dəfn edib getməyə hazırlaşırdılar. Alevtina Moiseyevnanın böyük qızı pilləkəndə Olesya ilə rastlaşdı. Salamlaşdı və özünü elə apardı ki, sanki anasının son ayları necə yaşadığını soruşurdu. Olesya bir anlıq ayaq saxladı, qadına diqqətlə baxıb xasiyyətinə uyğun olmayan sözlər söylədi:

– Bizim doğmalarımız əbədi deyillər. Sağ ikən onların yanında olmaq lazımdır, onlar olmayandan sonra gəlməyə ehtiyac yoxdur.

Alevtina Moiseyevnanın qızı bir anlıq özünü itirdi, ölümün özü kimi solğun və donuq olan bu qəribə gənc qadına heç bir söz demədi. Birinci mərtəbədəki evi satdılar. Orada həyat eşqi ilə dolu olan gənc bir ailə məskunlaşdı və əsaslı təmir işlərinə başladılar. Həyat öz fərqliliyi, axarı və qaçınılmaz hadisələri ilə davam edirdi.

Olesya adət etdiyi vərdişlərini dəyişmirdi. İndi o, hər gün həyətdəki sahibsiz itlərə yemək verirdi, çünki Yusif onları sevirdi. Əslində həyətin əksər sakinləri kimi o da itlərdən qorxurdu, amma ərinə bu haqda heç bir zaman deməmişdi. Nəhayət, o, daxilindəki qorxuya qalib gəldi. Yusifin xətrinə. Elə hey düşünürdü ki, evə qayıdıb sevimli quyruqlularını heç kimin yedirtmədiyini görəndə o, nə deyər? Hər gün nahardan sonra onlar üçün böyük bir qabda yemək aparır, özü isə uzaqda dayanıb onları seyr edirdi.

İtlər o saat Olesyanı üzük kimi dairəyə alıb ətrafında tullandılar, onu sıxışdırdılar (bu, onun xoşuna gəlirdi), sonra isə yeməyə cumdular. Hər dəfə o, itlərin sadiq görünüşlərində bir sualın lal kölgəsini görürdü. Başa düşürdü ki, küçə itləri onu qəbul edir, ona etibar edir, amma buna baxmayaraq, onlar öz əvvəlki sahiblərini gözləyir, hər gün səbrlə onu axtarırlar. Ala-toranlığa qədər onlarla birlikdə gözlədi, özünü isti və rahat evinə qayıtmağa məcbur edə bilmədi. Xatırlayanda ki, bu gün də Yusif evə gəlməyəcək və bu, onun günahıdır, yavaş-yavaş divar boyunca sürüşərək yerə çöküb səssizcə ağlamağa başladı. Onun itlərindən başqa kimsə onu yaxşı tanımırdı. Ağlayan qadını görən itlər yeməyi qoyub, dayanıb ona baxdılar.

O, sahibi olan və yaxşı bəslənmiş ev heyvanlarında heç bir zaman belə baxışları görməmişdi. Bu, insan baxışları idi. Orada acı təcrübə, gələcəyə inamsızlıq var idi. Soyuq və ac həyatın bütün qorxuları bu baxışlarda bir-birinə qarışmışdı. Eyni zamanda yaxınlıqlarında həyatın ağır zərbələr endirərək döydüyü insanlara şəfqət hissi heyrətamiz və ürəyi riqqətə gətirəcək qədər həyəcanverici idi…

– Mən onsuz necə edim?.. – deyə Olesya onlardan soruşdu. Küçə itləri bu sualın cavabını bilmirdilər. Onlar sadəcə əyninə böyük olan köhnə kişi gödəkcəsi geyinmiş bu zərif qadına tərəf boylandılar, sədaqətlə kədərli, göz yaşlarına qərq olmuş gözlərinin içinə baxırdılar. Belə anlarda Olesyaya elə gəlirdi ki, Yusif özü haqqında ona xəbər verir. O, itirdiklərinin ağrısı qəlbində sakitləşənə qədər itləri qucaqlayıb onların yanında oturdu. İsti göz yaşları onların kələ-kötür xəzləri arasında diyirlənirdi. O, bu göz yaşlarını qəlbinin dərinliklərində yumağa çevirib ehtiyatla yatırtdı. Növbəti günə qədər. Doğma bir insan həyatımızdan çıxıb gedəndə onun sevdiyi hər şey bizə sonsuz əziz və doğma görünür. Axı o, bununla özündən bir parça qoyub gedib…

Bir dəfə Olesyanın gözü birinci mərtəbədəki evin pəncərəsinə sataşdı. Burada qoca Alevtina Moiseyevna ömrünün son illərini

yaşamışdı. İndi isə burada hələ uşaqları olmayan zəngin gənc bir ailə məskunlaşmışdı.

Pəncərələr susurdu. Alevtina Moiseyevnanın zamanında oradan sarı pişiyinin oynamağı çox sevdiyi qızılı qotazlı zamanla solğunlaşan tünd-yaşıl rəngdə pərdələr asılardı. Bu pərdələr ona keçmiş opera müğənnisi olan nənəsindən miras qalmışdı. İndi onun mənzilinin pəncərələri evin yeni sahiblərinin zövqünə uyğun olaraq müasir ikiqat şüşəli, zolaqlı jalüzlərlə ətrafa işıq saçırdı. Yusifin getdiyindən nə qədər vaxt keçib? Necə oldu ki, ətrafdakı hər şey bu qədər tez dəyişdi?

Olesya günləri saymırdı. Sadəcə inanmağa çalışırdı. Sanki birinci mərtəbədəki o nənə hər şeyi xatırlaması üçün onu bir anlıq real zamana və məkana gətirdi: ümidini itirmə. Sonuncu dəfə onlar söhbət edərkən nənə demişdi ki, onların həyatında hər şey yaxşı olacaq. Eyni zamanda, məsləhət gördü ki: “Onun əlindən bərk tut, qızım! Heyvanları sevən insan qəddar adam ola bilməz”…

Ətrafdakı hər şey pıçıltı ilə, danışaraq, hətta bağıra-bağıra onu xatırladırdı. Bir dəfə o, axşam yeməyinə ərzaq almaq üçün supermarketin yanında dayanıb maşından endi. Az qala qara kostyum geyinmiş iri cüssəli, hündür boylu, sarışın gənc bir oğlanla üz-üzə dəymişdi. Olesya hiss etdi ki, oğlanın təxminən 19-20 yaşı var, amma o, var-gücü ilə yaşından böyük görünməyə çalışır. Gülümsədi. Üzr istədi. Gənc oğlan isə nəyə görəsə ötüb keçmədi, tilsimlənmiş adam kimi gözlərini zilləyib ona baxdı, sonra baxışlarını çevirib onun avtomobilinə baxdı.

– Mən sizi tanıyıram! – deyə nəhayət, o dilləndi. – Siz Yusifin həyat yoldaşısınız, elə deyil? Mən sizi avtomobilinizdən tanıdım.

**Yad adamın söhbətindən:**

*...Mənim adım Oleqdir. Məsələ burasındadır ki, mən Yusiflə birlikdə bir ildən artıq gecə klubunun mühafizə xidmətində işləmişəm. Mən onun tabeçiliyində idim. Bilirsiniz, mən onu ilk dəfə*

*görəndə ondan yaxşı heç nə gözləmirdim. O, spirtli içki qəbul etmirdi. Düzdür, mühafizə xidməti zamanı biz heç birimiz içki içmirik, amma işdən sonra bunu bizə kim qadağan edir ki? O müsəlmandır, hamı yaxşı bilir ki, onların öz ənənələri var. Hələ üstəlik də peşəkar idmançıdır, azərbaycanlıdır…*

*Mən, həqiqətən də, düşünürdüm ki, indi o hər yerdən pul qopartmağa, reketlik etməyə çalışacaq. Lakin zamanla Yusif haqqında olan fikirlərim dəyişdi. Normal oğlan idi. Klubda hər zaman sərxoş "kavalerləri" artıq hərəkət etdikləri zaman qızların tərəfini tutardı. Bizə başqalarının işinə qarışmamağı tapşırmışdılar, lakin o, buna məhəl qoymurdu. Hətta yad olmasına baxmayaraq, o, gözü önündə bir qadının təhqir olunmasına dözə bilmirdi. Hətta kiminsə buna laqeyd qalmaması o qızların özlərini belə heyrətləndirirdi… bir dəfə də olsun, kimsəyə güc tətbiq etməyib, hətta işi üçün kimsəyə əl qaldırmayıb, heç kimin heç nəyini götürməyib. Sonuncusu isə daha çox təccüblü idi. O, oğurluq etmirdi. Təsəvvür edirsiniz, oğurluq etmirdi! İşdən sonra isə evə tələsirdi. Deyirdi ki, "mənim arvadım, uşaqlarım var. Onlar mənim hər şeyimdir". Əvvəlcə mən elə bilirdim ki, o, azərbaycanlı qızla evlidir. Eşidəndə ki, bu bizim qızdır, daha çox təəccübləndim. O, həyat yoldaşını özü ilə bir tuturdu, hətta özündən belə artıq hesab edirdi. Ona gündə on dəfə zəng edirdi. O, Yusif üçün bu qədər dəyərli idi. Uşaqlar haqqında isə o, saatlarla danışa bilərdi…*

*Alina ilə o məsələyə gəlincə isə, heç bilmirəm o qız onunla niyə belə rəftar etdi. Bir şey aydın idi ki, Yusif onun üçün təsadüfi "qurban" deyildi. O, sadəcə "qara"ları sevirdi. Son bir neçə ay yenə elə gecə klubunun mühafizə xidmətindən Marat adlı gənc bir türklə görüşürdü. Marat ona, həqiqətən, aşiq olmuşdu, hətta onun üçün hamilə arvadını belə tərk etmişdi. O isə bir qədər əyləndikdən sonra bu gənc oğlanı öz yatağından qovmuşdu. Alinanın həyatında taleyi və ürəyi qırılmış onlarla "Maratlar" var idi… Deyirdilər ki, o, hətta falçıların da xidmətindən yararlanırdı. Bunun yalan, ya doğru olduğunu bilmirəm, amma o oğlanların həyatı ondan sonra*

*dəhşətli olurdu. Alina sanki onları dəli edirdi, onun qarşısını heç nə almırdı. Onu nəyə görəsə subay oğlanlar maraqlandırmırdı. O, yalnız evli kişiləri istəyirdi. Onun naminə başqa qadınlar tərk edildiyi zaman bu ona zövq verirdi…*

*Elə o, Yusifi də beləcə tora salmağa çalışırdı. Onun o qadınla heç bir zaman görüşməyə can atmadığının şahidiyəm. Əksinə, o qadın onun arxasınca qaçırdı. Yusifin ona qarşı heç bir hissinin olmadığını görürdü və bu da onu daha çox qəzəbləndirirdi. Hər gün bizim kluba gəlirdi. Heç kimsədən utanmadan onu hər yerdə izləyirdi. O, çarəsiz idi, heç nə edə bilmirdi, axı o, klubun sahibinin qızı idi. Dediyim kimi, o, heç bir vaxt qadınları təhqir etmir və alçaltmır. Həmin axşam Alina Yusifi qapının kandarında yaxaladı. Uşaqlar yalan deməyə mənə imkan verməz. Biz onun Yusifi öpmək istəməsinin və Yusifin isə buna icazə verməməsinin şahidi olduq. O zaman Alina dedi:*

*– Məni öpmək istəmirsənsə, heç olmasa mənə bir ad ver. Eşidirsən, mənə ikinci müsəlman adı verməyini istəyirəm!*

*Yusif onu vurmamaq üçün özünü güclə cilovlayırdı. Özünü ələ alıb ona başa salmağa çalışırdı ki, belə şeylərlə zarafat etmək olmaz. İndiki kimi xatırlayıram, o dedi:*

*– Belə olmaz. Mənim sənə ad verməyə ixtiyarım yoxdur. Sən mənim arvadım deyilsən. Əgər sizin əriniz müsəlman olarsa, bunu yalnız o edə bilər.*

*– O zaman mənimlə evlən.*

*– Mən artıq evliyəm.*

*– Nə olsun? – Alina gözlərini vəhşi pişik kimi qıydı. – Siz ki müsəlmansınız, nə qədər istəsəniz, o qədər arvad ala bilərsiniz. Mən etiraz etmirəm…*

*Bu artıq Yusifi hövsələdən çıxardı.*

*– Mənim ancaq bir arvadım olacaq, başa düşürsən? Mən artıq onu seçmişəm. Mənim uşaqlarım var. Mənim ailəmdən uzaq dur, eşidirsən?*

*Deyəsən, Alina, nəhayət, ondan incidi, çünki üzünü çevirib getdi. Həmin axşam klubda çoxlu insan var idi. Bizim də işimiz çox idi. Gecə yarısından xeyli keçmiş kimsə Yusifin avtomobilini dəyənəklə əzmişdi. Bir neçə saat onun "Toyota"sını əzən vəhşini axtarmağa sərf etdik. Bu, Alinanın keçmiş sevgilisi Marat idi. Onun başı Yusifə elə qarışmışdı ki, keçmiş sevgilisinin onu hər gün izlədiyini və əlbəttə ki, onu qısqandığını hiss etməmişdi. Aydın məsələ idi ki, bu dəfə oğlan ciddi idi. Alina çox düşünmədi. O, dayanacaqda dayanan qırmızı "Toyota"nı əzərsə, Marata geri dönəcəyini vəd etdi. Marat hər şeyi onun istədiyi kimi etdi. Təəssüf ki, o belə bir işə əbəs yerə qol qoymuşdu.*

*Yusif onunla kişi kimi söhbət etmək üçün yaxaladı. Həmin gecə biz ilk dəfə gördük ki, o, necə bərk qəzəblənə bilir. Biz bu məsələyə qarışmadıq. İndi Marat xəstəxanada yatır. Polisə isə ifadə verməkdən imtina edir. Alina isə hansısa mulatın ağ "Mersedes"inə oturub oradan uzaqlaşdı. Yusifi elə həmin gün də işdən qovdular. Siz bilmirdiniz ki?..*

Olesya bilmirdi. Oğlan artıq-əskik danışaraq səhv etdiyini başa düşdü, o saat onunla vidalaşıb ayrıldı (işə tələsdiyini söylədi). O isə maşına oturub eşitdiklərini düşündü. Hardasa qəlbinin dərinliklərində bilirdi ki, Yusifin heç bir şeydə günahı yoxdur, amma yenə də o, bunu eşitməli idi. O isə susurdu. Məşhur qafqazlı qüruru ona nəyisə izah etməyə və özünə bəraət qazandırmağa icazə vermirdi. O, ona heç nə demədi, sadəcə etməli olduğunu etdi. İndi isə o, özünü günahkar hesab edirdi.

Axı o, bir qafqazlı üçün ən dəhşətli şeyin şərəfsizlik olduğunu bilirdi. Hətta o günahkar olmasa belə hər hansı bir xoşagəlməz hadisədə onun adının hallanması ömrünün sonuna qədər silinməyən rüsvayçılıqdır. Məgər onlar bir-birlərini yeni tanıyırlar? Təxminən yeddi il ötməsinə baxmayaraq, o hələ də onun xasiyyətini öyrənə bilməmişdi. Onun doğulduğu yerlərdə çox sevmələrinə baxmayaraq, kişilər qadınların qarşısında özlərinə bəraət qazandırmağa

çalışmırlar. Kişi dedi – vəssalam, nöqtə. Onlar gündə on dəfə üzr istəmir, eyni şeyi dəfələrlə təkrarlamır və qadınla mübahisəyə girmirlər. Bu, onun üçün qeyri-adi idi. Olesya belə münasibətə hələ də hazır deyildi. O, yadların sözünə inandı, ona isə yox. Qorxdu. Kin saxladı.

O isə çıxıb getdi. Elə onun getməsi də onların nikahını xilas etdi. Bu ayrılıqdan onların ürəyi parçalansa da, özlərini bir-birindən ayrı təsəvvür etməsələr də, hər ikisi tək qalmalı idi. Vaxt gəlib yetişdi.

Həmin axşam o, özü Yusifə zəng edib beş kəlmə söz dedi:

– Evə qayıt. Mən səni gözləyirəm.

**Olesyanın xatirələrindən:**

*Yusif ayın axırı qayıdacaq. Mən Oleqi pis vəziyyətdə qoymamaq üçün onunla danışığımı Yusifə demədim. Yalnız "heyvanları sevən adamın pis insan olmayacağını" deyən nənə haqqında ona dedim. Onun ölümünü eşidəndə Yusif çox kədərləndi. Ona görə ki, o, heç bir zaman qəddar olmamışdı. Tez özündən çıxan, bəzən hövsələsiz idi, amma qəddar deyildi. O, sadəcə bir çox insanlar kimi yaşı artdıqca dəyişilməsi mümkün olmayan şeylərdən uzaqlaşmağı, düzəlməyən şeylərlə barışmağı, özü ilə dünyanın bütün təhlükələri arasında sədd qurmağı öyrənən insanlardan deyildi... Nəyə görəsə, bütün bunlardan kənarda dayana bilmirdi. O, bunu bacarmırdı.*

*Onun belə bir "sədd"i yox idi, mənim özünümüdafiə instinktim də hər ikimizə yetmirdi. Ya bir növ fitri ədalət hissi inadkarlıqla onun başqasının ağrı-acısına laqeyd qalmasına mane olurdu, ya da uşaqlıq illərində gördüyü Qarabağ müharibəsi onu vəhşiyə çevirməkdənsə əsl insan olmasına zəmin yaratmışdı. Bunun nə olduğunu bilmirəm, amma bir onu bilirəm ki, Yusif heç vaxt görməzlikdən gəlib gözlərini yana çevirməyi və həyatın görünməyən tərəflərinin şahidi olmamaq üçün addımlarını sürətləndirib uzaqlaşmağı öyrənmədi. Beləlrəri bəzən uçuruma çox asanlıqla düşə bilirlər, amma heç vaxt*

*onlar xəyanət etmir, yalan danışmır və alçalmırlar. Bilirəm ki, beləsi ilə yaşamaq çox çətin olacaq, həm də eyni zamanda başa düşürəm ki, heç bir zaman sakit, səbrli birinə aşiq ola bilməzdim…*

*…Biz qadınlar kişilərə deyil, onların hərəkətlərinə aşiq oluruq.*

Olesya və Yusif 2004-cü ilin yazında tanış olmuşdular. O hadisəni yanlışlıq adlandırmaq çətindir. Onların bu "tanışlığı" yalnız bir baxışla olsaydı, yəqin onlar bir-birlərinə ilk baxışdanca aşiq olardılar.

Həmin ilin aprel ayı Olesya üçün əlamətdar idi – o, universiteti bitirib diplom işi yazırdı. Ona görə də valideynləri ona kompüter almışdı. O, kompüterin dilini asanlıqla öyrənmiş və saatlarla masanın arxasından ayağa qalxmırdı. Həmin gün onlara uzun müddət gözlədikləri internet xətti çəkdilər. Ona görə də Olesya bir müddət diplom işindən uzaqlaşıb internetdə olan maraqlı məlumatlara baxmaq qərarına gəldi. Qarşısına çıxan ilk forum qrupuna daxil oldu. Səhifədə tanımadığı insanların söhbəti ona o qədər maraqlı gəldi ki, o da bu söhbətə qoşulmaq qərarına gəldi. Elə təzəcə qeydiyyatdan keçmişdi ki, onun şəxsi poçtuna çoxlu sayda "xoş gəldin" mesajları daxil oldu. O, bunların hamısına cavab verir, müxtəlif ölkə və şəhərlərdən insanlarla tanış olur, onların şəkillərinə baxırdı. Zaman quş kimi uçdu. Bir də baxdı ki, artıq gecə saat birdir. O artıq yeni dostları ilə sağollaşıb oradan ayrılmaq istəyəndə Conni adlı istifadəçidən qısa bir məktub aldı: "Salam. Necəsən?"

Olesya onun profilinə baxıb gülümsədi – oğlanın avatarı yaraşıqlı Hollivud ulduzu Conni Depp idi. Onun on altı yaşı və (əksəriyyətini qızların təşkil etdiyi) çoxlu dostları var idi. O, Azərbaycanın paytaxtı Bakıda yaşayırdı. Əlbəttə ki, əgər ona inanmaq olarsa... Axı, sosial şəbəkələrdə kimi desən, tapmaq olar – başqalarının gözəl adlarını və okeanın o üzündəki ulduzların şəkillərini götürüb yeniyetməlik dövrünə xas olan üzlərinə çıxan çivzələri və ya qocalığın saldığı qırışları gizlədərək özlərinə yeni həyat hekayəsi yazır və onu dünyanın hər tərəfindən olan özləri kimi xəyal-

pərəst virtual dostları ilə bölü°ürlər. Olesya isə təcrübəsiz olduğundan öz adı ilə qeydiyyatdan keçib şəklini qoymuşdu. O sonradan bildi ki, istifadəçilərin əksəriyyəti profillərinə kinofilmlərin, romantik peyzajların, pişik, dovşan, dələ, çizgi filmi və ya mifik qəhrəmanların rəsmlərini qoyur, virtual macəralar axtarmaq üçün özlərinə qəribə adlar seçirdilər. Conni kimi…

O, bir neçə dəqiqə gözlədikdən sonra başından etmək üçün nəzakətlə bir neçə kəlmə ilə ona cavab verdi. On altı yaşlı yeniyetmə onun nəyinə lazım idi? Onlar nə haqda danışacaqdılar? Conni isə deyəsən, onun könülsüz danışdığını anlamadı. O, hər gün onun işləri ilə maraqlanır, ona xoş sabahlar, uğurlu gün, xeyirli axşamlar arzulayan qısa mesajlar göndərirdi. Bəzən də Bakının mənzərəli yerlərinin şəklini göndərərək ona öz şəhərindən danışırdı… Olesya onunla ünsiyyət qurmaqdan imtina etmirdi. Bu, adi dostluq münasibəti idi. Beləcə, bir neçə həftə davam etdi. Bir gün Olesya on altı yaşlı oğlandan qəribə bir məktub aldı:

*"Salam. Xəbərin var, sən çox gözəlsən? Mən uzun müddətdir ki, buna Səni inandıra bilmək üçün necə deyəcəyimi düşünürəm. Səni görəndən özümə yer tapa bilmirəm, ancaq Sənin haqqında düşünürəm. Bu gün yenə yuxuda Səni görmüşəm. Hər dəfə Sənin şəklinə baxanda (boş vaxt tapan kimi baxıram) ürəyim titrəyir, donub qalıram. Bu, hələ şəkildir. Gör əgər biz həyatda görüşsək, mənə nə olar?!...*

*Yəqin Sənə birinci dəfə deyil ki, belə sözlər deyirlər. Mən orijinal olmağı bacarmıram. Mən şair olsaydım, Sənə minlərlə şeir yazardım. Amma mən şair deyiləm və başqalarının şeirlərini də oğurlamaq yaxşı əməl deyil. Başa düşürəm ki, belə bir qızın mənim hisslərimə qarşılıq verəcəyini düşünmək axmaqlıqdır, amma Səndən bir şey xahiş etmək istəyirəm. O dəqiqə də mənim ümidimi əlimdən alma, hisslərimə gülmə. Sadəcə düşün və yaz... Biz ünsiyyətimizi davam etdirə bilərikmi? Yazarsan? Məsələn, sabah və ya bir neçə gündən sonra. Mən gözləyərəm. Yaxşımı, əzizim?"*

Olesya qızğın iş gününün içərisində bir qədər boş vaxt tapıb qəhvəyi dəri örtüklü ailə albomunu açır. Fotoşəkillərin yapışdırıldığı qalın vərəqlərin arasından Conninin yazdığı həmin vərəqi tapır. On altı yaşlı bir oğlandan belə bir məktub aldıqdan sonra necə qorxduğunu xatırladı. Zamanla hər şey aydın oldu… Gülümsədi. Conni yanılmışdı, ona belə sözləri deyən olmamışdı, heç o özü də kimsəyə belə sözlər deməyə imkan verməmişdi. Onun isə bu dəliqanlı məktubunu dəfələrlə oxumuşdu, printerdən çap edib yenidən oxumuşdu və saxlamışdı. Qoy onun xatirələri canlansın…

**Yusifin xatirələrindən:**

*2004-cü ildə Azərbaycanın yığma komandasının tərkibində Yunanıstana – Olimpiadaya getməyə hazırlaşırdım, lakin yarış ərəfəsində məşqdə sol qolumdan ciddi zədə aldığım üçün evdə qalmalı oldum. Adətən, bu cür xəsarətlər üçün reabilitasiya müddəti bir neçə həftə çəkir, amma məndə yuxarı ətrafda radial sinirlər sıxılaraq ağırlaşma baş verdiyindən müalicə iki ay çəkdi. Afinadakı Olimpiadaya isə mənim sparrinq-partnyorum getdi. Uzun müddət mən özümə gələ bilmədim. Bu yarışı neçə ildir ki, gözləyirdim. Dayanmadan məşq edirdim. Qızıl medal alacağıma əmin idim, lakin bir dəhşətli gün bütün ümidlərimin üzərindən xətt çəkdi. O zaman həyatın bunun əvəzində mənə hansı sürpriz hazırladığını bilmirdim. Axı həyatda təsadüflər olmur…*

*Məni təsəlli etmək üçün çoxlu qohumlarımız və dostlarımız durmadan bizə qonaq gəlirdilər. Onların arasında zarafatla Conni Depp adlandırdığımız əmim oğlu Cavanşir də var idi. Zahirən, o, heç də həmin amerikalı aktyora bənzəmirdi, amma onun kimi xarizması var idi: on altı yaşı olmasına baxmayaraq, qızlarla böyük kişi kimi danışır, onlarla bədnam bir ürək oğrusu kimi davranırdı. Deyirdi ki, qadınların diqqətini öz üzərinə çəkmək üçün o qədər də çox əziyyət çəkmir, ən əlçatmaz qadını belə ram edə bilir. Yaxşı*

*ki, onun valideynlərinin bundan xəbəri yox idi, yoxsa onun həddən artıq ciddi problemləri ola bilərdi...*

*O illərdə mənim iyirmi bir yaşımın olmasına baxmayaraq, daimi məşqlərdən və idman titullarının arxasınca qaçmaqdan ciddi münasibətdə olduğum heç kimsə yox idi. Heç qeyri-ciddi də yox idi. Universitet və idman (atam məni çempion görmək arzusunda idi) bütün zamanımı alırdı. Toydan əvvəl illərlə görüşmək və ya sevgilimizlə bir yerdə yaşamaq adətimiz deyil. Bir qayda olaraq, valideynlər oğullarına gəlin axtarırlar, amma gənclər bir-birinin xoşuna gəlməsə, onları evlənməyə məcbur etmirlər. Əlbəttə ki, valideynlərin vasitəçiliyi olmadan da tanış ola bilərsiniz, ancaq gərək ailə mütləq bu evliliyə razılıq versin. Böyüklərə hörmət etmək və onları dinləmək bizim üçün qanundur. Böyük qardaşım İbrahim (o da döyüşçüdür) bir neçə il əvvəl valideynlərimizin məsləhət gördüyü qızla ailə qurmuşdur. O qızın adı Mirvaridir. Həqiqətən, çox gözəl qız idi, ailəsi də hörmətli ailələrdən biri idi. Əlbəttə ki, ərə gələndə bakirə idi. Mirvari ilə İbrahimin iki oğlu oldu – Mustafa və Kərim. Qardaşım onunla evləndikdən sonra çox xoşbəxt oldu.*

*– Yusif, səndə də belə olacaq, – böyük qardaşım mənə deyirdi. – İnstitutu bitirərsən, işə girərsən və Ulduza elçi düşərsən. Sən, əlbəttə ki, şahzadə deyilsən, amma gəl ümid edək ki, sənə etiraz etməzlər, – deyə zarafat etmək üçün əlavə etdi.*

*Ulduz valideynlərimin göz qoyduğu qonşu qızı idi. O da böyük, hörmətli bir ailədə böyümüşdü. Universitetdə ingilis dilini öyrənmişdi. Daima gözəllik yarışlarının iştirakçısı və birincisi olurdu. Qız deyildi, qızıl idi!*

*Deyəsən, mən o "qızıl qız"ın xoşuna gəlirdim. Hər dəfə biz çoxmərtəbəli binamızın pilləkənlərində, həyətdə, yaxud da şəhərdə təsadüfən qarşılaşanda o, qızarırdı, utandığından baxışlarını aşağı dikirdi. Hamı deyirdi ki, Ulduz mənə aşiq olub. Bilmirəm. Əslində o özü də gözəl bir şəkil kimi, ulduzlu gecə və ya yaz çiçəyi kimi mənim xoşuma gəlirdi, amma hər dəfə onu görəndə ürəyim sürətlə döyünmürdü, riqqətə gəlmirdi. Niyə məndə ona qarşı şe-*

*irlərdə mədh edilən hisslər yox idi? Mənə nə olub? Heç nə başa düşmürdüm...*

*Görəsən, doğrudanmı, Tanrının insanlara bəxş etdiyi təzə, rəngsiz, hətta bütün duyğulardan ayrılan, bir qədər də laqeyd ən gözəl sevgi hissi belə olmalıdır? Görəsən, doğrudanmı, dahi şairimiz Fizulinin ölməz poeması olan "Leyli və Məcnun"u yazmağa sövq edən bu hisslər idi? Görəsən, doğrudanmı, az qala bütün Azərbaycanın duyğulu romanlarını oxuduğu müasir yazıçı Elçin Səfərli bundan ilham alıb? Əgər belə bir adi duyğulardan şah əsər yarada biliblərsə, o zaman onlar, ya həqiqətən qəhrəman kişidilər, ya da bütün zamanların və xalqların ən yalançı adamlarıdırlar.*

*Qəribədir ki, həmişə mən yuxuda başqa bir qızı görürdüm. Bəzən o, zamanından və yerindən asılı olmadan ortaya çıxırdı. İlk dəfə mən onunla uşaqlıq illərində qarşılaşmışdım. Bu, ermənilərlə müharibənin qızğın zamanında Dağlıq Qarabağda, mənim doğma şəhərim Fizulidə*[67] *baş vermişdi. Biz evimizi tərk edirdik. Ayrılarkən vidalaşacağımız tək bir şey var idi – evimiz... Bir neçə il əvvəl atam dağın ətəyində böyük ikimərtəbəli bir malikanə tikmişdi. Ətrafında isə çiçəkli bir bağ salmışdı. Yenicə tövlə tikməyə başlamışdı – biz cins atlar saxlamaq arzusunda idik. Bu, sadəcə yer üzündə bir cənnət idi. Bir anın içərisində bizim cənnətimiz cəhənnəm atəşinə qərq oldu.*

*Doğma torpağını ən son tərk edənlərdən biri mənim ailəm idi. Daha doğrusu, biz uşaqları Azərbaycanın daha təhlükəsiz bir yerinə apardılar, atam isə orada qalıb yerli özünümüdafiə dəstəsinə başçılıq edirdi. Sonradan anam da yaralılara yardım etmək, yemək*

---

[67] Yusifin anadan olduğu şəhərin adı dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin şərəfinə adlandırılmışdır. BMT-nin qətnaməsinə əsasən, 1993-cü ildən etibarən bu şəhər erməni hərbçilərini tərəfindən işğal olunmuşdur. 1991-ci ildən etibarən Fizuli şəhəri Dağlıq Qarabağın "təhlükəsizlik kəməri"nə (Dağlıq Qarabağın ətrafında Ermənistan nəzarətindəki Azərbaycan əraziləri) daxildir (*müəllif*). Roman çapa hazırlanarkən Azərbaycanda Vətən Müharibəsi baş vermiş və Füzuli şəhəri 17 oktyabr 2020-ci ildə erməni işğalından azad olunmuşdur (*tərc.*)

*bişirmək, kişilərin paltarlarını yumaq və yırtıq-söküklərini tikmək üçün onun yanına qayıtmışdı. Bizi isə balaca bacısının yanında qoymuşdu. Xatırlayıram ki, biz evdən çıxanda mən... qəflətən dizi üstə çöküb doğma evimizin kandarını öpdüm. Heç bilmirəm məni – o zaman altı yaşlı bir uşağı böyük bir insan kimi evlə vidalaşmağa nə sövq etmişdi. Sonralar atam deyirdi ki, bu, əsrlərlə burada yaşayan və bu torpaqlarda ölən əcdadlarımızın ruhudur. Bizə öz sevgilərini göstərmək üçün uşağın bədəninə giriblər. Həmin gün yalnız biz vidalaşmırdıq. Onlar da vidalaşırdılar. Biz qayıdacağımıza söz vermişdik. O vaxt bilmirdik ki, bundan sonra yalnız bir-birimizin xatirələrində yaşayacağıq. Bilmirdik ki, biz buranı tərk edəndən düz bir saat sonra düşmən qoşunları şəhərə girəcək və bizim əvvəlki həyatımızda, evimizdə, küçəmizdə daşı daş üstə qoymayacaqlar.*

*Atam məni – ən balacanı qucağına alıb maşına apardı. Mən onun üzünü görə bilmədim. Ancaq onu əbədi olaraq yadda saxlamaq üçün mən yalnız evimizi görə bilirdim. O an həmin balaca qız lap yaxınlığımızdaca – qonşunun evinin partlayışdan darmadağın olmuş hasarının xarabalıqları arasında mənim gözlərimə göründü. Ayı balası oyuncağını əlində bərk-bərk sıxırdı. Saçlarını mavi lentlə bağlamışdı. Uzun müddət yağış yağmamasına baxmayaraq, əynində elə həmin rəngdə yağış üçün neylon gödəkcə, ayağında isə rezin çəkmələr var idi. Mən çönüb onu da özümüzlə götürmələrini atama demək istədim. Hər yerdə partlayış, qan, müharibə... o, burada necə tək qala bilər?! Lakin qızı atama göstərmək istəyəndə o artıq yoxa çıxmışdı. Bir xülya kimi qeybə çəkildi. Mənsə bilirdim ki, o var idi.*

Zamanla Yusif o gördüklərinin səbəbini anladı. Altı yaşında uşaqlar tez-tez xəyali dostları ilə görüşürlər. O isə başqa cür idi. Gözlərinin önündə gənc əsgərin başına güllə dəydiyini görəndə onun qardaşı uzun müddət kəkələdi. Bundan sonra onlar anaları ilə birlikdə bütün gecəni zirzəmidə – sığınacaqda keçirdilər. Səhərə qədər fit

səsləri, metal örtüyə dəyən güllə səsləri və yuxarıdakı qırılıb yerə tökülən şüşələrin cingiltisindən diksinirdilər. Bütün ömrü boyu onlar bu səsi xatırlayacaqlar. Yusif özünü ələ almağa çalışırdı. Var-gücü ilə o qızın xəyalından yapışırdı. O qız onun qanına işləmişdi, ağrı və qorxularını hər tərəfdən əhatəyə almışdı. Bakıya gələrkən qorxmaq və ağlamaq əvəzinə bütün yol boyu xəyalında onunla danışmış, gözlərini onun əlindəki ayı balası oyuncağına zilləmişdi.

Yeni məktəbin qapısından içəri girərkən o, yenidən onu gördü. Bu dəfə o, tünd-göy rəngli paltarda və ağ önlükdə idi. Bu dəfə oyuncaq ayı balası yox idi, əksinə kürəyində kiçik çantası var idi. Ona elə gəldi ki, o, həqiqidir. Elə indicə o, onunla eyni partada oturub, eyni sinifdə oxuyacaq. Görünür, o, uzun müddət dayanıb ona baxırdı, çünki kimsə onun çiynindən möhkəm itələdi və o, yıxıldı, kitabları yerə dağıldı.

– Sənə bu da azdır! Qaçqın! Dilənçi! – deyə arxadan yad bir adamın kinayəli gülüş səsini eşitdi. Elə o andaca məktəb zəngi çalındı.

Yusif dərsə getmədi, dəhlizdə qalıb kitablarını toplamağa başladı. O sözlər hələ uzun müddət onun qulağından getmədi. O, həqiqətən, qaçqın və dilənçidir? Bəli, indi onların heç nələri yoxdur. Hər şeylərini itiriblər. Hətta qış geyimlərini belə özləri ilə götürə bilməyiblər. Azərbaycanın paytaxtında onların gəlişinə o qədər də şad deyildilər. Dağlıq Qarabağdan bir gündə evlərini itirərək köçmək məcburiyyətində qalanlar həddən artıq çox idi. İlk günlərdə bir çox ailə tərk edilmiş uşaq bağçasına yerləşdirildi. Çarpayı əvəzinə adyalları yerə sərib üstündə yatırdılar. Hələ ki, qida məhsulları əldə edə bilməmişdilər, ona görə də Yusiflə qardaşına gündə bir fincan çay, bir neçə qənd və pendir çörək verirdilər.

Hətta valideynləri müharibədən qayıdandan sonra onların ailələrinə qaçqın statusu verildikdə, atası min bir əziyyətlə Bakıda dar birotaqlı mənzil alanda belə onlar ac qalırdılar – bəzən evdə bir tikə çörək də olmurdu… Deməli, o həqiqətən, qaçqın və dilənçidir? Onlar bunu hardan bildilər?

O anda çiyninə kiminsə isti əlləri toxundu.

– Hər şey yaxşı olacaq, – deyə lap yaxınlıqda bir qız səsi eşidildi. Arxaya dönəndə heç kimi görmədi. Bu, o idi. O yenə gəlmişdi. Bu dəfə hətta onunla danışdı da. Ona hər şeyin yaxşı olacağını vəd etdi. Və o inandı. Kitablarını toplayıb tərəddüd etmədən sinif otağının qapısına tərəf yönəldi. Bir daha heç kimə xoşagəlməz sözlər deməyə icazə vermədi. Bundan sonra hər şey onun dediyi kimi oldu.

Üçüncü dəfə isə onu, həqiqətən, yuxuda görmüşdü. Ötən gecə. Yuxuda onu böyük bir qız kimi görmüşdü – sanki onlar fərqli zamanlarda yaşayırdılar, lakin eyni anda böyümüşdülər. Yusif onunla şəhərin mərkəzindəki fəvvarənin yanında qarşılaşdı. Yuxuda yay idi, qız isə rəngli ipək paltarda idi. Rəngini xatırlamır, çünki paltara fikir verməmişdi.

Onun gözləri... O, ilk dəfə onun gözlərinin içinə baxdı. Gözləri onun kimi qəhvəyi idi, amma onun gözlərinin içində əvvəllər heç kimsədə rast gəlmədiyi qızılı rəngdə qığılcımlar var idi. Saçları da elə idi – zülmət gecə kimi qara deyildi. Azərbaycan qadınları kimi qızılı telləri olan parlaq qəhvəyi-şabalıdı idi, sanki günəş şüaları əbədi olaraq bu şəlaləyə bənzər saçların arasında məskunlaşmışdı…

Birdən ürəyindən belə gözəlliyə toxunmaq keçdi. Əlbəttə, o, bunu etmədi – əgər o, sənin arvadın deyilsə, şəriət buna icazə vermir. Küləyə çevrilə bilsəydi, gizlincə onun yanından ötüb saçlarını dağıdardı… Amma o, adi bir insan idi. İnsanlar isə hər zaman hisslərinin əsiri idilər. O da dayana bilmədi. Sanki hansısa bir hiss Yusifi irəli doğru itələyirdi. O, qeyri-ixtiyari tanımadığı qıza yaxınlaşaraq soruşdu:

– Adın nədir?

– Sədaqət, – deyə qız gülümsədi. Külək isə həqiqətən, onun saçlarını dağıtdı. O, dağılan saçlarını toplayıb gənc oğlana baxdı. Onun şəfəq saçan gözləri sakitlik və hərarətlə parıldayırdı. Heç bir qadın ona belə baxmamışdı (onlarda qızlar utancaq olmalı və kişilərin qarşısında gözlərini aşağı dikməlidirlər), o isə baxırdı. Sədaqət. O, özünü itirdi.

– Sən axı müsəlmana oxşamırsan! Bu ad səndə hardandır?

– Bu adı sən mənə vermisən.

Yusif bir anlığa gözlərini yumdu. Bu mümkün deyil! Özünə gəlib gözlərini açanda qarşısında Ulduzun dayandığını gördü. Onlar yenə də "təsadüfən" şəhərdə qarşılaşmışdılar.

**Yusifin xatirələrindən:**

*O yuxudan oyanandan sonra mən başa düşdüm ki, vəziyyətim pisdir. Xəyalımda bir qız canlandırmışam, ona hələ bir ad da vermişəm... Yox, təcili kiminləsə tanış olub görüşməliyəm. Sədaqətin həqiqətdə var olması və onu axtarıb tapmağın mümkünlüyü o zaman heç mənim ağlıma da gəlmirdi. Mən çoxdan romantik nağıllara inanmırdım. Ona görə də Conni-Cavanşir yenidən mənim yanıma gələndə mən ondan xahiş etdim:*

*– Qardaş, gəl sənin internet səhifənə daxil olaq və oradakı virtual rəfiqələrindən biri ilə məni tanış et!*

*Conni mənim kompüterimdə hansısa yeni oyunlardan birini oynamaq istəyirdi, başa düşəndə ki, "tanışlıq" olmadan oyun da olmayacaq o, könülsüz razılaşdı. Ona çox ümid bəsləyirdim – qardaşım hər zaman yeni tanışları ilə öyünür, əks cinslə ünsiyyət qurmağı və cazibədar olmağı bacarırdı... Beləcə, biz onun internet səhifəsinə daxil oluruq, oradakı "dostluq"da isə yalnız qızlar var idi. Hamısının şəkilləri var idi – biz bir-bir açıb şəkillərə baxırdıq. Bir on səhifəyə baxmışdıq ki, mənim artıq başım gicəllənməyə başladı...*

*– Sən onların hamısı ilə danışırsan? – deyə mən soruşdum.*

*– Sadəcə onlara yazıram, tanış oluram və ünsiyyət qururam, – deyə oğlan cavab verdi. – Mən onların hamısı ilə dost münasibətindəyəm. Hansını istəyirsən, seç, səni tanış edim!*

*Biz yenə də qızların səhifəsinə baxmağa davam etdik. Birdən o şəkillərin arasında onu gördüm. Sədaqət. Balaca isə hələ də səhifələrə baxmağa davam edir.*

*– Dayan, dayan! Geri qayıt!*

*O geri qayıtdı. Onlarla şəkilin arasından mən yalnız birini seçdim. Baxmayaraq ki, burada onun adı başqa cür yazılmışdı, amma bu, Sədaqət idi. Başqa cürdü, amma gözəl idi. Onun adı Olesya idi. Mənim üçün adın heç bir əhəmiyyəti yox idi. Mən onun gözlərini, baxışlarını tanıdım – o, səmimiyyətlə, gülümsəyərək baxırdı və eyni zamanda bu baxışlarda aşkarlamaq istədiyim bir sirr var idi. Bəli, bu, o idi…*

*– Hə, indi bizi tanış elə, – deyə mən Cavanşirdən tələb elədim. Balaca isə bir qədər utandı, qızardı. Onun Conni Depp imici birdən-birə yoxa çıxdı:*

*– Mən niyə? – deyə özünü itirərək gözlərini döydü. – Sənə lazımdır, sən də tanış ol! Əsas odur ki, mən onu sənə göstərdim. Mən öz işimi yerinə yetirdim. Əgər qorxmursansa, götür qıza məktub yaz!*

*– Mən ona nə yazım? – deyə bu dəfə də mən özümü itirdim.*

*– Mən hardan bilim, sən ona nə yazmaq istəyirsən? Özün onu seçmisən, özün də danış! – deyə balaca hiss etdirmədən ayağa qalxıb qapının ağzında dayandı. – Mən getməliyəm! Hələlik, Yusif! – dedi və arxasınca qapını örtdü.*

*Conni ilə hər şey aydın idi. O, hətta kompüterdə oynayacağı oyunu da unutdu. Mən isə monitorun qarşısında yaradıcılıq həyəcanı ilə donub qalmışdım. Gecə gec saatlara qədər oturdum, arabir ayağa qalxıb gəzişir, yenidən masanın başına qayıdırdım. Tanış olmağı çox istəyirdim, amma ona nə deyəcəkdim? Uzun səylərdən sonra çox düşünülmüş və qeyri-standart bir məktub yazdım: "Salam. Necəsən?"*

*Olesya tez bir zamanda mənə təşəkkür edib yaxşı olduğunu bildirdi. Görünür, mən indi nəzakətlə virtual məkandan ayrılmalı idim, amma mənim geri çəkilmək fikrim yox idi. İndi yox... Onun mövcud olduğuna inandığım bir zamanda qətiyyən yox... Bizdə ünsiyyət alınmırdı, o, çox ciddi bir şəkildə özünü kənarda tuturdu. Ona görə də mən ona dayanmadan yeni-yeni məktublar yazırdım. Hər dəfə ona xeyirli sabahlar, uğurlu gunlər, xeyirli axşamlar arzu-*

*layır, Bakının mənzərəli yerlərinin fotoşəkillərini göndərirdim. Bir tək öz şəklimi göndərmirdim – qorxurdum ki, məni bəyənməz… O qızın nə düşündüyünü bilmirdim, çünki o, heç nə demirdi. Deyəsən, mən onu mədəni şəkildə bezdirmişəm, amma o yenə də bunu etiraf etmirdi. O zaman mən birinci etiraf etmək qərarına gəldim. Sözlər özləri qəlbimdən axıb tökülürdü…*

*"Salam. Xəbərin var, sən çox gözəlsən? Mən uzun müddətdir ki, buna Səni inandıra bilmək üçün necə deyəcəyimi düşünürəm. Səni görəndən özümə yer tapa bilmirəm, ancaq Sənin haqqında düşünürəm. Bu gün yenə yuxuda Səni görmüşəm. Hər dəfə Sənin şəklinə baxanda (boş vaxt tapan kimi baxıram) ürəyim titrəyir, donub qalıram. Bu, hələ şəkildir. Gör əgər biz həyatda görüşsək, mənə nə olar?!...*

*Yəqin Sənə birinci dəfə deyil ki, belə sözlər deyirlər. Mən original olmağı bacarmıram. Mən şair olsaydım, Sənə minlərlə şeir yazardım. Amma mən şair deyiləm və başqalarının şeirlərini də oğurlamaq yaxşı əməl deyil. Başa düşürəm ki, belə bir qızın mənim hisslərimə qarşılıq verəcəyini düşünmək axmaqlıqdır, amma Səndən bir şey xahiş etmək istəyirəm. O dəqiqə də mənim ümidimi əlimdən alma, hisslərimə gülmə. Sadəcə düşün və yaz... Biz ünsiyyətimizi davam etdirə bilərikmi? Yazarsan? Məsələn, sabah və ya bir neçə gündən sonra, mən gözləyərəm. Yaxşımı, əzizim?"*

*Ondan cavab alacağıma ümid etməsəm də, ona yazdım. Mən Bakıda – Azərbaycandayam, o isə Ukraynada (Vinnitsa şəhəri haqqında o zamanlar ilk dəfə eşidirdim). Onun cavab verəcəyinə mən necə ümid edə bilərdim?*

*Növbəti gün poçtumu yoxladım, heç bir şey yox idi. İki gün də gözlədim, yenə də cavab gəlmədi. Mən səbrlə gözləyirdim. Nə deyirlər, desinlər, amma onun kübar nəzakəti hətta belə bir dəlisov məktubu da cavabsız qoymağa imkan verməz!*

*Bir həftədən sonra ondan qısa bir məktub gəldi: "Bu, heç birimizə lazım olmayan bir münasibətdir, inan mənə. Sənin hələ on altı yaşın var və sən hələ öz arzularının qadını ilə qarşılaşacaqsan".*

*Oturduğum yerdə donub qaldım. Elə o andaca xatırladım ki, axı mən onunla Conninin səhifəsi vasitəsilə və Conni adı ilə danışıram. Əlbəttə ki, Olesya mənə imtina edəcək. On altı yaşlı axmaq oğlan onun nəyinə lazımdır? Gərək mən əslində kim olduğumu ona etiraf edərdim. Otağıma çəkilib ona üzrxahlıqla dolu məktub yazmaq üçün masa arxasına keçdim. Yazdım ki, mənim adım Yusifdir, Bakıda yaşayan adi bir oğlanam, həm də eyni zamanda onunla həmyaşıdam, universitetdə oxuyuram, idmanla məşğul oluram. O isə həqiqətən, mənim çox, lap çox xoşuma gəlir. Əgər o mənə az da olsa, şans versə, o zaman mən də... onun xoşuna gəlməyə çalışacam. Bundan başqa bir çox cəfəng şeylər yazdım, hətta qayıdıb oxumağa belə utanırdım. Heç oxumadım da, dərhal göndərdim, sanki vaxtında göndərə bilməməkdən qorxurdum. Təəccüblü də olsa, o məni diqqətsiz qoymadı.*

*Cavab olaraq isə o yazmışdı: "Var olduğunu sübut et".*

*Başa düşdüm ki, Olesya ona şəkil göndərməyimi istəyir. Axı mən onu görmüşdüm, o isə yox. Birdən mən qoca kişi, yaxud daha pis – manyak və ya pozğun biri olardım, nə bilmək olar? Yəqin o artıq mənim şəklimi gizlətməkdə ciddi səbəbim olduğunu düşünürdü...*

*O vaxt mən ona şəkil göndərmədim. Bunun çox sadə bir səbəbi var idi: şəkillərdə yaxşı düşmədiyimi hesab edirdim. Heç mənim, deyəsən, xoşuma gələn bir qızın qarşısında forslana biləcək elə qəşəng bir şəklim də yox idi...*

*Olesya da israr etmədi – görünür, utanırdı, amma onun şəkil gözlədiyini bilirdim. Onun telefon nömrəsini istədim. O etiraz etmədi, nömrəni verdi. Mən isə yenə də hər şeyi məhv etdim – nə qədər özümü ələ almağa çalışsam da, o nömrəni yığmağa cəsarətim çatmadı. Hətta o mənə bildirdi ki, telefon nömrəsi hal-əhval tutmaq üçün verilir. Onun nə demək istədiyini dərhal başa düşdüm, yenidən telefonu götürüb zəng etməyə çalışdım. On dəfə cəhd etdikdən sonra, nəhayət, zəng vura bildim. Dediyi sözləri xatırlamıram, amma onun səsini heç vaxt unuda bilmərəm. Krujevayabənzər zərif məxmər bir səs məni öz ağuşuna aldı. Etiraf edim ki, o an*

*mən özümü itirdim – ona o qədər söz deyəcəkdim ki... Bu sözləri demək imkanı olanda mən nə deyəcəyimi bilmirdim – sanki lazım olan sözlər beynimdən silinmişdi… Mən onunla yazışmağa vərdiş etmişdim, hələ danışmağa öyrəşməmişdim. Deyəsən, o da bunu anladı və gülümsədi (and içirəm ki, mən bu təbəssümü hətta dəstəyin arxasından belə hiss edirdim) və nəzakətlə sağollaşdı və gələn dəfə özü zəng edəcəyini vəd etdi.*

*Sözünün üstündə durdu, bir neçə gündən sonra o, həqiqətən, mənə zəng vurdu. O zaman evimizdə çoxlu qonaq var idi. Mənim komandamın üzvləri bizdə idi. Birdən ev telefonu zəng çaldı və telefonun ekranında mənə artıq tanış olan nömrə göründü – bu, onun nömrəsi idi. Sevincimdən mən hər kəsə onun – mənim sevgilimin Ukraynadan zəng vurduğunu dedim. Elə bildim uşaqlar sakit oturacaqlar.*

*Əlbəttə ki, mən səhv etmişdim. Mən dəstəyi qaldıranda Olesya hamının xorla ona salam göndərdiyini, güldüyünü və bizim nə zaman evlənəcəyimizi soruşduqlarını eşitdi… Təbii ki, bu onun xoşuna gəlmədi – bəlkə, hələ elə düşündü ki, mən bunu bilərək etmişəm.*

*– Sən neyniyirsən, mənimlə bütün Azərbaycanla danışırsan? – deyə o soruşdu. – Bu gün sən, dünən Conni, sabah isə başqa birisi olacaq? Bu, sizin üçün estafet deyil! – dedi və dəstəyi çırpdı.*

*Virtual tanışlığımız zamanı yaranan qarışıqlıqdan başqa bu bizim ilk anlaşılmazlığımız idi. Olesyanın mənə yenidən inanması üçün uzun müddət üzr istəməli oldum. Mən heç vaxt başqa bir kişinin ona baxmasına icazə vermərəm, nəyinki danışmasına. Əlbəttə ki, əvvəlcə o özü mənə icazə versə... bir tək onu belə axmaq bir şey üstündə itirə biləcəyim düşüncəsi məni qorxudan öldürürdü. Ümumiyyətlə, mən hər cür axmaq, gülünc vəziyyətlərə düşməyin ustası idim, sadəcə o, hələ bunu bilmirdi.*

*Nəhayət, Olesya yumşaldı. Artıq barışdıqdan sonra o, birdən dedi:*

*– Sən məni dostlarının yanında sevgilin adlandırdın. Etiraz etmə, mən özüm eşitdim. Niyə belə dedin?*

*– Ona görə ki, sevgilim olmağını istəyirəm. Olarsan?*

*O, əsl qadın kimi hərəkət etdi. Dedi ki, bu haqda düşünər.*

*O zamana qədər mənim artıq xəstəlik "tətil"im başa çatdı. Mən artıq regional yarışlara getmək üçün tam sürətlə məşq edirdim. Təlim-məşq toplantılarında ciddi qaydalarımız var idi. Buna görə də növbəti iki həftə mən internetdən və telefondan uzaq durmalı idim, dolayısı ilə Olesya ilə də əlaqəm kəsiləcəkdi. Mən isə onunla heç olmazsa, bir gün danışmadan necə yaşayacağımı təsəvvür edə bilmirdim. O, hələ də "fikirləşirdi", amma biz getməzdən əvvəl bütün gün durmadan yazışırdıq, demək olar ki, hər saatbaşı zəngləşirdik, dünyada və həyatımızda baş verən hər şeyi,- bütün xəbərləri bölüşürdük. Bu artıq yaxa qurtarmaq istəmədiyim bir asılılığa çevrilmişdi…*

*Başa düşürdüm ki, geri dönüşü olmayan bir eşqə mübtəla olmuşam. Kaş onun da nə hiss etdiyini biləydim… Bəlkə, mən ona, doğrudan da, lazım deyiləm?*

Şəhərdə yaz yerini yaya verdi, yay da sürətlə ötüb payızın ilk günlərini qarşıladı. Olesya diplom işini yazdı və müdafiə etdi, universiteti əla qiymətlərlə bitirdi, ilk işə düzəldi, amma bütün fikrini Azərbaycandan olan tanımadığı o yad oğlan məşğul edirdi. Dəfələrlə onun məktublarını oxuyur, səbrlə ondan telefon zəngi gözləyir, görüşməyi xəyal edirdi. Onunla dostluq münasibətlərinin sərhəddini nə zaman keçdiyini o heç özü də bilmirdi…

Onun başına belə bir şey heç vaxt gəlməmişdi. Onun dostları arasında xeyli oğlanlar var idi, amma onlar hələ də onun qəlbinə hakim ola bilməmişdilər. Ona sevgilərini etiraf edirdilər, o bunu zarafatla qarşılayırdı, ona qulluq etmək istəyirdilər, o imtina edirdi, özünü axmaq kimi göstərir, guya deyilənləri başa düşmürdü. Keçmiş sinif yoldaşı Artyom hər zaman onunla romantik münasibət qurmağa can atırdı, amma o, görüşə belə getmirdi.

– Valideynlərim nə zaman evlənəcəyimizi soruşurlar? – deyə o soruşurdu. – Deyirlər, payız evlənmək üçün ən gözəl zamandır…

– Nə zaman restoran sifariş edib musiqiçiləri çağırarsan, o zaman da evlənərik, – deyə o zarafat edirdi. – Valideynlərinə elə belə də de!

– Onlar hesab edirlər ki, səndən yaxşısını tapa bilməyəcəm, – deyərək Artyomun yaraşıqlı çöhrəsindən gülüş yoxa çıxdı. – Mən də elə hesab edirəm. Sən çox yaxşı qızsan…

– Çox yaxşı?! – deyə Olesya onun sözünü zarafata saldı və elə həmin andaca ciddiləşdi. – Boş yerə zaman itirmə, Artyom. Ətrafına bax, sən hələ çox yaxşı bir qızla tanış olacaqsan…

O hələ də gözləyirdi. Demək olar ki, onun bütün rəfiqələri nişanlanıb, ərə gedib, ya da hamilədirlər. Bəziləri çox xoşbəxtdirlər, bəziləri isə hətta boşanmağa hazırlaşırlar. Hətta onlardan biri ərindən boşanıb qucağında uşaqla valideynlərinin yanına qayıtmağı düşünürdü – erkən nikahların sonu adətən belə olur… Olesya belə "cəhdlərdən və səhvlərdən" qorxurdu, o, uzun illər atası ilə sevgi və hüzur içərisində yaşayan anası kimi "tək və əbədi" olanı xəyal edirdi.

Bu inadkar gənc xanıma hamı deyirdi ki, o, özü üçün mövcud olmayan bir ideal adam düşünüb və zaman ötəcək, o, özünün qeyri-adi xəyalları ilə tənhalıqda qocalacaq… Olesya isə inanırdı ki, onun idealı mövcuddur. Onun zəngin və ya yaraşıqlı olması o qədər də vacib deyil, bəlkə, onun valideynləri "ondan yaxşısını tapa bilməzsən" də demirlər, ancaq onu bir çox kişinin arasından tanıyacaq və nə qədər ehtiyac olarsa, bir o qədər də onu gözləyəcək. Çox vaxt onun nə etdiyini, harada yaşadığını, nə haqda düşündüyünü xəyal edirdi. Yusiflə virtual tanışlıqdan sonra isə özü də özünə təəccüblənirdi – o daha xəyal qurmurdu, dəqiq bilirdi. Hətta ağlına belə sığışdıra bilmirdi ki, əgər o varsa, başqa kişilərə necə baxa bilər?

Yusif Olesyanı sevgilisi olmağa dəvət edərkən o anda ona "hə" deməyə hazır idi, halbuki onun necə göründüyünü hələ də bilmirdi. Görəsən, o niyə gizlənir? Birdən onu dəhşət bürüdü. Görünüşün heç bir əhəmiyyəti yoxdur deyirlər, amma sevdiyimiz insanı seyr

edə bilmiriksə, o zaman niyə gözlərimiz var? Ona görə var ki, sevdiyimiz insanı seyr edə bilək. Deyəsən, o, bunu istəmir… Axı o nədən qorxur? Bəlkə, bu özü qorxmalıdır? Yox, onun təklifinə belə tezliklə razı olmaq olmaz!

“Bilirsən, mən istəmirəm sən mənim sevgilim olasan, – deyə o, idman yarışlarına getməzdən bir gün əvvəl yazdı və sonda çoxlu gülən işarələr qoydu. – Mənim günəşim və ayım ol, səmam və torpağım ol, mənim ağrı-acım və sevincim ol, mənim həyatım ol! Bu sözləri haradan oğurladığımı soruşma, çünki heç özüm də bilmirəm… Deyəsən, mən aşiq olmuşam”.

Onun ürəyi az qala sinəsindən çıxacaqdı. Olesya uzun müddət oturub gözlərini bu sözlərə, bu gülüşlərə zillədi. Xəyalında onun gülüşünü canlandırmağa çalışdı, amma bacarmadı. Bilgisayarı söndürüb otaqdan çıxdı. Anasının yanında oturub ondan soruşdu:

– Ana, mən nə edim? Onun üzünü hələ görməmişəm, amma onsuz yaşaya bilmirəm. Əgər o, eybəcər və ya çox qoca biri olsa, nə edəcəm?

– Necə varsa, elə də qəbul edib yaşayacaqsan, – deyə anası sakit bir səslə cavab verdi. – Sən ki onun yaraşıqlı çöhrəsinə aşiq olmamısan? Nəhayət ki, sən kiməsə aşiq olmusan, buna mənim heç şübhəm də yoxdur. Olesya, sən heç vaxt belə olmamısan. Onu əlindən buraxma. Bəzən ən çətin şey güvənməkdir. Özünə güvən. Sənə belə məktublar yazır... Yəqin o ya şairdir, ya da ədəbiyyat müəllimi.

– Yox, – deyə Olesya özünü itirərək cavab verdi. – Dayan, sən mənim məktublarımı oxumusan?

– Onları çap edib evin hər tərəfinə tullamaq lazım deyildi. Kim olsa, oxumazdımı?! Qızım, mən inanmıram ki, belə bir şey ola bilər… – deyə o, Olesyanı qucaqlayıb köksünə sıxdı. – O oğlan sadəcə qızıldır. Özün fikirləş, başqaları kimi içki içmir, siqaret çəkmir, söyüş söymür. Bir dəfə də olsun, görüşməmisiniz, amma o səni ilk gündən “əzizim” deyə çağırır. Niyə sən onun əzizisən? Soruş bir!

– Ana! – deyə Olesya qəzəblə bağırdı, anasının qolları arasından çıxıb bütün ev boyu səpələdiyi məktublarını toplamağa getdi. – Çox sağ ol, artıq səndən soruşdum!

Topladıqlarının hamısını masanın çəkməcəsinə qoyub gülümsədi. Deməli, o, aşiq olub? Əvvəlcə Olesya qorxuya düşdü. Kaş ki, Yusif bunu bilməsin, yoxsa bu da telefon məsələsi kimi olar… Anası ona özünə güvənməyi demişdi, amma o, hələ bilmirdi ki, qızının seçdiyi insan azərbaycanlı müsəlmandır.

İki həftə keçdi. Yusif öz çəki dərəcəsindəki yarışdan qalib olaraq qayıtdı və nəhayət, Olesyaya öz şəkillərini göndərdi. Ondan yaraşıqlı kişi o hələ heç vaxt görməmişdi. Bəstəboy, tünd-qəhvəyi rəngli ideal bədən quruluşu, qələmlə çəkilmiş kimi üz cizgiləri və sehrli gülüşü var idi. Qara antrasit[68] gözləri ecazkar bir şəkildə parıldayırdı. Yanağında isə zənəxdanı var idi.

"Bir zamanlar qədim yunan tanrısı da belə görünə bilərdi", – deyə Olesya öz-özünə düşündü. Təxminən bir saat o, gözünü şəkildən ayıra bilmədi. Bu cür xarici görünüşlə o özünü ondan gizlədib? Yox-yox, görünür, bu, onun şəkli deyil. Çox güman ki, axmaq və sadəlövh ukraynalı qızda müsbət təəssürat yaratmaq üçün bu şəkli hansısa yaraşıqlı bir adamdan "borc alıb"… Yalnız veb-kamera ilə danışmağa başlayanda Olesya onun şəkildəki adam olduğuna əmin oldu.

– Bu gün sən xüsusilə gözəlsən, – bir dəfə axşam ona dedi. – İşıq saçırsan! Deyəsən, aşiq olmusan. Etiraf et!

Olesya üzünün qızardığını hiss etdi. O, heç bir şey etiraf etmək fikrində deyildi. Ən azından indi yox…

O, söhbətin bitməsini həyəcanla gözləyərək güzgünün qarşısına keçib Yusifin dediyi ilahi gözəlliyi görməyə tələsdi. Güzgünün qabağında donub qaldı. Bu gün bəzənməyi unutmuşdu. Üzündə bir qram da kosmetika yox idi.

Deyəsən, o, aşiq olub.

---

[68] Antrasit – rəngi bozumtul qara və qara-boz, cizgisi məxməri-boz, parıltısı parlaq metallik olan kömürləşmənin ən yüksək mərhələsi olan daş kömür (*tərc.*)

**Yusifin xatirələrindən:**

*Günlər keçirdi. Artıq noyabr idi, amma Olesya hələ də mənə birlikdə olub-olmayacağımız barədə heç bir söz deməmişdi. Deyirdi, əgər mən onun yanına Ukraynaya getsəm, şəxsən özümə deyəcək. Və əlavə etdi ki: bir dəfə də olsun görmədiyim oğlanla görüşmək o qədər də asan deyil.*

*Onun ad günü yaxınlaşırdı. Məni qonaq çağırdı. Həmin gecə gözümü bir an belə qırpmadım. Elə hey necə gedəcəyim, ona nə alacağım haqda düşündüm. Hədiyyə almaq üçün yaxınlıqdakı zərgərlik mağazasına gedə bilərdim (onun üçün artıq kiçik brilyant qaşlı üzük gözaltı etmişdim), axı səfərin özü sual altında idi. Gedib onu görməyi çox istəyirdim, amma Azərbaycandan necə çıxa biləcəyimi bilmirdim. Axı davamlı məşqlər, yarışlar və idman turnirləri ölkəni tərk etməyə imkan vermirdi. Məhz onlardan ötrü məni "Radiotexnika və telekommunikasiya" ixtisası üzrə təhsil aldığım universitetdən qovmaq istəyirdilər, çünki həlledici yarışlar zamanı bir neçə imtahanda iştirak edə bilməmişdim. İdmanda qazandığım titullar da məni xilas edə bilmədi. Məni institutdan qovdular və əsgər apardılar.*

*Mən isə Ukraynaya getmək arzusunda idim. Mənim yaşımdakı bir kişinin Azərbaycanı tərk etməsi üçün əlbəttə ki, hərbi qeydiyyat idarəsindən icazə və çıxış biletində möhür tələb olunur. Mən belə bir icazə almaq üçün sənədlərimi toplamağa başladım. Başa düşürdüm ki, belə bir icazəni mənə heç kim verməyəcək, amma bir tək Olesya haqqında düşünə bilirdim. Onunla görüşmək üçün hər şey etməli idim…*

*– Nə düşünürsən, Yusif? – deyə böyük qardaşım məndən soruşdu. – Sənin ukraynalı qız nəyinə lazımdır? Sən onunla evlənməyəcəksən ki? Niyə onunla hər gün danışırsan? Hər ay 300-400 dollar telefon pulu gəlir…*

*Doğrudan da, qardaşım və mən beynəlxalq rabitə üçün bu sənədləri valideynlərimizdən gizlətdik və uzun müddət sonra ödədik. Olesya ilə ard-arda iki-üç saat danışırdım, onsuz bir dəqiqə də dayana bilmirdim. Və mən başa düşürdüm ki, mənim bu dünyada yeganə istədiyim şey odur. Mən… onunla evlənəcəm! O brilyant qaşlı üzük isə bizim nişan üzüyümüz olacaq. Yaxşı ki, İbrahim bunu mənim ağlıma saldı.*

*Həmin gün mən Olesyaya hədiyyə aldım. Onunla razılaşdıq ki, bu gün bilet almağa çalışacağam. O, bir həftəlik Kiyevə ezamiyyətə gəlmişdi və məni orada gözləyəcəyini dedi. Fikirləşdim, hətta gedə bilməsəm də, bileti alıb veb-kamera vasitəsilə ona göstərəcəm ki, mənim haqqımda yanlış şeylər düşünməsin...*

*Səhər tezdən evdən çıxdım. Bilirdim ki, əliboş qayıdacam. Çətin ki, məni ölkədən buraxalar, heç nə etmədən oturmağa da hövsələm çatmırdı. Yolda keçmiş müəllimimlə rastlaşdım. O, indi təqaüddə idi, amma bir vaxtlar universitetdə çağırışaqədərki hərbi hazırlıq dərsi deyirdi və ciddi idmanla məşğul olurdu.*

*– Bu yaxınlarda regional yarışlarda qalib gəldiyini eşitdim! – deyə onunla salamlaşan kimi bildirdi. – Mən səninlə qürur duyuram, ay oğlan! Belə davam etsən, sən çempion-döyüşçü olacaqsan! Bəs niyə belə bikefsən, Yusif?*

*Bilmirəm niyə, amma Olesya ilə olan münasibətimizi əvvəldən sona qədər ona danışdım. Hətta cibimdən kiçik məxmər qutudakı üzüyü çıxarıb ona göstərdim. Bilirdim ki, bu, onun üçün maraqsızdır, ya da çətin ki, o mənə nə iləsə kömək edə bilə. Müəllimim diqqətlə məni dinlədi, bir qədər düşündü və dedi:*

*– Ümidini itirmə. Əgər belədirsə, mən sizin görüşməyiniz üçün yardım edərəm. Məni parkda gözlə. Qırx dəqiqədən sonra qayıdacam.*

*Müəllimim geniş əlaqələri və ümumiyyətlə, bu kimi məsələləri həll etmək üçün lazım olan böyük pulları olmayan adi bir insan idi. Mənim o qədər də çox şeyə ümidim yox idi, amma yenə də onu səbrlə gözləməyə başladım. Söz verdiyi vaxtdan hələ bir qədər*

*də tez qayıtdı və biz birlikdə dəmir yolu rabitə xidmətinin gömrük nəzarəti başçısının yanına getdik. Sən demə, onlar mənim müəllimimlə birlikdə orduda xidmət ediblər, Dağlıq Qarabağın qaynar nöqtələrində olublar, hətta müəllimim onun həyatını xilas edib.*

*Onun kabinetinə daxil olduq, rəis sənədlərimə baxdı. O, artıq mənə icazə verməyə hazırlaşırdı ki, hərbi komissarlıqdan lazım olan həmin o sənədin olmadığını gördü.*

*– Bu sənəd olmadan səni qatardan düşürdəcəklər. Yaxşı olar ki, uçaqla getməyə çalışasan, – deyə o, məsləhət verdi. Bir saatdan sonra biz artıq Hava-Sərhəd Xidmətinin rəisinin qəbulunda idik. Bu isə həmin dəmiryol işçisinin yaxın dostu imiş. Mən hələ də hər şeyin yaxşı nəticələnəcəyinə inanmırdım. Onlar uzun-uzadı danışdılar, kabinetdən çıxanda isə müəllimim məni bilet almağa göndərdi. Hər şey bir göz qırpımında həll oldu. Elə terminaldaca mənim biletimə lazım olan icazə möhürləri vuruldu və... məni uçağa buraxdılar.*

*Beləcə, valideynlərimin icazəsi olmadan, əşyalarımı götürmədən, cibimdə cəmi otuz dollarla yola düşdüm. Belə çıxır ki, evdən qaçmışdım, amma özümü qaçaq kimi hiss etmirdim. Hava limanında böyük qardaşıma zəng vurub məni yola verməsini xahiş etdim. İbrahim bunun öhdəsindən əla gəldi – valideynlərimə dedi ki, mən təcili yarışlara getməli oldum, idman müəllimimə isə universitetlə bağlı nağıl danışdı – Yusif imtahanlara hazırlaşmalıdır, yoxsa onu universitetdən qovacaqlar. Mən qardaşıma təşəkkür edib rahat bir nəfəs aldım. Əbəs yerə demirlər ki, bir şeyi ürəkdən istəyəndə bütün dünya o arzunu həyata keçirmək üçün sənə yardım edir. Hər şeydən çox Olesyanı görmək istəyirdim... Ancaq uçaqda bu haqda düşünə bildim: "Mən nə edirəm? Yalnız adını eşitdiyim bir ölkəyə gedirəm, orada üzünü heç bir zaman görmədiyim tək bir qızdan başqa heç kimi tanımıram. Həqiqətən, mən ona lazım deyiləmsə, o zaman nə edim? O məni orada gözləmədiyi və qarşılamadığı təqdirdə mən nə edərəm?"*

*Son ana qədər mən bilmədim ki, o ukraynalı qız məni sevir, yoxsa aramızdakı məsafə çox olduğuna görə o mənimlə oyun oynayır. Birdən o, məni qarşılamağa gəlməz, heç məni xatırlamaz da. Azərbaycana qayıdana qədər Kiyevin hava limanında gecələməli olaram. Hava limanından buraxılmayan bir Amerika melodramının qəhrəmanı kimi Kiyev terminalında yaşayar və özüm özümə gülərəm. Çox çətin ki, mən buna gülə biləm…*

Uçaq iki saat əlli dəqiqədən sonra Kiyevin Borispol[69] hava limanında yerə endi, Yusifi isə həqiqətən, hava limanından buraxmadılar. Gömrükdə saxladılar. Məlum oldu ki, gəldikdən sonra əcnəbi vətəndaşlar xüsusi bir forma doldurmalı, burada kimin yanına və hansı məqsədlə gəldiyini, hansı ünvanda yaşayacağını göstərməlidir. Sən demə, xaricdən gələnlər mütləq kimin yanına və hansı məqsədlə gəldiklərini göstərən formanı doldurmalıdırlar... O, Olesyanın yanına gəlmişdi. Ancaq indi xatırladı ki, onun nə familyasını, nə də ünvanını bilir.

– Çox yaxşı! - deyə gömrük işçiləri ona bildirdilər. - O zaman sizi deportasiya etməliyik.

– Axı məni bir qız qarşılamalıdır. Mən öz sevgilimin yanına gəlmişəm…

– Burda sənin hansı sevgilin ola bilər ki? – deyə ondan inamsızlıqla soruşdular.

– Ukraynalı bir qız. O, bu qapının arxasında məni gözləyir, – deyə azərbaycanlı oğlan səbrlə izah etdi.

Orada təxminən bir saat olanları aydınlaşdırmağa çalışdıq. Nəhayət, orada çalışanlar bundan bezdi, onlardan biri qapıdan çölə çıxıb çaşqın halda ora-bura vurnuxan Olesya ilə qarşılaşdı. O, bu reyslə gəlməli olan sevgilisini axtarırdı.

---

[69] Borispol –Ukraynanın paytaxtı Kiyevdən 29 km şərqdə yerləşən beynəlxalq hava limanı (*tərc.*)

**Yusifin xatirələrindən:**

*...Biz onunla görüşəndə yenə də bir kəlmə söz deyə bilmədim. Ətrafımda Olesyadan başqa heç bir şey görə bilmirdim. Hiss edirdim ki, o da həyəcanlıdır. Borispolu beş barmağı kimi bilməsinə baxmayaraq, çıxışı çox çətinliklə tapdıq. Eyni zamanda o, nə danışacağını bilmirdi, sadəcə mənə baxırdı. O başa düşürdü ki, bu görüş üçün mən həyatda hər şeydən keçmişəm – idman karyeramdan, universitetimdən, valideynlərim və dostlarımla münasibətimdən...*

*Mən heç bir şey üçün təəssüflənmirdim, o da bunu hiss edirdi. Ətrafımızdakı izdiham arasında kimlərsə harasa tələsir, bir-birini itələyir, əsəbiləşir, üzr istəyir, amma heç kəsi görmürdük. Onun üçün o qədər duyğularım var idi ki... o qədər çox şey demək istəyirdim ki (evdə güzgünün qarşısında məşq etmişdim)... İndi isə yalnız dayanıb baxırdım, sanki həyəcandan nitqim tutulmuşdu. Bunların həqiqətən baş verdiyinə inanmırdım. O, məni unutmamışdı. Onun üçün də hər şey ciddi imiş. İndi mən artıq bilirəm. Sevginin heç bir sözə ehtiyacı yoxdur.*

*Biz axşam qatarı ilə Vinnitsaya getdik. Sonra isə taksiyə minib onun evinə getdik. Demək olar ki, bütün yolu susduq. Ən azından bizdə bir-birini az tanıyan iki insan arasındakı narahatlıq hissi yox idi. Əslində danışmağa çox sözümüz olmalı idi, amma biz söz tapmırdıq. Biz özümüzü heç bir söz demədən də yaxşı hiss edirdik. Buna da alışmaq lazım idi. Bu, mənim üçün başqa bir dünya idi.*

*Biz onun yaşadığı binanın qarşısına gəldik, mən yuxarı qalxıb onun valideynlərinin bizi gözlədikləri mənzilə daxil ola bilmirdim. Üçüncü mərtəbədə (o, dördüncü mərtəbədə yaşayırdı) Olesyanı dayandırıb dedim:*

*– Xahiş edirəm, bir az gözləyək... Mən sizin evinizə beləcə girə bilmərəm. Bizdə belə hərəkət qəbuledilməzdir. Kişi bir qızın evinə belə daxil ola bilməz...*

*Birdən anam dəhlizdə səsimizi eşidib qapını açdı.*

*– Olesya, qızım, niyə qonağımızı dəhlizdə saxlamısan? Nə qədər vaxtdı onu gözləyir, indi isə qapı arxasında saxlayır. Axı insanlar sizə baxır! Onu evə dəvət elə, süfrədə yeməklər soyuyur!*

*Evlənmək haqda heç bir kəlmə də danışmadılar. Evlilik təklifi də edilməmişdi – onsuz da hər şey aydın idi, mən sadəcə onun adsız barmağına nişan üzüyü taxıb dedim:*

*– Sənin artıq heç bir seçimin yoxdur – mən sənin evinin kandarından içəri daxil oldum, bütün qonşular da bunu gördü. Buna görə də sən mənim həyat yoldaşım olmalısan.*

*Yerli VVAQ-da*[70] *qeydiyyata düşməyimizə icazə vermədilər – Azərbaycanda evli olub-olmadığımı bildirən arayış tələb olunurdu (məlum oldu ki, Ukraynada evlənmək istəyən bütün əcnəbilər üçün belə bir arayış tələb olunur). Mən VVAQ-dakı xalaya lazım olan arayışı götürüb geri dönəcəyimi dedim.*

*– Ehtiyatlı ol, gəlini itirmə! – deyə o, zarafatlaşdı.*

*Mən Olesyanı necə itirə bilərdim? Növbəti gün axşam onunla Soborno küçəsində (onlar yaşayan şəhərin mərkəzi küçələrindən biri belə adlanır) gəzməyə çıxdıq və onun yanında olanda hiss etdiyim yaxınlıq, tanışlıq hisslərini yenidən yaşadım. Görünürdü ki, bu qız və onun gözəl şəhəri çoxdan mənim ürəyimdə yaşayırdı, sadəcə söhbət etmək, suallara cavab vermək və mənimlə görüşmək üçün qəlbimin dərinliklərində öz zamanını gözləyirdi.*

*– İstəyirsən, mən səni öz şəhərinlə tanış edim? – deyə birdən ondan soruşdum.*

*– Yusif, bunu necə edəcəksən? – deyə Olesya təəccübləndi. – Sən ki bu gün onu birinci dəfədir görürsən!*

*– Çox sadə – mən sənə özümün də ilk dəfə gördüyüm yerləri göstərəcəm, sən isə onun haqqında mənə danışarsan. Razısan? Mən artıq sənin şəhərini sevirəm, qalıb onu öyrənmək və yadda saxlamaq istəyirəm…*

---

[70] VVAQ – Vətəndaşlıq Vəziyyəti Aktlarının Qeydiyyatı (*tərc.*)

*Az qala səhərə qədər o, öz yaşadığı doğma Vinnitsaya mənim gözlərimlə baxdı, mən isə onu dinləyir və yadda saxlayırdım. Biz sadəcə köhnə dalanların mənzərəli görüntülərinə qərq olmuşduq. Sakit payızın hakim kəsildiyi kiçik həyətləri dolaşdıq, Teatralnaya küçəsindəki Qotika üslubunda*[71] *tikilmiş evləri seyr etdik və yenidən dan yeri yenicə sökülən Sobornoya daxil olduq. Olesya uşaq kimi təəccüblənərək dedi ki, bu gün o, doğma şəhərini, həqiqətən, əvvəllər bilmədiyi, heç ağlına belə gətirmədiyi mistik tərəfləri ilə yenidən kəşf etdi... Yalnız orada bir yer var idi ki, mənim sevgilim onun haqqında nəinki danışmaq istəmədi, hətta iti, görkəmli pillələrinin olmasına baxmayaraq, oraya heç yaxınlaşmaq da istəmədi. Olesyanın gücü çatsaydı, bu yeri şəhərin xəritəsindən və insanların yaddaşından belə silərdi. İlk növbədə isə öz yaddaşından silərdi, amma o, yaxşı başa düşürdü ki, torpağın heç bir günahı yoxdur.*

*Bu torpağı murdarlayan insanlar günahkardır. Mən ona elə belə də dedim. Bundan sonra o, artıq danışmağa başladı.*

Yəqin hər şəhərdə insanları səbəbsiz yerə vahimələndirən lənətlənmiş yerlər var. Olesya üçün Vinnitsanın mərkəzində təxminən qırx hektar ərazini əhatə edən Maksim Qorki adına Mərkəzi İstirahət Parkı məhz belə yerlərdən idi. Xeyr, Olesyanın o yerlə bağlı şəxsi xoşagəlməz xatirəsi yox idi. Sadəcə o, mərkəzi girişin üstündə nəhəng pişik kimi əyilən ağ tağlı körpünün altından keçərək boş qalmış Qu gölünü görərkən, yaxınlığındakı çatlaq pillələrlə qalxıb köhnə, bəzi yerləri uçan əyləncə parkının əsas xiyabanına daxil olarkən kədərlənirdi və qəlbinə qəribə bir ağırlıq çökürdü. O, burada qədim katolik qəbiristanlığının yerləşdiyini, kommunistlərin isə onu yerlə yeksan etdiklərini yaşlı insanlardan eşitmişdi. İnqilaba qədər Kladbişenskoy adlandırılan indiki meydanı isə qürurla Yuri Qaqarin adına Meydan adlandırdılar.

[71] Qotika üslubu – Qərbi Avropa ölkələrinin bir çoxunda yayılmış XII-XIII əsr memarlıq üslubu (*tərc.*)

Olesyanı şəhərin romantik əfsanələrini özündə qoruyub-saxlayan Polşa kübarlarının qapalı qəbiristanlığı qorxutmurdu (rəvayətə görə, zəngin bir Polşa zadəganı qoca yaşlarında öz sevgilisinin cəsədini vətənində dəfn etmək üçün Vinnitsaya gəlir. Cəsədi torpaqdan çıxaranda o, sanki canlı idi. Gəlinlik paltarındakı qızın cəsədi, demək olar ki, çürüməmişdi. Elə bil hansısa bir qüvvə onu sevgilisi ilə olan bu gecikmiş görüş üçün qoruyub-saxlamışdı). Olesya, həqiqətən, bunun belə olduğunu, yoxsa kiminsə sadəcə bu əfsanəni özünə və başqalarına sevginin ölümdən güclü olduğunu sübut etmək üçün icad etdiyini bilmirdi, amma buna inanmaq istəyirdi. Ona görə də qədim katolik qəbiristanlığının Qotika əfsanəsi onu qətiyyən qorxutmurdu. Onun qorxusunun əsl səbəbi əslində parkın lap dərinliklərində yatırdı və bu qorxu oradakı digər ölülərin – vəhşicəsinə öldürülən və xatirə nişanı olmayan kütləvi qəbiristanlıqda yatanların səssiz ağrılarında gizlənirdi[72].

Parkın müxtəlif yerlərindən gələn şən musiqi səsi, göyərçinlərin səsi, qayğısız uşaqların qəhqəhələri və yaşlı insanların söhbətləri arasından o yalnız güllələrin əka-sədasını, boğuq, ağrılı qışqırıqları və sanki yerin dərinliklərindən iniltilərini eşidirdi. Şirin pambıqların, kələm peraşkinin və manqalda bişən kababın valehedici qoxusu arasında isə o, xam torpaqda tikinti materiallarının qəribə qarışığının və çürüntülərin qoxusunu duyurdu…

---

[72] Burada söhbət Vinnitsa qırğınından gedir. 1937-1938-ci illərdə Sovet gizli polisi Xalq Daxili İşlər Komissarlığı tərəfindən Ukraynanın Vinnitsa şəhərində 11.000 nəfər insanı kütləvi şəkildə edam etmişdir. Vinnitsadakı kütləvi məzarlar 1943-cü ildə Almaniyanın Ukraynanı işğalı zamanı aşkar edilmişdir. Vinnitsada dəfn edilən qurbanların əksəriyyəti 22 kalibrli güllənin boynunun arxasına atılan atəş nəticəsində öldürülmüşdü. Güllə kiçik kalibrli olduğuna görə qurbanların əksəriyyəti iki dəfə, ən azı 78 nəfəri üç dəfə vurulmuşdu. Qazıntılar nəticəsində, demək olar ki, insanların hamısının əlləri bağlı şəkildə öldürüldüyü aşkarlanmışdı. Edamlar gizli həyata keçirilirdi – ailələrə qohumlarının taleyi barədə məlumat verilmirdi. O dövrdə almanlar tərəfindən "Stalinin terror qurbanları"na abidə ucaldılmışdı. Sonralar sovet hakimiyyəti bu abidəni "Nasist terrorunun qurbanları" abidəsi kimi yenidən qoydu, sonradan tamamilə ləğv edərək onu ərazidən çıxartdı və yerində əyləncə parkı yaratdı (*tərc.*).

Uşaq vaxtı bir dəfə anası onu buraya gəzməyə gətirmişdi. Günəşli yay aylarından birinin bazar günü idi, ona görə də parkda çoxlu insan vardı. Buna baxmayaraq, ana növbədə dayanıb qızına məşhur "rus karuseli"nə bilet əldə edə bildi. Beş yaşlı Olesya karuselə minməkdən imtina etdi.

– Burada boş yer yoxdur, – o, gözlərini karuselə zilləyərək dedi.

– Necə yəni, qızım? – deyə anası təəccübləndi. – Sənin yerin boşdur, bax!

– Yox, – deyə balaca Olesya sərt cavab verdi. Axı o anasına ona oturmaq üçün təklif olunan yerdə bayram əhval-ruhiyəli bazar günü geyiminin əvəzində yarıkölgə, solğun gözlü, çirkli, köhnə, cırılmış paltarda bir nəfəri gördüyünü necə deyə bilərdi?

Ana ilə qızı rəqs meydançasının yanından ötüb-keçərək parkı tərk etdilər (hətta onu karuselə oturtmasınlar deyə Olesya ağladı da). Orkestr qələbə ruhlu Sovet mahnılarını səsləndirdi. Gənclər və bir qədər yaşlı cütlüklər isə qələbə ruhlu vals sədaları altında rəqs edirdilər… uşaq isə tamamilə başqa bir şey görürdü.

– Ay qız, nədir, bizə niyə baxırsan? – deyə yaxasından çoxlu orden və medallar asılmış, saçları ala-boz, baxışları həbsxana gözətçisinə bənzəyən yaşlı bir kişi (heç uşaq da belə şeyləri sezə bilər?!) soruşdu.

– Bir də baxmayacam, – deyə Olesya yaşlı adamın zəhmli baxışlarından gizlənərək anasının paltarının ətəyindən yapışdı. – Siz qorxuncsunuz…

**Yusifin xatirələrindən:**

*…Olesya artıq sözünü bitirmişdi, amma mən hələ də onun gözlərində qorxu görürdüm, sanki qarşımda gənc qız deyil, həmin keçmişlə üz-üzə gələrkən qorxan beş yaşlı qızcığaz dururdu. İndi bu, həm də mənim keçmişimdir. Həyatının yerdə qalan hissəsini başqa bir insanla paylaşmaq istəyəndə onun yalnız sevincli anlarını deyil, bütün kədərini, qəlbinin bütün ağrı-acısını qəbul etməlisən.*

*– Bizim uşaqlarımız heç bir zaman burada əylənməyəcəklər. Onlar buraya yalnız o qurbanları anmaq üçün gələcəklər, – deyə öz gələcək həyat yoldaşıma söz verdim. O isə mənə Səid adlı balaca oğlandan bəhs etdi və mən onun mənim oğlum olduğunu anladım. Onunla mənim oğlum, bu, bizim xeyir-duamız idi.*

*Sonra isə gözlənilmədən o məndən soruşdu:*

*– Nə vaxt mənə islamı qəbul etməyə icazə verəcəksən?*

*Biz evə qayıdıb qonaq otağında divanda oturduq:*

*– Sənin bunu etməyinə ehtiyac yoxdur, əzizim, – həyəcanını gizlətməyə çalışaraq dedi. – Hər kəs Tanrıya doğru öz yolu ilə gedir, axı biz necə adlandırmağımızdan, necə müraciət etməyimizdən, hansı məbəddə dua etməyimizdən asılı olmayaraq O, təkdir. Hətta sən müsəlmanlığı qəbul etməsən belə mən səndən imtina etməyəcəm, bilirsən! Əgər bunu mənə görə edirsənsə, lazım deyil…*

*– Bu, sənə görə deyil. Mən, həqiqətən, inanıram. Və həqiqətən də islamı qəbul etmək istəyirəm.*

Onlar bu haqda Olesyanın anasına deyəndə o, həqiqətən, qorxdu:

– Necə yəni, Olesya? Camaat nə deyər? – deyərək onun gözləri yaşardı. – Müsəlmanların ölkəmizdə necə qəbul edildiyini bilirsən, insanlar əmindir ki, islam dini əkiz qüllələri uçuran terrorçu döyüşçülərin inancıdır! Bəs Nord-Ost, bəs Beslan?

Yusif Olesyanın anasına baxıb dedi:

– Doğrudanmı, mən terrorçuya oxşayıram?

– Sən oxşamaya bilərsən, – deyərək o, etiraf etdi. – O döyüşçüləri mən görmüşəm… Onları televizorda göstərirdilər.

– Onların həqiqi müsəlman olduğuna inanırsınız? – deyə o soruşdu. – Ancaq bu Qüllələr, Beslan və Nord-Ost müsəlmanları ləkələmək üçün kiminsə qəddar oyununun bir hissəsi ola bilməzmi? Dünyada sadə insanlardan soruşulmadan o qədər şey baş verir ki. İnkar etmirəm, orada muzdlu terrorçular, müsəlman ölkələrindən gələn mühacirlər də var idi. Ancaq onların əsl müsəlmanlarla ortaq nəyisə varmı? Gündə beş dəfə namaz qılan inanclı müsəlman

heç vaxt üzərinə partlayıcı bağlamaz və camaatın arasında özünü partlatmaz. İslamda özünəqəsd qəbuledilməzdir. Dinc əhaliyə də toxunmaq olmaz. Qanunumuz belədir.

– Hə? O zaman niyə qadınlarınızı döyürsünüz? Hamı deyir ki, siz qadınları döyürsünüz!

Olesya o anda Yusifin gözlərində gördüyü təəccübü heç vaxt heç kimdə görməmişdi.

– Bizə isə deyirdilər ki, slavyan kişiləri öz qadınlarını döyürlər. Sərxoş olub ölənə qədər döyürlər…

Hər üçü bir-birinə baxdılar. Görünən budur ki, belə "stereotiplər" əsrlər boyu müxtəlif xalqları fərqli dünyalara ayırmaq üçün qurulmuşdur.

– Olesyanın atası mənə heç vaxt əl qaldırmayıb, – nəhayət, anası dedi. – O, heç vaxt içki də içmir. Ancaq qonşu ailələrdə çox şeylər baş verirdi… Hər xalqda layiqli insanlar da var, ləyaqətsiz insanlar da. Ümid edirəm sən yaxşılara aidsən, Yusif.

– Mən sizin qızınıza zərər verməərəm, – deyə o, səmimi şəkildə vəd etdi. – Nə mənim vicdanım, nə də inancım buna icazə verməz.

– Söz verirsən? – deyə Olesyanın anası soruşdu. – Yox-yox, yenə də çox qorxuram! İslamı qəbul etməyə ehtiyac yoxdur, Olesya! Yusif, onu məcbur etmə!

– Hətta mən bunu çox istəsəm də, yenə onu məcbur etmərəm. Silahlı ekstremistlərin həvəslə islamı qəbul etmək istəmələrinə baxmayaraq, bu, zorakılıq olmayan bir dindir, – deyə Yusif sakit bir tərzdə sözünə davam etdi. – Başqalarını islamı qəbul etməyə məcbur edə bilməzsiniz, bu, böyük günahdır. Hər bir insan Tanrıya gedən yolu özü seçməlidir. Mən sizin qızınızı heç nəyə məcbur etmirəm, o, hər halda mənim üçün əziz olacaq. Yeri gəlmişkən, mən də düşünürəm ki, o, islamı qəbul etməyə tələsməməlidir…

Elə məhz bu da Olesyanın anasının ürəyini sakitləşdirdi.

– Qızım, sən eşitdin Yusif nə dedi? Eşitdin? Hansısa bir qərarı qəbul etməmişdən əvvəl yaxşı-yaxşı düşün!

– Mən artıq qərara gəlmişəm, – deyə Olesya ayağa qalxdı. – Bilirəm, insanlar mənim haqqımda nə danışacaqlar, onlar onsuz da susmayacaqlar. Bu, mənim həyatımdır və mən onu başqalarının sözlərini nəzərə almadan düzgün hesab etdiyim şəkildə yaşayacağam… Mənə inan. İçimdəki doğrunu nə qədər axtardığımı heç təsəvvür belə etmirsən, ana..

**Olesyanın xatirələrindən:**

*Mənim üçün bu, heç bir halda kortəbii bir qərar deyildi. İslama gedən yolum çox uzun olub. Bu yol Yusiflə görüşmədən illər əvvəl başlamışdı və o qədər də asan olmamışdı. Axı mən rəsmi olaraq bir pravoslav ailədə dünyaya gəlmişəm və orada böyümüşəm, kilsədə vəftiz olunmuşam, uşaqlıqdan Milad bayramında kutya[73] yediyim, vertep[74] və kolyadka[75] ilə keçirdiyim günlərin gözəl xatirələrini qəlbimin dərinliklərində saxlamışam, lakin… mən heç vaxt çox dindar biri deyildim, heç ailəm də həddən artıq dindarlıqla dini hökmlərə riayət etməkdə başqalarından o qədər də ciddi fərqlənmirdi. Biz başımızın üstündəki Tanrıya inanır, "Göylərdəki Atamız" duasını əzbərdən oxuyur, müqəddəs xristian bayramlarını qeyd edirdik, amma o qədər də tez-tez kilsənin kandarından içəri girmirdik. Valideynlərim adi sovet insanı idilər. Bütün ömrü boyu onlar mütəmadi olaraq elmi ateizmin qabaqcıl fikirləri və nədənsə heç bir zaman gəlməyən parlaq bir kommunist gələcəyinə sarsılmaz bir inamla qarşılaşdılar. Onların öz hisslərini gizlətmələri çətin idi və azadlığa uyğunlaşmaları isə daha da çətin idi.*

*Bir hadisə hər şeyi dəyişdi. On yeddi yaşım olanda atam xəstələndi. Güclü və geniş çiyinli atam tədricən arıqlamağa başladı. Uca və şən səsi yavaş-yavaş zəiflədi, getdikcə çarəsizcəsinə*

[73] Kutya – Milad mərasimində buğda ilə bişirilən slavyan yeməyi (*tərc.*)
[74] Vertep – gündəlik həyatı səhnələşdirərək dramatik və komik göstərilərlə Tanrının vəsf edilməsi (*tərc.*)
[75] Kolyadka – slavyanların mövzümi ritual mahnıları (*tərc.*)

*əriyirdi və danışdıqca niqti qırılırdı. Onun qocalmasını, əllərinin əsməsini, hətta sonralar yataqdan qalxmamasını görmək dözülməz idi. Bir neçə il ərzində o, solğun bir kölgəyə çevrilmişdi, amma o, heç bir zaman səhhətinin pisləşməsindən şikayət etmirdi. Hər dəfə anam narahatlıqla harası ağrıdığını soruşanda o, gülümsəməyə çalışırdı və deyirdi:*

*– Hər şey yaxşıdır, Olya. Bir az dincəlib sonra öz işimlə məşğul olacam…*

*– Vanya, tələsmə, – deyə anam onu divanda oturdurdu. – İş gözləyər. Sağalarsan, evimizi təmir edərsən, nə deyirsən?*

*Atam bir daha öz işinin başına qayıtmadı. O, ömrü boyu "Kristal" zərgərlik fabrikində almaz cilalayıcısı işləmişdi. Sözün əsl mənasında əlləri qızıl idi, indi isə əlində hətta qələm belə tuta bilmirdi.*

*Tezliklə bildik ki, atam sağalmayacaq. Həkimlər Parkinson xəstəliyi diaqnozunu qoydular və onun üstündən xətt çəkdilər. Mən musiqi məktəbini yenicə bitirmişdim. Kimsə anama məni kilsə xoruna verməyi məsləhət görmüşdü. Çox güman ki, Tanrı uşağın səsini tez eşidir, ola bilsin ki, mənim dualarım atamı xilas edəcək… Mən bazar günləri kilsəyə qaçırdım. Çalışırdım elə oxuyum ki, Tanrı səsimi mütləq eşitsin. Mezzo-soprano səslə çoxlu halleluya, kanonik ilahilər, əzəmətli ilahilər oxuyurdum, lakin atamın vəziyyəti getdikcə daha da pisləşirdi. Nə baş verdiyini anlamırdım. Görəsən, doğrudanmı pis oxuyurdum?*

*Kilsəmizdə hər zaman məşğul, qaş-qabaqlı bir keşiş də var idi. O, hər işi tez və düzgün görürdü – xütbə oxuyur, gəncləri evləndirir, körpələri xaç suyuna, ölənləri isə son mənzilə yola salırdı. Ona görə də insanların əksəriyyəti ona hörmət edir, bir qədər də qorxurdular. Buna baxmayaraq, bir dəfə mən ondan yardım istəmək qərarına gəldim. Bəlkə, nəsə məsləhət görər?*

*– Müqəddəs ata, sizinlə danışa bilərəm? – deyə günün sonunda onunla kilsə dükanında görüşərək cəsarətlə soruşdum. Başını yelləyərək satıcı qadına razılıq işarəsi verəndən sonra ritual mal-*

*larının satışından əldə olunan pulları sayaraq kassasının üstünə qoyduğu dəri pencəyinin cibində gizlətdi. Sonra isə məni başdan ayağa qədər süzərək:*

*– Etiraf etmək istəyirsən? – deyə gözünün ucu ilə saata baxdı. – Oruc tutmusan? Ruhunu təmizləmisən? Yox? Hər şeyi doğru-düzgün, qaydasında et, sonra gəl! Tanrını yad et!*

*Küçənin tinində onu gözləyən maşına doğru yol aldı. Müqəddəs ata maşına oturanda onun əbasının ətəyi bir qədər yuxarı qalxdı və mən bir anlıq onun qəhvəyi dəridən olan fiqurlu dabanlı, bahalı işləməli, son dərəcə dəbli çəkmələrini gördüm. Maşın yerindən tərpənmişdi, amma mən hələ də yerimdə dayanıb o çəkmələr haqqında düşünürdüm. Atam bütün ömrü boyu özünə belə ayaqqabı ala biləcək qədər pul qazana bilməmişdi. O heç yaxşı çəkmələrinin olması haqda belə düşünməmişdi. İndi isə sağalmaz xəstəlikdən yavaş-yavaş zəifləməyə başlayıb və bu xəstəlikdən xilas yolu da yoxdur. Bu keşiş isə məni dinləmək belə istəmədi! Allahın qanunlarını öyrənirik, lakin bu qanunlar bizi öyrədən insanların davranışları ilə ziddiyyət təşkil edir. Yaxşı, bəs həqiqət hardadır? Niyə belədir?*

*Zamanla mən başa düşdüm ki, əgər həmin gün məni dinləyən və məsləhətləri ilə kömək etməyi bacaran əsl xristian din adamı ilə görüşmək şansım olsaydı, mən belə suallar verməzdim. Sadəcə mənim bəxtim gətirmədi.*

*Mən tramvaya mindim. Evimizin yaxınlığındakı dayanacaqda endim, amma evə getmədim. Meşə parkı keçərək boş bir sahədə yarımçıq tikili olan tərkedilmiş binanın qarşısına çıxdım və ətrafıma göz gəzdirdim. Ətrafda heç kim yox idi. Dizlərim üstdə çökərək qışqıra-qışqıra ağladım, gücüm yetdiyi qədər dua edib yalvardım. Heç kim məni nə görmürdü, nə də eşitmirdi, heç kimin mənim hisslərimdən xəbəri yox idi. Nə qədər vaxt keçdiyini bilmədim. Sonda ağrı yorğunluğa üstün gəldi, ətrafımdakı hər şey alatoranlıq içərisində yavaş-yavaş boğulmağa başladı və yerdən qalxdım.*

*Evə qayıdanda mənzil yenə də dözülməz səssizliyə qərq olmuşdu, dərman qoxusu gəlirdi və atamın əsaları isə dəhlizin divarına söykənmişdi. Gözlərimdən yaş axmağa başladı. Anam otaqdan çıxdı, əlimdən tutub cəld məni mətbəxə apardı və stola otuzdurub:*

*– Evdə ağlamağa cəsarət eləmə, – deyə mənə yemək hazırlamağa başladı. – Atan bizim göz yaşlarımızı görməməlidir. O, hər şeyi görür və başa düşür.*

*Mən gözümün yaşını sildim və dedim:*

*– Bir daha kilsəyə getməyəcəm. Kilsə xorunda da oxumayacam. Yetər!*

*Anam mənim qarşıma bir boşqab sup, qaşıq və bir parça çörək qoydu.*

*– Nə olub, Olesya? Sən dəyişmisən…*

*Mən başımı aşağı salıb ona keşişdən danışdım. O, mənim danışdıqlarımı diqqətlə dinlədikdən sonra dərindən ah çəkdi.*

*– Sənə çox qədim bir məsəl danışacam, – deyə yanımda oturdu. – Bir dəfə bir nəfər var idi. Gəl onu Lyubomir adlandıraq. Uşaq vaxtı nənəsi Lyubomirə öyrədir ki: "İllər ötəcək, sən böyüyəcəksən. Əgər bir gün qəlbində ağırlıq hiss etsən, məbədə get. O saat orada özünü yaxşı hiss edəcəksən. Əvvəlcə Lyubomir onun sözlərini o qədər də ciddiyə almadı. Böyüdükdən sonra isə onun həyatı, həqiqətən, ağır oldu və o, artıq dünyasını dəyişmiş nənəsinin verdiyi dərsi xatırladı. Kilsəyə getdi. O, heç şam yandırmağa macal tapmamış kimsə onun qolundan çəkdi. Lyubomir çönüb orta yaşlı bir qadını gördü. "Cavan oğlan, siz səhv yerdə durmusunuz!" – deyə qadın sakit səslə bildirdi. "Heç əllərinizi də düz qoymamısınız" – deyə onun yanındakı başqa bir qadın bildirdi. "Xaçı da belə çəkməzlər!" – deyə hansısa bir qız çaşqın Lyubomiri məzəmmət etdi. "Hələ bir baxın, görün o, nə geyinib? Harda görünüb ki, kilsəyə cins geyinsinlər?" – deyə başqa birisi bildirdi. Nəhayət, ciddi görünüşlü, qara paltarlı bir qadın Lyubomirə yaxınlaşaraq qolundan tutub kənara çəkdi və dedi: "Əvvəlcə özünüzə kilsədə necə davranmaq lazım olduğunu öyrədən bir kitab alın, sonra gəlin!"*

*Lyubomir qaçıb məbəddən çölə çıxdı, skamyada oturdu və az qaldı ki, ağlasın. Birdən başı üzərində bir səs eşitdi: "Niyə belə kədərlisən, övladım?" O, təəccüblə başını qaldırıb baxanda qarşısında Məsihi gördü. "Ay Allahım! – deyərək onun ayaqlarına yıxıldı. – Məni kilsəyə buraxmırlar!" İsa Məsih ona cavab verdi: "Ağlama, oğlum! Onlar çoxdandır ki, məni də oraya buraxmırlar".*

*Mən susub təəccüblə anama baxırdım. Bu məsəl sanki mənim haqqımda idi...*

*– Kilsəyə getməyə bilərsən, amma inanmaq lazımdır, – deyə o, sakit səslə əlavə etdi. – İnancsız yaşamaq çox çətindir. Əslində kilsədə, yoxsa tənhalıqda, qəlbinin dərinliklərində dua edəcəksən, heç bir fərqi yoxdur. Əsas odur ki, ürəkdən dua edəsən, bax o zaman Tanrı səsini eşidəcək.*

*– Deməkki, mən ürəkdən dua etmişəm?*

*– Bilmirəm, qızım. Bəlkə də, bu, sənin günahın deyil.*

*O gündən sonra mən bir daha Tanrı ilə sövdələşmədim. Evdə isə bir damcı da göz yaşı tökmədim. Və o hadisədən sonra bir dəfə də olsa, kilsə xorunda oxumadım. Mən, ümumiyyətlə, bir daha mahnı oxumadım. Bu bacarıq ailəmizin başına gətirilən kədər fonunda mənim üçün son dərəcə ləyaqətsiz və yersiz görünürdü. Mezzo-soprana səsimi atamın sağlamlığına dəyişmək olsaydı, heç tərəddüd etmədən onu dəyişərdim.*

Olesya öz Tanrısını axtarırdı. Onsuz da mən artıq Tanrını necə təsəvvür etməyimizdən və Ona hansı yolla getməyimizdən asılı olmayaraq tək olduğunu başa düşürdüm. Tanrının həyatımızda olmasını bizə dərk etdirən müqəddəs yerlərə, gözəl rituallara, kilsəyə ehtiyacımız var. Ancaq biz Ondan arzularımızın dərhal çin olmasını, dərhal ehtiyacların ödənilməsini və bütün xəstəliklərdən və ölümlərdən möcüzəli şəfa tələb edə bilmərik. Tanrı anlayışı tamamilə başqa bir şeydir. Olesya bunu öyrənmədən ölmək istəmirdi. Ö, öz yolunu seçməli və inandığı Tanrısına doğru getməli idi. Katolisizm (xristian dininin bir cərəyanı), buddizm, iudaizm və digər

dinlər haqqında çox şeylər oxudu və öyrəndi. O dinlərdə çox şeyi bəyəndi, ancaq hələ də heç birində özünü tapa bilmirdi. İslam onun həyatına heç gözləmədiyi vaxtda daxil olmuşdu.

Universitetdə onunla bir qrupda Rəşad adlı bir müsəlman oğlan oxuyurdu. Onlar dostluq edirdilər. Onlar tez-tez həyatdan və Tanrıdan danışırdılar. Olesya ilk dəfə Quran haqqında məhz Rəşaddan eşitmişdi. Bir dəfə o, tənəffüs zamanı universitetin həyətinə çıxdı və onun orada Quranın möcüzəli gücü haqqında danışdığını eşitdi. Sən demə, orada hər şey var – fizika, kimya, riyaziyyat. Bu, ona maraqlı gəldi, amma o, eyni zamanda utanırdı da. Axı o məktəbdə riyaziyyatı çox yaxşı bilirdi, birinci sinifdən məktəbi qurtarana qədər əlaçı olmuşdu, bu haqda isə heç bir şey bilmirdi. O artıq Darvinin təkamül nəzəriyyəsini dərindən öyrənməyə başlamışdı və demək olar ki, ateist olmuşdu və heç bir arqumentin onu bunun əksinə inandıra bilməyəcəyinə əmin idi.

Əvvəlcə Olesya Rəşadı sadəcə nəzakət xatirinə dinləyirdi (axı o hər zaman onun gətirdiyi arqumentləri diqqətlə dinləyirdi), sonradan isə heç özü də bilmədən ona suallar verməyə başlamışdı. Zaman keçdikcə islamın quruluşu və tarixi ilə maraqlandı. Onun istəyi ilə Rəşad ona Quran gətirdi.

Olesya oxumağa başladı. Hər şeydən əvvəl, müsəlman gəncin söylədiyi Quranın riyazi dəqiqliyi onu heyran etdi: müqəddəs kitabdakı “iman” kəlməsi “küfr” sözündən yüz on dörd dəfə çox idi. Quranın məhz bu qədər surəsi var idi. Belə çıxır ki, imansızlıqdan imana cəmi yüz on dörd addım var.

*And olsun səhərə!*
*And olsun sakitləşən gecəyə!*
*Rəbbin nə səni tərk etmişdi, nə də sənə acığı tutmuşdu.*
*Həqiqətən, Axirət sənə dünya həyatından daha xeyirlidir*[76]

[76] Quranın 93-cü surəsi olan Əd-Duha (“Səhər”) surəsindən bir parça (*müəllif*).

Bir dəfə Tibb universitetinin yaxınlığındakı məscidə getdi. Bu, məscid yox, fərdi ev idi. Buranı müsəlmanların namaz qılmaq və ya dini bayramlarını qeyd etmək üçün bir araya gəldikləri məscid adlandırmaq çətin idi. Burada təkcə müsəlman ölkələrindən gələn immiqrantlar deyil, eyni zamanda ukraynalıları, polyakları, belorusları, Vinnitsada yaşayan rusları islamı qəbul etdiyini görməsi Olesyanı təəccübləndirdi. Bunlar müxtəlif yaşlarda və statuslarda olan insanlar idi – kişi, qadın, yaşlı, gənc, uşaqlı, böyük ailələr. Əgər o, şəhərin başqa bir yerində onlarla qarşılaşsaydı, heç vaxt onların müsəlman olduğunu bilməzdi.

Olesya ilk dəfə bir məscidin astanasından içəri keçirdi. O, müsəlman dindarların soyuq və inamsız münasibətlərinin əvəzinə diqqət, təmkin, səmimilik gördü. Qapının ağzında ayaqqabılarını soyundu, çünki hamı belə edirdi. Onların necə dua etmələrinə tamaşa etdi. Onlar elə ürəkdən dua edirdilər ki, hətta onun kimi yad insan belə qəlbinin dərinliklərində o duanın hərarətini duydu. O özünü onların arasında yad, ögey və artıq adam kimi hiss etmirdi. O, istədiyi vaxt bura gələ bilərdi, heç kim buna etiraz etmirdi. Elə bu da onu hər şeydən çox valeh etmişdi. Axı o, onların adət-ənənəsini, qayda-qanunu bilmirdi, islamı qəbul etmək istəmirdi, sadəcə onun haqqında çox şey öyrənmək istəyirdi. Hamı onu dinləyir, üzünə gülür, hər an ona yardım etməyə hazır idilər. Bununla belə heç kim onun işinə qarışmır, onu öz dinlərinə keçməyə məcbur etmir. O zaman o, özü sual verməyə başladı.

Elə məhz onlardan “islam” sözünün hərfi tərcüməsi “Tanrıya təslim olmaq” deməkdir. İslamın ardıcılları – müsəlmanlar tək Allaha inanırlar, bu ad ərəb dilindən tərcümə olunur və Tanrı deməkdir. İnsanlara Allahın qanunlarına uyğun yaşamağı öyrətmək üçün yer üzünə göndərdiyi peyğəmbərləri kimi İsaya, Musaya və İbrahimə, sonuncu peyğəmbər Məhəmmədə ibadət edirlər.

Müsəlman qanunları (şəriət) müqəddəs kitab olan Qurana və sünnəyə (Məhəmməd peyğəmbərin etdiyi, danışdığı, hal və hərəkətlərinin hamısına sünnə deyilir) əsaslanır. İslamın beş əsas

sütunu var: iman (şəhadə), gündə beş dəfə namaz qılmaq, ehtiyacı olanlara zəkat vermək, müqəddəs Ramazan ayında oruc tutmaq və Məkkəni ziyarət etmək (həcc ziyarəti).

Şəhadə islamı qəbul etdikləri zaman elan olunur. Namaz gündə beş dəfə qılınan vacib duaların adıdır. Müsəlman harda olmasından asılı olmayaraq, namaz qılmaq məcburiyyətindədir. Mədrəsədə hamı ilə bir yerdə namaz qılmaq tövsiyyə olunur. Müsəlmanlar istənilən yerdə namaz qıla bilərlər, məsələn, ofisdə və ya universitetdə. Dua zamanı Quranı vəhy göndərildiyi ərəb dilində oxuyurlar.

*Mərhəmətli, Rəhmli Allahın adı ilə!*
*Həmd (şükür və tərif) olsun aləmlərin Rəbbi olan Allaha,*
*Mərhəmətli, rəhmli olana,*
*Haqq-hesab (qiyamət) gününün sahibinə!*
*Biz yalnız Sənə ibadət edirik*
*Yalnız Səndən kömək diləyirik!*
*Bizi doğru (düz) yola yönəlt!*
*Nemət verdiyin kəslərin yoluna!*
*Qəzəbə düçar olmuşların*
*(Haqdan) azmışların (yoluna) yox!*[77]

Olesya islamı daha dərindən öyrənməyə başlamışdı. O öyrəndi ki, islam artıq çoxdan beynəlxalq səviyyəyə qalxıb və dünyada ikinci böyük dindir. Getdikcə daha çox avropalı və digər qitələrdən olan insanlar islamı qəbul edirlər. Bunların arasında qədim dövrlərdən bəri görkəmli şəxsiyyətlər var. Axı hələ də türk əsirliyində olarkən xristian inancına görə öldürülməyən, amma sonradan islamı qəbul edən Roksalana[78] adı ilə tanıdığımız dövrünün ən nüfuz-

---

[77] Quranın birinci surəsi Əl-Fatihə ("Açmaq") adlanır. Əl-Fatihənin mətni namazın əsasını təşkil edir və müsəlmanların əslində bütün mərasimlərinin yerinə yetirilməsi zamanı oxunur (*müəllif*).

[78] Müsəlman qadınlar arasında Roksalana adına rast gəlinmir. Əslində, bəlkə də, bu, sultanlıq mənşəyini göstərən çoxlu sayda epitetlərdən biri idi, axı Ukrayna

lu qadını və Sultan Süleymanın həyat yoldaşı, Ukrayna keşişinin qızı Anastasiya Lesovskayaya heyran qalırıq. Yeri gəlmişkən, qeyd edək ki, pravoslavların inancına görə, xain Roksalana ölümündən sonra cəhənnəmə düşüb. Müsəlman ənənəsinə görə isə o, cənnətdədir. Ona görə yox ki, onun islamı qəbul etməkdən başqa çarəsi yox idi. O, ona görə cənnətə düşüb ki, o, ərinə sadiq həyat yoldaşı, övladlarına yaxşı ana və Osmanlı İmperiyasında xəstə, ehtiyacı olanları unutmayan müdrik bir hökmdar idi.

Sonrakı əsrlər də istisna deyil. Məsələn, 1964-ci ildə Kasius Kley radikal qaradərili müsəlmanlara qoşulub islamı qəbul etdi. Dünya onu Məhəmməd Əli adlı əfsanəvi boks çempionu kimi tanıyır. Onun haqqında "kəpənək kimi uçub arı kimi sancan" deyirdilər. Əli təkcə görkəmli idmançı deyildi, o, ABŞ-da vətəndaş hüquqları uğrunda mübarizə aparırdı, insanlara ümid verirdi. 2001-ci ildə Əlinin həyatı haqqında eyniadlı film geniş ekranlarda yayımlandı. Baş rolda məşhur Hollivud aktyoru Vill Smit oynayır. Personajının həyatı ilə tanış olduqdan sonra o da islamı qəbul etdi. Bir vaxtlar dünyaşöhrətli müğənni Maykl Cekson da müsəlmanlığı qəbul etdi. O, 2003-cü ildə qardaşından nümunə götürərək Afro-Amerika müsəlmanlarını birləşdirən "İslam xalqı" hərəkatına qoşuldu və onlara Bəhreynin paytaxtında məscid tikmək üçün bir neçə milyon dollar ayırdı.

1977-ci ildə İngiltərə musiqiçisi Ket Stevens Yusuf İslam adını götürərək islamı qəbul etdi. Fransız yığmasının və İngiltərənin "Arsenal" klubunun hücumçusu Tyerri Anri dünya kuboku başlamazdan əvvəl islamı qəbul etdi. O, Fransa yığmasında qol vurduqdan sonra təzim edən (Zinəddin Zidandan sonra) ikinci müsəlman oyunçu idi.

Frank Riberi – müsəlman qızla evlənmək üçün islamı qəbul edən daha bir fransız futbolçu. O özünə Bilal adını ikinci ad olaraq

---

torpaqlarından onun İstanbulda gətirildiyi Arvad Bazarı adlanan qul bazarı XVI əsrdə Roksalana adı ilə tanınırdı (*müəllif*).

götürmüşdü. Onlar həmin qızla evləndilər və iki uşaqları dünyaya gəldi.

Məşhur fransız okeanoloq Jak-İv Kustonun necə islama gəldiyi hekayəsi Olesyanı hamısından çox heyrətləndirdi. Məsələ burasındadır ki, məhz Kusto inanılmaz və elmi olaraq izah edilə bilinməyən bir dəniz fenomeni aşkarladı. Bu, Cəbəllütariq boğazında temperaturu, florası, faunası, duzluluğu ilə bir-birindən köklü şəkildə fərqlənən iki keçilməz su təbəqəsinin mövcudluğu idi. Kapitan Kusto bunu özünün kəşfi hesab edirdi. 1400 il əvvəl iki keçilməz su təbəqəsi haqqında “Fərqləndirmə” kimi tərcümə edilən Quranın iyirmi beşinci surəsi olan Əl-Furqanda danışıldığını biləndə o, daha çox təəccüblənmişdi.

*Birinin suyu dadlı və şirin,*
*Digərininki isə duzlu və acı olan*
*İki dənizi qovuşduraraq aralarında*
*Maneə və keçilməz sədd qoyan Odur.*

Deyirlər ki, Jak-İv Kusto bundan sonra uca səslə səsləndi: “And içirəm ki, müasir elmi 1400 il geridə qoyan Quran insan əlinin işi ola bilməz! Bu, yaradanın işidir”. 1997-ci ildə görkəmli alimin ahıl yaşlarında Quranı oxuduqdan sonra islamı qəbul etdiyini və bir müsəlman kimi öldüyünü söyləyirlər.

Əslində Kustonun islamı qəbul etdiyini təsdiqləyən rəsmi dəlil yoxdur. Çox axtarmasına baxmayaraq, bəlkə də, Olesya onu tapmadı. O, Müqəddəs Andre de Kubzak qəbiristanlığında katolik adətinə görə dəfn olundu. Olesya düşündü ki, o, müsəlman olmasa da, yəqin ki, buna çox yaxın idi. Getdikcə daha çox insan başqa dinlərdən islama üz tutur. Məsələn, bu günlərdə on minlərlə avropalı müsəlmanlığı qəbul edir. Olesya hər gün bir az daha çox təəccüblənirdi. O, suallarına cavab tapmalı idi. Dünyanın müxtəlif yerlərindən müasir inkişaf etmiş ölkələrin sakinlərini islama nə

cəlb edir? Doğulduqları məzhəbləri tərk etdikdən sonra Onda nə tapırlar? Və o özü üçün də nəsə aşkarlaya biləcəkmi?

Məhz o zaman tale onu Yusiflə görüşdürdü. Ona elə gəlirdi ki, bütün həyatı boyu axtardığı güclü insanı tapıb. O, eyni zamanda sentimental, inanclarını qətiyyətlə qorumağa qadir, sonsuz səbrli və mərhəmətli biri idi. Bu, mətbuatda müsəlmanlar haqqında deyilənlərlə ziddiyyətli idi. Onlar Olesyanın evdə eşitdiyi "Azərbaycanlılar haqqında qorxunc hekayələr" ilə heç bir şəkildə üst-üstə düşmürdü. O uzun müddət Yusif kimi insanların varlığından xəbərsiz idi. Ona uzun-uzadı suallar verir, hamısına da cavab alırdı. Onun həyata bu cür münasibəti onu təəccübləndirirdi. Bir dəfə o, Məhəmməd peyğəmbər haqqında danışdı, onun həyat yolunun hər bir sadiq müsəlman üçün nümunə olduğunu söylədi.

– Məhəmməd qırx yaşına çatanda Cəbrayıl onun gözünə göründü və Tanrının sözlərini insanlara çatdırmasını söylədi, – deyə Yusif sözə başladı. – Məhəmmədin peyğəmbərlik missiyasına ilk inanan onun sadiq həyat yoldaşı Xədicə idi. Sonradan peyğəmbərin səhabələri sırasına qohumlar, yadlar, zənginlər və kasıblar kimi başqa insanlar da qoşuldu. Hətta orada elə insanlar var idi ki, bir zamanlar onlar islamın açıq-aşkar əleyhdarları idi, indi isə onlar da sadiq davamçılara çevrilmişdilər. Buna baxmayaraq, bir çox məkkəlilərin düşmən münasibətinə qarşı yeni bir cərəyan meydana gəldi. Şəhər sakinləri Məhəmmədin ilk xütbəsinə istehza və təhqirlə cavab verdilər. Doğrudur, hər kəs peyğəmbərə düşmən deyildi: onu sadəcə dəli hesab edənlər də var idi. Bəzilərinin ona ürəyi yanır, hətta müalicə üçün pul da təklif edirdilər. Əlbət ki, Məhəmmədə istehza edənlər də oldu: bəziləri onun sözlərinin həqiqiliyini təsdiqləmək üçün bir mələk göndərməsini tələb etdi, bəziləri isə göyləri parçalayaraq onların üstünə tökməyi təklif etdilər. Xütbəsini oxuyub bitirdikdən sonra Məhəmməd hər dəfə evə eyni yolla qayıdırdı. Hər gün o, bir qarının evinin yanından keçməli olurdu. Qarı yuxarıdan onun başına zibil tökürdü. Məhəmməd bir dəfə də olsun başını qaldırıb ona güldən ağır söz deməmişdi. Heç qarı da

bu "vərdiş"indən əl çəkmirdi. Bir gün o yenə qarının evinin yaxınlığından keçdi, amma yuxarıdan onun başına zibili tökən olmadı. Məhəmməd geri qayıdıb qonşulardan qarının əhvalını soruşdu. Məlum oldu ki, o, xəstələnib və ölüm yatağında yatır. Peyğəmbər xəstə qadının əhvalını öyrənmək üçün yuxarı qalxdı və onun sağalması üçün dua oxudu. Təəccüblü də olsa, qarı sağaldı. Bundan sonra o, peyğəmbərin ən sadiq səhabələrindən birinə çevrildi.

**Olesyanın xatirələrindən:**

*Mən artıq islama başqa gözlə baxırdım. Əlbəttə ki, bilməyən insanlar televizorda göstərildiyi kimi islamı xüsusi amansızlıqla daş-qalaq etmək, müxtəlif əzaları kəsmək, qəddar cəzalar tətbiq etmək, intihar və terror hücumlarını həyata keçirmək üçün əlverişli bir din kimi qəbul edirdilər. Təəccüblü deyil ki, islamı müsəlman ölkələrinin sakinlərinin itaət etməli olduğu qədim dövrlərin qalığı hesab edirik. Xüsusilə, müqəddəs cihad ətrafında bir çox mübahisələr gedir.*

*Ekstremist təşkilatlar çox vaxt qeyri-müsəlmanların islam haqqındakı biliklərinin az olmasından istifadə edirlər. Ona görə də onlar belə hesab edirlər ki, öz qaniçən Tanrıları onları bəşəriyyətə qarşı qanlı əməllər törətməyə sövq edir. İslam dininin həqiqi tərəfdarları isə fərqli fikirdədirlər. Onlar heç bir zaman dinc əhali arasında "Allahu əkbər!" deyərək əl qumbarasının halqasını çəkmirlər, çünki Allah sevginin ən yüksək təzahürüdür. Şəriət ibtidai qadağalar və cəzalar məcəlləsi deyil, o, sülh və qurtuluşa aparan mənəvi yoldur, ilk növbədə isə insanın özü ilə mübarizəsi, məqsədi və yer üzündəki missiyasını dərk etməsidir.*

*Axı peyğəmbər deyir: "Xarici düşmənlə mübarizə kiçik cihaddır. Özünə, öz asılılıqlarına və vərdişlərinə qalib gəlmək, yüksək əxlaq normalarına uyğun yaşamağa çalışmaq əsas, daxili cihaddır". Tanrı qan tökməyi arzulaya bilməz. Ona görə də cihad sadəcə müharibə deyil. Bu, Quran oxumaq, bütün surələri əzbərləmək,*

*qəzəbi, xəsisliyi, nifrəti, xəbisliyi və qüruru dəf etmək, sosial ədalət üçün çalışmaq, bizə zərər verənləri bağışlamaqdır. İslam müsəlmanlara, onların imanlarına və ya torpaqlarına hücum edildikdə özlərini müdafiə etmələrini əmr edir. Quranın bir çox surələrində müharibədən bəhs olunur. Bəziləri barışığın tərəfdarıdır, digərləri isə bu məsələyə çox sərt münasibətlə yanaşırlar. Quranda deyilir: "Hücum edilənlərə özlərini şiddətdən qorumaq üçün döyüşməyə icazə verilir. Həqiqətən, Allah onlara kömək etməyə qadirdir".*

*Ancaq şəriətin müharibə üçün ciddi qaydaları var. "Sizə qarşı vuruşanlarla Allah yolunda vuruşun, amma icazə verilən həddi aşmayın! Həqiqətən, Allah günahkarları sevmir", – deyə Quran bizə öyrədir. Müsəlmanlar üçün hərbi cihadın ən cəlbedici səbəbi özünümüdafiə, evlərini müdafiə etmək və öz dinlərinin azadlığı uğrunda müharibədir. Cihad yalnız müsəlman xalqının zalım hökmdarı devirdiyi, sülh müqaviləsini pozan düşməni cəzalandırdığı, tarixi ədaləti bərpa etdiyi zaman qanuni qüvvəyə minir. Ancaq məqsədi başqa xalqları islamı qəbul etməyə məcbur etmək, xarici ölkələri müstəmləkəyə çevirmək, iqtisadi mənfəət üçün əraziləri fəth etmək və hökmdarın gücünü nümayiş etdirməkdirsə, bu müharibə cihad adlandırıla bilməz. Hərbi cihadın qanuni qüvvəyə minməsi üçün hər zaman müharibə düşmən tərəfindən başlamalıdır. Hərbi əməliyyatlara başlamazdan əvvəl bütün dinc vasitələrə əl atılmalıdır. Müharibə zamanı günahsız insanlara, dinc əhaliyə hücum etmək, qadınlara təcavüz etmək, uşaqları, qocaları öldürmək, əmlaklarına zərər vermək, quyuları və digər su obyektlərini zəhərləmək qadağandır (dövrümüzdə bu qadağa kimyəvi və bioloji silahların tətbiqinə aiddir). Cihad düşmənlərə ədalətli münasibət tələb edir, yaralı düşmən əsgərlərinə isə öz yaralıları ilə eyni cür rəftar edilməlidir. Düşmən sülh istədiyi anda müharibə başa çatmalıdır. Bu, onlar haqqında həqiqətdir. Yalnız bu sərt qaydalara riayət edənlərin özlərini müsəlman adlandırmağa haqqı çatır. Onlar özlərini müdafiə etmək üçün hər zaman müharibəyə hazırdılar.*

*O zaman mən heç ağlıma da gətirmirdim ki, bir müddət sonra bizim də ölkəmizin şərqində əsl müharibə başlayacaq və biz... buna hazır olmayacağıq.*

…Həyat bir səyahətdir, biz isə adi səyyah. Bu səyahəti başa vurmaq üçün bir çox yol və fürsət var, ancaq onlardan yalnız biri həqiqətdir. Bu yolu insana Tanrı göstərir. Hər birimiz onsuz da ürəyini Tanrıya açacaq bir din seçirik. Əsas odur ki, bütün qəlbimizlə inanaq və vicdanla yaşamağa çalışaq. Axı Quranda deyilir ki: "Hər şey niyyətdən başlayır, ölümdən sonra insan niyyətində olanı alacaq".

Müsəlmanlar üçün həyat doğulduqları zaman yox, ilk insanın yaranmasından çox əvvəl, Tanrı yer üzündə gəzəcək hər kəsin ruhlarını yaratdığı zaman başlayır və onlardan soruşur: "Mən sizin Yaradanınız deyiləmmi?". Bütün ruhlar cavab verir: "Bu, həqiqətən, belədir". Tanrı hər bir ruha yer üzündə özünü insan simasında görə biləcəyi müəyyən bir zaman kəsiyi bəxş etdi. Nəticədə, ona ayrılan ömrün sonunda Tanrı onun ruhuna hökm çıxaracaq və həyat missiyasını təyin edəcək: sonsuz xoşbəxtlik və ya əbədi əzab.

*Göy parçalanacağı zaman,*
*Ulduzlar səpələnəcəyi zaman,*
*Dənizlər daşıb bir-birinə qarışacağı zaman,*
*Qəbirlər çevriləcəyi zaman,*
*Hər kəs əvvəlcədən özü üçün nəyi tədarük edib*
*Nəyi sonraya saxladığını biləcəkdir*[79].

Olesya öz Tanrısına gəldi. O, islamı qəbul etməyə tələsmirdi, amma uzun müddət idi ki, şüuraltı onun qanunlarına riayət edərək yaşayırdı. Onu xəyal etdiyi adamla görüşənə və evlənənə qədər ba-

[79] Hər bir insanın hərəkətləri ilə özü üçün hazırladığı gələcək həyat və günahlarına görə nədən məhrum ediləcəyindən bəhs edən Quranın 82-ci Əl-İnfitar ("Parçalanma") surəsindən bir parça. Müsəlmanlar inanırlar ki, məhz həmin gün özlərinin, həqiqətən, necə olduqlarını görəcəklər (*müəlllif*).

kirəliyini qorumağa sövq edən də elə məhz bunun olduğuna şübhə etmirdi. Sanki tale özü onu Yusiflə görüşə hazırlamışdı. İndi isə o artıq müsəlman olmaq üçün zamanın gəlib çatdığına şübhə etmirdi. Qəlbinin dərinliklərində çox narahat olmasına baxmayaraq, anası onu dəstəkləyirdi. O vaxtlar anası heç ağlına da gətirmirdi ki, bir neçə ildən sonra özü də islamı qəbul edəcək.

– Hansı Tanrıya sitayiş edib necə yaşayacaqsınız, bu sizin öz işinizdir, – deyə həmin axşam onlara bildirdi. – Mən yalnız sizdən bir şey xahiş edirəm, burada yaşayın, – deyə qızına baxdı. – Bacın Ruslananın evlənib İtaliyada qalması kifayət deyil? Mən övladsız qalmaq istəmirəm, ahıl yaşlarında övladsız qalmaq dəhşətlidir! Atanla məni tərk etmə, Olesya! Onu bizim əlimizdən alma, Yusif!…

Olesya valideynlərindən ayrılmaq istəmirdi, amma son sözü əri deməli idi. Yusif hörmətlə onun anasının əlindən öpdü. Bundan sonra o, onu oğul adlandıracaq.

Əlbəttə ki, bütün qohumlar və dostlar evlilik xəbərlərini eyni dərəcədə qəbul etmədilər. Gənclərə münasibətlərini rəsmiləşdirmədən əvvəlcə duyğularını sınamağı, bir müddət görüşmələrini tövsiyə etdilər. Yusif birmənalı şəkildə “yox” dedi. Bunun niyəsini Olesya sonradan başa düşdü. “Belə şeylər”, yaxud azad vətəndaş nikahı kimi müasir reallıqlar əsl müsəlmanlar üçün qəbuledilməzdir. Sevib-seçdiyin bir qadına vətəndaş nikahı təklif etmək: “Sən mənimlə evlənməyə layiq olacaq qədər mükəmməl deyilsən. Evlənə biləcəyim biri ilə tanış olana qədər bir yerdə yaşayaq” deməkdir. Nikahdan kənar münasibətlər onlar üçün bir tabudur. Kişinin qızla evlənməyənə qədər əlindən tutmasına belə ixtiyarı yoxdur.

Ertəsi gün məscidə getdilər və onlara müsəlman ənənəsinə uyğun olaraq kəbin kəsdirdilər. Olesya kəlmeyi-şəhadəti oxudu və islamı qəbul etdi.

*Şəhadət verirəm ki, Allahdan yuxarı İlah yoxdur.*
*Şəhadət edirəm ki, Məhəmməd Allahın elçisidir*[80].

O, müsəlman ərindən tərcüməsi "uşaqları sevən" mənasını verən Sədaqət adını aldı[81]. Əvvəlcə Olesya bu ada çox təəccübləndi, çünki onlar hələ uşaq haqqında düşünməmişdilər. O, hələ heç necə ana olacağını təsəvvür belə etmirdi. Həyat yenicə başlayırdı, hər şeyi çatdırmaq, cəhd etmək, səy göstərmək üçün çoxlu xəyal qururdu və o, bütün bunların arasında körpə uşaq bezlərindən başlamağı düşünməmişdi. Niyə uşağının olmasına bu qədər tələssin ki? Yaşlı insanlar uşağın həyatda ən vacib şey olduğunu söylədikdə o, üzdə onlarla razılaşır, qəlbində isə karyera haqqında xəyallar qurmağa davam edirdi. Onun düşüncələrində uşaqlı ailəyə hələ yer yox idi. Bunun əvəzinə o, demək olar ki, bütün divarı əhatə edən panorama görünüşlü pəncərəsi olan lüks bir ofis, nəhəng dəri kreslo, tünd rəngli xidməti avtomobil, beynəlxalq hava limanlarında, beşulduzlu otellərdə, geniş konfrans salonlarında parlaq bir kaleydoskopa çevriləcək sonsuz iş gəzintilərini düşünürdü… Sədaqət hər şeyi dəyişdirdi. Uşaqları sevən...

Sevən... bu söz Olesyanın ağlından getmirdi. O vaxt onun adların insan təbiətinin mahiyyətini necə əks etdirə biləcəyi barədə heç bir fikri yox idi. Yalnız Leylanın, sonra isə Əli və Səidin doğulması ilə o, əsl missiyasının nə olduğunu başa düşəcəkdir. Sevmək.

Əlbəttə ki, onların ən çətin sınaqları hələ qarşıda idi. Yusif məzun olmaq üçün evə qayıtmalı, Ukraynaya köçmək üçün sənədləri-

---

[80] Bu, kəlmeyi-şəhadətdir. O, islamın simvolu sayılır. Ərəb dilində səsləndirilir. Bu sözlər "möminlərin yeganə məqsədi Allaha ibadət etməkdir, Məhəmməd Peyğəmbərin etdiyi kimi, yalnız Yaradan ibadətə layiqdir" mənasını verir. Şəhadəni həqiqi imanla elan etmək islama keçmək üçün kifayətdir (*müəllif*).

[81] Əslində "sədaqət" sözü "dostluqda, məhəbbətdə dəyanət, vəfa; sadiqlik, etibarlılıq" mənasını verir. Ukrayna dilində mətn bu şəkildə yazılıb və biz də orijinallığa xələl gətirməmək üçün olduğu kimi saxladıq (*tərc.*).

ni toplamalı və qohum-əqrəbaları ilə vidalaşmalı idi. Hər bir insan öz əməllərinin və verdiyi qərarların əsiridir.

**Olesyanın xatirələrindən:**

*Yusifin geri dönüş biletinin üzərində göstərilən gün gəlib-çatdı. O, evə getməli, mən isə onu gözləməli idim. Onsuz bu qədər vaxtı necə dözəcəyimi təsəvvür edə bilmirdim… Vida günü sevimli həyat yoldaşımla birlikdə onu yola salmaq üçün Kiyevə getdim. Uçuşdan bir neçə saat əvvəl onunla Maydana gəldik, orada isə tarix yazılırdı. Yusif çox təsirlənmişdi. Xatirələrində keçmişə dönmüşdü. Bilmirəm o vaxt o, mənə aşiq olmuşdu, yoxsa 2004-cü ilin soyuğunda bütün dünya qarşısında ayağa qalxan ölkəmin o məşhur narıncı şərfə bürünərək: "Biz ukraynalıyıq! Və biz şərəflə yaşamaq istəyirik!" deməsinə... Narıncı inqilab başlamışdı.*

*O günləri biz belə yaşayırdıq – hər kəs öz yaşadığı şəhərin mərkəzi meydanına toplaşır, bir-birlərinə gülümsəyərək yad insanlarla baş vermiş son hadisələri bölüşür, adi halda "sıxışdırmaq" və "ötmək" əvəzinə başqalarının avtomobilinə nəzakətlə yol verirdilər. Bir sözlə, öz doğma torpağımızda idik, özümüzü azad və xoşbəxt insanlar kimi hiss edirdik, ürəklərimiz bir qaynar narıncı ürək kimi ümumi ritmdə, bir vəhdətdə döyünürdü. Bu, demək olar ki, bütün dünyanın inadkarlıqla Rusiya və ruslarla, onların "spirtli içki"si ilə birləşməsini istədikləri bir anda qarət edilmiş, alçaldılmış, inanmadıqları bir ölkə kimi naməlum bir postsovet ölkəsi üçün yolverilməz bir lüks idi… Ancaq biz qətiyyətlə qələbəyə gedirdik.*

*Sonradan bizə yenidən xəyanət edəcəklərindən xəbərsiz idik. Bilmirdik ki, bizə xəyanət edənlər sakitcə kölgəyə çəkilərək gələcəyimizi etibar etdiklərimiz olacaq. Bütün xalq ətrafınıza toplaşanda, adınızı durmadan təkrarlayanda və son ümidlərini sizin ayaqlarınızın altına atanda bunu necə etmək olar, təsəvvür etmək mənim üçün çətindir?! Sənin xəyanət etməyə, geri çəkilməyə, satılmağa*

*ixtiyarın varmı? Əgər xəyanət etmisənsə, o zaman sən kimsən? Nə vaxtsa yəqin ki, o ağır günlərdə necə yaşadığı, onu necə öldürməyə, zəhərləməyə çalışdıqlarını xatirə-memuarlarında yazacaq, amma bu yazıların arasında həqiqət payı olacaqmı? Əgər olacaqsa, ona inana biləcəyikmi? Çünki necə inanmağı da unudacağıq. Ancaq ən pisi də odur ki, hər birimiz özümüzü satqın kimi hiss edirik. Tuta bilmədik. Qoruya bilmədik. Qələbəni sona çatdıra bilmədik, yavaş-yavaş evlərimizə dağıldıq.*

*Mübarizəmizin simvolu olan narıncı rəng qəflətən gülünc, lazımsız, alçaldılmış, az qala lənətə gəlmiş bir rəngə çevrildi, sanki bu rəng məğlubiyyətimizin günahkarı idi. Ancaq tarixin hökmünə baxmayaraq, bu rəngi və o üç həftəni məğlubiyyət hesab edə bilmirəm. Biz belə edə bilmərik. Bu məğlubiyyət olsaydı, o zaman məhz o on il səssiz itaət və rüsvayçılıqla gedəcəyimiz gələcək qələbəmiz uğrunda qoyduğumuz girov olardı. Maydana qayıdaq. O bizi gözləyəcək, çünki bu dünyada hər şeyin başlanğıcı olduğu kimi sonu var. Bunu artıq Yusif vidalaşanda mənə dedi.*

## DÖRDÜNCÜ FƏSİL

### Yaşamaq hüququ

Onları şəhərdən qovurdular. Görünməmiş mənzərədən təəccüblənən yerli sakinlər dar, əyri yol kənarlarına toplanıb kədərli, əynindəki nimdaş paltarları ilə kədərə bürünmüş insanları gözləri ilə müşayiət edirdilər. Onlar məhkum kimi yavaş-yavaş yad şəhərin səkilərində dolaşır, böyüklərin gözləri ilə dünyaya baxan uşaqları da özləri ilə aparırdılar. Qaçqınlar. Onları müharibə qovurdu.

Dinc şəhər onların gəlişinə sevinmədi, gəlişlərini tarixə çevirmək xatirinə əbədiləşdirmədi və ya heç olmazsa, axşam xəbərləri üçün kameraların gur işığı ilə qarşılanmadı… Sadəcə dayanıb onlarla, yüzlərlə sərt baxışları ilə onları iynələdilər:

– Daha neçə nəfər olacaq? Elə hey gəlirlər… Hamı da yemək istəyir…

Onlar sadəcə yaşamaq istəyirlər. Məgər onlar günahkardılar ki, yaşamaq üçün hər gün yemək yemək, başını soxa biləcəyi bir dam, isti paltar və ayaqqabı lazımdır? Axı qarşıdan sərt qış gəlirdi. Qaçqınlar. Onları müharibə ev-eşiklərini tərk etməyə məcbur edirdi.

...Yusif kəmərlərini bağlamağı inadla sərnişinlərə tövsiyə edən stüardessanın səsinə oyandı. Uçaq artıq Bakıya enirdi. Gənc oğlan gözlərini ovuşdurdu, kəmərini bağlayıb dərindən nəfəs aldı. Gördüklərinin onu on beş ildir ki, izləyən pis yuxu olduğu ortaya çıxdı. Yuxusunda Yusif yenə də qaçqın idi. İndi o, artıq bilmirdi ki, yuxusunda keçmişi görüb, yoxsa gələcəyi…

Evə qayıdanda o, artıq əvvəlki adam deyildi. Sanki böyümüşdü, nələrisə artıq başa düşürdü, sanki yenidən doğulmuşdu. Son bir neçə gün ərzində özü üçün yeni bir dünya kəşf etmişdi. Məsələ təkcə onun sevimli qadınında deyildi, həm də onun yaşadığı şəhərdə, onu bir qədər narahat və həyəcan içərisində qarşılayan ölkəsində idi. Ancaq o başa düşürdü ki, əsl tanışlıq hələ qarşıdadır.

Olesya… O onun inancını qəbul etmişdi, o isə onun ölkəsini. Bu, həqiqətən, müqəddəs nikahdır. O, Azərbaycana qayıtmışdı, ürəyi isə Ukraynada qalmışdı. İndi onlar hər şeyin öhdəsindən gələcəklər, axı insan ürəksiz yaşaya bilməz. O, burada onsuz yaşamayacaq.

Keçən həftə Yusifin harada olduğunu heç kim bilmirdi – valideynləri və müəllimləri oğlanın idmanda olduğunu düşünürdü, məşqçisi isə ən yaxşı güləşçisinin universitet imtahanlarına hazırlaşdığına əmin idi. İbrahim bacardığı qədər kiçik qardaşının əməllərini ört-basdır edirdi. Və yalnız axşam, hamı yuxuya gedəndə onu çiyinlərindən tutub divara söykədi:

– İndi danış görüm nə eləmisən, balaca! Görürəm axı nə isə eləmisən, yoxsa üzündə belə özündənrazı ifadə olmazdı!

– Mən evlənmişəm, İbrahim, – deyə Yusif çətinliklə nəfəs alaraq qardaşına etiraf etdi. – Olesya ilə evlənmişəm. İndi onun adı Sədaqətdir.

İbrahim onu buraxdı, başını əllərinin arasına alıb oturdu.

– Valideynlərimiz bizi öldürəcəklər… Nə vaxt onu gətirəcəksən?

– Mən onu bura gətirməyəcəyəm, İbrahim. Biz Ukraynada yaşayacağıq. Mən ora köçmək üçün sənədlərimi toplamağa və vidalaşmağa gəlmişəm…

– Qaçırsan?! – deyə İbrahim etiraz etdi. – Elə bilirsən qaça biləcəksən?

O, cəzadan qaçmırdı. Yusifi universitetdən çıxarıb əsgərliyə göndərdilər. Altı yaşlı uşağın köhnə arzusu çin oldu – o, doğma Dağlıq Qarabağa yollandı. O, buraya öz evinin sahibi kimi deyil, sərhəddi qoruyan əsgər kimi gəlmişdi. Əslində isə o sadəcə müharibədə istifadə olunan “top yemi”[82] idi.

---

[82] Top yemi – məcazi mənada işlədilən bir ifadədir. Əsgər kütləsinin mənasız məhvə məhkum edilməsi deməkdir. İlk dəfə bu ifadəni Şekspir işlətmişdir. Bu ifadə öz mənşəyini “IV Henri” tarixi salnaməsindən götürür. Orada Uels şahzadəsi ilə söhbətində ser Jon Falstaff əsgərlərini belə çağırır. Hazırda bu ifadə

**Yusifin xatirələrindən:**

*Atam Ukraynada baş verənlər üçün məni bağışlamadı. O, əsl həyatın ağrı-acısını görmək və hiss etmək məqsədilə məni Dağlıq Qarabağın sərhəddinə atmaq üçün əlindən gələni etdi. Özü belə demişdi. Mən heç bir şikayət etmədim və qərarını dəyişdirməsi üçün ondan heç nə xahiş etmədim, geri dönmək üçün yol axtarmadım, çünki inanırdım ki, Allah izn versə, evə qayıdacağam. Hər gün mən həyat yoldaşımı xatırlayırdım. O, mənim harda olduğumu bilmirdi. Niyə onu narahat edim ki? Düşündüm ki, xidmətimi bitirib onun yanına əsl kişi kimi – atam kimi gələcəyəm. O, hələ də mənim qəhrəmanımdır. Atam döyüşdən qayıdanda çox düşüncəli və səssiz idi, ancaq ailəmizin kasıblığı və yoxsulluğunu görərək tez də özünü ələ aldı. Özünə biznes yaratdı, avtomobil dükanları şəbəkəsi açdı və tezliklə biz yeni, geniş bir evə köçdük. Uşaqlıq illərində mən ondan Dağlıq Qarabağdakı döyüşlər barəsində soruşanda o, həmişə eyni cavabı verirdi:*

*– Bu müharibə idi, oğul və hər hansı bir müharibə doğuşdan kordur, insanların simalarını fərqləndirmədən onları öldürür…*

*Biz bu müharibəni uduzduq. Baxmayaraq ki, rəsmi olaraq Rusiya öz iştirakını rədd etmişdi, amma o, Ermənistana tanklar, ən yeni silahlar və yaxşı hazırlanmış muzdlu döyüşçülər vermişdi. Bir dəfə atamın komandiri olduğu alay düşmən bölüyünü əsir götürdü və onların hamısı ruslar idilər.*

*– Siz burda nə iş görürsünüz? – deyə atam soruşdu. – Bu, bizim müharibəmizdir.*

*Sadəlövh! O müharibə əslində bizim deyil. O başqasının qərarı, başqasının haqqı, başqasının əyləncəsi idi. Biz isə sadəcə icraçılar idik. Xainlər. Yarıçürümüş bir imperiya dünyaya əvvəlki*

---

hərbi termin kimi istifadə olunur və bir qrup əsgəri aldadıcı manevr kimi döyüşə göndərib başqa bir səmtdən hücum etməkdir. Məhz aldadıcı manevr kimi döyüşə göndərilən əsgərlər “top yemi” adlanır (*tərc.*)

*gücünü xatırlatmaq üçün itaətkar vassallarını itələyərək özündən uzaqlaşdıranda vassallar da əllərindəki silahı yaxşı tutmalı və ta-maşanın uğur qazanması üçün bir-birlərini lazımi şəkildə öldürməlidirlər.*

*Elə o vaxt da atam əlini hər şeydən üzdü. Əlbəttə ki, əsir götürülən rus əsgərlərindən heç biri evlərinə sağ qayıtmadı, hətta onların cəsədləri belə sink tabutlarda*[83] *hər "daxmaya" gedib-çatmadı. Bundan sonra atam artıq döyüşə bilmədi.*

*O rusların heç birinin üzünü xatırlamırdı, amma öldürdüyü hər bir ermənini tək-tək xatırlaya bilirdi. Xüsusilə də birincisini – dan yeri söküləndə silahlı bir əsgər qapımızın kandarından içəri girdi. Bütün ailəmiz yuxarıda yatırdı, atam isə elə kandardaca onu dayandırdı... Öldürdüyü adamın cibindən pasportunu götürüb adını öyrəndi. Sonra qeydiyyatda olduğu ünvana gedib ölən oğlunun pasportunu anasına verdi. Bu ananın kədəri böyük qardaşlarından biri müharibədə öldüyü zaman atamın anasının kədəri kimi acınacaqlı idi. Ondan sonra atam bir daha döyüşə bilmədi. O erməninin ailəsinə toxunmadı.*

*Qəlbinin dərinliklərində nə isə bir şey qırılmışdı. "Düşmən sülhə meyl edirsə, siz də ona qarşılıq verin və Allaha təvəkkül edin. O, həqiqətən, hamını eşidir və hər şeyi bilir», – Quran deyir. Atamın bundan sonra daxilindəki barışıq səsinə qulaq asması ehtimalı çox az idi. Heç kim bizə sülh təklif etmədi. Biz də heç kimdən heç nə istəmədik, sadəcə öz doğma evimizi qoruyurduq. Dağlıq Qarabağ bizim üçün dəhşətli bir ağrıya, ruhumuzun əbədi əzabına, sağalmayan bir yaraya çevrildi. Gecələr Bakıdakı müvəqqəti yaşadığımız evin nazik divarlarından qardaşım və mən anamın yastığı bağrına basıb necə ağladığını eşidirdik. Atam isə az qala hər gün dan yeri sökülənə qədər mətbəxdə oturub doğma torpaqları uğrunda döyüşləri ağlında dolaşdıraraq siqareti siqaretə calayırdı. Partlayış və atəş səsləri, yaralı və işgəncə verilərək öldürülən silahdaş-*

---

[83] Sink tabut – Vyetnam müharibəsindən etibarən döyüşdə parçalanmış cəsədləri dəfn etdikləri tabut (*tərc.*)

*larının iniltisi və qışqırıqları hələ də onun qulağında səslənirdi. Azərbaycanın paytaxt küçələri onun üçün plov və paxlava, tünd və şirin qəlyan ətrilə deyil, Dağlıq Qarabağın barıt və kükürd, alov və napalm*[84] *qoxusu ilə qoxurdu. Əslində isə bu onun müharibəsi, bu onun müqəddəs cihadı idi. O, bu qorxunc dəqiqələrdə tənha deyildi. Onun qədirbilən dinləyicisi və susqun həmsöhbəti var idi. Onunla mətbəxdə həmin erməni əsgəri oturmuşdu.*

*– Biz çox qəddar olmuşuq, Yusif, – uşaq vaxtı gecə yarısı yuxudan oyanıb keçmiş əsgərlərin oturduğu siqaret tüstüsünə bürünmüş dar, balaca mətbəxə gedəndə atam mənə dedi. – Biz də öldürmüşük, kəsmişik, yandırmışıq. Amma o müharibəni uduzmuşuq. Xatirə olaraq isə bizə yalnız nifrət qaldı, çox nifrətimiz var, amma ilk növbədə, ermənilərə nifrət edirik. Münaqişənin "dondurulması" təcrübəsi heç bir şey vəd etmir. Bu oyanmağa çalışan yatmış vulkana laylay çalmaq kimidir. Siz nə qədər yaxşı oxuyursunuzsa, oxuyun, o, artıq yuxuya get məyəcək. Dağlıq Qarabağ bunun qanlı və təkzibedilməz sübutudur. Bir çox Azərbaycan və Ermənistan əsgərləri rusların əli ilə öldü. Təbii ki, bu, təəccüblü deyil, onlar bizim aramızda heç bir fərq qoymurdu. Onlar üçün biz hamımız eyni rəngdə - "qara" rəngdə idik. Ancaq biz – ermənilər və azərbaycanlılar həqiqi düşmənimizin kim olduğunu tanımaqdan şüurlu şəkildə imtina edərək bir-birimizi çox yaxşı fərqləndirməyə, təqib etməyə və öldürməyə davam edirik. Ruslar dərimizin rəngini xatırlatmaq fürsətini əsla fövtə vermirlər, bizi "qeyri-rus" adlandırır, cüzam xəstəliyinə tutulmuş insanlar kimi bizdən çəkinirlər. Sanki bütün dünya rusların idi, onların arasına sadəcə müəmmalı şəkildə çox az sayda "qeyri-rus"lar qarışmışdı.*

---

[84] Napalm – napalm bombası, müəyyən ədəddə yanıcı mayenin jeleləşdirilmiş benzin ilə qarışığı. İlk dəfə Sakit Okeanda Tinian müharibəsində istifadə edilmişdir. 1968-ci il Cenevrə Sülh Razılığına əsasən, napalm istifadəsi qəti surətdə qadağan edilsə də, hələ də Amerika, Fransa, İngiltərə və bir çox NATO-ya üzv ölkələr "kimyəvi silahları ən asan məhvetmə vasitəsi" bəhanəsi ilə istifadə edir (*tərc.*)

*– Mənim arvadım rus deyil, ukraynalıdır, – deyəndə mən artıq böyümüşdüm. Həyat yoldaşım sayəsində başa düşdüm ki, "ağlar" arasında "qeyri-rus"lar da çoxdur və onlar bununla fəxr edirlər. Onları rus adlandırmaq alçaltmaq deməkdir, çünki onlar torpaqlarını rusların imperiya ambisiyalarından qoruyan qəhrəmanların nəsilləridir. Sən demə, ruslar ukraynalıları əsrlər boyu məhv ediblər. Ölümün onları ailələri ilə birlikdə gözlədiyi qarlı-boranlı Sibirə sürgün edib, bütün bir bölgəni aclığa məhkum edib, sonra isə etnik rusları boş qalmış "qəbir"- evlərə yerləşdirmişlər. Bunun sayəsində Ukrayna xalqı da ruslaşaraq yer üzündən silinməli idi. Mən Azərbaycanda yaşadığım illərdə bunların heç biri haqqında məlumatım yox idi. Bir vaxtlar biz hamımız bir dərəyə sürülən qoyunlar kimi vahid sovet ölkəsi idik. Bir-birimiz haqqında nə bilirdik ki? Bizə nə deyirdilərsə, ancaq o qədərini bilirdik. Biz hətta bir-birimizin dilini belə bilmirik. Əsrlərlə bizi yeganə və "güclü" dil olan rus dilini öyrənməyə məcbur ediblər. Ana dilimiz isə özümüz üçün ikinci dərəcəli, lazımsız və "zəif" olmalı idi. Uşaqlarımız doğma sözdən və adət-ənənələrimizdən utanmalı idilər...*

*O zamankı Rusiya Prezidenti Medvedevin prezidentimiz İlham Əliyevə göndərdiyi bir məktub bütün dünyada görünməmiş bir rezonansa səbəb oldu. Qolodomoru*[85] *Ukrayna xalqının soyqırımı kimi tanısanız, Dağlıq Qarabağı unudun, – deyə Moskvadan Azərbaycanın rəhbərliyinə yazdılar.*

[85] Qolodomor – 1932-1933-cü illərdə indiki Ukrayna və Rusiyanın Kuban əyalətində süni olaraq törədilən qıtlıq səbəbilə 8 milyondan çox insanın öldüyü soyqırım aktı. Tarixi qaynaqlarda bu hadisə Qıtlıq-soyqırımı, Böyük Qıtlıq və ya Ukrayna soyqırımı adları ilə də tanınır. 1932-1933-cü il hadisələri ölkənin başlıca taxıl ehtiyatlarına da təsir edən qıtlığın bir hissəsi idi. Bu zaman əksəriyyəti etnik cəhətdən ukraynalı olan ölkənin böyük əhalisi aclıqdan ölmüşdür. 2006-cı ildən Qolodomor Ukrayna və başqa on beş dövlət tərəfindən Sovet hökumətinin bu xalqa qarşı törətdiyi soyqırım hadisəsi kimi tanınmaqdadır. Soyqırım zamanı nə qədər insanın öldüyü haqqında fikirlər müxtəlifdir. 2010-cu ildə Kiyev Apelyasiya Məhkəməsinin qərarına əsasən, aclıqdan qaynaqlanan demoqrafik itki 10 milyona yaxın olmuşdur (*tərc.*)

*O zamanlar adi insanlar Moskvanın bu təhdidlərinin mahiyyətini başa düşmürdülər. Çoxları bu qəribə və tükürpədici Ukrayna sözü olan "Qolodomor"u ilk dəfə eşidirdi. Bir şeyi başa düşürdük – ruslar hər an Ukraynaya aid olan bir şeyi tanımamağımızın müqabilində Dağlıq Qarabağı əlimizdən almağa kömək edən ermənilərə xəyanət etməyə hazır idilər. Deməli, Ukrayna onları nə iləsə çox bərk qəzəbləndirmişdi. Görünür, onlar Ukraynaya qarşı bizə etdiklərindən daha ağır cinayətlər törədiblər... Yalnız Ukraynaya köçdükdən sonra mən öyrəndim ki, Qolodomor 1932-1933-cü illərdə orada baş vermiş hadisədir (bizim onu tanıyıb-tanımamağımızdan asılı olmayaraq) və o prezident məktubunun mahiyyətini başa düşdüm... Və beləliklə də, Qolodomorun daha bir təsdiqedici dəlili olduğu ortaya çıxdı. Ruslar insanlığa qarşı törətdikləri cinayətlərinin ifşa olunmasından çox qorxurlar. O əməllərini gizlətmək naminə onlar yeni cinayətlər törətməyə hazırdılar. Əbəs yerə "qeyri-rus"lardan bu qədər qorxmurlar ki. Bu qorxular əsassız deyildir. Deyəsən, II Dünya Müharibəsində faşizm üzərində təkbaşına qələbə qazandığını düşünən vicdansız bir millətin nümayəndələri özləri də faşizmə yoluxmuşdular. Berlin üzərindəki qələbədən, evləri qarət, qadınlara təcavüz etdikdən sonra bəzi sovet "döyüşçüləri" özləri ilə birlikdə təkcə qənimət yox, həm də görünməyən faşizm virusu gətirmişdilər. Bədbəxtlik üzərində bir dəfə qələbə çalan "qalib"in qəlbi ikinci dəfə riqqətə gəldi. Əlil qalmış Çeçenistan onları bağışlayacaqmı? Qan gölünə dönmüş, lakin fəth olunmamış Əfqanıstan necə? Bəs Cənubi Osetiya? Gürcüstan? Ukrayna? Və nə vaxtsa, müsəlman dünyası Beslanda[86] öldürülən uşaqları ona bağışlayacaqlarmı?*

---

[86] Beslan şəhərində baş verən terror aktı nəzərdə tutulur. Terrorçular şəhərdə yerləşən 1 nömrəli məktəbə ilk dərs günü (1 sentyabr) hücum etmiş və nəticədə, 1100 nəfəri əsir almışdır (777 nəfər uşaq). Əsirlərin xilas edilməsi əməliyyatına Rusiya ordusunun xüsusi təyinatlıları cəlb edilmişdir. Əsirlərin xilas edilməsi əməliyyatı zamanı 334 nəfərdən çox şəxs həlak olmuşdur. Həlak olanların 186 nəfəri uşaqlar idi. Öldürülən şəxslərin əksəriyyəti etnik baxımdan çeçen və inquşlar idi (*tərc.*)

*İnanıram ki, zaman ötəcək və faşizmin yenidən məhkum ediləcəyi ikinci Nürnberq sınaqlarından*[87] *dünya sarsılacaq. İndi bu, həm də mənim müharibəmdir, mənim müqəddəs cihadımdır.*

*Bu gecə keşik çəkirik. Əminəm ki, sərhəddən sağ-salamat geri qayıdacam.*

Yusifin Kiyev hava limanında Olesya ilə vidalaşmasından və Azərbaycana qayıtmasından altı ay keçdi. İlk vaxtlarda ona hər gün zəng edir, romantik məktublar yazır, yanına köçüb-gəlməsi üçün lazım olan sənədlərin toplanmasında bürokratların onu get-gələ salmasından danışırdı (azərbaycanlı məmurlar ukraynalı həmkarlarından o qədər də seçilmirdilər, ona görə də iş uzanırdı). Olesyanın onunla bağlı, demək olar ki, hər şeydən xəbəri var idi.

Onlar hər axşam veb-kamera vasitəsilə danışırdılar, hər günün sonunda təəssüratlarını bölüşürdülər, bir-birlərinə xeyirli gecələr arzulayırdılar və eyni röyanı görürdülər. Sonra isə... sonra əlaqə qəfildən kəsildi. Əlbəttə ki, Yusif onu bir müddət olmayacağı barədə xəbərdar etmişdi… Demişdi ki, o, idman yarışlarına gedəcək və orada ona hər gün zəng vurmağa və məktub yazmağa imkanı olmayacaq. O, əvvəllər də yarışlara gedirdi, ona görə də o, narahat olmadı.

Heç nə olmaz, sonra danışarlar. Əsas odur ki, Yusif Azərbaycandakı işlərini tezliklə yoluna qoyub onun yanına qayıtsın. Bilirdi ki, onun valideynləri bu nikahın qəti əleyhinədirlər, amma inanırdı ki, zamanla onların qəzəbi mərhəmətə çevriləcək. Axı,

---

[87] Nürnberq sınaqları – İkinci Dünya Müharibəsinin qalib Müttəfiq dövlətləri tərəfindən məğlubiyyətə uğradılmış Nasist rejiminin öndə gələn şəxsiyyətlərini mühakimə etmək üçün 1945-1949-cu illərdə qurduqları məhkəmədir. 1 oktyabr 1946-cı ildə Nürnberqdə Beynəlxalq Hərbi Tribunalın əsas müharibə cinayətkarlarını qınayan hökmü çıxarıldı. Bəzən "Tarix Məhkəməsi" də adlanır. Bu, bəşəriyyət tarixindəki ən böyük davalardan biri deyil, həm də beynəlxalq hüququn inkişafında mühüm mərhələ idi. Nürnberq sınaqları faşizmin son məğlubiyyətini qanuni şəkildə təmin etdi (*tərc.*)

onun anası onları dəstəklədi. Atası isə "hə" dedikdən sonra sakitcə əlavə etdi:

– Nəhayət ki, sən etibarlı əllərdəsən, Olesya. Daha mən rahat ölə bilərəm…

Aylar ötürdü, amma Yusifdən heç bir xəbər yox idi. Olesya artıq narahat olmağa başlamışdı, amma bunu nə başqalarına, nə də özünə etiraf etmirdi. Lakin onun sualları hər gün çoxalırdı. Yusif hardadır? Niyə onun yanına qayıtmır? O, doğrudanmı, birdəfəlik yoxa çıxdı? Görəsən, doğrudanmı, onu unutdu, valideynlərini dinləyib azərbaycanlı qızla evləndi? O, artıq nə düşünəcəyini bilmirdi. Bir söz soruşmağa kimsə də yox idi. Ona ancaq gözləmək və Yusifin burada onun haqqında danışdıqları kimi bir adam olmadığına inanmaq qalırdı. Yusif sözünün üstündə duracaq.

**Olesyanın xatirələrindən:**

*Bir dəfə mən şəhərdə Artyomla qarşılaşdım. Biz universiteti bir yerdə oxumuşduq. O mənə evlənmə təklif etmişdi, bilmirəm ciddi idi, yoxsa zarafat edirdi. Məni görən kimi Artyom nümayişkaranə bir şəkildə yoldaşlarından ayrılıb mənə tərəf gəldi. Eşitmişdim ki, o da evlənib və həyat yoldaşı altı aylıq hamilədir. Mənim ərim isə yanımda deyildi…*

*– Hamının o müsəlman haramzadanın sənin başına açdığı oyundan xəbəri var! – deyə Artyom mənə tərəf əyiləndə məni alkoqolun iyisi vurdu. – Nahaq yerə mənə ərə gəlmədin. Mən səni heç vaxt tərk etməzdim…*

*Mən geri çəkildim. Yusif spirtli içkilər içmirdi, heç mənim atam da heç vaxt içki içməmişdi. Ona görə də mən kişinin alkoqol qoxmasına vərdiş etməmişdim. Bu isə səhər tezdən artıq şəhərdə sərxoş vəziyyətdə gəzir… Mənim ona yazığım gəldi.*

*– Get evə, Artyom, – deyə mən köhnə heyranıma məsləhət verdim. – Ayıq ol və arvadının yanına qayıt.*

*– Unut onu, o ki səni unudub. Sən artıq azadsan, – bunu hər gün hər yerdən eşidirəm.*

*Mən isə özümü "azad" hiss etmirdim. Universitet yoldaşlarım ilə bütün əlaqələrimi kəsdim, demək olar ki, işə getməkdən başqa şəhərə çıxmırdım. Həmkarlarımın da yanında başım aşağı idi. Mənə yazıqları gəlməsini görmək çox ağır idi...*

*Mən bir gün səhər bir daha o işə getməyəcəyimi, gedə bilməyəcəyimi deyəndə anam məndən kədərlə soruşdu:*

*– Müsəlman evlilik ritualından başqa sizi bir-birinizə nə bağlayır? Rəsmi olaraq siz evli deyilsiniz. Həyatını yenidən başla, qızım. Dur, qalx ayağa, işinə get, insanlardan gizlənməyə çalışma. Yusif səni tərk edib…*

*Mən sakitcə yığışıb evdən çıxdım. O günlərdə mən hər şeyi qeyri-ixtiyari edirdim – işdə rəhbərliyin mənə tapşırdığı işləri yerinə yetirir, anamın mənə verdiyi siyahıdakıları almaq üçün dükana gedir, kiminləsə nəsə danışırdım, axşam isə evə gəlib, otağımda qapanıb Yusifə uzun-uzadı suallarla dolu məktublar yazırdım. Mənim bütün suallarım cavabsız qalırdı. Hər gün poçt ünvanımı yoxlayır, telefonu əlimdən yerə qoymurdum: birdən Yusif zəng vurar, mənsə eşitmərəm...*

O isə nə zəng vurmurdu, nə də yazmırdı. Onun haqqında artıq keçmiş zamanda danışmağa başladılar. Bu isə onun ürəyinə güllə kimi dəyirdi. Sanki bu olanlar daha heç bir şeyi uzatmağın mənası olmadığını anladığın qorxulu bir yuxudur. Olesya elə bil yuxudan oyandı. Uçağa bilet alıb Yusifə qısa mesaj göndərdi: *"Qarşıla məni. Sənin yanına gəlirəm. 23:30-da orda olacam".* Məktubu göndərib kompüteri söndürdü. Cəld bir neçə əşya toplayıb evdən güllə kimi çıxdı.

O, ilk dəfə idi ki, tanımadığı, naməlum bir yerə gedirdi. Ola bilsin ki, onu heç kim qarşılamayacaq. O, yad bir ölkədə itə bilər. Uzaq, yad ölkə onu hardan və niyə gəldiyi məlum olmayan arzuolunmaz bir qonaq kimi qova bilər. Nəhayət, Olesya açarı olmayan

bağlı bir qapıya da rast gələ bilər. Buna baxmayaraq, o, qəlbinin dərinliklərində düz iş gördüyünü düşünürdü. Yusif onun əridir və onu geri qaytarmağa borcludur. Yoxsa ömrünün sonuna qədər peşman olacaq.

**Yusifin xatirələrindən:**

*...Qospitala necə düşdüyümü xatırlamıram. Orada nə qədər vaxt keçirdiyimi bilmirəm. Tibb müəssisələrində vaxt başqa cür ötüb-keçir, xüsusilə də əgər sən reanimasiyada komada yatırsansa, onda vaxtı tamamilə itirirsən. Mən özümə gələndə keçmişdə olanlar qısa-qısa, qırıq-qırıq yadıma düşməyə başladı və məni dəhşət bürüdü. Həyat yoldaşım! Nə qədər vaxt keçib?*

*Yarım ildən çox vaxt keçmişdi. Mənə dedilər ki, o, məni çoxdan unudub. Onların qadınları heç yarım saat da gözləmirlər, mən isə yarım il istəyirəm. Dedilər ki, mən qospitalda olduğum müddətdə Olesyadan nə bir məktub, nə də bir telefon zəngi gəlməyib. Bu halda mən ona lazım deyiləm. Məni inandırmışdılar ki, o özünə artıq başqa birini tapıb. Onda əmin olum deyə zəng vurmaq üçün telefonu mənə vermələrini istəyəndə atam qəzəblə yerindən sıçradı:*

*– Bilirsən nə var, ay oğlan? Xəyal qurma! Orada sənin arvadın yoxdur və heç olmayıb da, bildin?!*

*Əlbəttə ki, mən başa düşdüm. Məndən nəyi isə gizlədirlər. Nəyi gizlətdiklərini də elə o anda anladım. Qardaşımı gizli şəkildə xəstəxanada mənə internet bağlantısı olan bir dizüstü kompüter gətirməyə məcbur etdim. Poçta girəndə donub qaldım. Mən ömrümdə heç bir zaman bu qədər oxunmamış məktub görməmişdim...*

*Bir-birinin ardınca məktubları açıb oxuyurdum. Gözlərim çapləşənə qədər oxudum. Sərhəddə baş verənlərdən sonra görmə qabiliyyətim zəifləmişdi, tez-tez dözülməz baş ağrılarım olurdu. Mən yaxşı qurtarmışdım, çünki başqaları evə gözsüz, əlsiz, ayaqsız, hətta tabutda qayıtmışdılar. Müharibə haqqında düşünmək istəmirdim. Bir az dincəlib yenidən məktub oxuyurdum. O sətir-*

*lərin arasından həyat, sevgi və inam axırdı. Olesya uzun müddət gözləmişdi. Hər məktubunda yazırdı ki: "Sən hardasansa, mənim ürəyim də ordadır".*

*"Sən harda olursansa-ol, Yusif...", – deyə sözünə davam edirdi. Mən hələ heç bir zaman kiminsə bu qədər çox sevildiyini və gözləyəninin olduğunu görməmişdim. Amma başa düşürdüm ki, hətta bu qədər dərindən aşiq olan bir qadın əbədi olaraq gözləyə bilməz. Axı mən ona əsgər getdiyimi deməmişdim. Yalan danışaraq yarışlarda olduğumu demişdim. Axırıncı məktubu oxumaq lazımdır. Hətta orada sevgi sözlərinin əvəzinə məyusluq və nifrət olsa belə, mən yenə də o məktubu açmalıyam...*

*...Gözlərimə inana bilmədim. O, mənim yanıma gəlir. O artıq, demək olar ki, yaxındadır. O, heç nəyi unutmayıb. Minlərlə kilometrlər bizi bir-birimizdən ayırmasına baxmayaraq, biz özümüzü bir yerdə hiss edirdik. Çünki ürəyin çizilməmiş sərhədləri var. O, dünyanın bütün gömrük və terminallarından qeydiyyatsız keçə bilər, bütün hava və quru yollarını maneəsiz aşa bilər, dəniz və okeanları gəmilər olmadan da keçə bilər. Nəhayət, kompüterin monitorundakı mesajı oxudu: "Qarşıla məni. Sənin yanına gəlirəm. 23:30-da orda olacam". Hər şeyi unudub onu qarşılamağa tələsdim.*

Olesya onu görəndə göz yaşlarını güclə saxladı.

Terminalın yaxınlığında onu qara gözləri çuxura düşmüş, eybəcər, cılız, qaşını kəsib almacıq sümüyünə qədər uzanan çapıqlı bir adam gözləyirdi. O, əsaya söykənərək dayanmışdı. Əlində bir dəstə qırmızı qızıl güllər tutmuşdu. O, bir anlıq ayaq saxladı. O, artıq Yusifin necə göründüyünü unudub? Bəlkə, o, onun əri deyil, haqqında çox şeylər danışdığı böyük qardaşıdır? Bəlkə, onun böyük ailəsindən tamamilə başqa bir adamdır? Bəs qızılgüllər? Onun hansı gülü sevdiyini ancaq o bilirdi…

O adam onu görəndə gülümsədi, amma bu başqa bir təbəssüm idi. Onun burda başına nə iş gəlmişdi? Onun arxasınca Ukraynaya

gələn o həyat dolu oğlan necə olmuşdu? Olesya bir neçə addım atandan sonra qaça-qaça gəlib Yusifin boynunu qucaqladı. Və artıq göz yaşlarına hakim ola bilmədi. Qalın qara saçlarına düşmüş ilk gümüşü-boz telləri gördü.

– Saçlarıma baxma, – deyə Yusif onu daha bərk qucaqladı. – Dağlıq Qarabağda hətta uşaqların da saçı ağarıb. Mən başları ağappaq olan balaca uşaqları görmüşəm… Bağışla…

Onun üzündəki təbəssüm yoxa çıxdı və o, bir daha müharibə haqqında danışmadı. O isə heç bir zaman o torpaqlarda onun başına nə gəldiyini bilmədi. Bir tək onu bilirdi ki, onun dəstəsi minaatanların atəşinə tuş gəlib və demək olar ki, hamısı ölüb. Yusifi isə nə isə hifz edib. O inanırdı ki, vidalaşarkən anasının ona bağışladığı müsəlman amuleti onu qorumuşdu. Sonra o, xəstəxanada yatmışdı. Üç həftədən çox onu travmatik şokdan ölməsin deyə süni komada saxladılar. Daha sonra isə o, yenidən danışmağı, yeməyi, yeriməyi və insanları tanımağı öyrəndi.

Olesya isə ondan zəng etmədiyi üçün inciyirdi. Gecələr çox dəhşətli yuxular görürdü. Həyat yoldaşına qarşı günahkar olduğunu düşünürdü. Ona görə ki, o, aydın səma altında yaşadığı bir zamanda o, müharibədə yaralanmışdı. Ona görə ki, az qala başqaları onu arvadını unutmasına, başqa bir həyatının olmasına inandırmışdılar. Ona görə ki, bədbəxtlik üz verdiyini əvvəlcədən duymayıb, elə həmin anda onun yanına gəlməyib, o biri dünyadan qayıdanda onun yanında olmayıb. Görəsən, nə vaxtsa bu əzablardan qurtula biləcəkmi?

**Yusifin xatirələrindən:**

*Olesya ilə demək olar ki, bir ay valideynlərimin evində qaldıq, son reabilitasiya kursunu keçdim və sonra Ukraynaya köçmək üçün sənədlərimi toplamağa başladım. Mən vətəndaşlığımı dəyişdirməli, Ukrayna pasportu almalı və sevdiyim qadınla evlənməli idim. Görürdüm ki, Olesya valideynlərimin xoşuna gəlir. Onlar*

*onun ağıllı, gözəl, tərbiyəli, böyüklərə hörmət edən bir qız olduğunu qəbul edirdilər. Atam onunla islamdan danışırdı. O, çox çətin ki, nə vaxtsa belə bir diqqətli və savadlı həmsöhbətlə rastlaşmışdı. Onlar anamla birlikdə ev işləri ilə məşğul olurdular, o da belə bir bacarıqlı köməkçisinin olmasından çox məmnun idi.*

*Olesya əsl Azərbaycan yeməkləri qovurma-plov, sulu xəngəl, xəmiraşı, xəngəl, qutab, dolma, paxlava və başqa dadlı yeməkləri hazırlamağı öyrəndi. Bundan daha yaxşı bir gəlin arzulamaq olardı? Buna baxmayaraq, valideynlərim bizim nikahımızı qəbul etmək istəmirdilər. Olesya onların çox xoşuna gəlirdi, amma arvadım olmasını istəmirdilər. Onun islamı qəbul etdiyini biləndə belə yenə də onların təsəvvüründə bu, az idi. Gərək o, müsəlman doğulaydı! Mən birmənalı şəkildə inanclı azərbaycanlı ilə evlənməli idim. Anam artıq mənim seçimimlə razılaşmaq qərarına gəlmişdi. Atam isə bu nikah barədə heç bir şey eşitmək istəmirdi. Deyirdi ki, qardaşına bax, gör o, Mirvari ilə necə xoşbəxtdir.*

*Mirvari isə gizlicə Olesyanın paxıllığını çəkirdi. Onların qardaşımla belə münasibəti olmayıb. Onları valideynlər tanış edib və deyiblər: siz bir-birinizə yaraşırsınız. Onlar bir-birlərini ilk dəfə öz toylarında görüblər. Bəli, o, ərini bəyəndi, onu anlayışla qarşıladı və ona hörmət etdi. Onların iki övladı var, ancaq gözlərində o ehtiras yoxdur. Deyəsən, İbrahim də tədricən razılaşdırılmış evlilik və sevgi evliliyi arasındakı fərqi anlamağa başlamışdı. Onlar həyat yoldaşı ilə bir-birlərini yenidən tanımalı idilər. Bəlkə, onda, həqiqətən, bir-birlərini sevərlər.*

*– De görüm sən bunu necə elədin? – deyə mən Olesya ilə onu tanış edəndə Conni-Cavanşir heyrətlə soruşdu.*

*– Nəyi, qardaş? – deyərək mən özümü elə apardım ki, guya heç nə başa düşmürəm.*

*– Belə bir qızı özünə aşiq etmisən! Bunu necə bacardın? – deyə hər ehtimala qarşı onun məsləhət aldığını eşidən olub-olmadığını yoxlamaq üçün ətrafa boylanan Conni səbirsizliklə soruşdu.*

*– Mən özüm ona aşiq olmuşam, – deyə balaca qardaşıma cavab verdim. – Nə vaxtsa sən də belə bir qızla tanış olub aşiq olacaqsan. Onda belə axmaq suallar da verməzsən!*

*Bir dəfə Olesya mənə dedi:*

*– İstəyirsən mən səni öz şəhərinlə tanış edim?*

*Mən Vinnitsaya gedəndə bunu ona təklif etdiyimi xatırladım. O mənə bizim Dənizkənarı Bulvarımızı göstərdi, mən isə ona ilk dəfə yuxuda gördüyü fontandan danışdım. Sonra barmağı ilə Şirvanşahlar sarayını göstərdi, mən isə bir saat vaxtilə burada yaşayan insanlar haqqında nağıllar uydurmalı oldum. O, məhz insanların tarixçələri ilə maraqlanırdı, o yerlərin enerjisini hiss edirdi. İçərişəhərdəki məşhur Qız qalasının daş divarlarına toxunduğumuz zaman öz qızını sevilmədiyi zəngin bir şəxsə vermək niyyətində olan şah haqqındakı qədim əfsanəni söylədim.*

*Qız evliliyə razılıq verməyə məcbur oldu, lakin bir şərt qoydu: toy yalnız atası sahildə onun üçün hündür bir qüllə tikdirdiyi zaman olacaq. İnşaat getdiyi vaxt o, şahın fikrini dəyişdirəcəyinə ümid edirdi. Zaman keçdi, qala tikildi, lakin şah qərarını dəyişdirmədi. Onda gözəl qız qalanın zirvəsinə çıxıb özünü dənizə atdı...*

*Olesya kədərli əfsanələri çox sevirdi. Mən isə Olesyaya hər gün bir az çox aşiq olurdum. O mənim yanımda idi və mən sağalırdım, hər gün özümü bir az daha yaxşı hiss edirdim. Baş ağrılarım keçmişdi, əsanı unutmuşdum. Adətimizə əsasən, biz onunla ayrı-ayrı otaqlarda yatırdıq. Demək olar ki, bütün günümüzü bir yerdə keçirirdik. O mənə ucadan kitab oxuyur, xəstəxana prosedurlarına və rəsmi orqanlara mənimlə birlikdə gedirdi. Şəhərdə gəzərkən əllərimizdən tuturduq, gecə isə ayrı-ayrı yataq otaqlarında yatırdıq. Bu artıq dözülməz idi. Sevdiyin qızın çox yaxında, divarın arxasında olduğunu bilirsən, artıq sənin həyat yoldaşın olduğunu da bilirsən, amma ona toxunmağa cəsarət etmirsən. Mən artıq buna nə qədər dözə biləcəyimi təsəvvür etmirdim...*

*Bir hadisə hər şeyi dəyişdirdi. Bir dəfə şəhərkənarında dostlarımızla birlikdə gəzintiyə çıxanda mən Olesyaya zümrüd gölünü*

*göstərmək qərarına gəldim. Mən bu gölü uşaq vaxtından çox sevirdim, hətta internetdə yazışanda onu özümə aşiq etmək üçün bu gölün şəkillərini də ona göndərmişdim. Bu gölü ona həyatda göstərməyin vaxtı gəlib çatdı. O, bunu çox gözləmişdi. Son anda dostlarımızın nəsə bir işi çıxdı və onlar bizimlə birlikdə şəhər kənarına gedə bilmədilər. Əvvəlcə mən də bu səfəri təxirə salmaq qərarına gəldim, çünki biz hələ də Olesya ilə bir yerdə tək qala bilməzdik, amma həyat yoldaşımın gözlərindəki yaşı görüb fikrimi dəyişdim.*

*– Görünür, onlar mənə görə gəlmədilər, – deyə o, sakitcə bildirdi. – Bağışla, Yusif. Nə qədər ki, sənin yanında yad adam var, heç kim səninlə ünsiyyət qurmaq istəməyəcək...*

*Mən onu qucaqladım və sonra hansısa bir qüvvə məni sükan arxasında oturmağa sövq etdi. Olesya isə yanımda oturdu. Biz şəhər kənarına yola düşdük – bütün gün, təkbaşına. Mən onu həmin gölün yanına gətirdim. Ətrafda heç kim yox idi. Suyun üzərində elə səssizlik vardı ki, sanki göl yatıb. Tənha bir quş arabir səs salır, gölün üzərindəki həzin meh isə ərtafdakı ağacları titrədirdi...*

*Heç düşünmədən paltarlarımı soyunub uşaq vaxtı olduğu kimi suya tullandım. Qəfil dalğaların sıçrayışından Olesya qışqırdı:*

*– Niyə belə edirsən? Su buz kimidir. Xəstələnərsən!*

*– Ağlına belə gətirmə! – səbəbini bilmirdim, amma mən özümü uşaq kimi aparırdım. – Yüz ildir ki, üzmürəm. Yaxşı olar ki, mənə qoşulasan!*

*– Hə, məcburam! – deyərək Olesya özünü elə apardı ki, guya əsəbiləşib, amma içində güldüyü səsinin titrəməsindən anlaşılırdı. – Axı kimsə səni sahilə qaytarmalıdır... Ancaq bir şərtim var – mənə baxmayacaqsan!*

*Mən üzümü çevirdim, o, paltarlarını soyunub suya girdi. Gözlərimi açmadan onun əllərindən tutdum. Hiss etdim ki, o, ya soyuqdan (su, həqiqətən də buz kimi idi), ya da həyəcandan (mən həyəcandan əsirdim) tir-tir əsir. Verdiyim bütün sözləri unudub gözlərimi açdım. O, suyun içərisində qarşımda donub qalanda, Allaha and olsun, əsl su pərisinin gözləri kimi onun gözləri zümrüd*

*rəngdə idi. Mən heç bir zaman belə gözlər görməmişdim. İlk dəfə idi ki, biz tək qalmışdıq. Evə tamamilə başqa insanlar kimi qayıtmışdıq.*

*Yola düşəcəyimiz gün yaxınlaşırdı. Bu, mənim atamı daha da qəzəbləndirirdi. Niyə də olmasın, onun bütün ümidlərini gerçəkləşdirəcək olan oğlunu kimlərsə əlindən alırdı...*

*– Burada yaşayın, uşaqlar, – anam dedi. – Allahın izni ilə cəmiyyət də bu evliliyi qəbul edər. O zaman atanız da etiraz etməz.*

*– Yox, – mən artıq bu həyatın necə olacağını yaxşı təsəvvür edirdim. – Bizi qəbul edənə qədər həyat yoldaşım nə qədər çəp baxışlara, pıçıltı ilə arxasınca danışmalara və təhqirlərə dözməli olacaq? Əgər bunlara dözə bilməyib qaçsa, nə olacaq?*

*– Eyni şey səni də orda gözləyir. Dözə biləcəksən?*

*– Mən kişiyəm. Öhdəsindən gələrəm.*

*Əlbəttə ki, biz qala bilərdik, amma Olesya hər gün anasına zəng vurur və mən hər dəfə onun anasının dəstəyin o biri ucunda ağladığını eşidirdim. Yəqin o, elə düşünürdü ki, bir daha qızını görməyəcək. Mən onu öz hərəmxanamda saxlayıram, o isə birdəfəlik burada oturub, pərəncə*[88] *geyinib insanlardan qaçacaq. Nə isə etmək lazım idi...*

*– Bax haa, elə elə ki, Abbasəli kimi olmayasan! – deyə atam məni qorxudurdu.*

*Abbasəli onun böyük qardaşı idi. Valideynlərinin iradəsinə zidd olaraq Şadi adlı bir pravoslav erməni gözəli ilə evləndi. Onu çox sevirdi. Bütün diqqəti onun üzərində idi. Onun üçün ayrıca bir ev də tikdirmişdi. Tezliklə onların bir oğlu, sonra isə bir qızları dünyaya gəldi. Şadi isə islamı qəbul etmədi. Dağlıq Qarabağda etnik münaqişə baş verəndə və əri silaha sarılanda qaranlıq gecələrin birində Şadi uşaqlarını götürüb anasının yanına – İrəvana getdi. İndi isə Abbasəli öz*

---

[88] Pərəncə – müsəlman ölkələrində, ələlxüsus da Mərkəzi Asiya və Yaxın Şərqdə cadraya bənzər və yalançı qolları olan, eləcə də üz nayihəsində torcuğu olan qadın üst geyimi. Niqabdan və çadradan fərqli olaraq bu geyim növü başdan ayağa bötüv bir parcadan ibarətdir (*tərc.*)

*ailəsinə qarşı vuruşmalı idi. O isə həyat yoldaşını deyil, müharibəni günahlandırırdı.*

*– Müharibə – bu, sevimli qadınının artıq səni sevməməsi deməkdir, – sonuncu gecə atəşin ətrafında oturarkən o, atama dedi. – O, bütün doğma və yad, sevgi və nifrət dolu, tanış və naməlum qadınların xüsusiyyətlərini qəribə bir şəkildə birləşdirdi. Bütün sədaqətlə sevməyi və eyni zamanda acı çəkməyi bacaran qadınları... Həyatını qurban verməyə hazır və geriyə dönən yolu birdəfəlik unudaraq dünyanın o biri ucuna qaçmaq istəyən qadınları…*

*Növbəti döyüşdə o həlak oldu. Özünü güllənin altına atmışdı, güllələr də ondan yan keçməmişdi. Şadi və onun uşaqları barədə bir daha biz heç bir şey eşitmədik. Onlarla əlaqəni birdəfəlik itirdik… Ukraynalı qızla evlənərək Ukraynaya köçüb gedəndə mənim haqqımda evdə belə deyəcəklər: "O, Abbasəlidən də pis iş gördü". Mən onlar üçün məşhur şair Füzulinin "Leyli və Məcnun" əsərinin kədərli qəhrəmanı "Məcnun" olacam. İlk dəfə o poetik beytləri oxuyarkən belə bir şeyin mümkün olduğuna inanmadım. Lakin zaman gəldi və mən məhəbbətdən başımı itirdim. Olesya mənim Leylim oldu. Məhz elə bu adı da biz öz qızımıza qoyacağıq.*

*Həlledici gün gəlib çatdı. Axşam biz Ukraynaya yola düşməli idik. Elə mən əşyalarımı toplayıb bitirmişdim ki, qəfildən qapı elə bərk çırpıldı ki, az qaldı çərçivəsindən çıxsın. Atam mənim otağıma girib var gücü ilə sol əllə mənə bir yumruq vurdu. Ondan bu hərəkəti gözləmədiyimdən ayaq üstə güclə dayandım, hətta bir addım geriyə çəkildim.*

*– Niyə geri çəkilirsən? – deyə o bağırdı. – Kişisənsə, özünü müdafiə elə!*

*– Mən səninlə dava etməyəcəyəm, – o vaxt mən ancaq bunu deyə bildim. – Allah ataya əl qaldırmağa icazə vermir…*

*– Hə? Evdən qaçıb getməyi sənə Allah buyurub?*

*Mübahisə etmək olmazdı. Mən yenidən əşyalarımı yığmağa başladım.*

*Atam çiyinlərimdən tutub var gücü ilə məni silkələdi:*

*– Oğul! Ora getmək lazım deyil! Evdə sən çempionsan. Orda isə heç kimsən...*

*Mən ona nə deyə bilərdim ki? Onsuz yaşamaqdansa, heç kim olmağı üstün tuturdum. Ayağına döşəyə biləcək bir qadın yoxdursa, dünyanın bütün titulları və imtiyazları nəyə gərəkdir? Qoy elə mən heç kim olum. O sakitcə mənə qapını göstərdi. Arxama baxmadan evdən çıxdım. Atam bir daha məni dayandırmağa çalışmadı. Ona heç bir zaman deməmişəm (bizim hisslərimiz haqqında danışmaq adətimiz yoxdur), amma o, bu gün də mənim üçün əsl kişi nümunəsidir. Həyat onu nə qədər küncə qısnasa da, o, hər dəfə ayağa qalxır, çiyinlərini irəli verir və inadla irəliləyirdi.*

*Bir dəfə Azərbaycanda rəqibləri dünən yeni maşın dəsti gətirildiyini biləndə onun avtomobil salonlarından birini yandırmışdılar. Atam əl çəkmədi. Günahkarları tapıb cəzalandırdı, iş yerini yenidən bərpa etdi, itirdiklərini geri qaytardı. İbrahimlə mənə isə dedi ki: "Heç vaxt təslim olmayın, oğullarım! Hər zaman sona qədər gedin!". Buna görə mən ona hər zaman hörmət edəcəm. Əslində o məni belə böyüdüb. O mənə öz inanclarını müdafiə etməyi öyrədib... Öz çıxarları ilə deyil, vicdanla hərəkət etməyi öyrədib... Ürəyin hardadırsa, orada olmağı öyrədib... Atamın güc və cəsarəti, hər şeyi edə biləcəyimə əminlik, hər şeyi düzgün etdiyimə inamım olmasaydı, mən əsla bu gün evdən çıxıb getməzdim.*

*Bilirəm ki, gün gələcək, biz yenidən görüşəcəyik və mən bu sözləri atama deməyə özümdə cəsarət tapacam. Əminəm ki, mən heç bir söz deməsəm belə, atam hər şeyi anlayacaq.*

Yayın sonlarına doğlu biz Ukraynaya qayıtdıq. Kiyevdə uçaqdan endik, Vinnitsaya gedən qatara bilet aldıq, gözləmə zalında oturub bir az istirahət etdik. Yeni həyat haqqında düşünmək lazım idi. Olesya Yusifi, əvəzini heç bir zaman verə bilməcəyi çox şeydən məhrum etdiyini başa düşürdü. Öz gözləri ilə gördü ki, o, Azərbaycanda çox nailiyyətlər əldə edə bilər – Yunan-Roma güləşi üzrə çempion ola bilər, nəhəng avtomobil salonları şəbəkəsinin varisi

ola bilər. Bəs onu burda nə gözləyirdi? Ukrayna onu ehtiyatla qarşıladı. Vinnitsada qatardan enəndə arxalarınca əyri barmaqlı olan əllərində titrə-titrəyə birində əsa, digərində isə dama-dama çanta tutan boz saçlı yaşlı bir baba gəlirdi. Yusif qocaya tərəf dönüb platformadan çıxmağa kömək etmək üçün ona əl verdi.

– Çirkli əllərini çək, qara[89]! – deyə qoca əlindəki əsa ilə onu hədələyərək rus dilində bağırdı – Rədd ol mənim ölkəmdən!

Azərbaycanlı oğlanın çöhrəsinə qara bulud gəldi. O, sakitcə kənara çəkildi, çünki böyüklərə hörmətlə tərbiyə olunmuşdu. Ukraynalı həyat yoldaşı isə onun yanaqlarının utanc və qəzəblə qızardığını hiss etdi:

– Bu, azad şəhər, azad ölkədir, – deyə dava edən qocaya bacardığı qədər sakit səslə deməyə çalışdı. – Burada hər kəsin yaşamaq hüququ var.

Yusif onun əlindən tutub oradan uzaqlaşdı. Onlar yaşlı adamın lənətli baxışları və yoldan keçənlərin səssiz baxışları ilə müşayiət olunan platformanı tərk etdilər. Yeraltı keçiddə onları iki polis əməkdaşı dayandırdı və Yusifdən sənədlərini təqdim etməsini tələb etdi. O, heç bir söz demədən pasportunu çıxarıb onlara verdi. Nə qədər baxsalar da, heç bir cinayət əməli aşkarlaya bilmədikləri üçün sənədləri geri qaytarmalı oldular. Yerli asayiş keşikçiləri daha çox həyəcanlı olan Olesyaya isə diqqət yetirmədilər, amma onun da sənədlərinə baxa bilərdilər. O, özünü yenidən narahat hiss etdi – azad ölkəsinin onun üçün doğma evini tərk edən adamı bu qədər yad qarşılayacağını gözləmirdi.

Yusif ətrafdakı insanların niyə bu qədər kədərli və aqressiv olduğunu, küçədə, dükanlarda və ictimai nəqliyyatda söyüş söydüklərini, bir-birinə vəhşi canavar kimi baxdıqlarını, qocaların ətrafa lənət yağdırdıqlarını, cavanların isə onlara söyüş və təhqirlə cavab verdiklərini soruşanda o, nə cavab verəcəyini bilmədi… Yusif şikayətlənmirdi, sadəcə təəccüb edirdi. Deyirdi ki, belə gözəl şəhəri-

[89] Qara – Sovet İttifaqı illərində ruslar qafqazlıları belə adlandırırdılar (*tərc.*)

niz var, başınızın üzərində aydın səma var, amma siz sevinmirsiniz. Sizin belə gözəl və melodik bir diliniz var, amma hələ də çoxunuz rus dilində danışırsınız… Olesya isə bu sözlərin qarşısında yalnız çiyinlərini çəkirdi. İnsanlar belə vərdiş ediblər, bu, sovet dövründən qalan bir kədərli mirasdır. Görünür, hər şeyin dəyişilməsi üçün hələ uzun müddət vaxt keçməlidir…

– O zaman gəl biz özümüzdən başlayaq, – deyə birdən Yusif təklif etdi. – Axı mən də Ukrayna dilini bilmirəm, amma söz verirəm ki, sənin dilini öyrənəcəm. Bax, görəcəksən, bir neçə aydan sonra mən də ən azı sənin qədər yaxşı danışacağam!

O, Ukrayna dilini öyrəndi, iş tapdı, idman karyerasını Ukraynada davam elətdirdi. Əlbəttə ki, İdman Federasiyası tərəfindən yaradılan problemlər və xəbərdarlıqlar da var idi. Etiraf etmək lazımdır ki, hər yerdə "özlərininkini" qabağa verirdilər, o isə burada əlaqələri və maddi dəstəyi olmadan tək qalmışdı. Onun yalnız gücü və Azərbaycanın ən yaxşı döyüş məktəbindən qazandığı təcrübəsi var idi. İndi o Vinnitsa əyalətindəki ən güclü döyüşçü idi, amma əlbəttə ki, heç kim ona çempion titulunu verməyəcək. Bir dəfə Yusif Ukrayna komanda çempionatına getdi və özü orta çəkidə olsa belə, ağır çəkililər kateqoriyasına daxil olub orada qalib gəldi. Növbəti yarışma zamanı ona yaxınlaşıb mübarizədə məğlub olmağı, qələbə qazanmamağı təklif etdilər: "Sənin üçün komanda hesabında üçüncü yeri təmin edəcəyik (bu, həm də komanda çempionatı idi) və sən isə mübarizəni finalda uduz. Biz burada yaxşı oğlanlardan birini idman ustası etməliyik". Özünün və o oğlanın məşqçiləri ona yaxınlaşdılar. Onun əvəzinə hər şeyi qəbul etmişdilər, dedilər ki, özün düşün, bunun üçün dövlət hər ay idman yeməkləri üçün hansısa 400 qriven qəpik-quruş ayırır, vəssalam. Sən isə ailənə baxmalısan…

Yusif onların qələbə qazanmasına şərait yaratdı. Bu hadisədən sonra o, xəyal qırıqlığı ilə evə döndü. Olesya gördü ki, o, uzun müddət özünə gələ bilmədi. Axşam yeməyini səssiz-səmirsiz yedilər. Birdən o, bu ağır səssizliyə dözə bilmədi və ərindən soruşdu:

– Ukraynaya gəldiyin üçün təəssüflənirsən?

Nahaq yerə soruşdu. Çünki bunun əvəzinə o, gülümsəyərək həyat yoldaşından əgər onu həyatından çox sevməsəydi ona nifrət etməli olduğu bir şey soruşdu:

– Bəs sən təəssüflənirsən?

– Təki təəssüflənməyəsən! – deyə Olesya cavab verdi. Həmişəki kimi, çalışdı ki, Yusif onun üçün nə qədər həyəcan keçirdiyini, qorxduğunu duymasın deyə ehtiyatla, qayğısız, hətta bir qədər də yarızarafatla desin.

– Əsas odur ki, biz indi bir yerdəyik, – deyə artıq o, neçənci dəfə təkrarladı. Olesya bilirdi ki, əri Azərbaycanda qoyub gəldiyi böyük, mehriban, çoxuşaqlı və qohum-əqrabalı bir ailə arzusunda idi. Onun valideynləri Hüseyn və Zəhra artıq otuz ildir ki, bir inanc və bir həqiqət ilə müqəddəs nikahda yaşayırdılar, iki oğul böyüdüb, nəvə gözləyirdilər. Biri yıxılırdısa, digəri ona kömək edirdi, kimsə kədərlidisə, digəri ona ümid verirdi. Onlar həmişə bütün çətinliklərin öhdəsindən birlikdə gəlirdilər. Özlərinə görə xoşbəxt yaşayırdılar. Görəsən, onlar da belə yaşaya biləcəkdilərmi?

**Olesyanın xatirələrindən:**

*Bizim toyumuz o qədər də təmtəraqlı olmadı. Biz Vinnitsa VVAQ-ına ərizə ilə müraciət edib nikah bağladıq. Bunu evdə, yaxın qohum və dostların əhatəsində qeyd etdik. 2007-ci ilin yaz aylarının sonunda bizim Leyla adlı qızımız oldu. 2009-cu ilin yayında Tanrı ailəmizə oğlumuz Əlini bəxş etdi. 2011-ci ilin payızında uzun müddət gözlədiyimiz cəfakeş Səid dünyaya gəldi. Biz Azərbaycandan heç bir təbrik mesajı almadıq. Yusifin atası onu xarici ölkəyə getdiyinə görə bağışlamadı və bütün qohumlarının onunla ünsiyyətini qadağan etdi. Görünür, yenə də evliliyimizin keçici olacağına, oğullarının buna dözə bilməyəcəyinə, evə qayıdıb azərbaycanlı bir qızla evlənəcəyinə ümid edir. Əlbəttə, ana atanın qərarını dəstəkləməyə borcludur, qəlbinin dərinliyində oğlunun seçimini başa düşsə də, bu barədə ərinə heç nə demirdi.*

*Qardaşı İbrahim açıq-aşkar Yusifi dəstəkləyən yeganə adam idi. O, ötən qış Mirvari ilə bizə qonaq gəlmişdi. Onunla hərarətli dostluq münasibətləri qurduq. Atası ilə hələ də əlaqəmiz yoxdur. Baxmayaraq ki, Yusif daima onunla münasibətlərini yaxşılaşdırmağa çalışır, amma o, hələ buna müvəffəq ola bilmir. Atasının Yusifin həyatının artıq Ukrayna ilə bağlı olduğunu, onun burada uşaqları olduğunu və buna görə də heç bir yerə getməyəcəyini qəbul etməsi üçün, görünür, uzun zaman keçməlidir. Bizim üçün burada o qədər də asan deyil, amma biz hər şeyin yaxşı olması üçün çalışırıq.*

*Mənim valideynlərim Vinnitsa yaxınlığında bir kəndə döçmüşdülər. Babamız dünyasını dəyişmiş və orada bizim üçün böyük bir ev miras qoymuşdur. Evi satmağa heyfimiz gəldi. Biz onlarla sıx əlaqə saxlayırdıq. Mən uşaqları dünyaya gətirəndə hər dəfə anam yanımda idi. Sonra onları böyütməkdə də mənə yardım etdi. Hamı ilə birlikdə Səidin yanında xəstəxanada növbə çəkirdi. Biz ailəlikcə tez-tez onlara baş çəkirik. Belə günlərdə anam sanki şəfəq saçır, hətta ağır xəstəlikdən beli bükülən atam da bizi görəndə sevinir, ayağa qalxıb nəvələri ilə oynayır.*

*İnanıram ki, bir dəfə Yusifin atası da bizə qonaq gələcək və nəhayət ki, ukraynalı nəvələri ilə tanış olacaq. Görəcək ki, Əli bir almanın yarısı kimi ona necə bənzəyir, Leyla necə müsəlman kimi ağıllı və tərbiyəli bir qız kimi böyüyür. Əlbəttə, Səid. Bilirəm ki, o, Səidə laqerd qalmayacaq. Biz onu gözləyirik. Həmişə evliliyimizin əleyhinə olsa da, onun gücü və cəsarəti məni valeh edir. Yusif hər zaman atasını cəsur və qətiyyətli insan, əsl döyüşçü adlandırır. Bu məsələdə onlar bir-birlərinə çox bənzəyirlər. Gün gələcək onun atası hər şeyi başa düşəcək, çünki ətrafdakılar artıq hər şeyi başa düşüb və öz həyatlarını yaşayırlar…*

*Həyat yoldaşımla evlənmək istəyən azərbaycanlı qızın adı Ulduz idi. Bu qız, həqiqətən ulduza bənzəyirdi. O, sanki ətrafa rəvan və sakit işıq dağıdırdı. Mən onu yuxumda Yusifin yanında görmüşdüm. Sən demə, o, onu fontanın yanında heç vaxt öpməyib. Sonra*

*biz ortaq tanışlarımızdan eşitdik ki, Ulduz bir nəfər Belorusiyadan olan oğlana ərə gedib Minskə köçüb və adını dəyişib Yulya qoyub. Yəqin ki, belə də olmalıdır – insanlar aşiq olur, sərhədləri pozaraq qanını qarışdırır... Deyirlər, Yulya çox xoşbəxt idi. Görəsən, o Yusifə ərə getsəydi, yenə də belə xoşbəxt olardı? Bunu heç kim bilmir və heç vaxt da bilməyəcək.*

*Əlbəttə, mənim ərim ideal deyil. O, məişət işlərində bacarıqsız idi – heç vaxt özünə çay süzə bilmir, qabları yuyub yemək hazırlamağı bacarmır. Yemək bişirmək, qab yumaq və yır-yığış etmək qadının işidir. Kişinin isə başqa qayğıları var. Yusifi qab yuyan və ya süfrə düzəldən görmək istəməzdim – onun üçün bu xırda işləri görmək xoşuma gəlir. O, heç vaxt mənə ağır çanta götürməyə, burğac və ya çəkiclə işləməyə icazə verməz: bütün kişilər kimi onun vəzifəsi işləmək və pul qazanmaqdır. Uşaqların qayğısını və tərbiyəsini isə ortadan bölürük. Bu işdə mən ona asanlıqla etbar edə bilirəm – Yusif gözünü Səiddən qaldırmır, saatlarla Leyla və Əli ilə məşğul olur, onları geyindirir, yedirir, yuyundurur, gəzməyə aparır, onların ən gözlənilməz suallarına belə səbrlə cavab verir. Buna görə də mən ona hər zaman hörmət edirəm.*

*Mən də ideal insan deyiləm. Biz o qədər də ideal olmayan nikahımızda xoşbəxt olmağı öyrəndik, daha bizə heç nə lazım deyildi. Həyat yoldaşımla məndən: "Necə evlənmisiniz?" – deyə soruşanda heç düşünmədən deyirik: "Bir-birimizdən ayrı heç bir gün də yaşaya bilməyəcəyimizi anlayanda evləndik". Hər kəsə də bütün çətinliklərin öhdəsindən gəlməyi bacaran bir məhəbbət arzulayırıq.*

Olesya böyük dəri üzlü fotoalbomunu bağlayaraq yadına düşən xatirələrdən gülümsədi. Yusifin Polşadan qayıtmasına bir neçə həftə qalmışdı. O, səbrlə onu gözləyirdi.

Yaşlılar deyirlər ki, "əlində olanın dəyərini yalnız itirəndən sonra anlayırsan". Biz axı niyə onların sözlərinə inanmırıq?

O, uşaqlara baxdı. İndi boş vaxtlarını uşaqları ilə keçirir, hər gecə Səidin yanından qayıdandan sonra onlara nağıl oxuyur. Kitabdakıları oxuyub qurtarandan sonra özündən uydurmağa başlayır. Onun danışdığı hekayələrin heç bir mənşəyi olmurdu, qəribə və bir o qədər də uşaqlara aid deyildi. Bəzən o hekayələrin dəqiq məntiqi nəticəsi olmurdu (o, heç bir zaman onları yazmırdı, sadəcə təxəyyülündə canlandırırdı və hər dəfə də fərqli danışırdı), lakin Leyla ilə Əli nəfəs almadan bu hekayələri dinləyir, sona qədər dinlədikdən sonra müzakirə edir və yenisini danışmağı tələb edirdilər. Elə onun özü də bu qədər həvəslə uşaqlıqda Hans Andersenin qəribə və izaholunmaz, lakin olduqca maraqlı və kədərli nağıllarını oxuyurdu. Onun uşaqları da belə nağılları sevirdi. Xüsusilə də analarının "Letisiya" adlı hekayəsini çox bəyənmişdilər. Olesya bu nağılı özü uydurmuşdu və indi də təkrar-təkrar danışmağa məcbur idi:

*...Həqiqətən, onun adı Letisiya idi. Ən azından yaşadığı rahat və geniş evin divarından hamının görə biləcəyi bir yerdə gözəl, naxışlı çərçivəyə salaraq asdığı gerb şəkli olan bahalı vərəqə yazılmış doğum haqqındakı şəhadətnaməsində belə yazılmışdı. Evdə isə hər kəs onu "şahzadə", "gözəl", "əzizim" deyə çağırırdı. Bir sözlə, ona hər cür mehriban sözlər söyləyir, təriflər yağdırırdılar. Letisiya isə cavabında mırıldayırdı.*

*Axı o, pişik idi. O, ecazkar Şotlandiya cinsi idi. Ona görə də çox təkəbbürlü xarakteri, iri, valehedici gözləri, balaca burnu və sahibinin çox sevdiyi nadir, açıq-gümüşü rəngli, zərif tüklü xəzi var idi.*

*Onu isə Julik adlandırırdılar. Heç kim onun haradan gəldiyini, neçə yaşının olduğunu və nə vaxtsa ondan yaxalarını qurtarıb-qurtarmayacaqlarını bilmirdi. Həmişə evlərindən qovur, çalışırdılar ki, gözlərinə görünməsin. O, qulağı qoparılmış, tutqun-boz rəngdə xəz-dərili, hərəsi bir tərəfə baxan əzik bığları olan küçə pişiyi idi. Hər şeyi dağıdan, oğurlayıb özü ilə aparan azğın və quldur bir pişik idi. Zibillikdə qidalanırdı. Üstəlik də onun yeməklə bağlı altıncı*

*hissi də var idi – zibilliyə tullanan bağlamaların arasında hansının içərisində dadlı nələrsə varsa, onu bir göz qırpımında tapır, ani hərəkəti ilə parçalayıb-dağıdır və nümayəşkaranə bir şəkildə əldə etdiyi qəniməti yeyirdi. Bəzən açıq qalan pəncərədən sakitcə içəri atılıb insanların evlərinin mətbəxində ev sahibliyi edirdi. Düzdü, hələ heç kim onu cinayət üstündə tutmamışdı, amma mətbəxdə nə baş versə, odun etdiyini düşünürdülər. Elə ona görə də ona Julik deyirdilər.*

*Hər şey Letisiyanın "yeniyetməlik dövrü"nə çatandan sonra baş verdi. Həyətdə bahar nəfəsi var idi. Hava günəşli idi. Çiçəklərin xoş ətri bir-birinə qarışmışdı. Bu gözəl pişik isə evin yaşıla qərq olmuş artırmasında oturaraq onu görənlərin hər birində təbəssüm və heyranlıq oyadırdı. Letisiya hər zaman ona qarşı göstərilən bu diqqəti layiqincə dəyərləndirir, krallara layiq nəzakətlə başını önə əyərək onun bu əsrarəngiz gözəlliyini seyr etməyə gələn çoxsaylı insanlara təşəkkürünü bildirirdi. Ona dərhal bir ər tapmaq lazım idi – əlbəttə ki, bir yaraşıqlı "şahzadə" və onun kimi "gözəl".*

*Məhz elə o dövrdə də hamı Julikin oxumaq bacarığı olduğunu öyrəndi. Hər axşam o, yaxınlıqda yerləşən uşaq bağçasında oturaraq özünü səliqəyə salıb yaşıllıqlar içərisindəki artırmaya baxır və elə gözəl səslə serenado oxuyurdu ki, hətta Plasido Dominqo belə ona həsəd aparırdı. Bəzi yerli pişiklər də Julikdən geri qalmaq istəmirdilər, amma o, hamıdan yaxşı və bərk səslə oxuyurdu.*

*Qarşıdakı evdə yaşayan ağıllı bir nənə (keçmiş opera müğənnisi) deyirdi ki, bu küçə müğənnisinin səsi iki oktavadır. O, bəzən pişiklər insanların qəlbini riqqətə gətirmək üçün hətta körpənin ağlamağını da təqlid edə bildiyini söyləyirdi. Onun bu sözləri ilə hətta Julkin "ariya"sı ilə dəli etdiyi insanlar da razılaşırdı. Bu gün o, Letisiya üçün oxuyurdu. O isə belə "xoşbəxtliyi" sakit qəbul edə bilmirdi. Növbəti dəfə "konsert"i dinlədikdən sonra o, yenə də həyəcanlı və gülməli görünür, əsəbi halda evdə dolanır, inadla zibil vedrəsində nəsə dadlı bir şey axtarırdı. O, hətta sahibəsinin kübar pişik klubundan onun üçün seçdiyi yanında dayanaraq heykələ*

*dönmüş "nişanlısına" tərəf çönüb baxmırdı da. Bu isə öz aramışdı, Romeo adlı sarı və yaraşıqlı bir pişik idi.*

*– Görünür, qoxusu onun xoşuna gəlməyib, – deyə baxan kimi pişik klubunun direktoru pişiyin sahibinə bildirdi. – Axı heyvanlar özlərinə partnyorları qoxu ilə seçirlər. Narahat olmayın, başqasını taparıq. Sizin pişik balalarınız olacaq. Əsas odur ki, cinslərini qarışdırmayasınız...*

*Letisiya isə öz cinsinin nümayəndələri ilə ünsiyyət qurmaq istəmirdi. Hər dəfə də qürurla üzünü çevirib o biri otağa keçirdi. Görəsən, həqiqətən də, məsələ yalnız qoxuda idi? Yoxsa heyvanların da yalnız instinkt deyil, çox dərin hissləri var?*

*Növbəti gün səhər tezdən Letisiyanın sahibi rastlaşdığı gözlənilməz hadisədən heyrətləndi.*

*– Seryoja, bura gəl! – deyə ərini çağırdı.*

*Qonaq otağına keçəndə onun da çarəsizcəsinə nitqi tutuldu. Belə məlum oldu ki, Julik gecə artırmada evə daxil olub. İndi isə o, Letisiya ilə birlikdə onun səbətində sakitcə qol-boyun olaraq yatırdılar...*

*Küçə pişiyini çölə atdılar. Letisiyanı dərhal yuyundurub bitdən, sirkədən təmizləmək üçün dezinfeksiya etdilər. Julik isə onun qəlbini fəth etmək ümidini heç vaxt itirmirdi. Bir dəfə o, yenidən mənzilə sıçrayaraq ovladığı siçanı ruhdan düşmüş Letisiyanın ayaqları altına qoydu. Əgər o, gənc oğlan olsaydı, onun yanına əlində güllə gələrdi.*

*Sonra Letisiya özü küçəyə – onun yanına qaçdı. Sahibləri bu nankor pişiyi evə qaytarmaq üçün onun arxasınca küçəyə qaçdılar, çünki süni şəkildə yetişdirilmiş cins pişiklər küçə həyatının sərt qanunları arasında itib-batacaqdı. Letisiya isə bir göz qırpımında Julikin onu gözlədiyi albalı ağacına tullandı. Onu oradan heç kim aşağı endirə bilmədi. Sonrakı günlərdə qarajların arxasında, zirzəmilərdə, damlarda gizləndi, bir sözlə, o, Julikin oylağı olan geniş ərazilərdə yaşadı. Qonşular isə ona baxıb təəssüflə başlarını yelləyirdilər...*

*Bir neçə aydan sonra Letisiya üç bala dünyaya gətirdi. Əlbəttə ki, onların heç biri Şotlandiya cinsinə bənzəmirdilər, beləcə, bu cins korlandı. Sahibləri uzun müddət bu qara pişiyin nankorluğundan qəzəbli idilər. Lakin tədricən yaramaz pişiyi unutdular və çox keçmədən mənzili satıb paytaxta köçdülər. Evin yeni sahibləri evə girəndə boş otaqları, köhnə divar kağızlarını və... bahalı möhürlənmiş kağıza yazılaraq hələ də divarda qalan gözəl, naxışlı çərçivədəki təmizlənmiş pişiyin doğum haqqındakı şəhadətnaməsini gördülər. Deyilənə görə, əvvəlki sahiblər paytaxta köçəndən sonra bur yerdə çox yaşamadılar. Bir neçə ildən sonra onlar ayrıldılar. Sanki Letisiya onları birlikdə saxlayırdı…*

*Pişiklər bir yerdə qaldılar. Onlar ətrafdakı bütün insanların həvəslə seyr etməyə gəldiyi möcüzələr idilər. Ancaq yalnız onları uzaqdan seyr edə bilirdilər, çünki Julik yad adamları öz ailəsinə bir addım da buraxmırdı. Bəzən insanlar onlara yemək verirdilər. o zaman daha da təəccüblənirdilər. Deyirdilər ki, pişiklərin ailəsinin başçısı verilən hər tikəni yoxlamaq üçün diqqətlə qoxulayır. Ancaq yeməkdə hər şeyin yaxşı olduğuna əmin olduqdan sonra onu ailəsinə verirdi.*

*Bu hadisədən uzun illər ötüb. Artıq çoxdandır ki, nə Julik var, nə də Letisiya, ancaq yaşlı adamlar hələ də gənclərə insanların səhvlərindən danışarkən bu hekayəni nəql edirlər. Və sonra birdən səssiz qalır, özləri haqqında nə isə düşünürlər, xəyallarında sanki geri dönüb yenidən öz həyatlarını yaşayırlar. Və sonra isə sözlərinə əlavə edirlər: bizim heyvanlardan öyrənməli çox şeyimiz var. Məsələn, qeydsiz-şərtsiz sevməyi öyrənməliyik. Bir-biri üçün yaradılan iki insanı öz qorxularından və qərəzlərindən başqa bir şey birlikdə olmalarına mane ola bilməz.*

– Ana, bizim atamız Julikdir? – deyə Leyla ilk dəfə bu hekayəni eşitdikdən və bir qədər düşündükdən sonra dedi. Olesya diksindi, amma özünü gülümsəməyə məcbur etdi:

– Yox, əzizim. Mən ki Letisiya deyiləm.

– Sən Letisiyaya oxşayırsan! – deyə Əli çarpayıdan tullandı. Deyəsən, o, bu gün heç yatmaq istəmirdi.

– Bəsdi, cəld yerinizə girin! Sabah tez duracaqsınız.

O, uşaqları yerinə salır, üstlərini adyalla örtür, öpür və bilir ki, sabah hər şey yenidən başlayacaq. Səidlə xəstəxanada keçirdiyi növbəti gündən sonra o, onlara Frunze[90] və Nekrasov küçələrinin kəsişməsinə yaxın bir yerdə yerləşən sirli, tərkedilmiş ev barədə danışacaq. Uşaq bağçasına yaxın olduğundan bu evdən bir dəfəyə keçmişdilər və Olesya uşaqların hər dəfə ona diqqətlə baxdığını görmüşdü. Elə onun özü də bu köhnə evdən gözlərini çəkə bilmirdi, yalnız burada bir az təmir işlərinə ehtiyac var idi (dam örtüyü dəyişdirilməli, dülgər işləri görülməli, həyət təmizlənməlidir), bundan sonra ev əsl saray olacaqdır!

Bu ev haqqında o, Yusifə danışdı. O da ailəsinin seçdiyi evi bəyəndi. Sonradan xəyallarındakı evin satışa qoyulduğunu öyrəndilər. Yusif bu evi almaq üçün pul axtarmağa başladı. Demək olar ki, lazım olan məbləği toplamışdı da, lakin qəflətən… Səid. Uzun müddət bu evi unutdular, bir müddət hətta onu görməmək üçün uşaqlarını başqa yolla bağçaya aparırdılar. Bir dəfə xəstəxanadan çıxandan sonra birlikdə şəhər ətrafında gəzməyə qərar verdilər və təsadüfən gəlib köhnə, tərkedilmiş bağın içərisində yerləşən səs-siz-səmirsiz bir evə çıxdılar (nədənsə, hər şeydən çox bağ onları valeh etmişdi). Rənglənmiş darvazanın üzərində "Satılır" lövhəsi asılmışdı. Yusif cibindən telefonu çıxarıb lövhədə yazılan nömrəni yığdı. Onların özləri də nə üçün potensial alıcı olduqlarını göstərməyə çalışdıqlarını bilmirdilər, amma çevik maklerin arxasınca evə baxmaq üçün içəri girdilər. Nə itirdiklərini görmək istəyirdilər? Yoxsa onların heç bir zaman belə bir evinin olmayacağına əmin olmaq istəyirdilər? Gənc oğlan işgüzarlıqla onlara otaqları gəzdirir, deyirdi ki, burada olan cır-cındıra baxmayın, pul olsa,

---

[90] 2016-cı ildən Akademik Yangel küçəsi adlanır (*müəllif*).

burda hər şeyi yenidən düzəltmək olar, hətta restoran da açmaq olar, xalq belə şeyləri sevir, siz də yaxşı gəlir əldə edə bilərsiniz…

Kifayət qədər görüb-eşitdikdən sonra ona təşəkkür etdilər, belə cazibədar bir təklif barədə mütləq düşünəcəklərini vəd edib oradan ayrıldılar. Bir neçə həftə sonra lövhə yoxa çıxdı, bağ-bağat kəsilərək təmizləndi, həyətə tikinti materialları yığıldı, görünür, kimsə orada restoran açmağa hazırlaşırdı. Ev satılmışdı. Arzuların evi yox idi artıq, amma arzular qalmışdı. Həmin axşam Olesya uşaqlarına hər bir insanın öz arsusunun olmasının vacibliyindən danışacaqdı.

Həmin evin yanından o, ən az milyon dəfə keçmişdi. Bəzən gündə iki dəfə. Altı il diplom almağa çalışdığı vaxt sanki şəhər onu öz ağuşuna almışdı. Səhərlər qaçaraq təngnəfəs halda işə gecikir, axşamlar isə yorğun halda dövlət işinin ağırlığını çiyinlərində daşıdığı daha bir günü geridə qoyaraq yavaş-yavaş gəzə-gəzə geri qayıdırdı. Əslində məhz ilk baxışdan onu öz sehrinə salan köhnə ev onun qarmaqarışıq həyatını möşüzəli şəkildə üç dayanacaq arasında tutub saxlayaraq tramvaydan imtina etməyə və piyada yeriməyə vadar etmişdi. O, evlə (dövlətin verdiyi bir neçə kvadratlıq kommunal xoşbəxtlik) iş (uzun müddətdir ki, heç bir iş görməyən, lakin inadla fəaliyyətini davam etdirən, tədqiqatçılarına az maaş və boş vədlər verən konstruktor bürosu) arasında parçalanırdı. Hələ onun bəxti gətirmişdi, çünki "yenidənqurma" dövründən sonra çoxlarında o da yox idi.

Bu yad ev sanki hər dəfə onu zamanın içərisindən boylanaraq eyni sakit nəzərlərlə qarşılayırdı. Onun küçəyə qapısı yox idi. O, dünyaya pəncərədən baxırdı. Möhkəm... Gözəgörünməz... Tərk edilmiş... Kim bilir. Heç şübhəsiz ki, sovet dövründə tikilən bu ev paradoksal, əzəmətli, iddialı, inadkar anti-sovet nələri isə və memarlıq üslubunu (diplom işinin mövzusu) az da olsa, əks etdirməsinə baxmayaraq, belə bir möcüzənin bu əyalətdə haradan peyda olduğu sualına cavab verə bilmirdi. Bu möcüzə heç kimin diqqətini cəlb etməməyə çalışırdı. Yayda (o bunu ilk dəfə idi ki, belə

görürdü) hasar əvəzinə dörd tərəfini əhatə edən gavalı və gilənar ağaclarının çiçəkləri arasında gizlənirdi. Qışda isə demək olar ki, eyni rəngdə və böyüklükdə, hərəsi bir tərəfə baxan çılpaq, bükülmüş, kələ-kötür budaqlarla onu əhatələyirdi.

Adama elə gəlir ki, bu tənha, köhnə dəbli ev hansısa etinasızlıqdan yeri və zamanı səhv salıb, lazımsız bir yerdə ucaldılıb. Bir neçə ildən sonra onu hər tərəfdən domofonlu, kodlu kilidləri, açar əvəzinə plastik kartları olan hündürmərtəbəli yeni tikililər əhatələdi. Belə bir vəziyyətdə o, həyətin bir küncünə çəkilib təhlükəli qonşulardan, küçənin boğucu toz-torpağından, səliqəsizliyindən, səs-küyündən gizlənirdi. Belə evləri artıq nə alan var, nə də satan. Eyni zamanda çox güman ki, artıq o yerlərdə yaşayan yoxdur. Çünki o, heç bir zaman bağlı qapıların və pərdə əvəzinə asılmış döşək ağlarının arxasından işıq yandığını görməmişdi. Hətta bir dəfə vaxtından əvvəl qışın zülmət qaranlığına qərq olmuş həmin evə daha yaxın bir yerdən keçmək üçün işdə ləngimişdi. Sanki o elə zülmət qaranlığın özü idi. Səssiz-səmirsiz... Şübhəsiz, orada heç bir həyat əlaməti yox idi. Tutqun... Bütün düymələri bağlanmış... Köhnəlmiş... Ancaq ev çardağında üç hündür pəncərəli qülləsi ilə birlikdə çox təəccüblü bir şəkildə möhkəm dayanırdı. Və nədənsə onun heç bir şübhəsi yox idi ki, o, çardaqda yaşamağa başlayan kimi tələbəlik illərində başladığı və heç bir vəchlə bitirə bilmədiyi, özü ilə ümidsizcəsinə komunal mənzillərə sürüdüyü jaketləri, kitabları, qab-qacaq və digər məişət əşyaları arasındakı nazik yazan göy qələmlə saralmış vərəqə yazdığı ilk romanını orada tamamlayacaq. Tələbəlik illərində yazdığı bu səssiz-səmirsiz vərəqələr onun vicdanının səsinə çevrildi və hər dəfə də onları müvəqqəti yaşadığı mənzillərin ən ucqar küncündə gizlətdi, çünki həyatında yenə də onlara nə yer, nə də vaxt var idi...

– Əvvəlcə imtahanları verib institutu bitirmək lazımdır, – deyə Ağlın Səsi hər hansı bir qüsur tapıb irad bildirmək üçün onu başdan-ayağa süzərək sərt bir şəkildə bildirdi.

– İndi isə iş və daimi yaşayış yeri tapmaq lazımdır. Əbəs yerə instiutut bitirməmisən ki? – utanmadan öz uşağına hər şeyin ən yaxşını arzulayan bir ananın səs tonunu təqlid etdi. – Yazdıqların isə, heç nə olmaz, hələ bir az da gözləyə bilər!

Və o da buna itaət edirdi. Axı aktual məsələləri həll etmək üçün öz xəyallarından müvəqqəti olaraq vaz keçən tək insan o deyil. Onların da vaxtı yetişəcək. Arzular isə yoxa çıxmırdı.

Beləcə on il keçdi. Artıq o, heç kimə lazım olmayan bir dizayn bürosunda kiçik mühəndis olaraq işə düzəldi (iş), öz növbəsində, kommunal iqamətgahında (yaşayış yeri) dar bir otaq aldı. Bir təxirəsalınmaz işi başqa birisi əvəzləyirdi. Səhər zəngli saat hiddətlə qışqırır, gün heç bir fayda və məmnunluq hissi gətirməyən işlə başlayır, axşam isə qonşuların çılğın mübahisələrinin müşayiəti ilə başqalarının həyatını canlandıran serialları nümayiş etdirən televizor qarşısında bitirdi. Görünür bu, Ağlın Səsinə azlıq edirdi. Bir dəfə o (Ağlın Səsi nəzərdə tutulur – *tərcüməçi*), uzun ətək geyinib anasının dama-dama baş örtüyünü örtərək onun evinə gəldi. Kənddən sovqat gətirmişdi. Balaca otağın künclərini hörümçək basdığını, toz-torpağın və yuyulmamış qab-qacağın olduğunu gördü. Sonra isə özündən razı halda otağın ortasında qoyulmuş yeganə kresloda oturdu, çay içdi və düşüncəli şəkildə dedi:

– Bunların hamısı, əlbəttə ki, çox yaxşıdır, amma artıq ailə haqqında düşünmək vaxtıdır. Sonsuza qədər belə yaşamaq olmaz ki! – Səs kinayə ilə yoxsul otağı başdan-ayağa nəzərdən keçirdi. – Özünə sakit, əməksevər, içki içməyən, gəzməyən bir ər tap, qızım. Sən, əlbətəə, o qədər də gözəl deyilsən, bu, heç sənə lazım da deyil. Ona görə ki, qadın üçün, bilirsən, ən əsas şey nədir? Ərə getmək! Qonşunun qızları artıq çoxdan ərə gediblər. Sənin isə gör neçə yaşın var?! Özün üçün bu şəhərdə bir ər tap, ərə get. Biz isə atanla birlikdə sənin toyunu görərik. Tanrının izni ilə nəvə yolu gözləyərik.

O susurdu. O, itaətlə Ağlın Səsini dəmiryolu stansiyasına apardı, onu adəti üzrə doğma kəndinə getdiyi axşam qatarına mindirdi.

Yavaş-yavaş ara küçələrlə evinə doğru yol aldı. Xəyalını yenə də sonraya saxlamalı idi, yoxsa onu tamamilə unutmalı idi?! Şəhər yavaş-yavaş qaranlığa bürünürdü. Birdən onun yolunun üstündə yenidən həmin ev peyda oldu. Qaranlıq olmasına baxmayaraq, ayaqları onu aparırdı, o, evə tələsməli idi. Bəlkə bu elə evdir? Tərəddüdlə dayandı. Yoldan keçənlər laqeyd şəkildə öz yollarına davam edirddilər. Onların hər biri qaranlıq düşməmiş bu küçədən uzaqlaşmağa çalışırdı. Heç kəs yol ayrıcının ortasında özünü itirərək qeyri-müəyyən vəziyyətdə dayanan köhnə paltolu, toxunmuş papaqlı və əlcəkli qızcığaza əhəmiyyət vermirdi. O isə burada bir az daha dayandı, oğru kimi ətrafa baxdı və ilk dəfə ona yaxınlaşmaq qərarına gəldi.

Bu köhnə evin nəfəskəsici görünüşü var idi. Öz dərd-sərinin ağırlığına qərq olan yoldan ötüb-keçənlərin çoxu üçün bəlkə də, zamanla pis hava şəraiti nəticəsində tünd qəhvəyi rəngə boyanmış bir yığın köhnə qırmızı kərpic idi. Onun üçünsə bu, qədim dövrlərdən qalma nəcib bir tikili idi. Hətta üzərinə insan ayağı dəyməsə də, döşəmənin üzərinə səliqə ilə düzülmüş əsl parket öz-özünə çürüyürdü. Divarlarda asılmış intibah dövründən qalma rəsmlər, təəccüblü də olsa, kolleksiyaçıların əlinə düşməmişdir. Küncdə on illərlə heç kimin oturmadığı qara, bir az da əyilmiş piano dayanırdı. Gecələr isə bu boş evdə bəzən Motsartın simfoniyalarının əks-sədasını eşitmək olurdu. O, hardasa oxumuşdu ki, köhnə, tərk edilmiş evlər özləri də tükürpədici səslər çıxarmağa qadirdilər. Kabusların bu işlə heç bir əlaqəsi yox idi. Sadəcə evin bünövrəsi bir az daha dərinliyə çökür, bu zaman evdəki taxtalar cırıldayır, daşlar düşür, dolabdakı büllur qablar səs salır, çılçıraq tərpənir, mebellər hərəkət edir, qapı açılır... O, evə girməyi çox istəyirdi, amma digər tərəfdən də orada görəcəklərindən qorxurdu. Bəlkə bu imarət daxildən adi evdir? Daxildə kommunal tipli otaqlar dar dəhlizə açılırdı. O otaqlarda isə dərman qoxusu, köhnə əski parçaları və sidik iyisi verən qarşoklar var idi. Onun xəyallarındakı bu evdə köhnə komunistlər işıqları yandırmadan yaşayırdılar. Axşamlar isə

qurumuş və artritdən əyilmiş barmaqları ilə sovet dövrünün solmuş atributlarını vərəqləyir, ziyarətlərinə gəlməyən nəvələrinə və onları yoxsulluq içində ölümə tərk edən ölü ölkəyə lənət oxuyurdular. Yoxsa bu tərk edilmiş evdə cadugər yaşayır? O da son yüz ildə evə topladığı yarasalar uçmasın və qara pişiklər qaçmasın, onları geri toplaya bilməz deyə heç vaxt işıq yandırmır. Yoxsa bu heyvanlar küçənin ortasında ac-yalavac ora-bura qaçaraq yoldan keçənləri qorxudacaqlar…

– Burada heç kim yaşamır, – deyə öz-özünə təxəyyülündə canlandırdığı axmaq fikirləri başından qovaraq özünü sakitləşdirməyə çalışdı. – Heç burada yaşamağa mənim də maddi imkanı çatmaz. Ona görə də mən sadəcə baxıram.

Dayanıb saata baxdı. Vaxt onu gözləmirdi, ev isə gözləyirdi. Yoluna davam etdi. Nəhayət ki, yolu keçib evi yaxından görmək qərarına gəldi. Diqqətlə addımlayaraq binanın yan tərəfinə keçdi və qurumuş qızılı yarpaqlarla örtülən üç geniş pilləkənin qarşısında dayandı. Pilləkənin başında isə böyük taxta qapı vardı.

Qapıda üzərində səliqəsiz xətlə bir neçə cümlə yazılan bozarmış kağız asılmışdı, lakin alaqaranlıqda oradan heç nə oxumaq mümkün deyildi. Maraqlıdır, görəsən, orada nə yazılıb? Adətən evin kirayə verilməsi haqqında elan yazılardı, bəlkə… Kömək üçün çarəsiz yalvarış idi? O, qeyri-ixtiyari əlini qapıya uzatdı – ya o vərəqi cırıb işıqda baxmaq, ya da qapını açıb dəvət olunmadan içəri girmək istədi. Sol tərəfdəki pəncərədə nə isə bir qaraltı hərəkət etdi. O, dərhal qapıdan kənara sıçradı. Bu nə idi?!

Pərdə tərpəndi. Ev onun arxasınca baxırdı. Cadugər onu izləyirdi. Komunistlərin kabuslarından bəziləri əllərində çəkic və silahla qapının ağzında, bəziləri pəncərənin yaxınlığında oturub çağırılmamış qonağı evə buraxmamağa çalışırdılar. Elə bu anda o, qaçmağa başladı. Utanaraq, arxaya baxmadan və geri dönmədən... Gec saatlarda işləyən tramvayın siyirməli qapısından içəri tullanıb boş dayanacaqda astma xəstəliyi olan adam kimi nəfəs almağa

başladı. Cızılmış, ədəbsiz sözlər yazılan oturacaqlardan birində oturdu. Özünə gələndə artıq evdə idi.

Bundan sonra o, qorxulu yuxular görməyə başladı. Gecənin yarısı o, qışqırmamaq üçün nəfəsini içinə çəkərək yuxudan oyandı, çünki həmin ev onu yenidən içəri girməyə dəvət edirdi. Bu ev haqqında heç bir informasiyaya malik olmayan beyin əslində baş verənlər barəsində öz versiyalarını yaratmağa başladı. Bu versiyalardan biri digərindən daha dəhşətli idi. Əvvəlcə gözlənildiyi kimi, yuxuda cadugəri gördü. O, otaqları gözdən keçirir, uzun müddət yuyulmayan, qurdlarla dolu olan çal hörüklərini silkələyir və nədənsə ucadan gülürdü. Çardaqda kommunistlərin partiya qurultayı gedirdi. Onlar son beş illik planın nəticələrindən qürurla danışır, artıq mövcud olmayan bir ölkəyə sədaqət andı içirdilər. Toz-torpaq bürümüş qonaq otağında isə gözəgörünməz biri Motsartın “38-ci simfoniya”sını ifa edirdi…

Elə bu məqamda yuxu yarımçıq qaldı. Əgər o vaxt qaçanda o, bircə anlıq ayaq saxlayıb, geri dönüb baxsaydı, bəlkə də evin qapısına asılan bozarmış vərəqi küləyin qoparıb onun arxasınca gətirdiyini görərdi. Küçədə olan yeganə çılçırağın ətrafa yaydığı işığın şüalarında vərəqi açırdı. Sonra isə yumrulayaraq yenidən sovururdu…

Bu məqamda Olesya gözünün ucu ilə otağın kandarında donub qalan anasını gördü, o sanki içəri girməyə qorxurdu və elə o andaca bu qəribə hekayəni bitirdi. Şəhərin kənarındakı köhnə bir ev haqqında adi hekayə az qala onun özünü də itirdiyi qəribə bir labirentə çevrilmişdi...

Heç uşaqlara belə şey danışmaq olar? Bəzən o özü də danışdığı hekayələrdən qorxurdu. Ancaq Səidin anadan olmasının ardından ailənin yaşadığı hadisələrin fonunda böyük uşaqları artıq rukaviçka[91], körpüdəki keçi və ya yaramaz kolobok haqqındakı hekayələri dinləmək istəmirdilər. Onlar həyat haqqındakı hekayələri

[91] Rukaviçka – Ukrayna xalq nağılı (*tərc.*)

dinləməyə üstünlük verirdilər. Əvvəllər Olesya uşaqları bacardığı qədər qoruyurdu, ancaq sonradan onları zorla nağıllar aləmində saxlaya bilməyəcəyini başa düşdü, çünki onlar böyüklərdən daha dərin ağrını və qorxunu hiss edə bilirdilər. Onlarla söhbət etmək, suallarına cavab vermək lazım idi.

Saata baxdı. Yenə də gecə gec saatlara qədər oturmuşdu. Yatmaq lazım idi.

– Kommunistlər kimlərdi? – deyə Əli yatmaq əvəzinə cəld soruşdu.

– Onlar qəddar adamlardır, – deyə Leyla ona cavab verdi. – Onları heç kim sevmədiyinə görə onlar qəddardırlar.

– Cadugər də qəddardır? – deyə Əli heç cür sakitləşmək istəmirdi. – Ən çox hansı daha çox qorxuludur – cadugər yoxsa kommunistlər?

Nəhayət, nənə özünü saxlaya bilməyib otağa daxil oldu.

– Nə danışırsan onlara? – deyə o, sərt bir şəkildə qızından soruşdu. – İstəyirsən uşaqlar dəli olsunlar?!

– İstəyirəm ki, onlar insan kimi böyüsünlər, – deyə Olesya öz qəribə hekayəsini danışmağa davam etdi.

*...Sevgi şəhərdə sərgərdan gəzirdi. Yoldan keçənlər onu görən kimi ikrah hissi duyurdular – o, çirkli, cır-cındır içində, böyük xəstə gözləri var idi və günlərlə tüstü və kanalizasiya qoxusu hər yeri bürümüşdü. Kənardan əlli yaşlarında görünürdü. Niyəsə əyninə sovet dönəmini xatırladan süni xəz-dəri geyinmişdi, hələ üstəlik də belinə peyğəmbər kimi kəmər də bağlamışdı. Ayağına nimdaş çəkmələr geyinmişdi. Tərliyi yerlə sürünməsin deyə onları köhnə iplərlə ayağına bağlamışdı. Əlində isə hər zaman şəhərin əhalisində baş ağrısı, qıcıq, bir-birini qınama hissi yaradan bərk xışıltılı dama-dama bir çantası var idi.*

*Sevgi boş pivə butulkalarını və siqaret kötüklərini toplayırdı. Siqaret çəkənlər bu müqəvvanın parıldayan, qorxu dolu baxışlarından çəkinərək əllərində siqaretlətini sona qədər çəkmədən*

*yerə atır və işlərinin arxasınca tələsirdilər. Sevgi isə həmin siqaret qalıqlarını toplayırdı. Gizlədirdi. Yığışdırırdı. Boş vaxtlarında isə onları sayırdı. O, özü siqaret çəkmirdi, amma əvəzində əzilmiş "Parlament"i yerə atan o üzü tüklü kişinin kim olduğunu xatırlamağa çalışırdı. Tələsə-tələsə "Virciniya" siqaretini çəkən miniatür qadın isə səksəkə içərisində ətrafa boylanır və nazik siqaret kötüyündə narıncı dodaq boyasının izini buraxırdı.*

*Vaxtaşırı Sevgi başqa hislərlə də qarşılaşırdı. Bir dəfə o, yolu keçmək istəyir, yaşıl işığı gözləyir, ətrafa baxırdı və.... az qala akula kimi parlaq gümüşü rəngli maşının altına düşəcəkdi. Sevgi təəccübündən dama-dama çantasını əlindən yerə saldı, bir neçə boş butulka isə səki boyunca diyirləndi.*

*– Özünü hara soxursan, eybəcər?! – deyə maşının aşağı salınmış yan şüşəsindən səs gəldi.*

*Sevgi artıq yerə dağılan hər şeyini toplamamışdı, amma heyrətlənərək yolun ortasında dayandı və qəfildən qeybdən çıxan qorxunc, yırtıcı polad ağızlı avtomobilə baxdı.*

*Deputat nişanlı bu gümüşü "Mersedes"in sükanı arxasında qəzəbə bürünmüş, amma buna baxmayaraq, yaxşı bəslənmiş və baxımlı Nifrət oturmuşdu. Onun yanında isə təhlükəsizlik kəmərini taxmış, pəhriz və fitness klublarında cılızlaşmış Qorxu əyləşmişdi. Arxa oturacaqda oturan altıyaşlı əkiz Paxıllar yenicə aldıqları oyuncaq "Cip" üstündə dava edirdilər. Qorxu arxaya – onlara tərəf boylandı (onun sarışın saçları biz-biz dururdu, nə isə bir hadisə baş verəndə nazik ipə oxşar qaşları titrəyirdi və əynində gözlərinin rəngində norka manto var idi). Beləliklə, Qorxu bir qədər ətrafa boylandıqdan sonra balaca Paxıllara yüksək səslə bağırdı:*

*– Artyom!.. Nikita!.. Maşınla bağlı mübahisənizi evdə edərsiniz! On dəqiqə sakit otura bilmirsiniz? Görürsünüz, sizin ucbatınızdan atanız az qala axmaq səfili vurmuşdu!..*

*Paxıllar bir anlığa onun bu hərəkətindən donub qaldılar.*

*O vaxta qədər Sevgi yoldan çəkildi.*

*– Ananızın sözünə baxın, – Nifrət alçaq səslə dedi və ayağını qaza basdı. Gümüşü "Mersedes" yerindən tərpənib yolun kənarındakı bir neçə çuxura girərək avtobus dayanacağında duran piyadaları islatdı. Camaat maşının arxasınca qəzəbli səslə narazılıq etdi. Özləri də fərqində olmadan Nifrət onları növbəti dəfə birləşdirdi.*

*Sevgi bir qədər də dayandı, hamı ilə birlikdə qəzəbləndi və boş butulkaları pul qarşılığında təhvil verməyə yollandı. Dəmiryol stansiyası yaxınlığında köhnə qarajların arasında gizlədilən şüşə konteyner toplama məntəqəsində onu bir xala qarşıladı:*

*– Nədi, Sanyok, yenə butulka yığmısan? Bir bax gör nə yığırsan! Mənə əzilmiş, sınmış butulkalar gətirirsən! Sahibə nə deyim?*

*Sevgi baxışlarını gizlədərək gülümsədi. Qoca qarının sakitləşməsini və onun pullarını hesablamasını gözlədi. O, cox yaxşı bilirdi ki, heç bir sahib yoxdur; xala özü bütün qorxu və riski gözə alaraq belə bir "biznes" yaradıb. Qaydalara əməl etsinlər deyə isə özündən bir sahib uydurub.*

*Vicdanla qazandığı qrivenləri aldıqdan sonra Sevgi hər zaman etdiyini edəcək – sərxoş olacaq, zibil qabından solğun və dağılmış qızılgül dəstəsini çıxaracaq (bu "gözəlliklər" artıq "sağalmayacağ"ı üçün hər axşam gülsatanların tulladıqları güllərin ən yaxşıları idi) və yaxınlıqdakı taksi dayanacağındakı sahibsiz itləri başına yığıb oturacaq.*

*Heç kim bu səfil insanı buradan qovmağa cəhd göstərməyəcək. Ona görə ki, o, artıq on beş ildir ki, burada oturur. Nə vaxtsa (uzun illər əvvəl, amma ona elə gəlirdi ki, sanki bu hadisə dünən baş vermişdi) burada onun arvadı yoxa çıxmışdı. Bir dəqiqəliyinə mağazaya gedib və bir daha geri qayıtmayıb. Bu hadisədən sonra onu heç kim görməyib. Onların uşaqları yox idi. Dostları, iş yoldaşları, tanışları arasında, morqda və xəstəxanalardakı axtarışlar heç bir nəticə vermədi. Heç milis də ona yardım etmədi, yalnız üç gündən sonra arvadının itməsi ilə bağlı ərizə yazmağına icazə verdilər. Ona dedilər ki, hər il dünyada iki milyondan çox insan*

*arxasında heç bir iz buraxmadan itir. Onların üçdə biri nə diri, nə də ölü tapılmır.*

*O arvadını hər axşam gözləyir. İnanır ki, bu gün olmasa da, sabah onun Liliyası mütəq geri qayıdacaq. O, kor-koranə yoxa çıxdığı həmin günkü kimi görünəcək. Ayrı düşdükləri bu uzun illər qəflətən əriyib yoxa çıxacaq. O deyəcək: "Bağışla, ləngimişəm, uzun növbə var idi". Və onlar birlikdə evə gedəcəklər.*

…Hadisə yayın əvvəlində baş vermişdi. Yusif möhtəşəm cökə ağaclarının və qoca ağcaqayınların sərxoş yaşıllıqlarına qərq olmuş həyətdə göründü. Olesya pəncərədən onun gəldiyini gördü. O, həyətdəki itlərinin müşayəti ilə binanın giriş qapısına tərəf getdi.

Olesya onu qarşılamaq üçün çölə çıxdı. Uşaqlar televizorun qarşısından qalxıb analarına qoşuldular. Birlikdə atalarının gətirdiyi hədiyyələri açdılar, onun gəlişinə sevindilər və bir daha heç bir yerə getməməsini istədilər.

– Getməyəcəm, mənim əzizlərim, – deyə Yusif onlara söz verdi.

Həmin gecə Olesya ərindən bir addım da uzaqlaşmadı. Hər ikisi axşam tək qalanda əri ona hədiyyə paketi ilə üzlənmiş balaca bir mücrü verdi.

– Bu nədir? – deyə təəccüblə soruşdu.

– Aç, görəcəksən! – deyə Yusif gülümsəyərək cavab verdi.

O, balaca bir uşaq kimi səbirsizliklə hədiyyə paketinin qalın kağızını cırdı, mücrünü açdı və içərisindəki tünd məxmər parçanın arasında zümrüd qaşlı balaca bir üzük parıldadı. Olesya o dəqiqə üzüyü sol əlinin adsız barmağına geyindi. Üzük onun barmağına elə oturdu ki, sanki o elə həmişə bu üzüyü taxırdı. Kaş ki, ağlamayaydı. O artıq hədiyyə almağın nə demək olduğunu unutmuşdu...

– Bu nəyə lazım idi? – deyə o, doluxa-doluxa ərindən soruşdu.

Yusif arvadını qolları alasına alıb sinəsinə sıxdı:

– Bu, mənə yeddi ildir əzab verdiyin üçündür. Sən heç təsəvvür edirsən mən bu ayları necə yaşamışam? Sənsiz mənə necə çətin idi?

Və birdən onlar başa düşdülər ki, yenidən evləndikləri və bir dəqiqə bir-birlərindən ayrı qala bilmədikləri günlərdəki kimi əllərini tutublar. Tale onlara ikinci şans verib. Ayrılıq onların hər ikisinə müsbət təsir edib. Onlar bir-birinə əvvəlki kimi sevgi ilə baxırdılar, amma artıq daha ağıllı, daha müdrik.

Dörd ay keçdi. Səidin bir yaşı oldu. Bu müddət ərzində o, xəstəxananın südəmər körpələr şöbəsində yatırdı. Ağ ciyərləri az da olsa, müstəqil fəaliyyət göstərə bilirdi, ürəyini də müalicə etməyə müvəffəq oldular. Uşaq uşaq zəif də olsa, sağalmağa doğru gedirdi.

Uşağı xəstəxanadan evə buraxdıqları günü valideynləri bütün ömürləri boyu xatırlayacaq. Olesya uşağı qolları arasında sinəsinə sıxıb inana bilmirdi – nəhayət! O, uşağının ürək döyüntülərini hiss edirdi, yetişmiş qarağat rəngli dözlərinə diqqətlə baxırdı və onun həyatda qalması üçün əlindən gələni əsirgəməyən həkim və tibb bacılarına minnətdarlıq edirdi. İndi uzun müddətli reabilitasiya kursu keçməli idi. Uzun müddət davam edən immunosupressiya, təəssüf ki, fəsadsız ötüşməmidi (hər hansı virus ağ ciyərlərə təsir edir). Vaxtaşırı pentaqlobin və digər dərmanlar kursunu hələ də davam etdirmək lazım idi, ancaq bir şey aydın idi ki, Səid yaşayacaq. O, tibbi komissiyanın qərarı ilə beş il müddətinə əlillik aldı, lakin Olesya ilə Yusif oğullarını ayağa qaldıra biləcəklərinə ümidlərini itirmirdilər. Axı ən dəhşətli hadisələr artıq geridə qalmışdı.

Səid həddindən artıq ağıllı və dərrakəli uşaq kimi böyüyürdü. O, şəkil çəkməyi çox sevirdi. Onların evindəki divar kağızları bunun birbaşa əyani nümunəsidir. Əlinə keçən hər şey balaca rəssamın iş üçün alətinə çevrilirdi – qardaşının rəngli karandaşları və bacısının akvarel boyaları, lakin daha çox anasının nəzarətsiz qalmış ətrafındakı hər kəsi özünün ilk peysaj, portret və natürmortları ilə sevindirirdi. Valideynləri onu mütəmadi olaraq müayinə üçün gətirdikləri poliklinikada həkimlər və tibb bacıları körpəni "bizim Səid" adlandırırdılar. Bütün tibb heyəti onu sevir və onun sağalması ilə qürur duyurdular. Belə bir xəstəliyə qalib gəlmək zarafat

deyil! Rezus-qarşıdurması ilə dünyaya gəldikdən sonra reanimasiyaya yerləşdirilən yeni doğulmuş uşaqların gənc anaları Olesyaya yaxınlaşır, məsləhət alır, onlara dəstək olmasını rica edirdilər. O da hər kəsi inandırmağa çalışırdı ki: "Siz hər şeyin öhdəsindən gələ biləcəksiniz, yetər ki, təslim olmayın! Bir an belə ümidinizi itirməyin!"

Onların evində həyat yenidən sürətlə davam etməyə başlamışdı. Vaxtaşırı Olesya xoşbəxtliyi qorxutmamaq üçün dərin bir nəfəs alırdı. Əlbəttə ki, o hər zaman yaxşı insanlarla qarşılaşmır, amma o, hər kəsin öhdəsindən gəlməyi öyrənmişdi. Bir dəfə Avropa meydanı yaxınlığında bir bağda uşaqlarla gəzərkən universitet illərindən tanıdığı bir nəfərlə qarşılaşdı (o vaxtlar onunla yalnız uzaqdan-uzağa salamlaşırdı). Yaxşı geyimli, bəzəkli və səliqəli, ətirli bir qadın başdan-ayağa onu süzdü və istehza ilə dedidi:

– Yaxşı görünmürsən, Olesya! Bu heç təəccüblü də deyil – naməlum birinə ərə getdin, xəstə uşaq doğdun… Yəqin ayın əvvəlini axırına güclə calayırsınız? Sən hələ yenə də tort bişirirsən? Gərək sənə nə isə bir şey sifarriş edim, heç olmasa necəsə yardım etmiş olaram…

Olesya gülümsəyərək ona nəcib cavab verməyə özünü məcbur etdi:

– Bax da, istəsən deyərsən. Sənin üçün endirim edərəm…

O, bu təhqiredici sözləri öz uğuruna çevirməyi bacardı. Eksklüziv müəllif tortlarını hazırladığı şirniyyat evi açdı, sifariş götürdü, yerli qəzetlərə elan verdi. Heç zaman keçdikcə də müştərilərin azlığından şikayət etmədi, sanki şəhərin əhalisi elə məhz kiminsə belə "şirin" bir işlə məşğul olacağını gözləyirdilər. Olesyanın hər gün işi olurdu, lakin o, gün ərzində cəmi bir neçə saat bu işlə məşğul olurdu. Qalan vaxtını uşaqları ilə keçirir, onlarla idman yarışlarına, incəsənət müsabiqələrinə, tamaşalara gedirdi. Uşaqlar həyatda ən məsuliyyətli və yaradıcı bir işdir. Onlar böyüyür və öz uğurları ilə valideynlərini sevindirirlər. Olesya inanırdı ki, uşaqlara heç bir müəllim və ya tərbiyəçi valideynlərdən artıq sevgi verə bilməz.

Peşəkar müəllimlər tapmaq olar, ancaq onlar valideyn sevgisini və qayğısını əvəz etməyəcəklər, çünki bu, uşağın şəxsiyyətinin inkişafında uğurun açarı, əsasıdır.

Bir dəfə o, Leyladan soruşdu:

– Qızım, böyüyəndə kim olmaq istəyirsən?

– Gözəl, – deyə yanaqları xəfif qızaran balaca qız dedi. – Bağçada mənə belə dedilər…

Olesya gülümsədi. Onun böyük qızı, həqiqətən, gözəl idi. Leylanın tammetrajlı fotoşəkilləri uşaq modelləri agentliyi üçün çəkilmiş reklam olaraq ticarət və əyləncə mərkəzlərində asılmışdı, ancaq gənc ana qızına bundan daha artığını arzu edirdi. Qızının gimnastika zalında qazandığı uğurlara baxaraq o, başa düşürdü ki, Leylanın atletik qabiliyyətlərinin tam şəkildə özünü büruzə verməsinə imkan verməlidir. Tezliklə Yunanıstanda keçirilən istedadlı uşaqlar yarışmasında iştirak etdilər və beş yaşlı Leyla orada özündən böyük və daha təcrübəli gimnastları məğlub edərək birinci yeri qazandı.

– Bəs sən, Əli, sən böyüyəndə kim olacaqsan? – deyə Olesya ad günündə ortancıl oğlundan soruşdu (həmin gün uşağın üç yaşı olurdu).

– Atam kimi, xalça üzərində başqa əmiləri məğlub edəcəm! – deyə Əli özünü itirmədən cavab verdi.

– Bax haa, bərk vurma, böyük əmiləri də ağrıdır, – deyə Olesya oğlunu düzgün böyütmək üçün nə edəcəyini düşünərkən Yusif oğlunun yardımına gəldi. Bir dəfə Əli anasının yanına gəlib ona uzun müddətdir yuxuda gördüyü Svetlana adlı yaxşı bir qız haqqında danışdı. Olesya başa düşdü ki, onun balaca oğlu da öz gələcəyini görmək qabiliyyətinə malikdir. O, bu bacarığını atasından almışdı. Yusifə oğlunun yuxusu barədə danışdı.

– Deyirsən, onun adı Svetlanadır? – deyə o, Əlini dizi üstə oturdaraq soruşdu. – Onu yadından çıxarma, oğul!

– Yadımdan çıxarmaram.

**Yusifin xatirələrindən:**

*Mən tez-tez gələcək haqqında düşünürəm. Olesya ilə evləndiyimdən və Ukraynaya köçdüyümdən yeddi il ötüb. Mən əminəm ki, burada, Vinnitsada mənim nəslimin soyu itib yox olmayacaq, çünki bura fərqli irqlərin, etnik qrupların və dinlərin nümayəndələrinin birlikdə sülh şəraitində yaşadığı gözəl bir beynəlxalq şəhərdir. Bu, bir-birinə qarşı çıxan, ziddiyyətli dünyaların birləşməyi bacardığı və hər birinin yaşamaq hüququnu əldə etdiyi gələcəyin şəhəridir. Mən burada xoşbəxtəm.*

*Tezliklə mənim otuz yaşım olur. Mən artıq yunan-Roma güləşi üzrə karyeramı sona yetirməliyəm, amma buna baxmayaraq, mən hələ də aktiv döyüşçüyəm. İdman mənim ömürlük peşəmdir. Həmişə yalnız irəli gedirdim, Səid xəstə anadan olduğu üçün xalça üzərinə hazırlaşmadan çıxırdım və hətta qalib gəlmək şansım olmayanda belə qələbə çalırdım.*

*Ancaq indi gənclik ambisiyalarından əl çəkib ümidimi uşaqlara bağlayıram, onlardan həqiqi çempionlar yetişdirməyi xəyal edirəm. Bu il Vinnytsia Pedaqoji Universitetinin Bədən tərbiyəsi fakültəsinə daxil oldum, özümə yeni iş tapdım (qiyabi təhsil alıram), Polşadakı tikinti təcrübəsi də mənim üçün faydalı oldu. Bank kreditlərimi ödədim, xaricdə qazandığım pulun qalan hissəsi ilə Köhnə şəhərdə kiçik bir torpaq sahəsi aldım və öz evimi tikməyə başladım. Bu, həyat yoldaşımın yubileyi üçün sürprizdir.*

*Xəyallarımızda hər zaman çardağı və terası, bağı və rahat bir həyəti olan iki mərtəbəli ev canlandırırdıq. Ev hazır olan kimi uşaqlarla birlikdə oraya köçəcəyik. Olesyanın valideynlərini də kənddən yanımıza gətirəcəyik, köhnə hündürmərtəbəli binanın həyətindən evsiz itləri də özümüzlə aparacağıq. Uşaqlar böyüyüblər və it saxlamaq həvəsindədirlər. Əli başqa bir şəhərə köçdüyünə görə məsuliyyətsiz insanlar tərəfindən küçəyə atılan yaşlı bir çoban itini seçdi, Leyla isə təsadüfən həyatımıza girən tüklü, qırmızı*

*saçlı bir iti götürdü. Biz bütün itləri həyətdən alacağıq, onların hər birinə yetəcək qədər sevgimiz var! Evimizdə hər kəs üçün yer var.*

*İnanıram ki, anadan olandan bizim fitrətimizdə yaxşılıq etmək istəyi var. Biz özümüzü insan kimi hiss etməliyik.*

Bir dəfə Yusif xəbərlərdə böyük bir şəhərin sübh soyuğunda səkidə qoca, evsiz-eşiksiz birinin oturduğunu gördü. Kişinin yanında isə ona sığınan qoca bir iti var idi. Özünün başı üzərində damı olmayan bu adam qış gödəkçəsini çıxarıb köpəyinin üzərinə örtmüşdü. Beləliklə, insan geyimindəki bir it və onun qayğıkeş sahibi yolun kənarında birlikdə otururdular.

Yusif bu şəkli internetdə tapdı və uzun müddət onların hər ikisinə diqqətlə baxdı, uşaqlarına və həyat yoldaşına göstərdi. Onların bu mənzərədən ürəkləri ağrıdı. Sən demə, insanlar belə də ola bilirmişlər.

Yusif inanır ki, hər bir canlının qoruyucu mələyi var və əməllərimizin heç biri, hətta ən kiçiyi belə izsiz yoxa çıxmır, hamısı vaxtı gələndə qarşımıza çıxacaq.

– Mən siqareti atmışam, – deyə Olesya onlara ayaqüstü qonaq gələndə Valeriya təntənəli şəkildə bəyan etdi. – Buna görə sevdiyim kişiyə minnətdaram. İnanırsan, o, məni yolumdan döndərməyə yollar axtarmadı, səhv etdiyimə inandırmağa çalışmadı, mənim bu vərdişimi lağa qoymadı. Sadəcə bir dəfə məndən soruşdu: "Sən bunu mənim xətrimə edə bilərsən?" Mən başa düşdüm ki, bunu bacararam. Və bir günün içərisində siqareti atdım. Mən onun qarşısında tər-təmiz dayanmaq istədim. Bir neçə həftədən sonra isə öyrəndim ki, hamiləyəm. Mən də ana olacam, təsəvvür edirsən?!

– Bax, görürsən? – Olesya sevincindən onu bağrına basdı. – Məgər mən sənə deməmişdim ki, belə də olacaq, sadəcə hər şeyin öz vaxtı var?! Görünür, ərin sevincindən göyün yeddinci qatındadır.

– Sən hələ bir soruşursan da? – Valeriya xəyala dalaraq gülümsədi. – O deyir ki, mən onun üçün göylərin hədiyyəsiyəm. Mən isə onun mənim üçün hədiyyə olduğunu düşünürəm…

Söhbət sənətşünas-tənqidçi Qordey Staneviçdən gedirdi. Tanış olduqdan bir il sonra Valeriya ona ərə getdi. Bi isə belə baş vermişdi: Staneviç qəflətən onun haqqında yazmağı dayandıranda rəssam qız onun evinə qonaq gəldi. Bu dəfə üzr istəmək üçün, təzə dəmlənmiş qəhvə, səhər yeməyi və heç bir kişinin müqavimət göstərə bilməcəyi bir təkliflə gəlmişdi:

– Gəl birlikdə səhər yeməyi yeyək, sonra isə şəhərə gəzməyə çıxaq. İntina etməyi düşünmə belə, sən, demək olar ki, heç evdən çıxmırsan!

– Bəlkə ona görə ki, mən gəzə bilmirəm? – deyə sənətşünas-tənqidçi adəti üzrə sərt cavab verdi.

– O zaman sən öz arabanla gedəcəksən. Mən isə sənin yanında yeriyəcəm, – deyə rəssam qız heç gözünü qırpmadan cavab verdi. – Eyni zamanda mənim şəkillərimdə nəyin səhv olduğunu da deyərsən. Bilirsən, incimə, amma sənin rəylərin sanki ictimai xarakterlidirlər…

– Sənin şəkillərin ictimai xarakterlidirlər! – deyə o, narazılıqla səsləndi. – Elə ona görə də mənim onnlardan zəhləm gedir, anladın?

– Yox, sən onları sevirsən! – deyə Valeriya yenidən evin hər yerindən asılmış rəsmlərinə baxdı. – Yoxsa dörd divar arasında özünü onlarla birlikdə həbs etməzdin… Qulaq as, heç kim görməyəndə sən onları nə edirsən?

– Kifayətdir, bəsdir bu qədər danışdıq. Gedək artıq gəzişək…

O gəzintidən sonra Valeriya rəsm əsərlərini, molbertini, fırçalarını, boyalarını və fotoaksesuarlarını götürüb onun yanına köçdü. Birinci o, eşqini elan etdi. Əlbətdə ki, Staneviç hisslərinin qarşılıqlı olduğuna uzun müddət inanmırdı. O fikirləşirdi ki, bu ekssentrik rəssam onu lağa qoyur, ya da bir qadın təəssabkeşliyi ilə onun bu xəstəliyinə görə ona rəhmi gəlir.

Amma deyəsən, Valeriya onu da, özünü də bunun əksinə inandırmağı bacarmışdı. Tezliklə onlar evləndilər. Vinnitsada, demək olar ki, hər addımbaşı gəlinlik paltarları mağazasının olması onun karına gəldi. Valeriya mağazaların hamısını, bir qayda olaraq, gəzdi və əl işi olan krujeva naxışlı paltar seçdi. Əvvəlcə o, artıq nəzərə çarpan hamiləliyini gizlətmək üçün iddialı və əzəmətli bir paltar geyinmək istədi, amma sonra qəribə bir duyğu onun qəlbinə hakim kəsildi: heç nəyi gizlətməyə ehtiyac yoxdur, xoşbəxtliyi gizlətmək harda görülüb?

Bəy üçün Ukrayna etnik üslubunda zərif bir kostyum seçildi, qonaqlardan isə əl işi naxışlı köynəklərdə gəlmələri xahiş edildi. Toy köhnə möminlərin ənənələrinə uyğun olaraq şəhər kənarında çayın sahilində, mənzərəli bir yerdə baş tutdu. Valeriyanı və onun seçdiyi insanı yalnız zərif duyğular deyil, həm də yetkin insanlar kimi ümumi bir inanc birləşdirirdi. Onların hər ikisini balaca vaxtı kilsədə vəftiz ediblər, amma əlbəttə ki, onlar bunu xatırlamırlar. Olesya və Yusif bu gənc ailə üçün ürəkdən sevinirdilər. Onlar hamıdan yaxşı bilirdilər ki, şüurlu şəkildə seçilmiş imana gedən yol nə qədər çətindir…

Bir tək Tanrıa sitayiş edənlərin "müşrik"lərlə əlbir olması doğru deyil. Hər kəs ürəyinə yaxın olan insanı özünə dost seçir. Yaxşılığa yaxşılıqla cavab verməmək günahdır. Başqasına hörmət sevginin qarantiyasıdır.

Valeriyanın toyuna onlar da Ukraynanın milli geyimində gəlmişdilər. Leylanı, Səidi və Əlin də özləri ilə gətirmişdilər. Olesya ilk dəfə idi ki, əl işi naxışlı bir geyimin qarayanız, qara saçlı ərinə və uşaqlarına bu qədər yaraşdığının fərqinə vardı. Səidə isə bu geyim xüsusi yaraşırdı.

Valeriya Olesyanın gördüyü ən gözəl gəlin idi. Onların toyunda çəkilmiş gözəl qırmızı saçlı gəlinlə əlil arabasındakı sarışın bəyin fotoşəkilləri hələ də onu göz yaşlarına qərq edir. Onlar sevgi dolu baxışlarını bir-birindən ayırmırdılar. Təkcə Olesya deyil, toya gələn bütün qadınlar gizlincə göz yaşlarını silirdilər. Dəvət olu-

nanlar arasında, əlbəttə ki, gənc qadının halına gizli şəkildə köks ötürənlər də var idi. Deyirlər ki, əlil adamla ailə qurmaqla həyatını məhv etdi… Ancaq Olesya heç vaxt bu qədər xoşbəxt cütlük görməmişdi. Hər ikisi xoşbəxtlikdən işıq saçırdılar, amma utandıqlarından hislərini ətrafdakılardan gizlətməyə çalışırdılar. Əlil ayaqları olan bir kişi ilə ürəyi dəfələrlə sınmış bir qabın birlikdə, həqiqətən də, xoşbəxt idilər.

Gəlin etiraf etdi ki, bu günü heç vaxt unutmayacaq. Axı bu gün onun həyatının ən gözəl günü idi, çünki ən doğma və əziz adamı – anası onun yanında idi. Nəhayət ki, onlar ortaq dil tapa bildilər, bir-birinə doğru ilk və çətin addımı atdılar. Heç kim belə olacağını gözləmirdi, amma Kristina Viktorovna qının bu seçimini bütün qəlbi ilə dəstəkləyirdi. Valeriya yenidən şəkil çəkməyə başladı.

Hazır olandan sonra bu rəsm əsərlərindən ətrafa işıq saçırdı.

**Olesyanın xatirələrindən:**

*Yavaş-yavaş bizdə də hər şey öz qaydasına düşürdü. Yusif evi tikməyə başlayandan gözlərinin içində sakitlik və rahatlıq duyulurdu. O, elə bilir ki, mənim xəbərim yoxdur, bu, mənim ad günü hədiyyəm olacaq. Mən isə lap əvvəldən bilirəm. Susub qəlbimin dərinliklərində səssizcə sevinirəm. Mən hələ də inana bilmirəm ki, bizim evimiz olacaq…*

*Keçmişə dönüb baxanda başa düşürəm ki, nə yaxşı ki, mən öz həqiqətlərimi dinlədim, həyatımdakı inancımı və məqsədimi tapdım. Ancaq dünya üçün hələ də çoxlu suallarım var. Başa düşmürəm ki, niyə bəziləri axırıncı tikəsini yaxınlığındakılarla bölüşdürməyə hazırdır, bəziləri isə illər boyu sərvət toplayır və bu yenə də onlar üçün azlıq edir. Bilmirəm niyə bəzilərinə bir tək sevgi kifayət edir, digərləri isə hegemonluq etmək istəyir, başqalarının torpaqlarında hökmranlıq etmək arzusundadır və torpaqlarına hakim ola bilmədikləri xalqları isə qətlə yetirirlər. Və nəhayət, fərqli dini icmaların nümayəndələrinin bir-birlərinə niyə nifrət etdiyini*

*başa düşmürəm. Onsuz da həyatda zülm kifayət qədər çoxdur. Niyə buna dini ixtilafları da əlavə edək ki? Yoxsa onlar insanları düşmən düşərgələrə bölmək, onları bir-birinə qarşı qoymaq, insanları bir-biri ilə döyüşdürmək üçün yaradılıblar?*

*Xəyalımda ən çox fərqli dinlərin tərəfdarlarının, həmfikir olub birləşməsələr belə, səmimi olaraq bir-birinə hörmət etdikləri və fərqli inancların insanlarının hüquqlarını başa düşdüyü ideal bir dünyada yaşamağı arzu edirəm. Tanrı təkdir və çətin ki, insanların Onun uğrunda bir-birini öldürməsinə razı olsun. 2012-ci ildə Qahirədəki iğtişaşlar zamanı dünya buna inandı. Müsəlmanlar namaz qılarkən xristianlar müqəddəs namaz əsnasında onları hücumdan qorunmaq üçün bir-irinin əllərini sıx tutur və onları üzük kimi halqa ilə əhatə edirdilər. Və islamın ardıcılları xristian qardaşlarının Pasxa bayramını qeyd etdikləri məbədi qorumaq üçün canlı qalxana çevrildilər.*

*Belə şeyləri diqqətdən kənarda saxlamaq olar? İnsanlar sülh və əmin-amanlıq içərisində yaşaya bilirlər, bəsdir dini ayrı-seçkilik uğrunda mübarizə apardınız. Və Tanrı təkdir. O, mərhəmətli bir ata kimi bütün övladlarını bərabər sevir, heç kim məni bunun əksinə inandıra bilməyəcək.*

2013-cü ilin payızı sona çatırdı. Səidin iki yaşı yenicə olmuşdu. O, tez-tez xəstələnirdi. Valideynləri isə var-gücü ilə onu ayağa qaldırmağa çalışır, pul tapır, müalicə edir, uşaq sağalırdı. Həkimlər deyirdilər ki, səkkiz yaşına qədər dözmək lazımdır, o zamana qədər uşağın ağ ciyərləri formalaşacaq...

O axşam – sərin, yağışlı noyabrın sonunda Olesya ərinin işdən qayıtmasını həyəcanla gözləyirdi. Ona demək istəyirdi ki, Səid ilk sözlərini deyib. Bəli, elə məhz sözlər, çünki o, tək bir söz deməmişdi. Balaca oğlu ondan soruşmuşdu: “Atam hardadır?” Yusifin xoşbəxtliyi sonsuz olacaq!

O, uşaqları yatızdırıb yenidən saata baxdı. Doğurdan, atamız hardadır? Nə üçünsə o, bu gün gecikir… Ərinə zəng vurdu.

Telefon cavab vermədi.

Yusif gecəyarıdan xeyli keçmiş evə gəldi. Onun əlində qan var idi.

– Nə olub? – deyə arvadı həyəcanla soruşdu. O, vanna otağına keçib qapını örtdü, oradan isə su səsi gəldi. – Sən yenə dava etmisən?

– Dava etməmişəm, – deyə bir neçə dəqiqədən sonra Yusif əllərini dəsmala silə-silə vanna otağından çıxdı. – Cəmi bircə dəfə vurmuşam. Alçağın biri bu gün bizim idman zalına gəlmişdi. Mənə və uşaqların hər birinə "tituşki"[92] vəzifəsini yerinə yetirmək üçün beş yüz dollar təklif etdi… Onun üçün təcili yardım çağırdıq.

Maydan hadisələri hələ yeni-yeni başlayırdı, amma bu insanlar artıq hər şeyi bilirdilər. Hələ o dövrdə onlar öz "antimaydan" qrupunu yaratmışdılar. Olesya güclə özünü ələ aldı, süfrəni hazırlamağa başladı:

– Otur yeməyini ye! Sabah bu haqda danışarıq.

– Sabah olmayacaq, – Yusif yaxınlaşıb sevimli qadınını sanki sonuncu dəfə imiş kimi qolları arasına aldı. – Orada, Kiyevdə… Onlar orada uşaqları döyürdülər… Maydana getmək üçün əşyalarımı hazırla! Uşaqlar məni gözləyir. Qoy o uniformalı quldurlar kişilərin qarşısına çıxsınlar.

Həqiqətən, 30 noyabr 2013-cü ilin axşamı təpədən-qırnağa qədər silahlanmış "Berkut" qrupu Kiyevdə, Maydan meydanına yığılmış tələbələrin dinc toplantısını vəhşicəsinə dağıtdı. Bu xəbər dərhal Ukraynaya yayıldı. Bütün analar ağlayırdılar.

Olesya səssizcə ərinin qolları arasından çıxıb ona Kiyevə yola düşmək üçün əşyalar toplamağa başladı. Uşaqları oyatmamaq qərarına gəldilər. O, özü sabah hər şeyi onlara başa salacaqdı, ataları isə tezliklə qayıdıb hər şeyi onlara izah edəcəkdi. O vaxt onlar belə

---

[92] Tituşki – 2013-cü ilin sonu – 2014-cü ilin əvvəlində Ukraynada hökumət əleyhinə kütləvi etirazlar zamanı nümayişçiləri qorxutmaq, döymək və dağıtmaq üçün yaradılan muzdlu təxribatçı qrup. Bu qrup adətən idmançılardan təşkil edilirdi (*tərc.*)

ümid edirdilər. Sanki sabaha qədər sağollaşırmışlar kimi tez-tələsik vidalaşdılar. Ancaq qeyri-ixtiyari Olesyanın gözləri doldu:

– Sənin oğlun bu gün ilk sözlərini deyib. İnanırsan, Səid məndən soruşdu: “Atam hardadı?”… Mən ona nə deyim?

– Denən ki, atası onu çox sevir. Leylaya da, Əliyə də de. Sadəcə atanız bir müddət evdə olmayacaq… Mən bunu öz uzaqlarımızın xatirinə edirəm, Olesya.

– Bilirəm. Elə ona görə də buraxıram…

On beş dəqiqədən sonra sarı-mavi bayraqları olan maşın korteji onların həyətlərindən çıxaraq paytaxta tərəf hərəkət etdi. Həmin axşam Yusif Maydana yola düşdü, sonra isə… Olesya isə inanırdı ki, o, sağ-salamat geri qayıdacaq. O, buna hər zaman inanırdı və hər zaman da onu gözləyirdi. Bu adamın uzaq yollardan gəlməsini gözləmək onun taleyi idi. O, hələ uzun müddət pəncərənin qabağında dayanıb soyuq şüşənin arxasından onun ardınca baxdı. Süfrədə unudulub qalan axşam yeməyi soyumuşdu.

O günlərdə onun doğma şəhərinin, böyük ölkəsinin bir çox həyətindən belə sarı-mavi kortejlər yola düşürdü. Hamısı da bir nəfər kimi Kiyevə tərəf yol alırdı. O, hələ bilmirdi ki, hamı evə qayıtmayacaq, çünki öz ölkələrində yaşamaq hüququ uğrunda mübarizə təzə başlamışdı. “Nebesnaya Sotnya”[93] yaranacaq və onun ən ön sıralarında ukraynalı erməni Sergey Niqoyan, belarusiyalı Mixail Jiznevskiy, Lvov sakini Yuri Verbitskiy, vinnitsalı vikinq Maksim Şimko və daha bir çox başqaları, ən yaxşıları dayanacaq. Bir dəfə gecə yarısı kimsə Vinnitsanın Frunze küçəsindəki divarlardan birinə trafaretlə “Valeriya Brezdenyuk küçəsi” sözlərini yazacaq. O da vinnitsalı, Maydan hadisələrinin qəhrəmanlarından biri olacaq. Yağış yağacaq, qar yağacaq, hər gün bu trafareti yuyub

[93] Nebesnaya Sotni – 2013-cü ilin dekabrından 2014-cü ilin fevral ayına qədər Ukraynadakı etirazlar zamanı öldürülənlər belə adlandırılır. Ukrayna Səhiyyə Nazirliyinin məlumatına görə, 30 noyabr 2013-cü ildən 14 aprel 2014-cü il tarixinədək Kiyevdə və Ukraynanın bölgələrində keçirilən etiraz aksiyaları zamanı 106 nəfər ölmüşdür (*tərc.*)

aparacaq, amma kimsə təkrar-təkrar gələcək və səhər insanlar o küçədən keçəndə yenidən təzə bir yazı görəcəklər: “Valeriya Brezdenyuk küçəsi”. Bu küçə onun adını daşıyacaq. Yüksək dairələrdəki insanlar onu unutsa da, şəhər onu xatırlayacaq.

Ukraynalılar artıq ətalət altında qala bilməyəcəklər. Onlar Maydana çıxacaq və Stepan Banderanın ümidsizcəsinə xəyalını qurduğu o gün gələcək: kimsə ucadan “Yaşasın Ukrayna!” deyə qışqıracaq, milyonlarla izdiham isə ona “Qəhrəmanlara eşq olsun!” deyə cavab verəcək…

Ukraynanın əsl, həqiqi vaxtı yaxınlaşırdı.

**Olesyanın xatirələrindən:**

*…Mən dayanıb pəncərəyə baxırdım. Uşaqlar isə öz otaqlarında səssiz-səmirsiz yatırdılar. Mən hələ gələcəkdə nə baş verəcəyi haqda heç nə bilmirdim, amma inanırdım ki, həqiqət qalib gələcək, ərim evə qayıdacaq və biz ukraynalılar Stepan Banderanın xəyalını qurduğu şəhərdə yaşayacağıq. Mən onda bilmirdim ki, o noyabr gecəsi hələ hər şeyin başlanğıcıdır. Bilmirdim ki, dəhşətli günlərin birində Avropanın paytaxtında insanları heyvan kimi güllələyəcəklər… Bilmirdim ki, ölənlər, itkin düşənlər və əlil olmuş qəhrəmanlar olacaq, əsl müharibə başlayacaq. Nə yaxşı ki, mən onda bunları bilmirdim…*

*Axı, mən sözlə ifadə edilməyəcək çətinliklərlə sahib olduğum üç uşaq anasıyam. Səid dünyaya gələndən sonra biz ərimlə birlikdə onun hər aldığı nəfəs üçün bürokratik sistemlə mübarizə apardıq. Mən heç belə bir günün gələcəyini və xalqın bu ölkədə yaşamaq hüququ uğrunda bütün Ukrayna övladları üçün eyni şəkildə vuruşacağını düşünməmişdim. Öz torpağında rahat yaşamaq, ukraynalı adını almaq, ləyaqətlə yaşamaq hüququnu. Bunun üçün müxtəlif dövrlərin ən yaxşıları canlarını qurban veriblər…*

*Təkcə mənim ərim deyil, yüzlərlə ukraynalı kişilər həmin gecə Maydana getdilər. Onlardan yüz nəfərdən çoxu evlərinə qayıt-*

*mayacaq, amma biz bu barədə yalnız 2014-cü ilin fevral ayının sonlarında xəbər tutacağıq. İstəyirəm ki, bizim qoruya bilmədiyimiz "Nebesnya Sotni"ni mənim uşaqlarım hər zaman yad etsinlər. Onlar əbədi olaraq Qruşevski küçəsində, İnstutut küçəsində, Mariinskom parkında qalacaqlar. Ona görə ki, biz – hər birimiz öz evimizdə, hamımız birlikdə öz ölkəmizdə yaşayaq. Uşaqlarım bunu unutmasınlar deyə mən əlimdən gələni edəcəyəm. Biz hələ də acı çəkirik, onları göz yaşları axıtmadan, yalnız yüngül kədər, hədsiz minnətdarlıq və dərin hörmətlə xatırlamağı öyrənmək üçün zaman lazımdır. Zaman övladlarımıza rəhmli olsun. Tanrı onların yardımçısı olsun.. İnanıram ki, onda onların həyatında hər şey yaxşı olacaq. Hər gün Səidi xilas etdiyinə görə Tanrıya və insanlara təşəkkür edirəm. Bu gün isə Ukraynanın və onun oğullarının xilası üçün dua edəcəyəm.*

*Gücümüz və ümidimiz, ağlımız və cəsarətimiz, dizləri üstündə çökən həqiqətimizin ayağa qalxması üçün dua edin... Mübarizə aparacağıq. Ümid etmirik, biz əminik ki, Ukrayna qalib gələcək.*

*Qoruyucu mələklərimiz səmadan bizə baxır.*

# EPİLOQ

…Təxminən iki il keçdi. Maydan qələbəsindən sonra Yusif evə qayıtdı. Tezliklə o, balaca oğlunun sonrakı müalicə və reabilitasiyanın xərclərini ödəmək üçün yenidən xaricə getməli oldu. Bu dəfə Azərbaycana getdi. Nəhayət, o, atası ilə barışdı. Krım anneksiya olunduqdan və Ukrayanın şərqində müharibə başlayandan sonra atasının ailəsini Azərbaycana aparmağı təklif etdi. Onda hamı uşaqların taleyindən qorxurdu. "Biz özümüzünküləri ortada qoymuruq, – deyə Yusifin atası bildirdi. – Burada hamıya yer tapılar".

Amma Yusifin ailəsi Ukraynanı tərk edə bilmədi. Olesya uşaqların tərbiyəsi ilə məşğul olur, hər şeyin yaxşı olacağına ümid edir. Yusif isə hər iki ölkədə yaşayır – burada onun həyat yoldaşı və uşaqları var, Azərbaycanda isə maddi cəhətdən ailəsini və Səidin müalicəsini təmin edə biləcək işi. Hamı uşağın, nəhayət, sağalacağı və atasının birdəfəlik Ukraynaya qayıdacağı günü həsrətlə gözləyir.

Səidin artıq dörd yaşı var. Ağ ciyərləri, demək olar ki, yaxşılaşmışdı, lakin bu balaca oğlan hələ də antibiotiklərin istifadəsi nəticəsində yaranan immunosupressiyanın təsiri ilə mübarizə aparırdı. Qarşıda hələ onu uzun illər davam edəcək reabilitasiya və xəstəxanada yorucu prosedurlar gözləyir. Ancaq balaca Səidin artıq həyatda böyük bir məqsədi var – o, şəkil çəkməyi çox sevir. Və artıq böyük bacısının akvarellərini və ya qardaşının rəngli qələmlərini icazəsiz almır – indi onun artıq özünün varıdır.

Deyirlər ki, o gələcəkdə dahi sənətkar olacaq.

***2012-2015***

**Viktoriya Qranetska**

# XOŞBƏXT

roman

(Real hadisələr əsasında)

**Yayın redaktoru:**

Loğman Məmmədli

**Korrektoru:**

Suğra Osmanova

**Bilgisayar bəzəyi:**

Fəxri Vəliyev

Çapa imzalanmışdır:01.07.2021.
Ölçü:60x90 1/16. Çap vərəqi:17,0. Sifariş:137/21.

NURLAR
Nəşriyyat-Poliqrafiya
Mərkəzi

Bakı, Az1122, H.Zərdabi pr. 78
Tel: 4977021 / Faks: 4971295
E-poçtu: office@nurlar.az



Çağdaş Ukrayna yazıçısı Viktoriya Qranetska dörd romanın, "Olanlara qarşı" şeirlər toplusunun, hekayələrdən ibarət "Reality Show / Magic Show" konseptual kitabın müəllifidir. Onun hekayələri ingilis dilinə, şeirləri isə polyak dilinə çevrilmişdir. Müəllif "Sözün taclandırılması" Beynəlxalq Ədəbi Yarışmasının laureatı, "Ximer evi" nəşriyyatının qurucularından biri və baş redaktorudur. Yazıçının Azərbaycan oxucularına təqdim edilən "Xoşbəxt" ("Щасливий") romanı Ukrayna Təhsil Nazirliyi tərəfindən sinifdənxaric oxu kitabı kimi təsdiq olunmuşdur. Real hadisə və əhvalatlara söykənən, süjet hörüyündə milliyyətcə azərbaycanlı olan qəhrəmanın yer aldığı romanda mənəvi-əxlaqi məsələlərə toxunulur.

**Viktoriya Qranetska**

NURLAR

9 789952 528916